AZƏRBAYCANDA ATATÜRK MƏRKƏZİ

QALEY ALLAHVERDİYEV

# AZƏRBAYCAN RESPUBLİKASININ DİL SİYASƏTİ

***Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunur.***

**"Elm və təhsil"**
**Bakı -2026**

*Məsləhətçi:*

**Akademik Nizami Cəfərov**

*Redaktor:*

**Dəyanət Osmanlı**

*Ədəbi redaktor:*

**Loğman Rəşidzadə**

*Nizami Gəncəvi adına Milli Azərbaycan ədəbiyyatı Muzeyinin Elmi Şurasının 30 yanvar 2026-cı il tarixli 1 saylı protokoluna əsasən çap olunur.*

***Qaley Allahverdiyev.***
**Azərbaycan Respublikasının dil siyasəti.**
*"Elm və təhsil" NPM, AzAtaM, Bakı, 2026. 292 səh.*

4702000000 / N-98-2026 qrifli nəşr

**© Qaley Allahverdiyev, 2026**

*“Dil insanı dəyərləndirmək üçün vasitədir”.*

Məhəmməd Peyğəmbər (SAS)

*“Dil mədəniyyətlə birgə boy atır”.*

A.N.Tolstoy

*“Dil xalqın ruhunun təzahürüdür; dil onun ruhu, ruh isə onun dilidir”.*

V.F.Humboldt

*“Kim özgə dili ilə tanış deyilsə, öz dili haqqında da heç nə bilmir”.*

İohann Volfqanq Höte

*“Yaxşı danışmağı yaxşı yazan müəllifləri oxumaqla öyrənmək olar”.*

Volter

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DİLİ HAQQINDA

***

*Xalqı xalq edən, milləti millət edən onun ana dilidir.Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq, xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.*

***

*Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.*

***

*Azərbaycan dilini mütləq hakim dil etməliyik. Öz ana dilini bilməyənlər şikəst adamlardır!*

***

*Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir.*

***

*Hər bir dili yaşadan və inkişaf etdirən onun xalqıdır. Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı çox böyükdür. Şəxsən mən bu dili sevirəm.*

***

*Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir.*

***

*Gənclərimiz tariximizi, dilimizi, mədəniyyətimizi və dini dəyərlərimizi yaxşı bilməlidirlər.*

***

*Məhəmməd Füzulinin ən böyük xidmətlərindən biri də dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir.*

***

*Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini bilməlidir.*

***

*Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik.*

***

*İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur.*

***

*Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qə-*

*dər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər söz ehtiyatlarına malikdir. Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik.*

***

*Xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir. Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik.*

***

*Azərbaycan dili bizi keçmişdə də, indi də, gələcəkdə də birləşdirəcəkdir. Biz əcdadlarımıza daim minnətdar olmalıyıq, ona görə ki, torpaqlarımız, ərazimiz cürbəcür şahlıqların, sultanlıqların, xəlifələrin, dövlətlərin əlinə keçdiyi vaxtlarda da dilimiz ölməyib, yaşayıb. Onu xalq yaşadıbdır.*

***

*Biz türkdilli xalqların ailəsinə mənsub olan bir xalqıq. Ancaq bunun çox şaxələri var. Bunun bir şaxəsi də Azərbaycan dilidir. Biz bunu təsdiq etmişik və bu artıq bütün ictimaiyyət tərəfindən qəbul olunubdur.*

***

*Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilimizin qorunub saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir. Xüsusən, bizim yazıçılarımız, ədəbiyyatşünaslarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər.*

***

*Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir.*

***

*Azərbaycan dilinin bundan sonra da inkişaf etməsi mə-nim həyatımın ən birinci vəzifəsidir*

***

*Tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək, eyni zamanda, bu gün deməliyik və mənəvi haqqımız var deyək ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb; özünəməxsus adını götürüb və gəlib dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişib başqa ad qoymaq heç bir nöqteyi-nəzərdən düzgün deyil.*

***

*Gəlin, türkdilli xalqlara baxaq. Bəli, bu türkdilli xalqlardan biriyik və türk mənşəli xalqıq. Kökümüz birdir. Özbək dili var, qazax dili var, qırğız dili var, tatar dili var, başqırd dili var, türkmən dili var, kumık dili var. Deməк, bu türkdilli xalqların da hər birinin dilinin öz adı var. Türkdilli xalqlarda tatar dili də var, o biri qrup dillər var, onların da hər biri bu qrupa daxildir, amma hər birinin öz adı var. Axı nə təhər Azərbaycan türkcəsi? Millətimiz nədir? Azərbaycan türkü. Nə təhər bu millətin iki adı olsun? Bəs niyə özbək özünə demir ki, Özbəkistan türkü, tatar niyə demir ki, Tatarıstan türküyəm.*

***

*Dil böyük bir sərvətdir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir.*

***

*Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur. Azərbaycan dilinin əsl sahibi bizim şair və yazıçılarımızdır, bizim bütün qələm çalan ziyalılarımızdır.*

***

*Ana dili dövlət qayğısına və ziyalı yanğısına möhtacdır. Nə yaxşı ki, Azərbaycan dili bütün tələblərə cavab verir. Daha doğrusu, onun böyük potensialı buna imkan verir ki, o, artıq dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur. Harada yaşamağınızdan asılı olmayaraq, vətəndaşı olduğunuz ölkənin qanunlarına hörmətlə yanaşın. Eyni zamanda, azərbaycanlı adını uca tutun. Dilimizin saflığını qoruyun. Mənəvi dəyərlərimizi, mədəniyyətimizi təbliğ edin. Azərbaycana layiq övladlar yetişdirin.*

***

*Müstəqil Azərbaycan Respublikasının gələcəyi üçün ən əsas vasitələrdən biri ana dilimizin, dövlət dilimizin inkişaf etdirilməsidir. Azərbaycan dili çox zəngin və ahəngdar dildir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm.*

***

*Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. Dilimizi isə yaşadan, zənginləşdirən, inkişaf etdirənlər şairlərimiz, yazıçılarımız olmuşdur. Biz, adətən, böyük tariximiz haqqında, xalqımızın böyük mədəniyyəti haqqında danışarkən birinci növbədə onların yaratdıqları bədii əsərlərə, şairlərimizin, yazıçılarımızın əsərlə-*

*rinə istinad edir, bunları nümunə gətirir və təbliğ edərək, eyni zamanda, öz tariximizi, mədəniyyətimizi təbliğ edirik.*

***

*Dil hər bir millətin mənliyinin əsasıdır. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir.*

***

*Millətin dilini əlindən alsan, onu öz dilindən məhrum etsən, o millət çox şey itirər. Amma millətin öz doğma dili, ana dili olanda onu heç nə dəyişdirə bilməz.*

***

*Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik.*

***

*Hər bir dili yaşadan və inkişaf etdirən onun xalqıdır. Cəlil Məmmədquluzadənin ən dəyərli cəhətlərindən birl də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir.*

# HEYDƏR ƏLİYEV

## *VƏ AZƏRBAYCAN DİLİ*

### Ön söz əvəzi

Azərbaycan dilinin həm ümumxalq dili, həm də xüsusilə dövlət dili kimi inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətləri, sözün böyük mənasında, tarixi xidmətlərdir ki, bu mövzuda artıq onlarla ciddi elmi əsərlər yazılmış, kifayət qədər mükəmməl ümumiləşdirmələr aparılmışdır. Mütəxəssislərin, demək olar ki, hamısı belə bir möhkəm qənaətdədirlər ki, Heydər Əliyevin milli dil quruculuğu siyasəti onun milli dövlət (və millət!) quruculuğu siyasətinin üzvü tərkib hissəsi olub bütöv bir sistem təşkil edir. Və doğrudan da, ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən son illərə qədər Azərbaycanda apardığı dil siyasətində hər hansı bir tərəddüdə, yaxud təsadüfə nə nəzəri, nə də təcrübi olaraq rast gəlinmir ki, bu da yalnız dahilərə məxsus bir keyfiyyətdir.

Azərbaycan dilinin inkişafı, təkmilləşdirillməsi, bu günü və gələcəyi barədə dövlətimiz bir sıra mühüm qərarlar qəbul etmiş və həyata keçirillməsini gerçəkləşdirimişdir. ***Prof. Dr. Fövqəladə və səlahiyyətli səfir Qaley Allahverdiyevin müəllifi olduğu "Azərbaycan Respublikasının dil siyasəti"*** kitabını Azərbaycan dili ilə bağlı məsələləri əhatə edən sanballı nəşrlərdən hesab etmək olar. Kitabda dövlətimizin və xalqımızın Ümummilli Lider Heydər Əliyevin dilimiin saflığının qorunması, dillər arasında nüfuzunun artması, dilçilik elminin inkişafına qayğısı və dövlətimizin dillə bağlı yürütdüyü siyasətin müasir dövrdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi dolğun, əhatəli faktoloji material və sənədlərlə əksini tapmışdır.

Bizim fikrimizcə, Heydər Əliyevin bir dövlət (və millət) rəhbəri kimi Azərbaycanda aparmış olduğu dil siyasəti elmi-nəzəri (və ideoloji) baxımdan yalnız Azərbaycan miqyasında əhəmiyyətli olması ilə məhdudlaşmır, eyni zamanda dünya miqyasına çıxmaqla

ümumiyyətlə dil quruculuğunun həmişə aktual olan problemlərinin həlli üçün əsaslı (və mötəbər) prinsiplər təqdim edir. Bu prinsiplər həm də (və daha çox!) ona görə əhəmiyyətlidir ki, Azərbaycanın, yəni müstəqillik uğrunda yüz illər boyu mübarizə aparan və qalib gələn bir xalqın (və dövlətin) nümunəsində və ya təcrübəsində uğurla həyata keçirilmişdir.

***

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəldiyi XX əsrin 60-cı illərinin sonu 70-ci illərin əvvəllərinə qədər də kifayət qədər gərgin, enerjili və bir sıra mərhələlərdə məhsuldar milli dil quruculuğu prosesləri getmişdi.

Həmin proseslər əsasən aşağıdakılardan ibarət idi:

1. İlk orta əsrlərdən etibarən türk dillərinin diferensiasiyası nəticəsində formalaşan Azərbaycan türkcəsi həm orta əsrlərdə, həm də xüsusilə yeni dövrdə özünün bədii, elmi, publisistik və s. təzahürlərində inkişaf edərək XIX əsrin sonu XX əsrin əvvəllərinə kifayət qədər yüksək mədəni səviyyəsi olan bir millətin ünsiyyət vasitəsi kimi gəlib çıxmışdır.

2. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan türkcəsi rəsmi olaraq dövlət dili elan olunmuş, ancaq Cümhuriyyət tez süqut etdiyindən bu sahədə zəruri tədbirlərin həyata keçirilməsi, yəni dil-dövlət-cəmiyyət münasibətlərinin möhkəmləndirilməsinin lazımi səviyyədə təmin edilməsi mümkün olmamışdır.

3. Sovet dövründə Azərbaycan türkcəsi (30-cu illərdən etibarən rəsmi olaraq Azərbaycan dili) müxtəlif siyasi-ideoloji problemlərə baxmayaraq sürətlə inkişaf etmiş, icti-mai həyatın müxtəlif sahələrində özünün təbii-tarixi hüquqlarına yiyələnmiş, xüsusilə milli ədəbiyyatın əsasında dayanmış, demokratikləşmiş, milliləşmiş, kütləvi normativlik qazanmışdır, ancaq tədricən dövlət idarəçilik sistemindən (və ünsiyyətindən) sıxışdırılmağa, siyasi nüfuzunu itirməyə başlamış, hətta Azərbaycan SSR-nin Konstitusiyasından Azərbaycan dilinin Respublikada dövlət dili olması barədəki xüsusi maddə də çıxarılmışdır.

4. Sovetlər Birliyində Stalin rejiminin süqut etdiyi (və kəskin tənqidə məruz qaldığı) 50-ci illərin ortalarından sonra Azərbaycan

ziyalıları, xüsusilə akademik, xalq yazıçısı və dövlət xadimi Mirzə İbrahimov Azərbaycan dilinin dövlət idarələrindəki pozulmuş hüquqlarını bərpa etmək təşəbbüsü göstərsələr də, həmin təşəbbüs tamamilə uğursuz oldu. Və hətta respublika rəhbərliyi Mirzə İbrahimovun şəxsində millətçilikdə günahlandırıldı, siyasi-ideoloji konyukturun güclü təzyiqi altında iş milli (və prinsip etibarilə haqlı!) qüvvələrin "üzürxahlığ"ına qədər gedib çatdı.

5. Mühüm məsələlərdən biri də Azərbaycanın (və Azərbaycan xalqının) XIX əsrin əvvəllərindən etibarən ikiyə parçalanması, Şimalın Rusiyanın (SSRİ-nin), Cənubun isə İranın tabeliyində olması, Şimalda rus, Cənubda isə fars dilinin hökm etməsi idi ki, millətin təbii bütövlüyünü zədələyir, milli ruhu təhdid edirdi.

Azərbaycan dili keçən əsrin 60-cı illərinin sonu 70-ci illərinin əvvəllərinə belə bir keyfiyyətdə, demək olar ki, paradoksal bir vəziyyətdə gəlib çıxmışdı. Əsas paradoks isə ondan ibarət idi ki, dilin inkişaf potensialı kifayət qədər güclü olsa da, siyasi nüfuzu, yəni dövlət dili olaraq mövqeyi məhdudlaşdırılmış, hətta hər hansı dilin inkişafı üçün mühüm hadisələrdən biri olan etnik-mədəni kontekstindən, yəni digər qohum türk dilləri ilə kontaktlardan məhrum edilmişdi. Şimalda rus, Cənubda isə fars dilini çıxmaq şərtilə ümumən geniş yayılmış (nüfuzlu və ya beynəlxalq!) dünya dilləri ilə əlaqələrdən isə söhbət belə gedə bilməzdi.

Dövlət Təhlükəsizlik orqanında gənclik illərindən etibarən çalışan, xüsusi istedadına, intellektinə, işgüzarlığına görə sürətlə yüksək mövqelər qazanan Heydər Əliyev Moskvanın dövlət idarəçiliyi, eləcə də "milli ucqarlar"dakı (N.Nərimanov) idarəçilik siyasətinin nəinki mahiyyətinə, hətta "mətbəx"inə də dərindən bələd olduğundan Respublikada müxtəlif sahələrdə, o cümlədən də milli dil məsələsində problemi necə həll etməyin optimal (və uğurlu!) yollarını da aydın təsəvvür edirdi. Yeni liderin hakimiyyətə gəldiyi ilk illərdəki fəaliyyətini təhlil etməyə çalışsaq görərik ki, o, mövcud problemlərin həllinə a) təmkinlə, b) bütün məqamlarını, konyukturunu, gözlənilən nəticələrini hesablayıb nəzərə almaqla və c) həm ziyalıları, həm də geniş xalq kütlələrini səfərbər etməklə başlayır. Yəni elə hərəkət edir ki, potensial rəqiblər tamamilə, yaxud qismən

tərk-silah olsunlar. Və hər cür impulsivliyə qarşı olan yeni lider mənsub olduğu xalqın mütəşəkkilliyini təmin etməklə onun ruhunu yüksəldir ki, öz tarixi hüquqlarını müdafiə eləməyə həmişə hazır olsun.

Heydər Əliyevin bir dövlət başçısı olaraq uğurlu dil siyasəti yürütməsinin səbəblərindən biri milli dil quruculuğu təcrübəsinin (ənənənin!) mövcudluğu, ikincisi həmin təcrübəni dərindən öyrənməsi (ənənəni davam etdirməsi) idisə, üçüncüsü, ona sözün geniş (və böyük) mənasında, yaradıcı münasibəti idi.

Və yaradıcı münasibət dedikdə biz əsasən aşağıdakıları başa düşürük:

1) Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərlik etmiş sələflərindən fərqli olaraq bilirdi ki, Leninin artıq mənasız, heç bir real gücü olmayan "millətlərin öz müqəddəratanı təyin etmək hüququ" barədəki xülyalarına (zahirən nə qədər "dəb"də görünsə də!) istinad edib Respublikada dil, ümumən millət məsələsində inqilabi reformalara cəhd göstərmək tamamilə uğursuzluğa məhkumdur. Ona görə də millətin (və onun dilinin) siyasi mövqeyini möhkəmləndirmək üçün Sovetlər Birliyindəki mövcud şəraitə (konyukturlara!) uyğun yollar axtarmaq lazım gəlir.

2) Heydər Əliyevə iqtisadi baxımdan geridə qalmış, sosial təminatı xeyli aşağı olan, xalqla rəhbərlik arasındakı münasibətlərin o qədər də səmimi olmadığı, milli yuxarıların çox hallarda intriqa bataqlığına sürükləndiyi və Azərbaycan xalqına yuxarıdan aşağı baxan millətlərin nümayəndələrinin müxtəlif səviyyələrdə idarəçilik mövqelərini işğal etdiyi bir Respublika miras qalmışdı ki, bu da milli məsələyə kifayət qədər fundamental problemlərdən (və əgər belə demək mümkünsə, aşağılardan!) başlamağı tələb edirdi.

3) Heydər Əliyev Respublika rəhbərliyindəki sələflərindən daha yaxşı bilirdi ki, milli məsələləri, o cümlədən də dil məsələsini o zaman uğurla həll etmək mümkündür ki, xalqın yatmış enerjisi, kifayət qədər zəngin potensialı hərəkətə gəlsin. Əks halda yuxarıdan təqdim olunmuş ən uğurlu təklif, yaxud irəli sürülmüş ən dəyərli təşəbbüs belə aşağılara – geniş xalq kütləsinə çatmadan elə yuxarılardaca provakasiya hədəfinə tuş gəlib uğursuzluqla nəticələ-

nəcəkdir ki, bunun da acı təcrübəsi Respublikada hələ unudulmamışdı.

***

Heydər Əliyevin Azərbaycan dilinə (ana dilinə!) münasibətinin etnoqrafik əsaslarını doğulub boya-başa çatdığı Naxçıvanın zəngin dil-ünsiyyət mühiti yaratmışdı. O mühit ki, həm kökləri çox-çox qədim dövrlərə gedib çıxan folklorun, həm də müasir dünyagörüşlü ziyalıların vətənidir. Və belə bir mühitdə formalaşmış hərtərəfli xüsusi istedada malik şəxsiyyət sürətlə yüksək mövqelər qazandıqca öz milli-mənəvi kimliyini də yüksəltmiş, mənsub olduğu xalqın timsalına (rəmzinə!) çevrilmişdi.

Heydər Əliyev sonrakı illərdə, xüsusilə milli azadlıq əldə edilib müstəqil dövlət qurulandan sonra dəfələrlə xatırlayacaqdı ki, onun bir azərbaycanlı kimi mənsub olduğu millətlə fəxr etməsi hissləri məhz yeniyetməlik dövründən başlamış, sovet dövlətinin idarəçiliyində yüksək mövqelər tutduqca həmin hisslər nəinki zəifləmiş, hətta daha da güclənmiş, açıq və ya gizli təzyiqlərlə rastlaşdıqca siyasi-ideoloji məzmun kəsb edərək milli qürur mənbəyinə çevrilmişdir. Sələflərində olmayan bir mühüm xüsusiyyət Heydər Əliyev üçün xarakterik idi ki, bu da milliliklə ümumbəşəriliyin (modern dünyagörüşünün!) bir şəxsiyyətdə mükəmməl şəkildə birləşməsindən ibarət idi. Ona görə də həm tələsmədən, həm də gecikmədən, demək olar ki, bütün maneələri aradan qaldıraraq, bütün mövcud konyukturları neytrallaşdıraraq millətin mütəşəkkilliyinə nail oldu, Azərbaycan dilinin Respublikada dövlət dili olaraq nüfuzunun o dövrkü şərtlər daxilində maksimum yüksəlməsi üçün bütün tədbirlərin görülməsini təmin etdi.

Heydər Əliyevin sovet dövründə Azərbaycana rəhbərlik edərkən yürütdüyü milli dil siyasəti kifayət qədər müstəqilliyi ilə seçilən bir milli kommunistin yürütdüyü siyasətdir ki, onun əsas məzmununu aşağıdakı təşəbbüslər müəyyən etmişdir:

1) Xalq gördü ki, Respublikanın yeni rəhbəri kənd zəhmətkeşləri ilə görüşlərdən başlamış ta Azərbaycan Dövlət Universitetinin yarım əsrlik yubiley məclisinə və ya Azərbaycan yazıçılarının

qurultaylarına qədər xalqın öz dilində – Azərbaycan dilində danışır. Və bunu elə edir ki, sanki belə də olmalı imiş.

2) Azərbaycan ədəbiyyatının, ümumən mədəniyyətinin klassiklərinin ümumxalq səviyyəsində keçirilən yubileyləri həm də ana dilinin geniş miqyasda təbliği demək idi. Xalq özünün Nizami, Nəsimi, Füzuli, Xətai, Vaqif, Zakir, M.F.Axundzadə, Aşıq Ələsgər, Mirzə Cəlil, Sabir, H.Cavid, S.Vurğun kimi dahilərinin dövlət (və dövlət başçısı) miqyasında nə qədər yüksək qiymətləndirildiklərini gördükcə özü də yüksəlirdi. Və hər biri öz dövründə ana dilinə ölməz abidə qoymuş bu mütəfəkkirləri yalnız ziyalılar səviyyəsində yox, həm də geniş xalq kütləlləri səviyyəsində yenidən dərk etmək bütün hallarda milli intibaha, tarixi köklərin dərinliklərinə getməyə və bu günün hansı təkamül mərhələlərinin nəticəsi olduğunu anlamağa məcbur edirdi ki, burada dil məsələsi ən mühüm məsələ idi.

3) Azərbaycan Respublikasının rəhbəri müasir Azərbaycan yazıçısının (onların mütləq əksəriyyəti ana dilində yazırdı) nüfuzunu o zamana qədər görünməmiş bir səviyyəyə qaldırdı, onu (Azərbaycan yazıçısını) sovet ideologiyasının (rejiminin!) inzibati təzyiqlərindən cəsarətlə qorudu, milli demokratik dünyagörüşşünün yayılması üçün geniş meydan açdı… Və Azərbaycan yazıçılarının əsərlərinin həm Respublikada ana dilində, həm də bütün Sovetlər Birliyi miqyasında rus, eləcə də digər dillərdə nəşrinə hərtərəfli şərait yaratdı. Yalnız bir faktı qeyd etmək kifayətdir ki, əgər keçən əsrin 70-ci illərində Azərbaycana Heydər Əliyev kimi böyük bir millət xadimi, geniş dünyagörüşlü lider başçılıq etməsəydi, İsa Hüseynov, Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Hüseyn Arif, Nəbi Xəzri, Nəriman Həsənzadə, Fikrət Qoca, Anar, Elçin kimi onlarla böyük sənətkarlar bu qədər inamla yazıb yarada, bu qədər böyük şöhrət qazana (və ana dilinə bu qədər böyük şöhrət gətirə!) bilməzdilər. Və onu da əlavə edək ki, həmin 70-ci, eləcə də 80-ci illərdə Azərbaycan yazıçılarının çap olunduqları "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat və incəsənət" qəzeti heç bir digər milli respublikada müşahidə edilməyən yüksək tirajlarla çıxaraq Azərbaycan ədəbi dilinin inkişafına, xalq kütlələri arasında yayılmasına böyük töhfələr verirdi.

Azərbaycan yazıçılarının qurultaylarında, toplantılarında iştirak edən Respublika rəhbəri yazıçılarla xalq arasındakı ünsiyyətin genişlənməsinə, yazıçının xalqla birlikdə olmasına da xüsusi önəm verirdi.

4) Heydər Əliyev hakimiyyətə gəldikdən sonra dil, ədəbiyyat və tarix sahəsindəki xüsusilə 30-cu illərdən etibarən məlum ideoloji çərçivəyə salınmış elmi araşdırmalar həm xronoloji, həm də intellektual-metodoloji baxımdan dərinləşməyə başladı. Ən mühüm məsələlərdən biri o oldu ki, antitürkçü əhval-ruhiyyə aradan qalxdı; bu isə milli humanitar təfəkkürün inkişafı, milli özünüdərkin meydanının genişlənməsi üçün elmi mühitdə uzun illər gözlənilən şəraiti yaratmış oldu.

1974-cü ildə ali məktəblər üçün "Müasir Azərbaycan dili" dərsliyinə Azərbaycan SSR-in Dövlət mükafatının verilməsi isə o demək idi ki, dövlət həm Azərbaycan dilini, həm Azərbaycan dilçiliyini, həm də azərbaycandilli təhsili yüksək səviyyədə himayə edir.

5) Və nəhayət, çox mühüm təşəbbüslərdən biri o oldu ki, Azərbaycan SSR Ali Sovetinin növbədənkənar VII sessiyasında (1978) Respublikanın yeni Konstitusiyası qəbul olundu ki, onun 73-cü maddəsində Azərbaycan dilinin Respublikada dövlət dili olması təsbit edildi.

Ümummilli lider bu tarixi hadisə ilə bağlı sonralar xatırlayırdı ki, "o vaxt mən Sovetlər ittifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz Konstitusiyamıza yazmalıyıq və yazacağıq".

Əlbəttə, heç də asan olmayan bir tarixi şəraitdə irəli sürülmüş bu cəsarətli (və milli) siyasi mövqe Heydər Əliyevin özünə (və xüsusilə rəhbərlik etdiyi xalqa!) böyük inamının nəticəsi idi ki, bütün maneələrə baxmayaraq özünü doğrultdu. Və həyata keçdi.

Niyə? Çünki Heydər Əliyev yalnız böyük millət xadimi deyildi, həm də dahi siyasətçi idi. Və özündən əvvəlki populist, düşünülməmiş təşəbbüslərin nə ilə nəticələndiyini, problemi həll etmək əvəzinə yeni problemlər yaratdığını görmüşdü. Məsələni üzdən

yox, kökündən (əsaslı şəkildə) həll etməyin nəticəsi idi ki, tarixi təşəbbüsün müəllifi hər işdə olduğu kimi bu mühüm milli işdə də özünə (və xalqına) qələbə qazandırdı.

Heydər Əliyev Moskvaya – Sovetlər Birliyinin rəhbərlərindən biri vəzifəsinə təyin olunduqdan sonra da Azərbaycanda gedən quruculuq, o cümlədən milli dil quruculuğu proseslərinə yaxından nəzarət etmişdir. Lakin Sovetlər Birliyi rəhbərliyində gedən dəyişikliklər, xüsusilə M.S.Qorbaçovun hakimiyyətə gətirilməsi və onun avantürist dünyagörüşlü idarəçilik üsulu Azərbaycan xalqının liderinin ictimai-siyasi fəaliyyətinin məhdudlaşdırılması, sonra isə ümumiyyətlə işdən uzaqlaşdırılıb haqsız təqiblərə məruz qalması ilə nəticələndi.

Moskvada Heydər Əliyevin Azərbaycan xalqı üçün kim olduğunu, onun müasir tarixində hansı yeri tutduğunu yaxşı bildiklərinə görə ciddi-cəhdlə çalışırdılar ki, artıq öz azadlığını, müstəqilliyini tələb etməkdə olan xalqı başsız qoysunlar. Və odur ki, ümummilli lideri mənsub olduğu xalqdan tamamilə təcrid etmək üçün hər cür provakasiyalara əl atırdılar. Hətta iş o yerə çatdı ki, Moskva (M.S.Qorbaçov) Azərbaycana Azərbaycan Respublikasının Konstitusiya ilə təsbit olunmuş dövlət dilini əməlli-başlı bilməyən, öz qüsurlu (və hər kəlməsi gülüş doğuran) nitqi ilə xalqın ana dilini təhqir edən bir "rəhbər" göndərməkdən belə çəkinmədi.

Millətin ikrahla dolu münasibətini hiss etmək qabiliyyəti belə olmayan bu manqurt "rəhbər" isə Azərbaycan xalqına mütəşəkkilliyin, özünəməxsusluğun və müstəqilliyin nə demək olduğunu anlatmış ümummilli lider haqqında "kompramat"lar toplamağa, onun tarixi nüfuzunu zədələməyə uğursuz cəhdlər etməyə başladı ki, bunların da nə ilə nəticələndiyi, yəqin ki, heç vaxt xalqın yadından çıxmayacaqdır.

Heydər Əliyevin böyük (və danılmaz!) təcrübəsi göstərdi ki, həqiqi milli lider, dövlət xadimi bu və ya digər dərəcədə çətin ictimai-siyasi vəziyyətlərdə də mənsub olduğu xalqın milli məzmunlu problemlərini ya sona qədər həll etməyə, ya da bunun üçün münbit şərait yaratmağa tamamilə qadirdir. Və konkret olaraq milli dil məsələsinə gəldikdə isə tam aydınlığı ilə görürük ki, Heydər Əliyev

sovet dövründə ana dilinin nufuzunu nə qədər mümkün idisə yüksəltdi; o məsələləri ki həll etmək mümkün deyildi (məsələn, Azərbaycanın Şimalı ilə Cənubu arasında milli dil kontaktlarını təmin etmək), onların gələcəkdə həlli üçün elə zəruri (və perspektivli) tədbirlər gördü ki, az-çox münbit ictimai-siyasi şərait yaranan kimi "Heydər Əliyev formulu" uğurla özünü təsdiq etməyə başladı.

***

Xalqın (və tarixin!) tələbi ilə Azərbaycana (Vətənə!) gələn, müxtəlif xarakterli hərcmərcliklərin, iğtişaşların, dağıntıların qarşısını alaraq ölkəni müstəqil inkişaf yoluna çıxaran ümummilli liderin 1993-cü ildən 2003-cü ilə qədər milli dil quruculuğu sahəsində gördüyü işlər həm miqyası, həm də məzmunu etibarilə müqayisəsizdir. Hər şeydən əvvəl ona görə ki, ölkə parçalanmaq üzrə idi. Və belə bir şəraitdə dövlətin, eləcə də onun dilinin varlığı ciddi təhlükə altında qalmışdı.

Heydər Əliyev Azərbaycanda – Naxçıvanda siyasi fəaliyyətə başlayanda milli dillə bağlı ən aktual məsələ onun necə adlandırılması idi ki, həmin məsələyə münasibətdə fikir-mövqe ziddiyyətləri, doğrudan da, bəzən əsaslı, bəzən də əsassız olaraq, son dərəcədə gərginləşir, hətta ölkənin milli-siyasi bütövlüyü üçün təhlükə yaradacaq bir həddə çatırdı.

Naxçıvan MR Ali Məclisinə rəhbərlik etdiyi illərdə Heydər Əliyev dövlət dilinin "türk dili" adlandırılmasını təklif edənlərə məsələnin tarixi mahiyyətini dərindən izah elədikdən sonra belə bir təmkinli (və müdrik) məsləhət verir:

"…Mən də hesab edirəm ki, biz türkük… Ancaq indi gətirib biz tələm-tələsik bu Konstitusiyaya (Naxçıvan MR-nın Konstitusiyası nəzərdə tutulur – N.C.) dəyişiklikdə yazaq ki, Naxçıvan Muxtar Respublikasının dövlət dili türk dilidir, bu, mənə elə gəlir ki, tələsiklik olar. Gəlin bunu bir də etiraf edək ki, milli dirçəliş, milli ənənələrin bərpa olunması, milli inkişaf sahəsində bu günlərdə çox mühüm qərarlar qəbul etmişik. Gəlin bir az səbr edək ki, bizim bu qərarlar həzm olunsun"… (Naxçıvan MR Ali Məclisinin 24 noyabr 1990-cı il tarixli iclası).

Bu mülahizə-mövqedə ən azı üç mühüm elmi-ideoloji prinsip ehtiva olunur:

1) məsələnin tarixi mahiyyəti – dilin (və xalqın) adının hansı təkamül mərhələlərdən keçdiyi (və onun məntiqi) aydın təsəvvür olunmalıdır;

2) yalnız Naxçıvan yox, ümumazərbaycan miqyasında müzakirələrə ehtiyac vardır;

3) nə qədər zəruri olsa da, ümummilli qərarlar tədricən qəbul edilməlidir ki, cəmiyyət onları həzm edə bilsin.

Azərbaycan Parlamenti isə 1992-ci ilin 22 dekabrında bir qrup deputatın iştirakı ilə dövlət dilinin adı ilə bağlı məsələni, ümummilli liderin ifadəsi ilə desək, məhz “tələm-tələsik” müzakirə edib “türk dili”nə üstünlük verdi.

Və bu qərar işləməyə başlasa da, tezliklə böyük mübahisələrə, praktikada isə problemlərə meydan açdı. Hər şeydən əvvəl ona görə ki, müstəqil dillər olan Azərbaycan türkcəsi ilə Türkiyə türkcəsini fərqləndirməkdə çətinliklər yarandı.

“Tələm-tələsik” qəbul edilmiş qərarın yaratdığı problemləri həll etmək milli dil siyasəti ilə bağlı ən aktual problemlərdən birinə (demək olar ki, birincisinə!) çevrildi.

Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilənə qədər bu məsələ açıq qaldı.

Azərbaycan Prezidentinin dövlət dilinin taleyi ilə bağlı ilk möhtəşəm tədbirlərindən biri Azərbaycan Respublikası Konstitusiyası layihəsinin 1995-ci ildə elm, mədəniyyət xadimlərinin iştirakı ilə keçirilən geniş müzakirəsi oldu. İki gün davam edən həmin müzakirə yalnız qəbul etdiyi obyektiv qərarla yekunlaşmadı, həm də (və fikrimizcə, daha çox) onunla əlamətdar (və tarixi!) oldu ki, dövlətin (və xüsusilə dövlət başçısının!) dil məsələsinə həssaslığını, ona nə qədər böyük siyasi-ideoloji önəm verdiyini bir daha bütün miqyası ilə göstərdi.

Əlbəttə, əsas məsələ dövlət dilinin adı ilə bağlı idi, ancaq bundan heç də az əsas olmayan bir məsələ də o idi ki, Azərbaycan dövləti (və Prezidenti) dil quruculuğunu dövlət (və millət!) quruculuğu prosesindən ayrı təsəvvür eləmir, xalqın dilinə, doğrudan da,

"onun ruhu" (V.Humboldt) kimi baxır. Və milli dilə hər hansı voluntarist müdaxiləni milli dövlətə qarşı yönəlmiş təxribat sayıb cəsarətlə rədd edir.

Azərbaycan Prezidentinin – ümummilli liderin açılış nitqi ilə 1995-ci ilin 31 oktyabrında Azərbaycan MEA-da başlayan müzakirə ertəsi gün Prezident Aparatında Heydər Əliyevin bilavasitə sədrliyilə davam etdirildi.

Müzakirə üç variant əsasında aparılırdı: "Azərbaycan dili", "türk dili" və "Azərbaycan türk dili ("Azərbaycan türkcəsi"). Maraqlıdır ki, nə qədər paradoksal olsa da, müzakirələrdə ən az müdafiə edilən variant məhz "türk dili" oldu. Fikrimizcə, bunun əsas səbəbi o idi ki, geniş müzakirələr keçirilmədən qəbul olunmuş qərar cəmiyyət tərəfindən dəstəklənməmişdi, yaratdığı problemlər isə göz qabağında idi; hər şeydən əvvəl, qərar qəbul edilərkən ümumxalq səsverməsi, referendum keçirilib xalqla məsləhətləşilmədiyi üçün Azərbaycan cəmiyyəti olduqca həssas bir dövrdə, haqlı olaraq, "yuxarı"dan gələn həmin qərardan, ümumən qərar vermə prosedurundan narazı qalmışdı.

Akademik səviyyədə (və kifayət qədər demokratik şəraitdə) aparılan müzakirələrin sonunda ümummilli lider belə bir təklif verdi ki, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının layihəsindəki dövlət dili ilə bağlı 21-ci maddə referenduma ayrıca çıxarılsın. Və belə də oldu.

12 noyabr 1995-ci ildə referendumla qəbul olunan, 27 noyabr 1995-ci ildən isə qüvvəyə minən Azərbaycan Respublikası Konstitusiyasında həmin maddə aşağıdakı şəkildə təsbit edilmişdir:

"I.Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

II. Azərbaycan Respublikası əhalisinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir".

Müzakirələr göstərdi ki, yalnız milli ictimai təfəkkür deyil, bilavasitə mütəxəssislər də ana dilinin (eyni zamanda dövlət dilinin) qeydsiz-şərtsiz "türk dili" adlandırılmasının əleyhinədirlər, ona görə ki:

a) iki müstəqil türk mənşəli dilin hər ikisinin eyni bir adla adlandırılması özünü doğrultmur və təcrübədə onları istər-istəməz ayrı-ayrı adlarla (Azərbaycan türkcəsi – Türkiyə türkcəsi) adlandırmaq lazım gəlir;

b) Azərbaycan ərazisində yaşayan qeyri-türk mənşəli müxtəlif xalqlar, etnoslar (talışlar, tatlar, kürdlər, ləzgilər və b.) "Azərbaycan dili"nin "türk dili" adlandırılmasından hər halda narahat olurlar, bir sıra qüvvələr isə bundan istifadə edərək "xırda millətçilik" hisslərini qızışdırırlar;

c) "Azərbaycan dili" adı artıq neçə on illərdir ki, uğurla istifadə olunur, kifayət qədər böyük işlənmə təcrübəsinə malikdir və milli ictimai təfəkkürdə tamamilə qərarlaşmışdır.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası, eləcə də onun dövlət dili ilə bağlı xüsusi maddəsi qəbul olunduqdan sonra uğurla işləməyə başladı ki, bu da ümummilli liderin milli dövlət quruculuğu (və idarəçiliyi) istedadının təntənəsi demək idi

***

Məlum olduğu kimi, bütün xalqların milli yaradıcılıq (özünütəsdiq!) təcrübəsində dil məsələsi ədəbiyyat məsələsi ilə bilavasitə bağlıdır.

Heydər Əliyev, artıq qeyd etdiyimiz kimi, hələ sovet dövründə Azərbaycana rəhbərlik etdiyi ilk illərdən Azərbaycan yazıçılarının qurultaylarında iştirak etmiş, həmin qurultaylardakı çıxışlarında qələm adamlarına dəyərli tövsiyələr vermişdir ki, onların böyük bir hissəsi dil məsələlərini ehtiva edir. Müstəqillik dövründə – 1997-ci ilin oktyabrında keçirilən X qurultayda da ulu öndər cəmiyyətin bu məsələyə – dil məsələsinə həssas münasibətini nəzərə alaraq çıxışında ona xüsusi yer ayırmış, özünəməxsus məzmunlu (və tarixi!) mülahizələrini söyləmişdir ki, bu gün dil quruculuğunun, dövlətin dil siyasətinin və ümumiyyətlə, xalqın (və dövlətin)dilinə yaradıcı münasibətin "yol xəritəsi"dir. Və heç şübhəsiz, sabah da belə olacaqdır…

Qurultaydakı məşhur nitqində Heydər Əliyev xatırlayırdı ki, "yadımdadır, ilk dəfə Yazıçılar İttifaqının qurultayında mən Azər-

baycan dilində nitq söyləyəndən sonra (bu hadisə 1971-ci ildə olmuşdu – N.C.) tənəffüsə çıxdıq. Hamı gəlib məni təbrik edirdi. Ona görə ki, mən orada, birinci növbədə, Azərbaycan dilində danışdım. Dedim ki, əziz qardaşlar, axı burada elə bir şücaət yoxdur. Bu, bizim öz dilimizdir… Mən bunu anladım. Çünki dövlət adamları Azərbaycan dilində danışmamışdılar. Bu dil məişət dili olmuşdu və bir də ədəbiyyat dili olmuşdu. Amma dövlət dili olmamışdı".

Və ümummilli lider əlavə etmişdi:

"Mənim nitqimi yazıçılar böyük bir hadisə kimi qəbul etdilər. Biz o illərdə çalışdıq ki, dilimiz inkişaf etsin. Bu sahədə çox çalışdıq. Baxmayaraq ki, elə bir dövlətdə yaşayırdıq ki, hakim dil rus dili idi. Ancaq biz dilimizi inkişaf etdirdik və siz, sizin əsərləriniz, ədəbiyyat olmasaydı, şübhəsiz ki, dilimiz bu cür inkişaf edə bilməzdi".

Azərbaycan dilinin inkişafında Azərbaycan yazıçısının xidmətlərini yüksək qiymətləndirən Ulu Öndər qurultayda bu məsələ üzərində xüsusi dayanaraq fəxrlə demişdi:

"Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində bugünkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidməti var… Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq, millət xalq, millət ola bilməz".

Heydər Əliyevin nitqində maraqlı məqamlardan biri də o oldu ki, görkəmli dilçi Tofiq Hacıyevin çıxışındakı bir neçə aktual məsələyə diqqəti cəlb edib dəyərli şərhlər verdi.

Onlardan birincisi o oldu ki, professor Tofiq Hacıyev dedi:

"Cənab Prezident keçən il Türk yazarlarının üçüncü qurultayında təxminən saat yarıma qədər geniş, məzmunlu bir çıxış etdi. Türkiyədən gələn yoldaşlarım mənim yanımda oturmuşdular… Dil Qurumunun sədri Əhməd bəy tənəffüsdə dedi ki, sizin Prezident bu geniş çıxışında cəmisi beş Avropa sözü işlətdi. İstanbul Universitetinin professoru Səfi bəy "fakt" sözünü də əlavə etdi. Aydın oldu

ki, Prezident bu çüxüşünda cəmi altı Avropa sözü işlədibdir. Dedi ki, amma bizim Prezidentimiz bu boyda çıxış etsəydi, orada 200-dən çox Avropa sözü olmalı idi".

***

2001-ci ilin iyun ayının 18-də Azərbaycan Prezidenti "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" bir fərman verdi ki, həmin fərman, tam məsuliyyətlə demək olar ki, Azərbaycan dilinin tarixində görünməmiş hadisə idi. Dövlətin dil siyasətini bütün miqyası ilə olduqca dolğun şəkildə əks etdirən fərman həm də elmi-metodoloji məzmunu ilə diqqəti cəlb edir. Sənəddə Azərbaycan dilinin mənşəyi məsələsinə ayrıca (və geniş) yer ayrılmışdır və burada qeyd olunur ki, "Azərbaycan dili dialekt və şivələrinin ge niş Avrasiya məkanına yayılan türk xalqlarının az qala bütün dil xüsusiyyətlərini əks etdirəcək qədər rəngarəng olmasının da başlıca səbəbi ta qədimlərdən bu torpaqlarda etnik baxımdan eyni köklü türk etnoslarının mövcud olmasıdır".

Bu, uzun illər (və məhz siyasi məqsədlərlə) türk etnoslarının Azərbaycana nəinki ilk orta əsrlərdə, hətta monqol-tatar yürüşləri dövründə gəldiklərini yeganə akademik mövqeyə çevirməyə çalışanlara tutarlı cavab olmaqla yanaşı həm də (və daha əsası!) milli tarixi təfəkkürün, ana qaynaqlarını türkçülükdən alan azərbaycançılıq ideologiyasının təntənəsi idi.

Azərbaycan dili tarixinin bir sıra mübahisəli və ya uzun illər hansısa ideoloji məqsədlə mübahisə obyektinə çevrilmiş problemlərinə aydınlıq gətirilən fərmanda dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi üçün bir sıra konkret tədbirlərin görülməsi də irəli sürülür:

"…Ölkəmizin orta və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, milli-mədəni inkişaf tariximizin tələblərinə cavab verən tədrisi işinin təkmilləşdirilməsinə ehtiyac vardır. Bir çox kütləvi informasiya vasitələrində, rəsmi yazışmalarda, kargüzarlıq və s. sahələrdə Azərbaycan ədəbi dilinin normalarına lazımınca əməl olunmur. Azərbaycan dilinin reklam işində istifadə edilməsində ciddi qüsurlar müşahidə olunur".

Fərman aşağıdakı çox mühüm müddəa-qərarlarla bitir:

"1. Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət Dil Komissiyası yaradılsın.

2. "Azərbaycan Respublikasının dövlət dili haqqında" qanun hazırlansın.

3. Azərbaycan Respublikasının nazirlik, idarə, təşkilat və müəssisə rəhbərləri öz tabeliklərində olan qurumlarda dövlət dilinin və latın qrafikasının tətbiqi işinin yaxşılaşdırılması ilə bağlı uzunmüddətli kompleks planlar hazırlayıb həyata keçirsinlər.

4. Təhsil nazirliyi orta və ali məktəblərdə Azərbaycan dilinin tədrisi, bu dildə təhsilin keyfiyyəti ilə bağlı əsaslı dönüş yaratmaq istiqamətində qəti tədbirlər həyata keçirsin.

5. Azərbaycan MEA və Təhsil nazirliyi Azərbaycan Yazıçılar Birliyi ilə birlikdə latın qrafikasında çap olunacaq zəruri elmi, bədii, tədris və s. ədəbiyyatının siyahısını hazırlayıb Azərbaycan Respublikası Prezidentinə təqdim etsinlər.

6. Azərbaycan MEA Azərbaycan dilçiliyinə dair aparılmalı araşdırmaların proqramını hazırlasın və araşdırma işinin gedişi barədə hər altı aydan bir Azərbaycan Prezidentinə məlumat versin.

7. Şəhər və rayon icra hakimiyyəti başçılarına tapşırılsın ki, yerlərdə istifadə olunan lövhə, reklam, şüar, plakat və s.-in dilinin Azərbaycan ədəbi dilinə uyğun olması baxımından tədbirlər görsünlər.

8. Azərbaycanda nümayiş etdirmək üçün alınacaq əcnəbi kino və televiziya məmulatlarının Azərbaycan dilinə dublyaj işi lazımi səviyyədə qurulsun.

9. 2001-ci il avqustun 1-dən respublikada bütövlükdə latın qrafikasına keçirilsin".

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman göstərdi ki:

1) Azərbaycan dilinin (və xalqının) mənşəyi barəsində bir neçə on ildir ki, davam edən mübahisələri yekunlaşdırmaq, tarixi faktların (və sağlam tarixi düşüncənin) mövqeyindən əsaslı bir konsepsiya vermək artıq yalnız elmi deyil, həm də milli, ictimai-siyasi bir ehtiyacdır;

2) Azərbaycan dilinin dövlət dili kimi yaşamaq, daha da inkişaf etmək üçün etnososial, mədəni-mənəvi potensialının olmasını göstərmək məqsədilə tarixdən, daha dərin köklərdən gəlmək lazımdır;

3) Haqqında söhbət gedən fərman bir dövlət sənədi olaraq bütövlükdə Azərbaycan dövlətinin (və xalqının) marağını əks etdirsə də, həmin dövləti yaradan, həmin xalqı işıqlı gələcəyə aparan bir mütəfəkkirin düşüncəsinin məhsulu olduğuna görə, sıravi yox, tarixi səciyyə daşıdığına görə xüsusi elmi konsepsiya ifadə edir.

Əlbəttə, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsəri idi – burada H.Əliyevin qurduğu dövlətin milli dil siyasəti əks etdirilir, həmin dövlət (və dil) uğrunda aparılmış mübarizənin tarixi və gələcəyi ifadə olunurdu. Ona görə də fərmanda irəli sürülmüş ideyalar aşağıdakı kimi ümumiləşdirilə bilər:

1) Azərbaycan dilinin bir dövlət dili olaraq qorunması;

2) Azərbaycan dilinin bir dövlət dili olaraq inkişaf etdirilməsi.

Məhz Heydər Əliyevin formalaşdırdığı dövlət dil siyasətinin uğurla həyata keçirilməsi nəticəsində

1) Azərbaycan dilinin dövlət dili olaraq siyasi nüfuzu təmin olundu;

2) təhsilin, elmin, ədəbiyyatın və s. inkişafı ana dilinin – dövlət dilinin tərəqqisi üçün münbit şərait yaratdı;

3) Azərbaycan dili Azərbaycan dövlətinin beynəlxalq mövqeyinin yüksəlməsi ilə tarixdə ilk dəfə geniş beynəlxalq arenaya çıxdı.

Ümummilli liderin milli dil siyasətinin ideya-məzmunu qədər mənbələri də zəngindir. Heydər Əliyevi əlinə təbaşir alıb millətinə yeni əlifbanı (dili!) öyrədən böyük Atatürklə müqayisə edənlər tamamilə haqlıdırlar. Mümkün olan hər bir şəraitdə Azərbaycan dilindən bəhs etmək, onun qüdrətindən danışmaq, onu sevdirmək Heydər Əliyevin daxilindən, təbiətindən, milli lider olaraq şəxsiyyətindən irəli gəlirdi. Tək yazıçılarla yox, gənclərlə, yaxud təhsil işçiləri ilə görüşlərində də, dünyanın müxtəlif ölkələrində yaşayan

azərbaycanlılarla söhbətlərində də mütləq dil məsələsini ön plana çəkib öz müdrik məsləhətlərini verir, onları mənən, ruhən səfərbər edirdi.

Ümummilli liderin milli dil siyasətindən danışarkən çox mühüm bir məsələni də dönə-dönə (və qürurla!) qeyd etmək lazımdır ki, Heydər Əliyev dünyanın o möhtəşəm dövlət adamlarındandı ki, güclü natiqliq istedadına malik idi. Və o, Azərbaycan dilini yalnız ürəkdən sevməsi, onun dövlət dili hüquqlarını müdafiə edib milli (və beynəlxalq) nüfuzunu yüksəltməsi ilə deyil, həm də bu dildə gözəl danışması, hər kəsə nümunə göstərməsilə ona (Azərbaycan dilinə) tarixi şöhrət qazandırdı, elə bir abidə ucaltdı ki, bundan sonrakı nəsillər ana dilini, dövlət dilini bir də ona görə sevəcəklər ki, o, Heydər Əliyevin dilidir.

Ümummilli liderdən sonra Azərbaycan dili ilə bağlı qazanılmış hər bir nailiyyətdə (bunlar isə, tamamilə təbii olaraq, kifayət qədərdir) Heydər Əliyevin – Ulu Öndərin həmişə qədirşünaslıqla, ehtiramla etiraf ediləcək böyük rolu olmuşdur. Və bundan sonra da, heç şübhəsiz, həmişə olacaqdır.

Azərbaycan Prezidenti, bütün dünyada Azərbaycan dilinin inkişafının qarantı İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı, eləcə də "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" (9 aprel 2013-cü il) Azərbaycan dövlətinin yürütdüyü dil siyasətinin ardıcıllığının (və mükəmməlliyinin) göstəricisidir.

**Nizami CƏFƏROV**
*akademik*

# DİLİMİZ VARLIĞIMIZDIR

Belə bir fikir mövcuddur ki, xalqın, millətin nəyini əlindən alırsansa al, dilini alma. Əgər dilini əlindən alsan, o, milli varlığını itirər, yox olar. Bu, tarixi bir həqiqətdir. Dil – millətin mənəviyyat bayrağı, milli mənliyi, yaşamı və qürurudur. Dil yoxdursa, xalq da yoxdur!

Azərbaycan dili minilliklərin girdablarından, müxtəlif sınaqlardan, təzyiqlərdən, təsirlərdən çıxa bilmiş, günümüzə qədər saflığını, təmizliyini, zənginliyini qorumuşdur. Onun təmsilçiləri olan Dədə Qorqud, Əfzələddin Xaqani, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundzadə, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Hüseyn Cavid, Aşıq Ələsgər, Şəhriyar, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Anar, Elçin, Kamal Abdulla təkcə ölkəmizdə deyil bütün dünyada tanınır və sevilir. Bu simalar söz sənətinin, təfəkkür dünyasının, dil xəzinəsinin, ictimai-siyasi fikrin təməl daşları, bünövrəsi, ən dəyərli inciləridirlər. Onlar ədəbiyyatımızı və ədəbi dilimizi yaratmış, onu milli varlıq kimi həm bizlərə çatdırmış, həm də bizi dünyaya tanıtmışlar.

Bu böyük mütəfəkkirlər və nəhənglər ön sırasında Müstəqil Azərbaycan Respublikası adlı misilsiz və qüdrətli bir əsər yaratmış, xalqın çox haqlı olaraq Ulu Öndər adını verdiyi Heydər Əliyev əzəmətlə və vüqarla durur. O, dərin zəkası, parlaq istedadı, xalqına və vətəninə bəslədiyi tükənməz sevgisi, doğulduğu torpağa sədaqətiylə bütün sədləri və maneələri dəf edərək müstəqil Azərbaycanı yaratmışdır.

2023-cü ildə minnətdar azərbaycan xalqı onun dünyaya gəlişinin yüzilliyini böyük bir məhəbbət və fəxarətlə qeyd etdi. Biz dünya durduqca onu unutmayacaq, onun xatirəsinin işığına toplaşacaq, ona minnətdar olacağıq.

Dövlət müstəqilliyinin bərpası xalqımızın ən ali siyasi iradəsi və həyat formulasının təzahürüdür. Dünya sivilizasiyasında yer alan bütün xalqlar kimi, azərbaycanlılar da dövlət müstəqilliyimizə

nəticə deyil, vasitə kimi baxır. Hər bir xalqın inkişafı onun özünüdərki ilə şərtlənən tarixi, yaratdığı maddi və mənəvi nailiyyətlərin ifadəsi olan mədəniyyəti ilə ölçülür. Dil maddi mənəvi xəzinənin mükəmməl məcmusudur və buna görə də o, hər bir xalqın varlığını təsdiq edən ən mühüm amillərdən biri sayılır. Dil sosial hadisə kimi hər bir millətin keçdiyi yolun, onun formalaşmasının ən zəngin və mühüm göstəricisi kimi də qəbul edilir.

Azərbaycan dilinin "Kitabi-Dədə Qorqud" kimi mükəmməl eposu var. Dilimizin qədim dillərdən biri oıduğunu sübut etmək üçün təkcə bu fakt kifayətdir. Bayatılarımızın, laylalarımızın, nağıl və dastanlarımızın kökü isə eramızdan çox-çox qədim zamanlara gedib çıxır.

Dilimiz, mədəniyyətimiz və onları qoruyub saxlayan, inkişaf etdirən, bu günkü zirvəyə çatdıran tarixi və müasir şəxsiyyətlərimizlə bağlıdır. H.ƏIiyev müxtəlif tədbirlərdə dəfələrlə onları yad etmiş, xatırlatmışdır. M.Füzulinin 500 illiyinə həsr edilmiş təntənəli yubiley gecəsində (08 noyabr 1996-cı il) o, "... M.Füzuli əsərlərinin çox hissəsini türk dilində, bu günkü Azərbaycan dilində yazmışdır. Bu, M.Füzulini ondan əvvəl və sonra yaşamış, yaratmış və xalqımıza məxsus olan bir sıra şairlərdən, yazarlardan fərqləndirən amildir. Biz Füzulinin "Leyli və Məcnun" poemasını, onun türk dilində yazdığı divanını bu gün də dilimizdə rahat oxuyur, anlayırıq. .... M.Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir" – deməklə, S.Vurğunun 90 illik yubiley gecəsində isə (06 mart 1997-ci il) "İndiki dilimiz – türk dilləri qrupuna məxsus olan Azərbaycan dili, türk dillərinin kökündən gələn Azərbaycan dili məhz S.Vurğun kimi şəxsiyyətlərin yaradıcılığı nəticəsində, onların şeirlərinin, əsərlərinin nəticəsində bu qədər gözəlləşib, bu qədər zənginləşib, səlisləşib, şirinləşibdir. Biz bu dilimizlə fəxr edirik və fəxr edə bilərik" – söyləməklə, nitqlərində Əfzələddin Xəqani, Xətib Təbrizi, Nizami Gəncəvi, Məhəmməd Füzuli, İimaməddin Nəsimi, Ş.İ.Xətai, M.P.Vaqif, M.F.Axundov, C.Məmmədquluzadə, N.Nərimanov, M.Ə.Sabir, H.Cavid, Aşıq Alı, Aşıq Ələsgər, S.Vur-

ğun, M.Müşfiq, R.Rza, M.Araz, B.Vahabzadə, K.Abdulla, Anar kimi yüzlərlə sənət fədaisini xatırlatmaqla onların xalq qarşısındakı xidmətlərini yüksək qiymətləndirmişdir.

H.ƏIiyev dil məsələsinin çox vacib olduğunu daim hər birimizə xatırladır. Onun hər bir xatırlatması bu istiqamətdə işlərin uğurla getməsinə stimul yaradır. Onun Azərbaycan yazıçılarının 10-cu qurultayında dilimizin inkişafında əvəzsiz xidmətləri olan yazıçı, şair və alimlərə, qonaqlara ürək yanğısı ilə dediyi aşağıdakı sözləri, proqram xarakterli müraciəti, müdrik el ağsaqqalının, dövlət başçısının kəlamlarını olduğu kimi yada salmaq istəyirik. Bu çıxışda H.ƏIiyev dühası, müdriklüyü, Azərbaycan dilinə sonsuz məhəbbəti çox aydın görünür: “Bir neçə kəlmə də dil haqqında danışmaq istəyirəm. Çünki burada dil haqqında söhbət getdi. Görürsünüzmü, bu gün mən sizə nə qədər tariflər deyirəm. Heç bir tənqid yoxdur. Həmişə də tərifləyirəm. Siz buna layiqsiniz. Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidməti var. Bu gün danışdığımız dil 20-ci ildə danışılan dil deyil. Elədir, yoxsa yox? Yerdən səs: Bəli, tamamilə doğrudur. H.ƏIiyev: Əsrin əvvəlindəki dil deyil. Amma ondan qat-qat yaxşı dildir, ondan qat-qat təmiz dildir, ondan qat-qat mükəmməl dildir. Bu bizim ən böyük sərvətimizdir. Xalqı xalq edən, milləti millət edən ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq millət ola bilməz. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, Şərq ölkəsinin əsarəti altında olduğumuz zaman da, sovet imperiyasının tərkibində oiduğumuz zaman da biz bu dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf etdirmişik. Bu, xalqımızın, xüsusən bizim söz ustalarının, ədəbiyyatçıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin ən böyük nailiyyətidir. Doğrudur, vaxt var idi ki, biz dilimizi bugünkü kimi işlədə edə bilmirdik. Onun da səbəbləri məlumdur. Yadımdadır, ilk dəfə Yazıçılar İttifaqının qurultayında mən Azərbaycan dilində nitq söyləyəndən sonra tənəffüsə çıxdıq. Hamı gəlib məni təbrik edirdi. Ona görə

mən orada birinci növbədə Azərbaycan dilində danışdım. Dedim ki, əziz qardaşlar, axı burada elə bir şücaət yoxdur, bu bizim öz dilimizdir. Mən bunu anladım. Çünki dövlət adamları Azərbaycan dilində danışmamışdılar.Bu dil məişət dili olmuşdur və bir də ədibyyat dili olmuşdur, amma dövlət dili olmamışdır. Mənim nitqimi yazıçılar böyük bir hadisə kimi qəbul etdilər. Biz o illərdə çalışdıq ki, dilimiz inkişaf etsin. Bu sahədə çox çalışdıq. Baxmayaraq elə bir dövlətdə yaşayırdıq ki, hakim dil rus dili idi. Ancaq biz dilmizi inkişaf etdirdik. Siz, sizin əsərləriniz, ədəbiyyat olmasaydı, şübhəsiz ki, o inkişaf edə bilməzdi. İndi bizim çox gözəl dilimiz var. Burada professor Tofiq Hacıyev çıxış edərək türk yazarlarının qurultayından bir xatirəni yada saldı. Bilirsiniz, bu hadisə məni sevindirdi. Çünki biz dil haqqında müzakirə apararkən professor T.Hacıyev belə mövqedə idi ki, dilimizin adı başqa cür olmalıdır. Biz isə qəbul etdik ki, Azərbaycan dili olmalıdır. Amma onun sözləri məni ona görə sevindirdi ki, bizim Türkiyədən gələn alimlərimiz, dostlarımız dilimizin qiymətini verə biliblər. İş onda deyil ki, bunu mən danışıram, sən danışırsan, o birisi danışır. İş ondadır ki, dilimizin qiymətini verə biliblər. Həqiqətən, bizimlə dost-qardaş ölkədə - Türkiyədə də dilimizi, Azərbaycan dilini çox sevirlər. Azərbaycanda mövcud olan Azərbaycan dili çox mükəmməl dildir, çox zəngin dildir, çox inkişaf etmiş bir dildir, böyük söz ehtiyatına malik dildir. İndi baxın, dövlətin bütün sahələrində sırf Azərbaycan dilində danışırıq və lazım olan bütün xüsusi terminləri də Azərbaycan dilində ifadə edirik. Azərbaycan dili respublikamızda artıq öz yerini tutubdur. Xarici ölkələrin nümayəndələri də bizim dili bilməyərək, sadəcə onu eşidərək, dəfələrlə mənə deyiblər ki, sizin nə qədər gözəl diliniz var. Doğrudan da, bu belədir. Bəlkə də biz özümüz dilimizin gözəlliyini bir o qədər dərk edə bilmirik. Azərbaycan dili çox gözəl dildir! Bilirsiniz, mən bunu dəfələrlə demiºəm və bu gün fürsətdən istifadə edib yenə də deyirəm: biz türkdilli xalqların ailəsinə mənsub olan xalqıq. Ancaq bunun çox şaxələri var. Bunun bir şaxəsi də Azərbaycan dilidir. Biz bunu təsdiq etmişik və bu artıq bütün ictimaiyyət tərəfindən qəbul olunubdur. Azərbaycan dilini daha da zənginləşdirmək, daha da inkişaf etdirmək sizin ən müqəddəs

borcunuzdur. Ancaq biz dünyada öz dilimizlə tək yaşayırıq. Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etmətiyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir. Bununla yanaşı, biz çalışmalıyıq ki, məktəbiərimizdə, universitetlərimizdə gənclərimiz bir neçə dil öyrənsinlər. Mütləq öyrənməlidirlər. Biz artıq dünyaya qovuşmuşuqsa, dünya birliyinə daxil olmuşuqsa, gərək insanlarımız bir neçə dil bilsinlər – ingilis dilini də bilsinlər, rus dilini də bilsinlər, fransız dilini də bilsinlər. Bunu yasaq etmək olmaz. Onun qarşısını almaq lazım deyil. Amma birinci növbədə öz ana dilini bilməlidirlər. Bəli, Azərbaycanda indi də insanlar var ki, əsasən rus dilində danşırlar, Azərbaycan dilində danışmırlar. Bizim dövlət orqanlarında da beləəri var. Mən dəfələrlə xəbərdarlıq etmişəm ki, Azərbaycan dilini öyrənin, öyrənməsəniz, işdən çıxaracağam. Professor Hacıyev mənə deyir ki, siz Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin işçilərni məcbur edin, onlar Azərbaycan dilini öyrənsinlər. Mən öz azərbaycanlılarımızı məcbur edə bilmirəm ki, Azərbaycan dilini öyrənsinlər. Amma sizə deyim ki, onlar artıq öyrənirlər. Xarici ölkələrin respublikamızda olan səfirləri Azərbaycan dilini artıq öyrənirlər. Onlar mənimlə görüşəndə çalışırlar ki, Azərbaycan dilində danışsınlar. Mən də bunlara çox sevinirəm. Hətta Rusiyanın səfiri hörmətli cənab Bloxin burada oturubdur – o, Azərbaycan dilini öyrənir, özü də çox yaxşı öyrənir. Budur bizim müstəqilliyimizin nəticəsi. Vaxtilə buraya, mərkəzdən Azərbaycan Kommunist Partiyasının II katibi vəzifəsinə rus millətindən olan adamlar gəlirdi. Mən onlara Azərbaycan dilini öyrədə bilmirdim. Onlara neçə dəfə deyirdim ki, Azərbaycan dilini öyrənin, ancaq öyrənmək istəmirdilər. Amma bu gün Rusiyanın səfiri öyrənir, Amerikanın səfiri öyrənir, Fransanın səfiri öyrənir, İngiltərənin səfiri öyrənir. Bunların hamısı böyük hadisədir, nailiyyətdir. O ki, qaldı şirkətlərdə hansı dildə danışmaq məsələsinə, bəli, onlar öz işlərini aparmaq üçün o dilləri bilən adamları işə qəbul edirlər. Amma mən deyə bilmərəm ki, sən öz işini ingilis dilində aparırsan, Azərbaycan dilində apar. O öz şirkəti ilə yazışma aparır, başqa sənədlər var və s. Bunu öz dilində aparmalıdır. Eyni zamanda, sizə deyə bilərəm ki,

o şirkətin nümayəndələri mənə yazdıqları məktubları iki dildə – həm öz dillərində, həm də Azərbaycan dilində yazırlar. Yəni onların çox yaxşı tərcüməçiləri var. Mən hərdən fikir verirəm çox dəqiq tərcümə edirlər. Onlar məktubu mənə iki dildə göndərirlər və bəzən də özləri mənə təklif edirlər ki, dərhal bunu oxuya bilim. Beləliklə, görürsünüz, dil məsələsi ilə əlaqədar nə qədər məsələlər meydana çıxır. Ancaq yenə də ən əsas nəticə ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun!" (H.Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı, Bakı, 1999, s. 442-446).

H.Əliyevin dil siyasətində sərhəd məhdudiyyəti yoxdur. XXI əsr dünya türklərinin lideri, ağsaqqalı sayılan H.Əliyev təkcə Azərbaycan dilinin qayğısına qalmaqla kifayətlənmir, o, müasir türk xalqlarını yaxınlaşdırmaq, onlar arasında mənəvi, mədəni, iqtisadi bağlılığı daha da dərinləşdirmək üçün çox işlər görür. Onun xaricdə və respublikamızda türk xalqlarının nümayəndələri ilə görüşlərində özünəməxsus yüksək bir mədəniyyət və diplomatik gedişlə dil siyasətini necə həyata keçirdiyini, onları saf amal uğrunda birliyə çağırdığını görürük, duyuruq və hiss edirik. H.Əliyev 6 fevral 2003-cü ildə Bakı şəhərində TÜRKSOY təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirləri Daimi Şurasının 19-cu toplantısının iştirakçılarını qəbul edərkən türk xalqlarının birliyi ilə bağlı olan çox mühüm məqamı görün necə də özünəməxsus dillə iştirakçıların diqqətinə çatdırır: "...Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın, insani əlaqələrin inkişaf etdirilməsi vacib məsələdir. Ancaq bunların hamısının kökündə mədəniyyət, dil, bizim adət-ənənələrimiz durur. Bizi bir-birimizə bağlayan nədir? Bu, dilimizin eyni kökdən olmasıdır. Düzdür, bəziləri bir-birlərini başa düşmürlər, amma biz dilimizə görə bir kökdən gəlmiş xalqlarıq. İkincisi, bizim müstəqil mədəniyyətimiz, ənənələrimiz, müştərək mənəvi dəyərlərimizdir. Bunlar türkdilli xalqları həmişə, əsrlər boyu bir-biri ilə bağlayıb, birləşdirib, bir-biri ilə yaxınlaşdırıbdır. Sonra rus imperatorluğu, ondan sonra isə sovet imperatorluğu dövründə biz bunları itirmə-

dik, ancaq bir-birimizdən bir qədər aralandıq. Doğrudur, tamam aralanmadıq... get-gedə millətlər əriyib gedirdi, olacaqdı ümumi sovet xalqı. Sovet xalqı. Bunlar da hamısı – Elçin, Polad, Fatma xanım... sovet xalqının adamları. O qədər “sovet xalqı” olublar ki, bəzən öz dillərini də yaddan çıxarıblar. Amma imperatorluq dağıldı, biz müstəqil olduq. Onda anladıq ki, bizim hələ babalarımız vaxtilə həmişə bir yerdə olublar, bir kökdən gəliblər, bir yerdə vuruşublar” (“Azərbaycan” qəzeti, 8 fevral 2003-cü il).

Heydər Əliyev nümayəndə heyətlərinə etdiyi müraciətdə türk xalqlarının birliyinin vacibliyini, əhəmiyyətini, vahid bir dilə malik olmalarını başqa bir üslubda, xüsusi deyimlə belə nəql edir: “Mən hələ 1948-1950 ci illərdə Leninqradda oxumuşam. Xakasiyadan bir nəfər mənimlə oxuyurdu. Ondan soruşdum ki, Xakasiyada yaşayanlar kimlərdir. Hansı millətlərdir, müsəlmandırlarmı? Türkdürlərmi? O, özü bunu izah edə bilmirdi”. Söhbətin bu məqamında Baş Nazirin müavini Elçin Əfəndiyev tələsir, qeyri-dəqiq, natamam, çaşdırıcı replika verir: “Onlar şamandırlar”. Heydər Əliyev soyuqqanlılıqla və təmkinlə onun replikasının yerinə düşmədiyini, verilən cavabın qonaqları çaşdıra biləcəyini duyub deyir: “Şaman olsalar da, türkdürlər. Türklər də şamandır”. Natiq bundan sonra özünün diplomatik, siyasi gedişlərini maraqlı, yığcam, sadə və elmi əsaslarla davam etdirir. O dövrdə Azərbaycan Respublikası ilə o qədər də isti münasibətdə olmayan qonşu türkdilli respublikalardan birini nəzərdə tutaraq, XXI əsrin çalxalandığı bir zamanda türk yanğısı ilə görün fikirlərini necə açıqlayır: “Mən sizin təşkilatın işindən çox razıyam. Təəssüf edirəm ki, bəzi cümhuriyyətlərdən gələn yoxdur. Təkcə Türkmənistan nümayəndəsinin gəlməsi böyük bayramdır. Yaxşı bilirəm ki, Türkmənistan nümayəndələri çox yerə getmirlər. Amma əgər Türkmənistan nümayəndələri Azərbaycana gəlibsə, bu mənim dostum, qardaşım, Türkmənbaşı Saparmurad Niyazovun Azərbaycan-Türkmənistan dostluğuna olan sədaqətidir. Doğrudurmu?” (“Azərbaycan” qəzeti, 8 fevral 2003-cü il).

Necə deyərlər, bu yerdə şərhə ehtiyac yoxdur! Çıxışdakı məntiqin, məna yükünün rəngarəngliyi qarşısında heyran qalırsan. Tatarıstan Respublikasının mədəniyyət naziri İldus Tarxanov “bi-

zim türk dünyasının, türk xalqlarının böyüklüyü ondadır ki, bizim müştərək mədəniyyətimiz, dilimiz var. Ona görə də, biz birlikdə daha güclü olarıq" – deməsindən sonra Ulu Öndər mövzuyla bağlı fikirlərini və düşüncələrini bölüşməyin yetişdiyini duyaraq illərlə beynində, qəlbində gəzdirdiyi fikirləri müasir Türk dünyasının lideri və ağsaqqalı kimi türk qardaşlarımıza belə açıqlayır: "Düz deyirsiniz. Siz bunu yaxşı bilirsiniz. Ancaq mən bu fürsətdən istifadə edərək bir də demək istəyirəm ki, milləti yaşatmaq və millətin indiyə qədər olduğu kimi əzilməsi imkanlarının qarşısını gələcəkdə almaq üçün dilimizi qorumalıyıq, indi türkdilli millətlərin dillərində bir qədər fərq var. Amma bu dillərin kökü birdir. Mən belə düşünmürəm ki, biz gərək dilimizi tatar dilinə oxşadaq. Yaxud da qırğızlar dillərini bizim dilə oxşatsınlar. Yox. Əsrlər boyu dillərimiz belə yaranıbdır. Amma eyni zamanda dilin işlənməsi mümükün oimadığına görə, bizim dillərimiz lazımı qədər inkişaf edə bilməyibdir. Ona görə də, mən Azərbaycan dili haqqında fərman verdim. Azərbaycanda latın əlifbasına keçmək barədə fərman verdim və onun yerinə yetirilməsini təmin etdim. Azərbaycan dilinin bundan sonra da inkişaf etməsi mənim həyatımın ən birinci vəzifəsidir. Çünki millətin dilini əlindən alsan, onu öz dilindən məhrum etsən, o millət çox şey itirər. Amma millətin öz doğma dili, ana dili olanda onu heç nə dəyişdirə bilməz. Allaha şükürlər olsun ki, bizim Azərbaycan dili çox mükəmməlləşib, çox genişlənibdir. Dilimizin çox böyük lüğət ehtiyatı var. Bizim Azərbaycan dili şeir dilidir. Yadımdadır, mən bir-iki dəfə burada, ya da Türkiyədə toplantılarda nitq söyləyəndən sonra dostum Süleyman Dəmirəl mənə deyirdi ki, sən şeir oxudun. Deyirdim ki, yox mən nitq söyləyirdim. O deyirdi ki, amma Azərbaycan dili o qədər şeir dilidir ki, bəzən fərqinə varmaq olmur ki, nitq söyləyirsən, yaxud şeir deyirsən. Eləcə də Anadolu türk dili. Anadolu türk dili də vaxtilə çox əzablar çəkibdir. Osmanlı im-peratorluğunda sarayda fars dili, ərəb dili işlənirdi. Türkiyədə türk dilinin inkişaf etdirilməsi böyük Atatürkün adı ilə bağlıdır. Bu günkü türk dilinin yaranması böyük Atatürkün xidmətləridir. Bilmirəm, siz bunu demisiniz, yoxsa yox, mən Azərbaycanda Atatürk Mərkəzi yaratmışam. Çünki Atatürk təkcə Anadolu türklərinin

deyil, o bizim hamımızındır. Mən Anadolu türk dilinin nə qədər ağır vəziyyətdə olduğunu bilirdim. Əgər Atatürk dil haqqında qərarlar qəbul etməsəydi, bu gün belə gözəl Anadolu türkcəsi olmazdı. Ona görə də dil, dil, bir də dil... Dlli inkişaf etdirməliyik. Mən demişəm və bu gün də deyirəm. Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan. Elədir, yoxsa yox? Mən bunu sizə ona görə deyirəm ki, dili inkişaf etdirmək TÜRKSOY-un əsas vəzifələrlndən biridir. Dilimizi bir-birinə bağlamaq, yaxud da ki, bənzətmək lazım deyildir. Məsələn, türkmənlərin danışığının bir qismini mən başa düşürəm. Amma bir qismini başa düşmürəm. Eləcə də siz. Elədirmi? Türkmən və Azərbaycan dilləri bir-birinə daha da yaxındır. Türk dili və Azərbaycan dili eyni şeydir" ("Azərbaycan" qəzeti, 8 fevral 2003-cü il).

Azərbaycan dilinə qayğı, onu qorumaq, inkişaf etdirmək, dilimizin keşiyini çəkmək prezident Heydər ƏIiyevin apardığı dövlət siyasətinin ən mühüm tərkib hissəsi olmuşdur. Azərbaycan dilinin tətbiqi, qorunması, inkişafı ilə bağlı Heydər ƏIiyevın XXI əsrdə Azərbaycan xalqına yadigar qoymaq istədiyi ideyalar kifayət qədərdir. Bu ideyaların həyata keçirilməsi indi ziyalılarımızın əlindədir. Bu yolda atılan hər bir addım ədəbi dilimizin inkişafı və çiçəklənməsinə yol açır.

## Dilimizin tarixindən səhifələr

Azərbaycan dili və onu tədqiq edərək öyrənən dilçilik elmi dünya, ərəb və fars dilçiliyi zəminində meydana gəlmiş və onların ənənələrinə söykənmişdir. Dilçiliyimizin ilkin inkişaf mərhələsində Şərq dilçiliyinin rolu olduğu kimi, tarixi şəraitin də rolu inkaredilməzdir. Dilimizdə islamiyyətdən əvvəlki dilçilik fikirlərinin yaranması və bununla bağlı olan ilkin qaynaqlar bizə gəlib çatmamışdır. İslamiyyətin ilk illərində ərəb nüfuzu güclü olduğu üçün başqa dillərə maraq o qədər də güclü deyildi. Belə bir hal təxminən iki əsr davam etmişdir. Ərəb dilinin görkəmli tədqiqatçılarından bi-

ri olan A.Zahidi bu dövrü belə səciyyələndirir: "İslamın meydana gəlməsi ilə başlanan birinci dövrdə ərəblər bir sıra ölkələri işğal etdikləri kimi, türklərin yerləşdikləri yerlərin də bir hissəsini işğal etmişdilər. Təqribən bir neçə əsr davam edən bu müddətdə ərəb dili türk, fars və digər dillərə öz güclü təsirini göstərmişdi... Birinci dövrün tamamilə əksinə olaraq, ikinci dövrdə türklərin arasıkəsilmədən ərəb ölkələrinə axını, xilafət ordusunda və sarayda mühüm vəzifələr tutması ilə başlanır" (Zahidi A.Müasir ərəb diliidə türk sözləri. B., 1977, səh.3).

Bu fikrə prof. Ə.M.Dəmirçizadədə də rast gəlinir (Dəmirçizadə Ə.M. Ədəbi dilimizin təşəkkülündə Füzuli mərhələsi. Füzuli (məqalələr məcmuəsi). B., 1958, səh.27). Ərəb nüfuzunun zəifləməsi Azərbaycan türkcəsinin də nüfuzunun artması ilə nəticələnmişdi. Ərəb xilafətinin zəifləməsi və ölkədə türk nüfuzunun güclənməsi türk dilinə marağın artması və Türkiyə-Azərbaycan alimlərinin tədqiqatlarının genişlənməsi ilə müşayiət edilirdi. Akademik Z.M.Bünyadov və professor V.İ.Aslanov həmin dövrü qiymətləndirərək belə yazırlar: "Ərəb ölkələrində türk dilinə maraq türklərin – səlcuqların xilafətə axınından çox əvvəl vardı. Ərəb xilafətində türk dilinin öyrənilməsinin başlanmasını IX əsrə aid etmək lazımdır. Məhz bu zaman Abbasilər öz silahlı qüvvələrinə saysız-hesabsız sayda türkləri dəvət etdilər. Xəlifə Mötəsim dövründə (833-847) orduda 70 mindən çox türk xidmət edirdi (Bünyadov Z.M., Aslanov V.İ. Əbu Həyyan haqqında bir neçə söz. (Əsirəddin Əbu Həyyan əl-Əndəlusinin "Kitabu-l-idrak Li-Lisani-l-ətrak" kitabına ön söz). B., 1992, səh. 3).

Bu dövrdə – X əsrdən başlayaraq Azərbaycan alimləri Şərqə ya dəvət olunur, ya da köçüb islam şərqinin məşhur şəhərlərində elmi tədqiqat işləri aparır, o zamankı ali məktəblərdə, mədrəsələrdə elmin bu və ya digər sahələrinə aid mühazirələr oxuyurdular. Akad. Z.M.Bünyadov Azərbaycan atabəyləri dövründə elmin, maarifin və mədəniyyətin inkişafından bəhs edərək yazır: "Mənbələr çoxlu Azərbaycan alimlərinin təkcə Azərbaycan şəhərlərində deyil, Bağdad və Qahirə şəhərlərində də biz indi təhsil müəssisəsi adlandırdığımız mədrəsələrdə işlədikləri haqqında məlumat verir" (Буниятов

З.М. Государство Атабеков Азербайджана. Б., 1978, səh.234). Müəllif belə alimlərdən 14-nün adını çəkib, onlar haqqında qısa məlumat verir. Onlardan 7-si xilafətin paytaxtı olan Bağdad şəhərindəki məşhur "ən-Nizamiyyə" mədrəsəsində, qalanları isə Dəməşq, Mosul, Qahirə və s. bu kimi şəhərlərdə Azərbaycan elmini təmsil etmişlər.

## Ortaq başlanğıc və intibah dövrü

Azərbaycan dilçiliyi həmişə ümumi türkologiyanın tərkib hissəsi olmuş, onun aparıcı qollarından birini təşkil etmişdir. Türkologiya atrıq ümumi dilçiliyin müstəqil və əhəmiyyətli bir qolunu təşkil edir.

Türk dilçiliyinin banisi Mahmud ibn-əl Hüseyn ibn Məhəmməd əl-Kaşqari sayılır. XI əsrdə yaşayıb yaradan alim tanış olduğu 20 türk qəbiləsinin dil materiallarını müqayisəli şəkildə tədqiq edərək dilçilik elmində dilin müqayisə metodunun əsasını qoymuşdur. Mahmud Kaşqarinin elm aləminə iki əsəri məlumdur. Təəssüf ki, onun "Kitabu cəvahiru-l-nəhv Fi Luğati-t-türk" "Türk dillərinin mötəbər sintaksisi" adlı əsəri hələ də əldə edilməmişdir. Məşhür "Kitabu divani Lüğəti-t-türk" adlı əsəri isə uzun müddət əlyazma şəklində qalmış və müəllifin ana dilinə tərcümə edilməmiıodir. Yalnəz 1917-ci ildə Kilisli mьəllim Rifət əsəri tьrkcəyə tərcьmə etmişdir. 1928-ci ildə Karl Brokelman onu alman dilinə, 1960-63-cü illərdə isə özbək alimi Saleh Mütəllibov özbək dilinə tərcümə etmişlər. Hazırda türk dillərinin ən birinci, mötəbər mənbəyi kimi tanınmış bu əsər türkoloqlarımızın tez-tez müraciət etdikləri mənbədir.

Əsər üzərində geniş tədqiqat aparan Ə.M.Dəmirçizadə Kilisli müəllim Rüfətin və başqalarının nəşrinə deyil, əsərin ərəbcə variantına müraciət edərək 20 türk qəbiləsinin adlarını verir: "Əsil türklər 20 qəbilədən ibarətdir. Mən onları istər müsəlman, istərsə də bütpərəst olsun, sıra ilə Rum (indiki Türkiyə – A.B.) yaxınlığından ta şərqə qədər sadalayacağam. Əvvəla Rum yaxınlığından birinci qəbilə Beçənək, sonra Qıfçaq, Oğuz, Yemək, Başqırt, Basmıl, sonra Qay, sonra Yabaqu, sonra Tatar, sonra Qırğız – Qırğızlar Çin yaxınlığındadır. Bu

qəbilələrin hamısı Rum yaxınlığından Şərqə doğru sıralanmışlar. Sonra Cəkil, sonra Toxsı, sonra Yağma, sonra İqrak, sonra Caruk, sonra Cumul, sonra Uyğur, sonra Tankut, sonra Xitay – yəni Çin, sonra Tancaq – yəni Maçin. Bu qəbilələr Şimal ilə Cənub arasında məskunlaşmışlar (Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. B., 1979, səh.54; Кононов В.И. Махмуд Кашкари и его "Дивану лугат ит-турк" журн. "Советская тюркология". № 1, 1972 , səh.13).

B.V.Çobanzadə hələ 1924-cü ildə yazırdı: "Abbasi Xilafəti dövründə Xəlifə Əbdullah ibn Məhəmməd əl-Müqtədi biƏmrüllah zamanında (1075–1094) Mahmud ibn əl-Hüseynin "Lüğətu-t-türk" adındakı əsəri türk lisanının qaidələrini və lüğətini ərəbcə izah edir. Müəllif kitabının dibaçəsində kəndisinin türk, türkmən, oğuz, çəki-çəkil, yəğmayi, qırğız lüğətini və qafiyəsini, yəni dillərini və ədəbiyyatını bildiyini söyləyir. Buxara və Nişapurda eşitdiyi şöylə bir hadisəni zikr edir: "Türkcə öyrəniniz, çünki türklər uzun müddət hökm surəcəklər. Dövlət günəşinin türklərin simasında, türk bürcündə zühür etdiyi bir zamanda M.Kaşqari türkcə öyrənməyi hər kəsə vacib və lazım bilir" (Çobanzadə B.V. Türk-tatar lisaniyyətinə mədxəl. B., 1924, səh.144). Buna görə də M.Kaşqarinin türkcəni ərəblərə öyrətmək üçün əsərini ərəbcə yazdığını qeyd edir. "Şərqdə birinci türk sərfçisi (qrammatiki) Mahmud Kaşqari əsərini ərəbcə və ərəblərə türkcəni öyrətmək niyyətilə yazmışdır. Bunun arxasınca gələn Cəmaləddin ibn Mühənna, Məhəmməd ibn Qeys kimi müəlliflər də eyni yoldan eyni məqsədlə keçmişdir (Çobanzadə B.V. İstilah terminoloji işləri. "Azərbaycanı öyrənmə yolu" jurn. 1930, №4-5, səh.48).

Xivəli Əbul Qasim Mahmud bin Ömər əz-Zəməxşərinin (1075–1114) "Müqaddimatu-l-ədəb" əsəri də türkoloji leksikoqrafiya tarixində əhəmiyyətli mənbələrdən biri rolunu oynamışdır.

Orta əsrlərdə türkologiyanın inkişafından danışarkən Əsirəddin Məhəmməd bin Yusif Əbu Həyyan əl-Qərnati əl-Əndəlusu haqqında da mütləq bəhs etmək lazımdır. Q.K.Bağırov alim haqqında yazır: "Ərəb filoloqu Əbu Həyyanın qıpçaq dilinin xüsusiyyətlərini əks etdirən "Kitabu idraki-lisani-l-ətrak" "Türk dilini anlamaq ba-

rəsində kitab" əsəri də XIV əsrdə ərəb filoloqlarının türk dillərinə aid yazdıqları əsərlər sırasına daxildir" (Bağırov Q.K. Azərbaycan dilində fellərin leksik semantik inkişafı. B., 1971, səh.13). Görkəmli şərqşünas alimimiz V.M.Məmmədəliyev onun haqqında yazır: "...Əbu Həyyan əl-Qərnati əl-Əndəlusi 1256-cı ildə Qrenadada doğulub, 1344-cü ildə Qahirədə vəfat etmişdir. O, İbn Malikdən sonra Əndəlüs məktəbinin ən görkəmli nümayəndəsi sayılır... Əbu Həyyan eyni zamanda türk, fars dillərinin qrammatikasına aid əsər yazan ilk ərəb dilçilərindən biridir. Onun "Kitabu idraki lisani-l-ətrak" əsəri İstanbulda bir neçə dəfə nəşr olunmuşdur (Məmmədəliyev V.M. Ərəb dilçiliyi. B., 1985, səh.254–255).

Türkologiya tarixindən bəhs edərkən Əs-Seyyid Camaləddin ibn Mühənna haqqında danışmamaq mümkün deyil. O, özünün məşhur "Kitabu-haliyyəti-l-lisan" adlı əsərini yazmaqla fars, türk və monqol dilləri haqqında geniş məlumat vermişdir. B.Çobanzadə İbn Mühənnanın bu əsərindən, onun türkologiya tarixindəki əhəmiyyətindən bəhs etdikdən sonra Melioranskinin məlumatını daha da dəqiqləşdirərək yazırdı: "Bu kitab üç qismdən (fars, türk və monqol) ibarət olduğu kimi, professor Melioranskinin xəbər verdiyinə görə, bu əsərin üç nüsxəsi (Oksfordun Budliyan kitabxanasında, Berlin şəhər Kral kitabxanasında və Paris şəhərindəki milli kitabxanada) bulundu. Halbuki, digər bir nüsxəsi də Londonda bulunub.1240-cı ildə Xəlil ibn Məhəmməd ibn Yusif əl Qidnusinin istinad elədiyi bir nüsxəni "Türkcə, ərəbcə lüğət" adı ilə Hutsima 1894-cü ildə nəşr etdirmişdir (Çobanzadə B.V. Türk-tatar lisaniyyətinə mədxəl. B., 1924, səh.144).

"İbn Mühənna lüğəti" adı ilə məşhur olan əsəri 1934-cü ildə Abdulla Battal İstanbulda nəşr etdirmişdir. Abdulla Battal lüğətin ikinci hissəsinin tərcüməsini və başqa türkoloji mənbələrlə müqayisəsini vermişdir. 105 səhifədən ibarət olan bu lüğət dilçilik və dil tariximizin öyrənilməsi üçün çox mötəbər mənbələrdən biridir.

Bundan əlavə, "Əl-Qəvanin əl-kulliyyə fi zatti-l-lüğati-t-türkiyyə" adlı qrammatika məsələlərindən bəhs edən əsər də diqqəti cəlb edir. Bu əsər də görkəmli türk tədqiqatçısı Kilisli müəllim Rüfət tərəfindən 1928-ci ildə İstanbulda nəşr edilmişdir. Bu qramma-

tika kitabı 76 səhifədən ibarətdir. Əsasən Qıpçaq dilinin qrammatikasını əhatə edir.

Türk alimi Bəsim Atalayın 1945-ci ildə ərəbcədən türk dilinə tərcümə edərək İstambulda nəşr etdirdiyi, müəllifi elm aləminə məlum olmayan "Ət-tuhfətu-z-Zəkiyyə fi-l-lüğəti-t-Türkiyyə" ("Təmiz ədəbi-bədii türk dilinin nadir inciləri") əsəri də diqqəti cəlb edir. Əsər iki hissədən; üç minə qədər sözü əhatə edən lüğət və Türk dilinin qrammatikasını əhatə edən hissələrdən ibarətdir. Alim bu əsərə geniş müqəddimə də yazmışdır. Q.K.Bağırov bu əsər haqqında yazır: "Əsərin ikinci hissəsində çox zaman fonetik və leksik müqayisələrə müraciət olunmuşdur. Bəsim Atalayın fikrincə, luğət hicri 829-cu ildən tez yazılmamışdır. Əsərdə yeri gəldikcə, ərəb və qıpçaq sözlərinin müqayisəsi verilir. O (əsər) XV əsrin birinci yarısında Cəmaləddin ət-Türki adında bir ərəb alimi tərəfindən tərtib olunmuşdur. Buradan da öyrənirik ki, həmin müəllif "Lüğətu-l-Müştaq" adında başqa bir əsər də yazmışdır (Bağırov Q.K. Azərbaycan dilində fellərin leksik semantik inkişafı. B., 1971, səh.14).

Ərəblər Azərbaycanı işğal etdikdən sonra öz dillərini də yerli xalqa qəbul etdirirdilər. Buna görə də başqa ölkələrin xalqları kimi, Azərbaycan xalqı da eynilə Xilafətin əmrlərini, Qurani-Kərimi və dinin tələblərini başa düşmək məqsədilə ərəb dilini öyrənməyə başlamışdı. Orta əsrlərin ənənəvi elmi dili Şərqdə, əsasən, ərəb dili idi. Buna görə də Şərqdə elm mərkəzi kimi tanınan Bağdad, Qahirə, Dəməşq, Kufə, Bəsrə və başqa şəhərlərdə toplanmış alimlərin hamısı öz elmi araşdırmalarını ərəbcə aparırdılar. Başqa ölkələrdən – o cümlədən Azərbaycandan həmin şəhərlərə gedərək təhsil alıb, orada qalıb elmi iş aparan və ya geri qayıdan alimlər öz əsərlərini ərəbcə yazırdılar. Bu alimlər ərəb dilində tibbə, məntiqə, fəlsəfəyə, fiqhə, astranomiyaya, poetikaya, dilçiliyə və s. sahələrə çoxlu əsərlər həsr etmişlər. Əsrimizin son rübündə müxtəlif elm sahələrinə aid ərəb dilində yazan alimlərin əsərləri sistemli şəkildə tədqiq edilməyə başlanmışdır. Bu mənada Mirzə Məhəmmədəli Tərbiyət Təbrizinin (1875–1940) məşhur "Daneşməndəne Azərbaycan", Malik Mahmudovun "Ərəbcə yazmış azərbaycanlı şair və ədibləri" (Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər. VII-

XII əsrlər. B., 1983) V.M.Məmmədəliyev "Ərəb dilçiliyi" (Məmmədəliyev V.M. Ərəb dilçiliyi. B., 1985 və Nailə Ağayevanın "Orta əsrlər Azərbaycan dilçiləri" (Агаева Н.А. Азербайджанские языковеды средневековья. Б., 1990) adlı əsərlərini xüsusi qeyd etmək lazımdır. N.A.Ağayeva ilk əvvəl Məhəmməd bin Zeyd əl-Bərdəinin adını çəkərək göstərir ki, alim Bərdədə anadan olmuş, sonra Misirə köçərək uzun müddət orada yaşamışdır. Ədəb və dilçilik sahəsində görkəmli alim olmuşdur (Агаева Н.А. Азербайджанские языковеды средневековья. Б., 1990, səh.21). Əbul-Qasim ət-Təbərani 912-ci ilin aprelində Ramada şəhərində əl-Bərdəinin mühazirələrini dinləmişdir. Təəssüf ki, alimin heç bir əsəri zamanımıza qədər gəlib çatmamışdır.

Azərbaycan alimləri ərəb dilini hərtərəfli tədqiq edirdilər. X əsrdən başlayaraq azərbaycanlı alimlər ərəb dilində leksikologiyaya, qrammatikaya çoxlu əsər həsr etmiş, bir sıra elmi əsərlərə təfsir yazmışlar. Bunun sayəsində də V.M.Məmmədəliyevin qeyd etdiyi kimi, "Ərəb dilçiliyinin Azərbaycan məktəbi" yaranmışdır. Onun fikrincə "Orta əsr Azərbaycan alimləri ərəb filologiyasının, o cümlədən ərəb dilçiliyinin inkişafında mühüm rol oynamışlar. Bunlardan IX-XV əsrlərdə yaşayıb yaratmış Məhəmməd ibn Maraği, Xətib Təbrizi (1030–1109), Mahmud əz-Zəncani (?–1258), Məhəmməd bin Əhməd əl-Xuveyyi (1229–1294), Səfiəddin əl-Urməvi (1249-1323), Mahmud əl-Arrani (?–1333), Məhəmməd ət-Təbrizi əl-Qarabaği (?–1495), İbrahim əş-Şəkəvi əl-Ərəşi, Hübeyş ət-Tiflisi, Sədəddin Sədullah əl-Bərdəi, Cəmaləddin Məhəmməd əl-Ərdəbili (?–1248), Əbu Bəkr əl-Marağı və başqalarının adlarını çəkmək olar. (Məmmədəliyev V.M. Ərəb dilçiliyi. B., 1985, səh.244).

Ərəb dilçiliyi Azərbaycan məktəbinin görkəmli nümayəndələrindən biri də Əbu Zəkəriyyə Yəhya ibn Əli ibn Mühəmməd əş-Şeybani əl-Xətib ət-Təbrizidir. O, 1030-cu ildə Təbrizdə anadan olmuşdur. Xətib Təbrizi öz elmini artırmaq məqsədilə Suriyaya (Şama) gedərək dilçilik, fəlsəfə, ədəbiyyatşünaslığa aid geniş və dərin bilik qazanır (Mahmudov M. Piyada... Təbrizdən Şama qədər. B., 1980). Burada o, məşhur alim, dövrünün görkəmli filosofu Əbüləla əl-Müərridən dərs alır. Əbüləla əl-Müərri şagirdinin tarix, fəlsəfə,

poetika sahəsindəki dərin biliyini yüksək qiymətləndirir. Xətibin dilçilik sahəsində daha dərin biliyə və zəkaya malik olduğunu nəzərə alaraq Əbüləla əl-Müərri onu leksikoqrafiyanın və sintaksisin atası adlandırır. Yaqut da Xətibin ədəbiyyat və dilçilik sahəsində dərin biliyə malik olduğunu göstərir (Агаева Н.А. Азербайджанские языковеды средневековья. Б., 1990, səh.21, Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər. VII-XII əsrlər. B., 1983, səh.16).

Görkəmli Azərbaycan alimi və ədibi Mirzə Məhəmmədəli Tərbiyət Təbrizli (1875–1940) məşhur "Daneşməndəne Azərbaycan" adlı əsərində Cənubi Azərbaycandan çıxmış yüzlərlə alim və şair haqqında, o cümlədən Xətib Təbrizi barəsində müfəssəl məlumat verir. Xətibin Bağdadda Əbüləla məclisində dərs keçdiyi vaxt Təbrizdən bir qonşusunun gəlməsi və onunla azərbaycanca danışması, Əbüləlanın onların söhbətini əzbərdən deməsi haqqındakı məlum hadisəyə də M.Tərbiyət diqqəti cəlb edir. M.Tərbiyət yazır: "Xətib ərəb dili qrammatikasına aid "Əsrarül-sənə" ("Sənətkarlıq sirləri"), Əruz və qafiyə elmlərinə aid "Kitab əl-Kafi fi-l-əruz va-l-qavafi" ("Əruz və qafiyə elmlərinin yekunu"), eləcə də "İrabul-Quran" ("Quranda fleksiya məsələləri"), "Təfsirul-Quran" ("Quranın izahı"), "Məqatilul-fürsan" ("Atlıların öldürüldüyü yerlər") əsərlərinin müəllifidir (Tərbiyət M. Daneşməndane-Azərbaycan. B., 1987, səh.368).

Prof.Qaley Allahverdiyev isə "Xətib Təbrizinin " Kitab əl-Kafi fi-l-əruz va-l-qavafi" əsəri Şərq poetikasının bir məxəzi kimi" adlı namizədlik və "Xətib Təbrizinin "Şərh əl-Həmasə"si" adlı doktorluq dissertasiyaları yazaraq müdafiə etmiş, "Şərh əl-Həmasə" ilə bağlı "XI əsr Azərbaycan ədəbiyyatşünaslığı məsələləri" adlı monoqrafiyanı ərsəyə gətirmiş və onun " Kitab əl-Kafi fi-l-əruz val-qəvafi" ( " Əruz və qafiyə elmlərinin yekunu ") əsərini dilimizə tərcümə edərək nəşr etdirmişdir (Allahverdiyev Q. "Xətib Təbrizinin" "Şərh əl-Həmasə"si" əsəri. B., 1992, səh.107; Allaxverdiyev Qaley. "Trud Xatiba Tebrizi "Kitab al-Kafi fi-l-aruz va-l-kavafi" kak istoçnik po vostoçnoy poetike.Baku, İzdatelstvo Elm, 1992 qod, 133 str.; Qaley Allahverdiyev. "XI əsr Azərbaycan ədəbiyyatşünaslığı məsələləri". Bakı, Şam nəşriy-

yatı, 2004, 286 səh.; Xətib Təbrizi. “Kitab əl-Kafi fi-l-əruz va-l-qəva-fi”, Tərcüməçi f.e.d. Qaley Allahverdiyev “Əruz və qafiyə elmlərinin yekunu”. Bakı, Tural NPM, 2005, 426 səh. ).

Orta əsrlərdə də bir sıra azərbaycanlı alimlər dilçiliyə öz töhfələrini vermişlər. Əl-Hüveyyi Nasir bin Əhməd bin Bəkr Əbu əl-Qasim ən-Nəhvi (1073-1113), Ət-Tiflisi Əbu əl-Fəzl Hübeyş ibn İbrahim (XVI əsr), Əli ibn Həskəveyh ibn İbrahim Əbülhəsən Marağayi (... -1122), Əxəveyn-Qazı-Qutbəddin Məhəmməd ibn Ömər ibn Fəzl əl Fazili (1281-...), Əz-Zəncani İzzəd-din Əbu əl-Fədail Əbd əl-Vahab bin İbrahim bin Əbu əl-Məali əl-Həzrədçi (XII əsrin axırları XIII əsrin əvvəllərində yaşamışdır), Hüsaməddin Əbdülsəmin oğlu Həsən – təxəllüsü Hüsam, ləqəbi Müzəffər (XIII əsr), Şihabəddin Əbu Abdulla Məhəmməd İbn Əhməd İbn Xəlil Zülfunun Şafii Xoylu (1228-1293), Məhəmmədəli Qaradaği, Təbrizli Əmircan Məhəmmədi (XVI əsr), Təftazani (XVI əsr), İbrahim Şəbüstəri Bürhanəddin (XVI əsr), Mömin Molla Məhəmməd Fətulla ibn Hacı (XVIII əsr) bu sahədə tanınmış alimlərdəndir.

Azərbaycan alimləri ərəb dilinin qrammatik qanunlarının bilavasitə şərhi ilə yanaşı, müxtəlif əsərlərə də təfsirlər yazmışlar. İlk baxışda təfsir dərin və sistemli elmi mənbə hesab edilmir. Amma nəzərə almaq lazımdır ki, hər hansı bir əsərə şərh vermək, onu izah etmək alimdən tədqiq – şərh etdiyi obyektə-əsərə nisbətən daha dərin bilik tələb edir. Hər hansı bir əsəri şərh etmək üçün həmin əsərin özündən əlavə, onun mövzusu ətrafında geniş və dərin elmi biliyə malik olmaq lazımdır. Ərəbcə yazan Azərbaycan dilçiləri məhz belə bir yüksək səviyyədə olmuşlar. Ərəbcə-farsca, ərəbcə-türkcə lüğətlər hazırlamaq da alimdən geniş və dərin elmi bilik, səriştə tələb edir. Azərbaycan alimləri ərəb leksikoqrafiyasının inkişafına kömək edə biləcək fundamental əsərlər yaratmışlar.

XI əsrdə fars dilçiliyi sahəsində ilk addım Azərbaycanda atılmış, bu elmin əsası, demək olar ki, Azərbaycanda qoyulmuşdur (Sadıqova C., Ələsgərova T. Fars dilini tədqiq edən Azərbaycan alimləri. (X-XIX əsrin I rübü). B., 1990, səh.7).

Əgər XI əsrdə ərəbcə yazanlaın sayı farsca yazanlardan bir neçə dəfə çox idisə, XII əsrdən başlayaraq bu ənənə tərsinə çevril-

di. Belə ki, XI əsrdə bir qism yuxarıda adlarını sadaladığımız alim və şairlər ərəbcə yazırdılarsa, farsca cəmi ikicə nəfər Qətran Təbrizi və Kafi Zəfər Həmədani yazırdı. Həmin əsrdə Xəttat Nizami Təbrizi, Əbu Nəsr Mənsur ibn Mümkan Təbrizi, Əbülməzahir Hüseyn ibn Əli Təbrizi, İskafi Zəncani, Xətib Təbrizi və onlarla başqaları öz əsərlərini ərəbcə yazmışdılar. XII əsrdə isə Ömər Gənci, Yusif ibn Tahir, Eynəlqüzzat Miyanəçi, Əbülüla Gəncəvi, Əbu əl-Nizam Məhəmməd Fələki Şirvani, İzəddin Şivani, Xaqani Şirvani, Nizami Gəncəvi və başqaları da artıq farsca yazırdılar (Səfərli Ə., Yusifov X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. B., 1982, səh.42).

Farsca yazmış azərbaycanlı alim və şairlərin yaradıcılığı da ölkəmizdə sistemli şəkildə tədqiq edilmişdır. Cəmilə Sadıqova və Teyyibə Ələsgərovanın "Fars dilini tədqiq edən Azərbayçan alimləri" (XI-XX əsrlər) haqqındakı araşdırmalarında sübut edilir ki, fars dilçiliyinin əsasını Azərbaycan alimləri qoymuş və üç yüz il bu sahədə aparıcı mövqeyi əldə saxlamışlar. Həmin əsərdə oxuyuruq: "XI əsr Azərbaycan şairi Qətran Təbrizi, XIII əsrdə Azərbaycan şairi Hüsam Xoyi, Azərbaycan dövlət xadimi, tarixçisi şair Hinduşah Naxçıvani, XIV əsrdə Azərbaycan alimi, tarixçisi, dövlət xadimi Məhəmməd ibn Hinduşah Naxçıvani, XVI əsrin məşhur kalliqrafı, şair Mirzə İbrahim ibn Mirzə Şahhüseyn İsfahani, XVI əsrin görkəmli leksikoqrafı, şairi, məşhur "Əkbərnamə" adlı tarixi əsərin müəllifi Mövlana Şeyx Allahdad Feyzi ibn Əsədu-l-üləma Əlişir Sirhindi, XVI-XVIII əsrlərin görkəmli leksikoqrafları Kaşani Sürüri, Cəmaləddin Hüseyn İncu, Məhəmməd ibn Xələf Təbrizi və başqaları fars dilçiliyini zənginləşdirdilər. (Sadıqova C., Ələsgərova T. Fars dilini tədqiq edən Azərbaycan alimləri. (X-XIX əsrin I rübü). B., 1990).

Fars dilçiliyinin II dövrü XIX əsrin I rübündən XX əsrin birinci rübünə qədərki yüzillik bir zamanı əhatə edir. Bu dövrdə fars dilinin qrammatikası sistemli şəkildə – yenə azərbaycanlı alimlər tərəfindən yazılır.Hüseyn Əmid "Ketabe-Tarixe fərhənge Azərbaycan" adlı əsərində Azərbaycan alimlərinin fars dilçiliyi sahəsindəki xidmətlərindən danışaraq yazır: "Maarifin yayılması və təbliğində

İranın başqa yerlərdəki sakinlərindən daha çox azərbaycanlıların çalışdığı məlum olur. Onlar Azərbaycan xalqı üçün müasir, əzəmətli maarifin binasının əsasının qoyulmasında ən ağır və ən çətin zəhmətlərə, əziyyətlərə, xidmətlərə qatlaşmışlar".

Fars alimi Səid Nəfisi də fars dilçiliyi və ümumən filologiyası sahəsində Azərbaycan alimlərinin xidmətlərini etiraf edərək yüksək qiymətləndirir.

Farsca şeir və elmi əsər yazan ilk azərbaycanlı Qətran Təbrizidir (1012–1088). Mənbələrin verdiyi məlumata görə, Nasir Xosrov Ələvi Qətranla görüşdüyü zaman şair "Təfasir" adlı məşhur izahlı lüğətini yazırmış. Bu əsər fars dilinin ilk izahlı lüğətidir. Sözlərin misallarla verilməsi lüğətin anlaşılmasını asanlaşdırır.

Əsədinin "Müstəşhəyat", Əbu Həfs Sədin "Risalə" və Əlaəddinin "Zübdətul luğə" ("Ən yaxşı lüğət") əsərləri Qətranın "Təfasir" adlı lüğətindən bəhrələnməmiş deyildir.

Bütün bunlar göstərir ki, Qətran fars dilini nəinki yaxşı bilmiş, hətta özündən sonrakı alim və şairlərə də müsbət təsir göstərmişdir. Məşhur şərqşünas Qulamhüseyn Beqdelinin fikri ilə tam razılaşmaq lazımdır ki, Qətran Nasir Xosrova müraciət edib "Ət-təfsir" adlı izahlı lüğətinə daxil etdiyi sözlərin mənasını daha dəqiq vermək istəmişdir (Təbrizi Qətran. Divan. B., 1967, səh.5).

Cəsarətlə demək olar ki, Mahmud Kaşqarinin "Kitabi-Divani-lüğət-it-Türk"ü türkologiya sahəsində hansı rolu oynayırsa, Qətran Təbrizinin "Ət-Təfasir" adlı izahlı lüğəti də İran qrupu dillərinin tarixini, ədəbiyyatını və fars dilçiliyini öyrənmək üçün həmin rolu oynayır.

Fars-türk leksikoqrafiyası tarixində əhəmiyyətli yerlərdən birini də Hinduşah Naxçıvaninin "Əs-sihahul-əcəm" lüğəti tutur. Bu lüğət özündən əvvəl tərtib edilmiş lüğətlərə nisbətən daha zəngindir. Burada 5117 söz və onun mənası verilir.

XIV əsrin ikinci yarısından başlayaraq Azərbaycan alimlərinin dilçilik sahəsindəki fəaliyyətləri zəifləməyə başlayır. Bu hal xüsusilə XIV-XV əsrlərdə baş verən daxili üsyanlar, monqol istilası zamanı daha da güclənir. Azərbaycan alimləri çox vaxt vətəndən köçüb getməyə məcbur olurdular. Belə alimlərdən biri Baba Nemtulla Mah-

mud Naxçıvanidir. M.Naxçıvani Türkiyədə fars dilinin lüğətini yaratmışdır. Hindistanda Mahmud bəy Füsuni, İranda Məhəmmər Hüseyn ibn Xələf Təbrizi, yenə Hindistanda Əli Yusif Şirvani fars dilçiliyi sahəsində öz tədqiqatlarını davam etdimişlər (Sadıqova C., Ələsgərova T. Fars dilini tədqiq edən Azərbaycan alimləri. (X-XIX əsrin I rübü). B., 1990, səh.7).

Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub saxlamışdır. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur.

Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək aydın bir şəkildə ifadə etmək qüdrətinə malikdir. Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə etmək kamilliyinə yetişə bilmək üçün, hər hansı xalqa bir neçə minillik tarix yaşaması lazım gəlir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır.

Azərbaycan dilinin dünya dilləri arasında ən kamil nümunələrdən biri olduğunu bir çox xalqların görkəmli nümayəndələri də dönə-dönə etiraf etmişlər. Onlar bu dili XIX əsrdə Avropada geniş yayılmış fransız dili ilə müqayisə edərək, onu Avrasiyanın hər tərəfində işlək bir dil kimi yüksək qiymətləndirmişlər.Bu dil tarixən, nəinki Qafqazda yayılmış, hətta, müəyyən dövrlərdə daha geniş məkanda müxtəlif xalqların da istifadə elədikləri ümumi bir ünsiyyət vasitəsi olmuşdur.

Böyük bir mədəniyyətin yaradıcısı olan xalqımızın tarixi qədər onun dilinin təşəkkülü də olduqca qədimdir. Azərbaycan dili türk mənşəli ümumxalq canlı danışıq dili zəminində əmələ gəlib şifahi ədəbi dilə çevrilənədək və sonradan bu əsasda Azərbaycan

ədəbi dilinin yazılı qolu təşəkkül tapana qədər yüz illər boyunca mürəkkəb bir təkamül yolu keçmişdir.

Qədim və zəngin tarixə malik türk dil ailəsinin oğuz qrupuna mənsub olan Azərbaycan dilinin tarixi miladdan əvvəlki dövrlərə gedib çıxır. Ayrı-ayrı türk boy birləşmələrinin ümumi anlaşma vasitəsi olan bu dil IV-V əsrlərdən etibarən ümumxalq danışıq dili kimi fəaliyyət göstərməyə başlamışdı.

Dialekt və şivələrinin geniş Avrasiya məkanına yayılan türk xalqlarının az qala bütün dil xüsusiyyətlərini əks etdirəcək qədər azərbaycan dilinin rəngarəng və dolğun olmasının başlıca səbəbi ta qədimlərdən bu torpaqlarda etnik baxımdan eyni köklü türk etnoslarının mövcud olmasıdır. Şifahi şəkildə yayılan ilkin ədəbiyyat nümunələri – dastanlar, nağıllar, bayatılar, laylalar və sair Azərbaycan şifahi ədəbi dilinin erkən formalaşması və təkamül zərurətini yaratmışdır.

Azərbaycan ədəbi dilinin yazılı qolu da əlverişli tarixi şəraitdə ümumxalq dili əsasında təşəkkül tapmışdır. Xalq şifahi şəkildə yaratdıqlarını əbədiləşdirmək üçün sonradan onları yazıya köçürmüşdür. Bu prosesin də yazı dilinin təşəkkülü və sabitləşməsində böyük əhəmiyyəti olmuşdur. Bu baxımdan, "Kitabi-Dədə Qorqud" eposu olduqca səciyyəvidir. Abidənin bədii dilinin özünəməxsus səlisliyi bir daha göstərir ki, "Kitabi-Dədə Qorqud"un meydana çıxa bilməsi üçün Azərbaycan dili böyük tarixi-ədəbi hazırlıq mərhələsi keçməli olmuşdur.

Qaynağını uzaq keçmişdən alan Azərbaycan dilinin ilk və ən qədim yazılı nümunələri günümüzədək gəlib çatmasa belə, ölkəmizin ərazisində qədim əlifbaların varlığı, yazı dilimizin bədii məna kamilliyi dilimizin tarixi köklərə malik olduğunu sübut edir. Həsənoğlu, Qazi Bürhanəddin, Nəsimi kimi söz sənətkarları Azərbaycan ədəbi dilinin belə bir bünövrəsi üzərində yüksəlmişdir.

XVI əsr Azərbaycan dilinin mövqeyinin möhkəmlənməsi ilə əlamətdardır. Səfəvilər dövlətinin yaranması ilə Azərbaycan dili dövlət dili səviyyəsinə qalxaraq, rəsmi və dövlətlərarası yazışmalarda işlədilməyə başlandı. Səfəvilər dövründə Azərbaycan dili sarayda və orduda tam hakim mövqe tutaraq dövlət dili kimi rəsmi-

ləşdi. Söz ustadlarımız Şah İsmayıl Xətai və Məhəmməd Füzuli, xalq ədəbiyyatımızın ilk qüdrətli nümayəndəsi Aşıq Qurbani bu dövrdə yetişmişdir. Əgər şifahi şeir dili Qurbaninin əsərlərində əks olunmuşdursa, xalq şeiri dilinin yazılı qolu Şah İsmayıl Xətai və Məhəmməd Əmaninin yaradıcılığı ilə təmsil olunmuşdu. Füzulinin dili isə elmi və fəlsəfi olduğu qədər də xəlqi idi.

Tarixi sənədlər Azərbaycan dilinin rəsmi dövlət dili kimi XVI əsrin başlanğıcından bəri işlədildiyinə dəlalət edir. Şah İsmayılın (1487-1524) Osmanlı sultanları II Bəyazidə (1481-1512) və Sultan Səlimə (1512-1520) göndərdiyi bir sıra məktubların məhz Azərbaycan türkcəsində yazıldığı barədə kifayət qədər böyük ehtimallar mövcuddur (Əli Əkbər Vilayəti. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı,1998, Əlhuda nəşriyyatı, Tehran, İran, 421 səh.; Sah İsmayıl Səfəvi: Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, Şərq-Qərb nəşriyyatı, 399 səh.).

Dil siyasəti Azərbaycan dövlətçilik tarixinin tərkib hissəsidir. Akademik Ağamusa Axundovun təbiri ilə desək: "Şifahi ədəbi dilin gözəl nümunəsi olan "Kitabi-Dədə Qorqud" dastanları nəzərə alınarsa, xalqımızın mənəvi aləminin ifadəçisi olan ədəbi dilimizin yaşı 1000-i aşırsa, dövlət dilimizin həqiqi fəaliyyəti heç 100-ə də çatmır".

XVI əsrin əvvəllərində meydana çıxan və Azərbaycanı bütövləşdirən Səfəvilər dövlətinin əsasını türk kütləsi təşkil etdiyindən türk dili aparıcı ünsiyyət vasitəsi oldu və dövlət dili rolunu oynadı. Ərəb və fars dilləri ilə yanaşı işlədilən dilimiz sarayda daha çox istifadə edilən dil idi. Saray əyanlarının böyük əksəriyyəti türk mənşəli idilər və öz dillərində danışmağı daha üstün tuturdular. Lakin dövlət sənədləri əksərən ərəb və fars dillərində yazılırdı.

Tarixçi alim Oqtay Əfəndiyevə görə "XV əsrin ikinci yarısından ana dilinin işləkliyi genişlənir, Şah İsmayıl şeirlərini Xətai təxəllüsü ilə Azərbaycan dilində yazırdı. Türk dili Səfəvi monarxları, zadəganları arasında fars dilini həmişə sıxışdırırdı, üstün gəlirdi. Ana dili məsələləri Şah İsmayılın siyasi və dini marağına çevrilmişdi".

1685-1694-cü illərdə Azərbaycanda olmuş alman alimi Engelbert Kempfer yazırdı “Türkcənin danışıq tərzindəki vüqar və səslənmə əzəməti onun sarayda və səltənət qəsrində yeganə danışıq dili olmasına gətirib çıxarmışdır”.

Bestujev-Marlinski isə bu barədə qeyd edirdi: "Avropada fransız dili ilə olduğu kimi, Zaqafqaziya tatarlarının (türklərin) dili ilə də bütün Asiyanı tamam dolaşmaq olar". Rus şairi M.Y.Lermontov və alman səyyahı Avqust fon Haksthauzen də eyni fikirdə olmuşlar. M.Y.Lermontov dostu S.A.Rayevskiyə məktubunda yazırdı: “Tatarca (türkcə) öyrənməyə başlamışam. Avropada fransız dilini bilmək nə qədər vacibdirsə, Qafqazda və ümumiyyətlə, Asiyada da bu dili bilmək o qədər zəruridir”.

Yaxın və Orta Şərqdə qüdrətli bir xanədan olan Səfəvilər dövlətində (1501-1736) Azərbaycan dili rəsmi dövlət dili səviyyəsinə yüksəlmişdi. Azərbaycan dili sarayda və orduda hakim idi. XVI əsrin ortalarına yaxın dövlətin 74 əmirindən 69-u azərbaycanlı idi. Hərbi komandanlıq azərbaycanlıların əlində cəmlənmişdi. Dövlət fərmanları azərbaycanlıların məskunlaşdığı vilayətlərə Azərbaycan dilində, farsların məskunlaşdığı vilayətlərə fars dilində göndərilirdi. Mədrəsələrdə ərəb, fars dilləri ilə yanaşı, Azərbaycan dilində də təlim-tədris işləri aparılırdı.Onu da qeyd etməliyik ki, səfəvilərin və qacarların hakimiyyəti dövründə bütün xarici diplomatik missiyalar dövlətin paytaxtı Təbrizdə yerləşirdi.

1828-29-cu illər Rusiya-Türkiyə müharibəsi zamanında, 1828-ci ildə çar I Nikolayın göstərişi ilə xalqın “türk” etnonimi dəyişdirilərək “Qafqaz tatarları”, dilinin “türk dili” adı dəyişdirilərək "tatar dili" adlandırıldı. Bu, 1918-ciilədək davam etdi. Həmin müddətdə Rusiyada xalqın və dilinin yeni adları yuxarıda göstərildiyi kimi işlədilir, Azərbaycanda isə yerli müəlliflər bəzən “türk-tatar dili”, “Azərbaycan-tatar dili” kimi ifadələrdən istifadə edirdilər”.(F.e.d. Elçin İbrahimov. Azərbaycanda dil siyasəti. “525-ci qəzet”, 27.03.2023).

XIX əsrdə Azərbaycanın ikiyə parçalanması və nəticədə xalqın iki fərqli mədəni mühitdə yaşamağa məhkum olması vəziyyəti kökündən dəyişdirdi. Müstəmləkəçilik siyasəti ilə yanaşı, Rusiya-

nın Şimali Azərbaycanda mədəniləşdirici rolu başqa elm sahələrinin, o cümlədən dilçiliyin də inkişafına zəmin yaratdı. XIX əsrin ortalarından etibarən Azərbaycan dilinə aid bir sıra dərsliklər və dərs vəsaitləri yazılıb nəşr olundu. Milli maarifçi ziyalılar ana dilini öyrənməyin, onu qoruyub saxlamağın ən əsas yolunun məktəblərdə tədrisin ana dilində aparılmasında gördüklərindən, Azərbaycan dilinə aid dərsliklər və lüğətlər yazmağa başlamışdılar. Azərbaycan dilinə dair ilk dərsliklərin yazılmasında o dövrün görkəmli maarifçiləri Mirzə Kazım bəy, Mirzə Şəfi Vazeh, Seyid Əzim Şirvani, Aleksey Çernyayevski, Mirzə Əbülhəsən bəy Vəzirov, Rəşid bəy Əfəndiyev, Sultan Məcid Qənizadə, Məmmədtağı Sidqi, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Abdulla Şaiq və digərlərinin xidmətlərini qeyd etmək lazımdır.

Getdikcə dövrün tələbinə uyğun olaraq Azərbaycan dilinin istifadə dairəsi də genişlənmiş, onun tətbiqinin və inkişafının elmi əsaslar üzərində aparılması ehtiyacı meydana çıxmışdı. Rusca-azərbaycanca və azərbaycanca-rusca lüğətlər, təcrübi-tədris kitabları nəşr olunmuşdu. Bu dövrdən başlayaraq Azərbaycan ədəbi dilinin normalarının müəyyənləşməsində nəzəri-dilçilik ideyaları meydana gəlməyə başlamışdı..

XIX əsrdə dram, satira, realist nəsr dili yarandı. Mətbuat dili də bu əsrin məhsuludur. "Əkinçi"dən başlayaraq yaranmış milli mətbuat bu dilin inkişafında mühüm rol oynamışdır.

XX yüzillik isə Azərbaycan ədəbi dilinin ən sürətli tərəqqisi və çiçəklənməsi dövrüdür. Ədəbi dil məsələsi hələ əsrin əvvəlindən ictimai-siyasi mübarizənin tərkib hissəsi olmuşdur. Həmin dövrdə ana dili kitabları hazırlanmış, dərsliklər buraxılmış, müntəxəbatlar tərtib olunmuşdur. Azərbaycan dilinin səs quruluşuna və qrammatik sisteminə dair kitablar yazılmışdır.

Mətbuat ana dili, ədəbi dil uğrunda mübarizənin önündə gedirdi. Ədəbi dil normasının müəyyənləşməsində bütün görkəmli ziyalılar iştirak edirdilər. Xalq dili xəzinəsinin qapıları "Molla Nəsrəddin" vasitəsilə ədəbi dilin üzünə açılırdı. Bu dövrdə yaranan səhnə sənəti də yeni milli-mədəni şəraitdə ədəbi dilə bədii nitq vasitəsilə öz töhfəsini vermişdir.

Ana dilinin taleyinə heç bir ziyalının laqeyd qalmadığı bu dövrdə Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyov, Ömər Faiq Nemanzadə kimi görkəmli söz ustaları Azərbaycan dilinin saflığı və onun yad ünsürlərdən qorunması uğrunda fədakarcasına mübarizə aparırdılar.

Azərbaycan dilçiliyi tarixində dilçi olmayan, lakin bu sahədə mütərəqqi rol oynayan alim və ziyalılardan M.F.Axundzadənin (1812-1878), A.Bakıxanovun (1794-1847), H.B.Zərdabinin (1842-1907), C.Məmmədquluzadənin (1866-1932), N.Nərimanovun(1870-1925), Ü.Hacıbəyovun (1885-1948) və digərlərinin adını çəkmək olar.

Yalnız 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Azərbaycan dilinin geniş tətbiq olunması yolunda böyük imkanlar açıldı. Bu sahədə bəzi addımlar atılsa da, gənc respublikanın ömrünün qısa olması Azərbaycan dilinin cəmiyyətdə dövlət dili kimi mövqelərinin tam bərqərar edilməsinə imkan vermədi.

Hər bir dövlət üçün başlıca vəzifələrdən biri təmsil etdiyi xalqın dilinin inkişaf etdirilməsinin qarantı olmasıdır.1918-ci il mayın 28-də Azərbaycanda müstəqil dövlət – Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndən sonra xalqın və dilinin adı bərpa edildi. AXC Nazirlər Şurası 1918-ci il iyunun 27-də “Dövləti lisan türkcə qəbul edilərək müvəqqətən hökumət müəssisələrdə rus lisanı istemalına müsaidə edilməsi haqqında” qərar qəbul etdi. Bu qərar Azərbaycanın dövlətçilik tarixində dövlət dili haqqında qəbul edilmiş ilk rəsmi sənəd oldu. Qərarda ana dilinin dövlət dili olacağı bildirilir, dövlət və hökumət qurumlarında rus dilindən istifadənin müvəqqəti hal olduğu diqqətə çatdırılırdı.

Azərbaycan dili dövlət dili kimi hüquqi aktlarda təsbit olunmağa başladı. O dövrdə parlamentimiz məhz Azərbaycan türkcəsindən istifadə edirdi. Başqa millətlərdən olan deputatlar ( ruslar, ermənilər və digərləri) isə parlament tərəfindən uzun müzakirələrdən sonra qəbul edilmiş xüsusi qərara uyğun olaraq rus dilində çıxış etməli idilər. Rəsmi sənədlərin hamısı ana dilində tərtib edilirdi. Azərbaycan türkcəsində olmayan sənədlərin üstündə, adətən, parla-

mentin sədr müavini Həsən bəy Ağayev belə bir məzmunda dərkənar qoyurdu: "Ərizə türkcə lisanda olmadığı üçün əncamsız qalır".

1918-ci il 27 iyun tarixli xüsusi qərara görə, iki il ərzində dövlət orqanlarının işi tamamilə ana dilində aparılmalı idi. Hətta bir sıra hallarda bu dili bilməyənlər üçün mütərcim çağırılması, işlərin Azərbaycan dilinə tərcümə olunması da nəzərdə tutulurdu. Bu qərarın Azərbaycanda ana dilinin dövlət dili olaraq işlədilməsini təmin edəcək ilk dövlət sənədi kimi tarixi qiyməti var. Milli hökumətin bu addımı dövlət rəmzlərimizin qəbul edilməsi qədər əhəmiyyətli idi. Lakin çox təəssüf ki, İstiqlal Bəyannaməsində dövlət dilinin hüquqi statusu haqqında maddə öz əksini tapmamışdı (Ayşən Sadıqli. Ümumimilli lider Heydər Əliyev və Azərbaycan dili. Bakı-Mütərcim, 2011, s.7-8.).

Qeyd edilməlidir ki, daşnak – bolşevik silahlı birləşmələrinin hələ nəzarətində olan Bakı şəhərinə köçə bilməyən ADR hökumətinin qəbul etdiyi növbəti qərar milli hökumətin dil siyasətinin ardıcıl olaraq davam etməsindən xəbər verirdi. "Birinci və ikinci dərəcə ibtidai məktəblərin, həmçinin orta təhsil müəssisələrinin milliləşdirilməsi haqqında" Nazirlər Şurasının qəbul etdiyi və dərhal icraya yönəldilən mühüm dövlət sənədi (28 avqust 1918-ci il) irəliyə doğru böyük bir addım idi. Burada ilk dəfə olaraq azərbaycanlı uşaqların doğma dillərində təhsil alma hüquqları qanuniləşdirilirdi. Hökumətin dil və təhsil ilə bağlı qəbul etdiyi qərarlar ziyalıların mənəvi dəstəyi və milli burjuaziyanın – Hacı Zeynalabdin Tağıyev, Ağa Musa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Həmidə xanım Məmmədquluzadə kimi qabaqcıl nümayəndələrinin mesenantlıq fəaliyyəti ilə gerçəkləşirdi. Vətənpərvərlik hisslərindən qidalanan digər insanlarımız bu məsələnin həyata keçməsində fəal iştirak edirdilər.

Azərbaycan Demokratik Respublikasının elan olunmasından 15 ay sonra, 1919-cu il sentyabr ayının 1-də Bakıda universitetin təsis edilməsi ilə bağlı qərarın qəbul edilməsi də milli siyasətin davamı oldu.Cəmi 23 ay yaşayan ADR böyük işlərin əsasını qoysa da bu işlər bolşeviklərin müdaxiləsi nəticəsində yarımçıq qaldı. Yeni yaradılan İnqilab Komitəsinin 8 fevral 1921-ci il tarixli əmri ilə

"Sovet idarələrində kargüzarlığın rus və türk dillərində aparılması" tətbiq edildi. Bu müstəqilliyimizi qəsb etmiş bolşevizmin "xalqların milli azadlıq uğrunda mübarizəsinin" yekunu kimi təqdim etdiyi imitasiya idi. 1924-cü il iyun ayının 27-də qəbul edilən "Respublikanın dövlət idarələrində dövlət dilini, əhalinin əksəriyyətinin və azlıqda qalan millətlərin dillərini tətbiq etmək haqqında" qərar isə kağız üzərində qaldı.

Azərbaycanda Sovet hakimiyyəti qurulmasından 17 il keçdikdən sonra, yəni 1936-cı il dekabrın 5-də SSRİ-nin yeni Konstitusiyası qəbul olundu. Bundan sonra bütün müttəfiq respublikalar da öz yeni konstitusiyalarını qəbul etdilər. Azərbaycan SSR Konstitusiyasının layihəsində Azərbaycan SSR-də dövlət dilinin türk dili olduğu haqqında maddə olsa da (20-ci maddə), 1937-ci il martın 14-də IX Fövqəladə Ümumazərbaycan sovetlər qurultayında Konstitusiya təsdiq edilərkən, həmin maddə çıxarılmışdı. Eyni zamanda, qurultayın sənədlərində xalqın "türk" adı dəyişdirilərək "azərbaycanlı", dilinin "türk dili" adı dəyişdirilərək "Azərbaycan dili" adlandırıldı". Azərbaycan SSR-in ilk Konstitusiyasında dilimizin hüquqi statusu barədə heç nə yazılmadı.

İlk Konstitusiyanın qəbulundan sonra dillə bağlı vəziyyət get-gedə pisləşməyə doğru istiqamıt götürdü.1950-ci illərdə elə bir vəziyyət yaranmışdı ki, Azərbaycan dili nəinki mərkəzi dövlət idarələrindən və ictimai təşkilatlardan tamamilə sıxışdırılıb çıxarılmışdı, hətta poçt şöbələrində Azərbaycan dilində teleqramlar qəbul edilmirdi, bəzi müəssisələrdə işçilərin Azərbaycan dilində yazdıqları ərizələr onlara qaytarılırdı.

Stalin vəfat etdikdən sonra SSRİ-də siyasi vəziyyət bir qədər yaxşılığa doğru dəyişdi. Bundan istifadə edən bir sıra sovet respublikaları öz konstitusiyalarında bəzi dəyişikliklər edə bildilər. 1956-cı ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri işləyən görkəmli yazıçı və dövlət xadimi Mirzə İbrahimovun təşəbbüsü ilə Azərbaycan rəhbərliyi Konstitusiyaya dövlət dili haqqında maddə daxil etməklə ana dilinin hüquqlarını qismən bərpa etməyi qərara aldı. Onu da qeyd etməliyik ki, Gürcüstan və Ermənistanda dövlət dili haqqında maddə 1937-ci il Konstitusiyasında saxlanılmışdı.

SSRİ Konstitusiyasında və müttəfiq respublikaların Konstitusiyalarında, həmçinin, Avropa və Asiyanın sosialist ölkələrinin konstitusiyalarında dövlət dili haqqında maddə yox idi. 1956-cı ilin avqust ayının 21-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında Sov.İKP MK-ya məlumat verilmədən (məsələ yalnız şifahi tərzdə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri K.Y.Voroşilovla razılaşdırılmışdı) "Azərbaycan SSR Konstitusiyasına (Əsas qanununa) Azərbaycan SSR-in dövlət dili barədə maddə əlavə edilməsi haqqında" qanun qəbul olundu. Bununla da, bütün sosialist ölkələri birliyi sisteminin Konstitusiyalarında dövlət dili haqqında maddə olsa da Zaqafqaziya respublikalarının əlahiddəliyi yarandı. Yeni maddədə elan olunurdu ki, "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir (151-ci maddə)".

Bu maddə ilə Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olması təsbit olunurdu. Lakin bu qərar vəziyyəti köklü şəkildə dəyişdirə bilmədi. Rəsmi sənədlərdə rus dilinin hökmranlığı yenə də davam edirdi.

**Yeni əlifba məsələsi**

Azərbaycan dili və yazısı problemi bütün ziyalıları düşündürən bir məsələ olmuşdur. M.Füzulidən başlamış bütün mütəfəkkirlər ərəb əlifbasının türk dilinə yaramadığını göstərmişdi. XIX əsrdə M.F.Axundzadə bu məsələni böyük bir hərəkata çevirdi.

Ziyalıların böyük əksəriyyəti köhnə əlifbadan birdəfəlik qurtulmağı, latın qrafikası əsasında yeni əlifbaya keçməyi istəyir və tələb edirdi. N.Nərimanovun təşəbbüsü ilə 1922-ci il yanvarın 6-da Azərbaycan ziyalılarının iclasında yeni əlifbanın zəruriliyi bildirildi və yeni əlifbaya keçmək üçün xüsusi bir komissiya yaradıldı. Həmin ilin iyul ayında komissiya Yeni Türk Əlifbası komitəsinə çevrildi. YTƏK sədri S.Ağamalıoğlu 1924-cü ildə B.Çobanzadəni Bakıya dəvət etdi.

Yeni Türk Əlifbası layihəsi üzərində qızğın iş başladı. 1925-ci il sentyabrın 15-də şərqşünüslərın Moskvada keçirilən iclası yeni

əlifbaya keçmək üçün ölkə türkoloqlarının qurultayını çağırmaq haqqında qərar qəbul etdi.

1926-cı il fevralın 26-dan martın 5-dək Bakıda birinci Ümumittifaq türkoloji qurultayı çağrıldı.Qurultaya 131 nümayəndə gəlmişdi. Qurultayın 17 iclası keçirilmiş, burada 37 məruzə dinlənilmişdi.

1928-ci ildin yanvar ayında Daşkənddə, həmin ilin dekabrında Kazanda, 1930-cu ilin mayında isə Alma-Ata şəhərində plenumlar oldu.

1929-cu ilin noyabr ayının 21-22-də Moskvada böyük əlifba sərgisi təşkil edildi. B.Çobanzadənin tərtib etdiyi 36 əlifba sərgidə nümayiş etdirildi. Onlardan 16-sı türk, 20-si başqa xalqlar üçün tərtib edilmişdi. B.Çobanzadə türklər üçün yaratdığı əlifbaya artıq türk əlifbası yox, "Şərq əlifbası" adı vermişdi. Alim bu problemə onlarla məqalə həsr etmişdi.

1928-ci ildə Azərbaycan MİK və XKS, 7 avqust 1929-cu il tarixdə isə SSRİ MİK və XKS bütün SSRİ miqyasında türkdilli xalqların yeni latın əlifbasına keçməsi haqqında qərar qəbul etdi. Qərarda deyilirdi: "SSRİ-nin bütün dövlət idarələrinə və ümumittifaq əhəmiyyətli müəssisələrinə tapşırılsın ki, türk-tatar dillərində bütün yazılı və çap işlərində, xüsusilə SSRİ hökumətinin qanunlarının nəşrində yeni latın sistemli əlifbadan istifadə etsinlər".

1929-cu ildə qəbul olunmuş latın əlifbasından Azərbaycan xalqı cəmi 10 il istifadə etdi. 1939-cu ildə heç bir ehtiyac olmadan "SSRİ xalqlarının qardaş birliyində daha yaxından iştirak etmək" bəhanəsi ilə Azərbaycan xalqına kiril əlifbasını qəbul etdirdilər. Kiril əlifbasına keçmək ideyası yuxarıdan gəldiyi üçün heç bir müqavimətə rast gəlmədi. Ziyalıların bir qismi istisna olunmaqla çoxları bu işi partiyanın yeni qayğısı kimi qəbul etdi.

Azərbaycan SSR Ali Sovetinin 1939-cu il 7-14 iyul tarixli sessiyası "Azərbaycan yazısının latın əlifbasından kiril əlifbasına keçirilməsi haqqında qanun"u müzakirə və qəbul etdi. 51 il ərzində biz məcburi olaraq kiril əlifbasından istifadə etdik.

1985-ci ilin mart plenumundan sonra xalqlar öz milli dili, yazısı və mədəniyyəti haqqında düşünməyə başladılar 1990-cı ilin

sentyabrında Azərbaycan KP MK "Azərbaycan dilinin qrafikası haqqında" məsələ müzakirə etdi. Bir neçə gün sonra Azərbaycan SSR Ali Soveti yeni əlifbaya keçməyi zəruri saydı və yeni əlifba layihəsi hazırlamaq üçün Ali Sovetin Rəyasat heyəti yanında 35 nəfərdən ibarət komissiya yaratdı. Həmin komissiya keçmişdə işlətdiyimiz latın əlifbası üzərində kiçik dəyişiklik aparmaqla onu Milli Şuranın müzakirəsinə verdi. Milli Şura həmin layihəni müzakirə edərək qəbul etdi.

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası 11 iyul 1939-cu il tarixli Azərbaycan SSR qanununu qüvvədən düşmüş hesab etdi və 1940-cı ilə qədər Azərbaycanda istifadə edilən 32 hərfdən ibarət latın qrafikalı Azərbaycan əlifbasının kiçik dəyişikliklərlə bərpa edilməsi bərada qərar qəbul etdi. 25 dekabr 1991-ci il tarixində latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında fərman imzalandı.

Lakin burada da bir sıra mübahisə doğuran hərfi işarələr mövcud idi. Əlifbaların nisbətən tez-tez dəyişməsi nəticəsində dilimizdə müxtəlif problemlər üzə çıxmışdı. Onlardan ən birincisi orfoqrafiya ilə bağlı idi. Azərbaycan dilçiliyinin bu problemi təzə deyildi. Onun tarixi kökləri neçə yüz illər əvvələ gedib çıxırdı. Türk dilində yazan hər bir adam ərəb əlifbasında düzgün yazmağın çətin olduğunu bilir. Bununla bağlı bütün türk respublikalarında düzgün təhsilin, yazmağın və oxumağın qaydalar sistemi yaradılmalıydı.

Bu zaman orfoqrafiya ilə yanaşı orfoepiya, yəni düzgün ədəbi tələffüz normaları, terminologiya, dialektologiya, leksikoqrafiya, semasiologiya, etimologiya, onamastika, toponimika, antronomika, lüğət tərkibinin genişləndirilməsi və zənginləşdirilməsi ilə bağlı digər məsələlər müzakirələrin əsas mövzularından idi.

Azərbaycan dilinin fonetikası, sintaktik kateqoriyaları və bütövlükdə qrammatikası üzərində gedən işlər vüsət aldı. Tədricən müasir dilçiliyimiz yaranmağa başladı. Müasir dilçilik dedikdə müstəqillik qazandıqdan sonrakı dövrün dilçiliyi nəzərdə tutulur.

1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan SSR Ali Soveti Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konsti-

tusiya aktını qəbul etdi. Bu hadisə xalqın qarşısında müstəqil milli inkişaf yollarını – o cümlədən dilçilik elmi üçün də yeni inkişaf perspektivləri açdı. Dilçiliyimizin milli zəmində inkişafını təmin edə biləcək əsas şərtlərdən biri olan yeni şərait yarandı. Azərbaycan dilinin artıq tam səlahiyyətli dövlət dili kimi işlədilməsi üçün əlverişli şərtlər meydana çıxdı. Lakin dövlət aparatı buna hazır olmadığı üçün işlərin əsasən rus dilində aparılması bir müddət davam etdi.

1992-ci ilin dekabr ayında Azərbaycan Respublikasında dövlət dili haqqında Qanun qəbul edildi.

**Dil siyasətimizin Heydər Əliyev epoxası**

Hər şeydən əvvəl onu qeyd etməliyik ki, dil hər bir millətin varlığını və yaşamını müəyyənləşdirən, inkişafının göstəricisi olan, milli-mənəvi dəyərlərini yaşadan ən əsas amillərdən biridir. Ana dilimiz dövlət rəmzlərimiz olan bayraq, gerb, himn qədər müqəddəsdir, uludur. Bu baxımdan hər bir millət öz dilini qorumalı və inkişaf etdirməlidir. Bununla yanaşı dil dövlətlərarası münasibətlərin qurulmasında başlıca faktorlardan biri, milli dəyərlərin ən gərəklisidir.Hər bir dövrdə dilin inkişaf etməsi və zənginləşib dolğunlaşması, tarixi şəxsiyyətlərin, qüdrətli dövlət başçılarının adı ilə də sıx bağlıdır. Zaman-zaman hər bir xalqın inkişafında və tərəqqisində müstəsna xidmətlər göstərmiş şəxsiyyətlər yetişir. “Dil hər bir millətin mənliyinin əsasıdır. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir”, – deyən Ulu Öndər Heydər Əliyev xalqımızın yetişdirdiyi ən böyük tarixi şəxsiyyətlərdən biridir. O, dilimizin incəliklərini mükəmməl bilir, dövlət idarəçiliyi sistemində işləyənlərdən də bunu tələb edirdi. Bu, dövlətə sevginin təzahürü, təsdiqi idi. Ulu Öndər dövlət idarəçiliyi sistemində çalışanlardan gündəlik işlərində ana dilindən istifadəni və tətbiqi tələb edirdi.

Heydər Əliyev xalqın layiqli övladı kimi Azərbaycan dilinə həmişə xüsusi diqqət yetirib, uzaqgörənliyi ilə onun qayğısına qalıb. O, dilimiz uğrunda həyatı boyu cəsarətlə və ardıcıllıqla mübari-

zə aparıb. Dövlət dilinə daim diqqət ayıran Ümummilli Lider alimləri, ziyalıları, bütün xalqı ana dilini dövlət dili kimi yaşatmaq uğrunda səfərbər etmiş, dillə bağlı bütün nitqləriində ona sevgisini ifadə etmişdir. Onun rəhbərliyi altında qəbul edilmiş konstitusiyamızda vətəndaşlara ana dilində oxumaq və təhsil almaq hüququ verilməsi öz əksini tapmışdır. Bu addımlar ana dilinin dövlət dili statusunu qorumaq, onu mühafizə etmək məqsədi daşıyırdı. Dilimizin inkişafına xüsusi önəm verən Umummilli Lider onun işlək olması və zənginləşməsi məqsədilə yazıçılara, şairlərə, jurnalistlərə, dilçi alimlərə yüksək diqqət və qayğı göstərir, milli dildə nəşr edilən kitabların tirajlarının artırılmasına diqqət verir, dillə bağlı müxtəlif tədbirlərdə şəxsən iştirak etməyə çalışırdı. Azərbaycan dili zaman-zaman planlı assimilyasiyalarla, hücumlarla, qəsd və repressiyalarla üzləşmişdir. Buna baxmayaraq tarix boyu Azərbaycanın dahi oğulları ana dilinin keşiyində mətanətlə dayanmış, onun təəssübünü çəkmiş, şərəfini, halal haqqını, hüquqlarını hünərlə qorumuşdur. Bu baxımdan, Azərbaycan dilinə Heydər Əliyev sevgisi dünya azərbaycanlılarına bütün dövrlər üçün nümunə ola biləcək bir örnəkdir. Doğma ana dilinin qədim tarixinə, çətin və şərəfli inkişaf yollarına, misilsiz uğurlarına dərindən bələd olan dahi dövlət xadimi Heydər Əliyev öz oğulluq və vətəndaşlıq borcunu yerinə yetirərək min illərin Dədə Qorqudlar, Füzulilər sevgisini, qayğısını dilimizə qaytardı. Onu böyük həvəslə və müdrikliklə öz qayğısı altına aldı.

Bütün bunlara görə dövlətimiz və xalqımız getdikcə öz böyük tarixinə, milli mədəniyyətinə, doğma dilinə daha çox qovuşur, onun bu özünəqayıdışla ruhən daha da güclənir, mətinləşir. Müstəqil dövlətimizin rəsmi dili statusunu almış Azərbaycan dilinin geniş tətbiqi və sərbəst inkişafı üçün münbit zəmin yaranmışdır. Tarixin müxtəlif mərhələlərində dilimizə qarşı təzyiq və təhriflərin aradan qaldırılması üçün hazırda ölkəmizdə çox əlverişli şərait yaranmışdır.Düzdür, dil öz daxili qanunları əsasında inkişaf edir, lakin onun tədqiq və tətbiqi üçün yaradılmış geniş imkanlar bu inkişafı daha sürətləndirir və gücləndirir.

1969-cu ilin yayında Azərbaycanda siyasi hakimiyyətə gələn Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycanda sovet hakimiyyəti qurulandan sonrakı müddətdə ilk dəfə Azərbaycan dilinin dövlət dili statusuna qaldırılması istiqamətində fəaliyyətə başladı.

Azərbaycan KP MK-nın 1969-cu il iyul plenumunda respublikanın rəhbəri seçilən Heydər Əliyev işə başladığı ilk gündən Azərbaycan dilinə qayğı ilə yanaşmış, onu qorumaq və inkişaf etdirmək üçün əlindən gələni əsirgəməmişdir. Doğma torpağa və ana dilinə bağli olan Ulu Öndər çıxışlarını və məruzələrini ana dilində xalqa çatdırmağa başlamışdır. O, rus dilində gözəl danışsa da doğma Azərbaycan dilinin cazibə dairəsindən heç zaman aralanmamışdır. Onun respublikanın rəhbəri kimi çalışdığı zaman atdığı hər bir addım, işlətdiyi hər bir ifadə, imza atdığı hər bir sənəd, keçirdiyi hər bir tədbir bunun canlı sübutudur.

Ulu Öndər ana dilimizin inkişafı istiqamətində fəaliyyətini bir neçə yöndə qururdu və bu sahədə həmişə özu şəxsi nümunə idi.

Qədim tarixə malik dilimiz, min illərin növbənöv burulğanlarından üzüağ çıxaraq dövrümüzə gəlib çatmış ən böyük mənəvi sərvətimizdir. Azərbaycan dili tarixi-genetik dəyərlərimizi, ruhumuzu, həyatımızın psixoloji-fəlsəfi cizgilərini yaşadan milli dəyərdir.

Hazırda dünyada 50 milyondan çox azərbaycanlı bu dildə danışır və öz milli mədəniyyəti, tarixi ilə haqlı olaraq qürur hissi keçirir. Xalqımızın laylalarını, nəğmələrini, nağıllarını, dastanlarını bu dillə qəlbinə hopdurur.

Dilimiz hazırda zəngin dillərdən biridir. Bu sərvəti tarix boyu dədə-babalarımız daim qorumuş, inkişafına və yüksəlişinə qayğı göstərmişlər. Böyük ictimai xadim və yazıçı Nəriman Nərimanov yazırdı: “Bir millət sözünü tanımayınca, hüququnu düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır. Bunların da meydana gəlməsi və tərəqqisi bizim üçün hürriyyətlə bağlıdır”.

Mütəxəssislərin fikrincə, türk dillərinin, o cümlədən Azərbaycan dilinin daxili potensialı, lüğət tərkibinin zənginliyi, qrammatik quruluşunun bütövlüyü, yad dillərə müqavimət gücü onu

ərəb və fars, o cümlədən Avropa dillərinə assimilyasiya olmaq təsirinə qarşı durmağa imkan yaratmış, gələcək nəsillərə gəlib çatmasına, müasir inkişaf səviyyəsində gərarlaşmasına səbəb olmuş, daim yaşamaq hüququ qazandırmışdır.

Dilimizə yaşam hüququ verən amillərdən biri də bu dilin olduqca həyati olmasıdır.

Azərbaycanın müstəqillik qazanmasıyla bu dilə maraq daha da artıb. Dünyanın onlarla universitetində Azərbaycan dili öyrənilir. ABŞ-ın altı (Çikaqo, Los-Ancelos, Vaşinqton, Nyu-York, San-Fransisko, Harvard) universitetinin proqramında Azərbaycan dili öyrənilir. Azərbaycan dilinə Asiya, Avropa və digər qitə ölkələrində maraq artmaqdadır. Hazırda akademik Kamal Abdullanın başçılıq etdiyi Azərbaycan Dillər Unuversitetinin digər ölkələrin təhsil ocaqları ilə qarşılıqlı olaraq bağladığı müqavilələr nəticəsində 7 ölkədə ( Serbiya, Rumınya, Çin, Macarıstan, Belarus, Rusiya, Pakistan) Azərbaycan dili və mədəniyyəti mərkəzləri açılmışdır və bu mərkəzlər daimi olaraq fəaliyyət göstərir. Universitetin daxilində müxtəlif dillərə aid 23 dil və mədəniyyət mərkəzi fəaliyyətdədir. Ümidvarıq ki, bu mərkəzlərə aid olan ölkələrin universitetlərində də dilimiz və mədəniyyətimizlə bağlı bir sıra yeni mərkəzlər açılacaqdır. Bununla bağlı danışıqlar davam etməkdədir və konkret işlər aparılmaqdadır.

Bütün dilləri, bütün xalqları sevmək və həmin xalqların mədəniyyətinə hörmət etmək lazımdır. Bu sevgi birinci növbədə azərbaycançılıq məfkurəsinin bel sütunu və hərəkətverici beyin mərkəzi olan dilimizə, onun milli ruhuna və mədəniyyətinə hörmətdən keçməlidir.

Ümummilli Liderimiz uzaqgörənliklə qeyd edirdi ki: “İndi biz dilimizdə sərbəst danışırıq və hər bir mürəkkəb fikri ifadə etməyə qadirik. Bu, böyük nailiyyətdir. Bu, iqtisadi və başqa nailiyyətlərin hamısından üstün bir nailiyyətdir ki, bizim bir millət kimi özümüzə məxsus dilimiz var və o da o qədər zəngindir ki, dünyanın hər bir hadisəsini biz öz dilimizdə ifadə edə bilirik”.

Onu da fəxrlə qeyd etməliyik ki, Heydər Əliyev o dövrdə bü cür düşünən, böyük türk xalqına mənsub olan, lakin dillə bağlı

onun kimi addımlar atmaqdan çəkinən və 70-ci illərin sonu 80-ci illərin əvvəllərində Sov.İKP MK-nın Siyasi Bürosunda (faktiki olaraq ölkə rəhbərliyində) çalışan üç türkdən – Dinmühəmməd Kunayev (qazax) və Şərəf Rəşidov (özbək) ən cavanı idi. Zaman keçdikcə bu türklərdən üçüncüsü, yəni Heydər Əliyev tədricən ön mövqeyə – təkbaşına mübarizə meydanına çıxdı və Azərbaycan dilini irəli aparmaqla, digər türklərin də öz dillərinin inkişafına qayğı ilə yanaşmasına təkan verən bir mayak oldu. Sonradan bu türkdilli dövlətlərin latın əlifbasına keçməsinə Azərbaycan bir nümunə kimi öz təsirini göstərdi.Tarixə dönən anlar, ötən onilliklər sübut etdi ki, Ulu Öndər Heydər Əliyev o mübarizə meydanında cəsarətlə döyüşdü və mənən qalib gəldi. Zaman bir daha onun seçdiyi yolun nə qədər düzgün olduğunu sübut etdi.

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin 50 illiyində doğma dilimizdə çıxış edən Ulu Öndər böyük incəliklə elmi və ədəbi ictimaiyyətin, ziyalıların diqqətini ana dilimizə yönəltdi. Belə çıxış kommunist rejimi üçün fövqəladə hadisə sayılırdı. Bu tarixi çıxış respublika rəhbərinin ziyalılara, bütün xalqa Azərbaycan dilinə qayğı və ehtiram haqda bir xəbərdarlığı idi. Bu proses sonralar milli özünüdərkdə müstəsna rol oynadı. Az keçmədi Azərbaycan dili nüfuzlu məclislərə, dövlət əhəmiyyətli tədbirlərə yol açdı. Heydər Əliyevin qayğısı sayəsində ali məktəblər üçün dördcildlik "Müasir Azərbaycan dili" dərsliyinə, "Azərbaycan dilinin dialektologiyasının əsasları" adlı dərs vəsaitinə respublika Dövlət mükafatları verildi, təhsil müəssisələrində ana dilinin tədrisinə ayrılan saatların miqdarı çoxaldı. Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə ali məktəblərə qəbul planları əhəmiyyətli dərəcədə artırıldı.

O, Sovet İttifaqının hər yerindən, həmçinin xarici ölkələrdən gəlmiş qonaqların da iştirak etdiyi möhtəşəm yubiley tədbirində mövcud standartları ilk dəfə pozdu. Ölkənin yeni gənc lideri universitet müəllim-professorlarının, tələbələrin və Moskvadan gəlmiş partiya-hökumət nümayəndələrinin qarşısında doğma ana dilində parlaq çıxışlar etdi. Ümummilli lider bu nitqi ilə respublikanın siyasi elitasına milli dilin dövlət qurumlarında tətbiqi ilə bağlı öz mesajını çatdırırdı. Bu istiqamətdə sonradan atılan addımlar onu gös-

tərirdi ki, ölkənin yeni lideri qarşıdakı vəzifənin həyata keçirilməsində ardıcıl və qətiyyətlidir.

Sonralar Ulu Öndər bu hadisəni BDU-nun 75 illiyində yada salaraq demişdi: "Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük sensasiya kimi qəbul olundu – nə cür olur ki, respublikanın rəhbəri, Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibəti ilə təbrik etdilər, minnətdarlıqlarını bildirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar doğrudan da bunu böyük bir hadisə kimi qəbul etdilər."

Heydər Əliyev sovet rejiminin qoyduğu qaydalardan çəkinməyərək "Kitabi-Dədə Qorqud"un 1300 illik ümumrespublika Yubiley tədbirlərində azərbaycanca danışmağa başladı, bununla da dilimizə sevgisini çəkinmədən nümayiş etdirdi, xalqımızın qəlbində milli ruh çırağını yenidən alovlandırdı. Onun "millətçi mövqeyi barədə" Moskvaya "donos" yazanların cəhdlərinə baxmayan Heydər Əliyevin birbaşa göstərişi ilə ali məktəblərimizdə "Ana dili və ədəbiyyatı" ixtisası üzrə tələbə qəbulunun həcmi artırıldı və qəbullarda ana dilində yazılı imtahan ən müxtəlif ixtisaslar üzrə məcburi hesab edildi.

Cəsarəti və uzaqgörənliyi sayəsində Ulu Öndərin hakimiyyətinin ilk illəri Aəzrbaycan dili və milli dilçilik elmimizlə bağlı itirilənlərin bərpası, səhvlərin, saxtakarlıqların düzəliş dövrü oldu. Bu sahələrdən biri də türkologiya idi. 30-cu illərdə Azərbaycanda qadağan edilən, arzu olunmaz "qara sahə" adlandırılan türkologiya 70-ci illərdə inkişaf dövrünə qədəm qoydu. Azərbaycanımız yenidən dünya türkologiya elminin mərkəzinə çevrildi. Sovetlər İttifaqında buraxılan yeganə "Türkologiya" jurnalı Azərbaycanda nəşr edilməyə başladı.

Professor Nizami Xudiyev çox dəqiq olaraq qeyd edir ki, Heydər Əliyevin dil siyasəti 70-ci illərin sonlarına doğru Azərbaycanda milli dil təfəkkürünün yüksəlməsinə o qədər böyük təsir göstərdi ki, bunu ancaq XVI əsrin əvvəllərində – Şah İsmayıl Xətainin hakimiyyəti dövründəki, yaxud XX əsrin əvvəllərindəki vəziyyətlə müqayisə etmək mümkün idi. Ulu Öndərin Azərbaycana, onun so-

sial-mədəni, elmi-intellektual,iqtisadi, siyasi inkişafına, milli-mənəvi intibahına həsr olunan, xalqımızın tarixində bütöv mərhələ təşkil edən fəaliyyətində milli dil siyasəti həmişə həlledici mövqe, aparıcı yer tuturdu. Onun Azərbaycan ədəbiyyatı və mədəniyyətini tam şəkildə əhatə edən dil siyasəti xalqın tarixi uğurlarına söykənərək, böyük perspektivlərə istiqamətlənmişdi. Müəyyən qədər unudulan, tarixin gizlinində xalqdan ayrı salınan milli ədəbiyyat və mədəniyyət nəhənglərinin üzə çıxarılması, bu yolla Azərbaycan dilinin böyük ədəbi yaddaşının, bədii şüurunun bərpası, dilin daxili enerjisinin min illər boyu yığılan etnik, mənəvi və ruhi potensialının oyadılması və hərəkətə gətirilməsi Heydər Əliyevin misilsiz xidmətlərindən biridir. Paytaxtımızda, ölkəmizin digər şəhər və qəsəbələrində xalqın ədəbiyyat və mədəniyyət xadimlərinə ucaltdığı çoxsaylı abidələr dilimizin haqqını və şərəfini yenidən özünə qaytardı. Yüksək səviyyədə keçirilən çoxsaylı yubileylər xalqımıza İmadəddin Nəsimiləri, Məhəmməd Füzuliləri, Molla Pənah Vaqifləri, Həsən bəy Zərdabiləri yenidən qaytarırdı...Bu tədbirlər dilimizin uğurlarını bizə çatdırır, ənənələrimizi yada salır, mühitimizi canlandırır, ümummilli intibahımıza yol göstərirdi. Ulu Öndərin dil siyasətinin elmi-konseptual əsasları sözün həqiqi mənasında Azərbaycanın qurtuluş yolunun mühüm tərkib hissəsi idi( Professor Nizami Xudiyev. "Heydər Əliyev və dil siyasətinin uğurları"

1977-ci il oktyabrın 7-də SSRİ-nin yeni Konstitusiyası qəbul edildi və sovet dövlətçilik ənənəsinə görə, müttəfiq respublikalar da öz yeni Konstitusiyalarını hazırlamalı idi. Azərbaycan SSR Konstitusiyasının mətbuatda dərc olunmuş layihəsində dövlət dili haqqında maddə yox idi. Müttəfiq respublikaların Konstitusiyalarının modeli Moskvadan verilmişdi və mərkəz dövlət dili məsələsində SSRİ daxilində Zaqafqaziya əlahiddəliyinə son qoymağı qərara almışdı. Lakin Zaqafqaziya respublikaları rəhbərlərinin prinsipial və qətiyyətli mövqeyinin, həmçinin, respublikalardakı ictimai rəyin təsiri ilə Sov.İKP MK güzəştə getmək məcburiyyətində qaldı. Hər üç respublikanın Konstitusiyalarına dövlət dili haqqında maddə daxil edildi.

1978-ci il aprelin 21-də qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasının 73-cü maddəsində "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dilinin Azərbaycan dili olduğu" elan edildi. Lakin bu sonluq əldə edilənə qədər Heydər Əliyev bir sıra açıq və gizli sədləri aradan götürməli olmuşdu.

1978-ci il aprelin 2-də Azərbaycan SSR Ali Sovetinin VII sessiyasında olkəmizin Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş məruzə ilə çıxış edərkən Ulu Öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddə aşağıdakı redaksiyada verildi: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Onu da xüsusi olaraq qeyd etməliyik ki, SSRİ dönəmində milli dillər bir növ arxa planda olduğu üçün Moskva rus dilinin hegemonluğunu saxlamağa, respublikalar isə milli dili fəallaşdırmağa çalışırdı. SSRİ Konstitusiyasının qəbulundan öncə və sonra bu proses daha da gücləndi. Milli respublikaların rəhbərləri ana dili məsələsini gündəmə gətirməkdə çəkinirdilər. Buna baxmayaraq, Ulu Öndər dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirirmiş, yeni SSRİ Konstitusiyasının layihəsi ilə bağlı keçirilən ümumxalq müzakirələrinin məcrasını lazımi istiqamətə, yəni dilimizin respublikanın dövlət dili kimi tanınmasına yönəldə bilmişdi. Onu da qeyd etməliyik ki, bu addım olduqca riskli idi və böyük cəsarət tələb edirdi.Yuxarıdan gələn təzyiqlərlə dolu çətin bir vəziyyətdə Azərbaycan dilinə dövlət dili statusunun verilməsi böyük hünər və cəsarət tələb edilən bir zamanda Heydər Əliyevin buna nail olması onun xalq qarşısında ən böyük tarixi xidmətlərindən biri idi. Ulu Öndər bununla gələcək müstəqil dövlətin milli rəmzlərindən birini rəsmiləşdirə bildi, onu azərbaycançılığın təntənəsi kimi qorudu, indiki nəslə qiymətli bir ərmağan kimi təqdim etdi. Xatırlatmalıyıq ki, Azərbaycan dilinin dövlət dili kimi Azərbaycan SSR-in Konstitusiyasına salınması zamanı qorxaqlıq və gözləmə mövqeyində dayanmağı üstün tutan yaradıcı ittifaqlara Ulu Öndər özü xəbər göndərməli olmuşdu ki, onlar bu məsələ ilə bağlı xüsusi maddə salınmasını tələb etsinlər. Yalnız bundan sonra bu təşkilatlar hərəkətə gəlmiş və Moskvanın, imperiya strukturlarının müqavimətini qırmaq mümkün olmuşdu. Konstitusi-

yaya 73-cü maddə – "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir" maddəsi salınmış, təsdiq olunmuş və tarixi fakta çevrilmişdi.

Sonralar Ulu Öndər bununla bağlı ona göstərilən təzyiqləri belə təsvir edirdi: "1978-ci ildə biz Azərbaycanın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə, Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük. Hələ 1978-ci ildə qəbul olunmuş Konstitusiyada, bir çox başqa respublikalardan fərqli olaraq, Azərbaycan dili haqqında maddə yazdıq və Azərbaycanın dövlət dilinin Azərbaycan dili olduğunu orada göstərdik. Amma bu da bizdə Azərbaycan dilinin hakim dil olmasını təmin edə bilmədi. Çünki biz böyük bir dövlətin içində idik. Bütün işlər o dildə keçirilirdi. Amma indi biz Azərbaycan dilini, bizim ana dilimizi, millətimizin dilini hakim dil etmişik və bütün dünyaya nümayiş etdiririk ki, dünyada Azərbaycan xalqı var, Azərbaycan mədəniyyəti var və bu xalqın doğma ana dili, dövlət dili – Azərbaycan dili vardır"(17 oktyabr 2001-ci il tarixdə Azərbaycan respublikasının dövlət müstəqilliyinin 10-cu ildönümünə həsr olunmuş təntənəli mərasimindəki çıxışından).

Tarixə nəzər salaq. Respublikanın SSRİ-nin tərkibində olduğu vaxtda, Azərbaycan SSR-in Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdir. Rus dilinin hakim dil olduğu Sovetlər Birliyi dönəmində buna nail olmaq qeyri-real görünürdü, lakin Heydər Əliyev dühası və cəsarəti bu məsələdə həlledici rol oynadı. Burada xüsusi vurğulamalıyıq ki, Sov.İKP MK-nın bu sahəyə məsul olan katibi Azərbaycan dilinin dövlət dili kimi Konstitusiya layihəsinə salınmasına etiraz edirdi. Hətta bəzi müttəfiq respublikaların rəhbərləri də bu məsələdə Heydər Əliyevə qarşı idilər. Tarixçi-alim M.Qasımlı öz kitabında qeyd edir ki, Ukrayna MK-nın birinci katibi Şerbitski Heydər Əliyevə qarşı çıxaraq deyirdi ki, siz konstitusiyanıza belə bir maddə yazdıqda gərək biz də dövlət dili haqqında maddə əlavə edək. Lakin Azərbaycanın rəhbəri ona bildirir ki, sizə heç kim mane olmur, böyük respublikasınız, ölkədə sizin xüsusi çəkiniz vardır, istəsəniz yaza bilərsiniz, kimsə sizə mane

olmaz. Ulu Öndərin o dövrdə xalqımız üçün necə böyük, müqəddəs iş görməsi bu gün Rusiya-Ukrayna münasibətləri fonunda daha aydın görünür. Heydər Əliyev L.İ.Brejnevə problemi əhatəli, dərin məntiqi ilə əsaslandırır və bu məsələni Azərbaycan xalqının xeyrinə həll edir. Azərbaycan dilinin Konstitusiya layihəsində əks olunması ilə yanaşı, bu layihənin 73-cü maddəsində yazılan, hüquqi cəhətdən SSRİ-nin federativ dövlətdən unitar dövlətə keçməsinə zəmin yaradan "SSRİ qanunları Azərbaycan SSR ərazisində məcburidir" maddəsi də layihədən çıxarılır.

1978-ci ildə, Azərbaycan Konstitusiyasında dilimizin dövlət dili kimi təsbit edilməsi mövcud ardıcıllığın və qətiyyətin ifadəsi oldu. Bunun səbəbləri barədə Ümummilli Liderimiz sonralar demişdir: "Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir". Bu dövr Azərbaycan dilçilik elminin fundamental və çoxşaxəli tədqiqatlara cəlb edildiyi zamanlar kimi yadda qalıb.

Heydər Əliyevin doğma dilimizlə bağlı dövlət siyasəti ölkəmizdə qarşısıalınmaz prosesə çevrilirdi. Elə həmin proseslərin nəticəsidir ki, ölkmizdə milli azadlıq hərəkatının dalğaları ilə dövlət dilinə münasibət cəmiyyət üçün prioritet istiqamətlərdən biri oldu. "Yeni Azərbaycan əlifbası layihəsinin hazırlanması haqqında", "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" qanunlar, o cümlədən 1992-ci il dekabr ayının 22-də "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Bütün bunlar 70-ci illərdən tətbiq edilən dil haqqında siyasətin məntiqi davamı kimi ortaya çıxan dövlət sənədləri olsa da, məsələyə kompleks yanaşma mövcud deyildi.

Azərbaycan dilinin dövlət dili kimi rəsmi olaraq Konstitusiyaya salınmasından sonra Ulu Öndər sovet sistemi daxilində dilimizin inkişaf etdirilməsi ilə baqlı yazıçılarımıza və yaradıcı insanlarımıza onların 12 iyun 1981-ci ildə keşirilən VII qurultayında

müvafiq tövsiyyələr vermiş, onları dilimizin saflığını qorumğa, bu böyük sərvətimizi daha da zənginləşdirməyə çağırmışdır: "Dillərin qarşılıqlı əlaqəsi həmişə faydalıdır, xüsusən bədii söz ustaları üçün... Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. Sovet hakimiyyəti illərində Azərbaycan dili görünməmiş zirvələrə qalxmış, müasir poeziyanın və nəsrin, elm və texnikanın, kargüzarlığın və fəal ictimai-siyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilmişdir. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır. Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır. Bu da respublikanın bütün ədəbiyyatçılarının, Yazıçılar İttifaqının ən mühüm vəzifələrindən biridir. Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərilməlidir. Yazıçı dilin, nitq mədəniyyətinin ədəbi normasının qanunvericisi olmalıdır. Təəssüf, elə yazıçılar var ki, bu tələblər səviyyəsində dura bilmirlər. Üstəlik ayrı-ayrı yazıçılar təkcə danışıqlarında yox, həm də əsərlərində dil xətalarına yol verirlər. Bununla əlaqədar olaraq mətbuat, radio, televiziya, teatr, kino işçilərinə, mühazirəçilərə və müəllimlərə xüsusi tələbkarlıqla yanaşmaq lazımdır. Mən ümid edirəm ki, bu problemlər sizin yaradıcılıq fəaliyyətinizdə özünün praktik həllini tapacaqdır".

1993-cü ilin iyun ayında Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə gələndən sonra dillə bağlı dövlətin siyasi xəttini elan etdi. Həmin xətt ilk dəfə Ulu Öndərin birbaşa rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında yer aldı. Suveren dövlətimizin Konstitusiyasında Azərbaycan dili milli dövlətçiliyimizin rəmzlərindən biri kimi təsbit edildi. Bu, həmin vaxtlar idi ki, ölkənin ancaq ziyalıları deyil, onların təmsil etdiyi cəmiyyətimizin özündə belə, ana dilimizin necə adlandırılması məsələsi əsas müzakirə obyektlərindən birinə çevrilmişdi. Dəfələrlə Prezident Heydər Əliyevin yanında bununla bağlı yaradıcı təşkilatların nümayəndələri, dilçi alimlər, yazıçı və şairlərin iştirakı ilə ke-

çirilən, televiziya ilə yayımlanan müzakirələr zamanı böyük vətənpərvərin məsələyə necə tarixi məsuliyyətlə, məntiqi arqumentlərlə yanaşmalarının şahidi olurduq. Ulu Öndər keçmişimizin qiymətsiz xəzinəsini yaşadanları böyük ehtiramla yad edərək deyirdi: “Biz əcdadlarımıza daim minnətdar olmalıyıq, ona görə ki, torpaqlarımız, ərazimiz cürbəcür şahlıqların, sultanlıqların, xəlifələrin, dövlətlərin əlinə keçdiyi vaxtlarda da dilimiz ölməyib, yaşayıb. Onu xalq yaşadıbdır”.

Ümummilli Liderimiz məsələnin mahiyyətini başa düşməyən bəzi populist ziyalılara izah edirdi ki, Azərbaycan dili türk dilləri ailəsinin üzvüdür və türkdilli xalqların müştərək mədəniyyətinin yaranmasında min illərlə iştirakı var, lakin bunlar xalqımızın onu səciyyələndirən digər məxsusi keyfiyyətləri inkar etmir. Bu müzakirələr bir daha böyük siyasət adamının haqlı olduğunu ortaya qoydu və o, tutduğu vəzifə ilə deyil, dərin məntiqi ilə çoxmilyonluq auditoriyası olan televiziya tamaşaçılarına üz tutdu: “Biz türkdilli xalqların ailəsinə mənsub olan bir xalqıq. Ancaq bunun çox şaxələri var. Bunun bir şaxəsi də Azərbaycan dilidir. Biz bunu təsdiq etmişik və bu, artıq bütün ictimaiyyət tərəfindən qəbul olunubdur. Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik”.

Ulu Öndər Prezident seçildikdən sonra, 1994-cü ilin avqustunda Bakı şəhərinin təhsil işçiləri qarşısındakı çıxışında məktəblərimizin milliləşməsi, latın qrafikası, dilimizin hakim dil olması ilə bağlı onlara müraciətlə bildirmişdir ki, “bizim məktəblərimiz millidir. Bilirsiniz ki, mən son vaxtlar Azərbaycanın dövlət dili, ana dili, Azərbaycan dili haqqında bir çox fərmanlar vermişəm. Azərbaycanın latın əlifbasına, latın qrafikasına keçməsi haqqında fərman vermişəm. Bu, artıq avqust ayının 1-dən tətbiq olunubdur. Çox məmnunam ki, mən buna nail oldum. Çünki bəziləri etiraz edirdilər ki, qısa müddətdə buna nail olmaq olmaz. Amma oldu. Bütün dövlət orqanlarında, hakimiyyət orqanlarında, təkcə dövlət, hakimiyyət orqanlarında yox, təhsildə, səhiyyədə, biznes sahəsində, hər yerdə

Azərbaycanın dövlət dili, ana dili, Azərbaycan dili hakim olmalıdır”.

Heydər Əliyev öllkə rəhbəri kimi ilk gündən hər bir kiçik fürsətdən istifadə edərək dilimizin inkişaf etdirilməsi və tətbiqi ilə bağlı iştirakçılara yeni-yeni tövsiyyələr vermiş, onun şanlı tarixindən, gələcəyindən danışmışdır. Onun 26 noyabr 1994-cü il tarixində Respublika sarayında BDU-nun 75 illik yubileyinə həsr edilmiş təntənəli mərasimdəki nitqi belə çıxışlardan idi. Ulu Öndər burada da BDU-nun digər xidmətləri ilə yanaşı, bu təhsil ocağının Azərbaycan xalqının ana dilinin inkişafındakı xidmətlərini xüsusi qeyd etmiş, universitet yaranarkən müəllimlərin əksəriyyətinin azərbaycanlı olmamasına baxmayaraq, sonrakı mərhələlərdə onun Azərbaycanda xalqımızın ana dilinin inkişaf etməsi, təbliğ olunması üçün böyük işlər gördüyünü açıqlamışdır. Sözünə davam edərək bidirmişdir ki, “biz indi müstəqil dövlət kimi azad xalq kimi öz ana dilimizlə, Azərbaycan dili ilə fəxr edirik. Ancaq əgər keçmişə nəzər salsaq, bu gün zəngin, yüksək mədəni səviyyədə olan, çox geniş söz ehtiyatına malik olan ədəbi, mədəni dilimiz həmişə belə olmamışdır. Onu yaradanlar olub, elmi əsasını quranlar olub, inkişaf etdirənlər olub. Bu, müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə çatdırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur. Bu baxımdan Bakı Dövlət Universitetinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Bakı Dövlət Universitetinin əsas fakültələri – tarix fakültəsi, filologiya fakültəsi, fəlsəfə fakültəsi, yəni bütün bu humanitar fakültələr Azərbaycan dilinin, Azərbaycan elminin inkişafında müstəsna yer tutur. Biz bu il dahi şairimiz

Məhəmməd Füzulinin 500 illik yubileyini qeyd edirik. Fəxr edirik ki, 500 il bundan öncə Məhəmməd Füzuli öz ana dilində əsərlər yazmışdır. Eyni zamanda onu da unutmayaq ki, elə bu əsrin əvvəlində də, ortasında da ana dilimizdə yazanlarımız çox olmuşdur. Ancaq ana dilini, Azərbaycan dilini yüksəklərə qaldırmaq istəyənlər, zənginləşdirməyə çalışanlar fədakar adamlar olublar. Xati-

rimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu, təəccüb doğurdu, – nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlığını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər. Mən isə onlara dedim ki, burada bir qeyri-adilik yoxdur, nahaq təəccüb edirsiniz, bu, mənim ana dilimdir və ana dilində çıxış etmək elə böyük bir qəhrəmanlıq da deyildir. Ana dilini bilməmək isə, ana dilini qiymətləndirməmək isə, şübhəsiz ki, xalq qarşısında qəbahətdir. Xatırlatmaq istəyirəm ki, universitet həqiqəti axtaran, milli ruhu inkişaf etdirən bir ocaq, mənbə olmuşdur. Təsadüfi deyildir ki, bir də deyirəm, Azərbaycanın müstəqilliyi, milli azadlığı uğrunda mübarizə aparan insanların da çoxu burada təhsil almış, universitet divarları arasında işləmiş, fəaliyyət göstərmişlər və bu gün də göstərirlər. Ona görə də Bakı Dövlət Universitetinin Azərbaycan dilinin inkişafında, milli ruhun, milli şüurun inkişafında, vətənpərvərlik ruhunun inkişafında olan xidmətlərini bir daha xüsusi qeyd edirəm və bu gün müstəqil Azərbaycan dövlətində belə insanlara, belə axtarışlara öz hörmət və ehtiramımı bildirirəm”.

## Dövlət dili haqqında

“Azərbaycan SSR-in tarixində dövlət dili ilə əlaqədar sonuncu sənəd "Azərbaycan SSR-də Azərbaycan dilinin dövlət dili kimi daha fəal işlədilməsini təmin etmək tədbirləri haqqında” Azərbaycan KP MK-nın 18 avqust 1989-cu il tarixli qərarıdır. Lakin Azərbaycanın o dövrdəki ictimai-siyasi həyatında gərginliklər yarandığına və dağıdıcı proseslər başlandığına görə həmin qərarın icrası qeyri-mümkün idi. 1990-cı il aprelin 24-də qəbul edilmiş "SSRİ xalqlarının dilləri haqqında" SSRİ Qanunu da elə bu səbəbdən əhəmiyyətsiz idi.

Tarixə nəzər salsaq görərik ki, vaxtilə 1937-ci ilin aprel ayında qəbul olunmuş Azərbaycanın ilk Konstitusiyasında dövlət

dili haqqında heç bir maddə təsbit edilməmişdi. 1956-cı il Konstitusiyasında isə "Azərbaycanın dövlət dili Azərbaycan dilidir", maddəsi yazılmışdı. Lakin rəsmi yazışmaların böyük əksəriyyəti rus dilində aparılırdı

Azərbaycan SSR Konstitusiyasına dövlət dili haqqında maddə yenidən daxil edilsə də mərkəzi dövlət idarələrində və ictimai təşkilatlarda onun işlədilməsi təmin olunmadı və 1956-58-ci illərin təcrübəsi göstərdi ki, Azərbaycanın həmin dövrdəki reallığı şəraitində bu, obyektiv olaraq qeyri-mümkün idi. Çünki Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbit olunmuş hüququ əsasında onun funksional dairəsinin genişləndirilməsi üçün müvafiq tədbirlər görülməmişdi.

Azərbaycan dilinin dövlət dili kimi inkişafına qayğı Ümummilli Liderimiz Heydər Əliyevin dövlətə və onun dövlət dili olan Azərbaycan dilinin adının rəsmiləşməsinə gedən yolun parlaq qığılcımı, bünövrə sütunudur. Əslində müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də qəbul olunmuş Konstitusiyasında (21-ci maddə) Azərbaycan dilinin rəsmi dövlət dili kimi təsbiti istər-istəməz yer üzərində yaşayan 80 milyona yaxın azərbaycanlının haqqını özünə qaytarmaq, ədaləti bərpa etmək, milli təəssübkeşliyi üstün olan ziyalılarımızın ruhuna hörmət, əməllərinə sədaqət əlamətidir.

Mədəniyyətimizə, incəsənətimizə, dilimizə qayğı hər bir vətəndaşdan milli təəssübkeşlik mövqeyini nümayiş etdirməyi tələb edir. Dil məsələlərinə gəldikdə isə onu demək lazımdır ki, dilçiliyimizin Azərbaycan dilinin dəyərini, rolunu, zənginliklərini, incəliklərini və s. məsələlərinin üzə çıxarması üçün olduqca əlverişli şərait yaranmışdır.

Müstəqillik illərində də Ulu Öndər Heydər Əliyev Azərbaycan dilinə, ədəbiyyatına, mədəniyyətinə böyük qayğı göstərməkdə xqətiyyət nümayiş etdirirdi. Türk dünyası yazıçılarının 1996-cı il noyabrın 6-da keçirilmiş III qurultayında Ulu Öndər bəyan etmişdi ki, mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə

bilərik. Burada mən Azərbaycan yazıçılarının, dilçilərinin, ədəbiyyatşünaslarının xidmətlərini xüsusi qeyd edirəm. Çünki hər bir respublikada proseslər cürbəcür gedibdir.

Müstəqillik illərində Ümummilli Liderimiz Heydər Əliyevin qayğısı sayəsində ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu, cəmiyyətdəki mövqeləri tam bərpa edildi.

Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə cilalanmış kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır. Hazırda ölkəmizdə cəmiyyətimizin elə bir sahəsi yoxdur ki, Azərbaycan dili orada rahat işlədilə bilməsin.

Azərbaycan dilinin ən geniş işləndiyi sahələrdən biri təhsil sferasıdır. Azərbaycan dilinin təhsil sahəsində işlənməsi barədə "Dövlət dili haqqında" Azərbaycan Respublikamızın Qanununda (5-ci maddə) yazılır:

"5.1. Azərbaycan Respublikasında təhsil dövlət dilində aparılır.

5.2. Azərbaycan Respublikasında başqa dillərdə təhsil müəssisələrinin fəaliyyəti qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir. Belə müəssisələrdə dövlət dilinin tədrisi məcburidir.

5.3. Azərbaycan Respublikasında ali və orta peşə-ixtisas təhsili müəssisələrinə qəbul zamanı Azərbaycan dili fənnindən imtahan verilməlidir".

Ulu Öndər dövlət dilinin necə adlandırılması ilə bağlı verilən müxtəlif təkliflər arasından ana dilimizin Azərbaycan dili adlandırılması təklifini dəstəkləmişdi və 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyada Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdı. Bu da ana dilimizin inkişafı və qorunmasına böyük töhfə oldu, onun durumunu və problemlərini daim diqqət mərkəzində saxladı.

Heydər Əliyev gənclərimizlə, xüsusilə də xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrlə görüşlərində hər dəfə ana dilimizin mühümlüyünü xatırlatmış, bildirmişdir ki, "Mən keçmiş-

də də demişəm və bu gün də deyirəm, şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini – dövlət dilini yaxşı bilsin. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. Bəlkə də biz bu dildə danışmağımıza görə öz dilimizin zənginliyini və gözəlliyini hələ tam dərk edə bilməmişik. Ancaq bilin ki, bu, həqiqətdir. Ona görə də bu, lazımdır, vacibdir. Mən bir daha arzu edirəm ki, vətəndaşlarımız ingilis dilini də, rus dilini də, fransız dilini də, alman dilini də, türk dilini də, ərəb dilini də, fars dilini də, hətta Çin dilini də bilsinlər. Gənclərimiz nə qədər çox dil bilsələr bir o qədər zəngin dünyagörüşünə malik olacaqlar. Bu, müasir dünyanın tələbləridir. Amma ən əsası ondan ibarətdir ki, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir. Gənclərə tövsiyə edirəm ki, əgər kiminsə bu barədə çatışmazlığı varsa, çalışın, bunu aradan qaldırın. Xarici ölkələrdə təhsil alarkən, həmin ökənin dilini öyrənərkən, eyni zamanda, başqa dilləri öyrənərkən öz dilinizi heç vaxt unutmayın və öz ana dilinizi heç bir başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz. Hətta öz dilimizdə danışmağı başqalarına da öyrədin. Ümumiyyətlə, mən fikir verirəm, – respublikamıza başqa ölkələrdən gəlib işləyənlər, dövlət nümayəndələri, səfirliklərdə çalışanlar Azərbaycan dilini öyrənməyə çalışırlar. Bu, çox sevindirici haldır. Bunun özü də yenilikdir. Mənim xatirimdədir, keçmiş zamanda ədəbiyyat tarixini öyrənərkən fəxr edirdik ki, vaxtilə Lermontov bir müddət Azərbaycanda olmuş, Quba zonasında yaşamışdır. O, öz dostuna yazmışdı ki, mən burada Azərbaycan dilini öyrənirəm. Avropada fransız dili kimi, Qafqazda da Azərbaycan dili çox məşhur və mötəbər bir dildir. Hətta Lermontovun belə bir yazısı da var. Biz bunu böyük iftixar hissi ilə qeyd edirdik ki, görün, Lermontov burada yaşayıb, dilimizə belə böyük hörmət edib və bizim dilimizi öyrənməyə çalışıb. Bunun özü tarixdə nadir bir hadisədir. İndinin özündə də bizim dili öyrənməyə çalışırlar. Bəziləri artıq bizim dildə danışırlar. Bu, çox gözəldir. Çünki biz öz dilimizin hörmətini qaldırmalıyıq. Ona görə ki, bizim dilə hörmət edilsin, dilimizi öyrənsinlər, mənimsəsinlər. Mən əminəm ki, başqa ölkələrdə də bi-

zim dilimiz nə qədər geniş yayılsa, öyrənilsə Azərbaycan ədəbiyyatını, mədəniyyətini ana dilimizdə oxuyanlar, öyrənənlər, respublikamızın necə zəngin mənəviyyata, ədəbiyyata, mədəniyyətə malik olduğunu dərk edəcəklər. Mən bu məsələ ilə əlaqədar öz fikirlərimi sizə çatdırıram və güman edirəm ki, bu tövsiyələrimi unutmayacaqsınız”. (Prezident sarayı, 29 avqust 1997-ci il).

Ulu Öndərin yazıçılarımız və ziyalılarımızla görüşlərindəki dillə bağlı hər bir sözü, hər bir çıxışı onun bizə qoyub getdiyi vəsiyyət, tapşırıqdir. Belə çıxışlardan biri Heydər Əliyevin 30 dekabr 1997-ci il tarixdə yazıçılarımızın X qurultayında dedikləridir. O çıxışının bir yerində qeyd edir ki, “bir neçə kəlmə də dil haqqında danışmaq istəyirəm. Çünki burada dil haqqında söhbət getdi. Görürsünüzmü, bu gün mən sizə nə qədər tariflər deyirəm. Heç bir tənqid yoxdur. Həmişə də tarifləyirəm. Siz buna layiqsiniz. Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz məsələnın birı də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünaslarımızın, dilçi alimlərin böyük xidməti var. Bu gün danışdığımız dil 20-ci ildə danışılan dil deyil. Elədir, yoxsa yox? (Yerdən səs: Bəli, tamamilə doğrudur) Bəli, əsrin əvvəlindəki dil deyil. Amma ondan qat-qat mükəmməl dildir. Bu, bizim ən böyük sərvətimizdir. Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq, millət ola bilməz. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, Şərq ölkəsinin əsarəti altında olduğumuz zaman da, sovet ismperiyasının tərkibində olduğumuz zaman da biz bu dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf etdirmişik. Bu, xalqımızın, xüsusən, bizim söz ustalarının, ədəbiyyatçıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin ən böyük nailiyyətidir. Doğrudur, vaxt var idi ki, biz dilimizi bugünkü kimi işlədə bilmirdik. Onun da səbəbləri məlumdur. Yadımdadır, ilk dəfə Yazıçılar İttifaqının qurultayında mən Azərbaycan dilində nitq söyləyəndən sonra tənəffüsə çıxdıq. Hamı gəlib məni təbrik edirdi. Ona görə ki, mən orada birinci növbədə Azərbaycan dilində danışdım. Dedim ki, əziz qardaşlar, axı burada elə

bir şücaət yoxdur. Bu, bizim öz dilimizdir. Mən bunu anladım. Çünki dövlət adamları Azərbaycan dilində danışmamışdılar. Bu dil məişət dili olmuşdu və bir də ədəbiyyatın dili olmuşdu. Amma dövlət dili olmamışdı. Mənim nitqimi yazıçılar böyük bir hadisə kimi qəbul etdilər. Biz o illərdə çalışdıq ki, dilimiz inkişaf etsin. Bu sahədə çox çalışdıq. Baxmayaraq ki, elə bir dövlətdə yaşayırdıq ki, hakim dil rus dili idi. Ancaq biz dilimizi inkişaf etdirdik və siz, sizin əsərləriniz, ədəbiyyat olmasaydı, şübhəsiz ki, dilimiz bu cür inkişaf edə bilməzdi. İndi bizim çox gözəl dilimiz var. Burada professor Hacıyev çıxış edərək türk yazarlarının qurultayından bir xatirəni yada saldı. Bilirsiniz, bu hadisə məni sevindirdi. Çünki biz dil haqqında müzakirə apararkən professor Hacıyev belə mövqedə idi ki, dilimizin adı başqa cür olmalıdır. Biz isə qəbul etdik ki, Azərbaycan dili olmalıdır. Amma onun sözləri məni ona görə sevindirdi ki, bizim Türkiyədən gələn alimimiz, dostumuz dilimizin qiymətini verə bilibdir. İş onda deyil ki, bunu mən danışıram, sən danışırsan, o biri danışır. İş ondadır ki, dilimizin qiymətini verə bilibdir. Həqiqətən, bizimlə dost, qardaş ölkədə – Türkiyədə də dilimizi – Azərbaycan dilini çox sevirlər. Azərbaycanda mövcud olan Azərbaycan dili çox mükəmməl dildir, çox zəngin dildir, çox inkişaf etmiş dildir, böyük söz ehtiyatına malik dildir. İndi baxın, dövlətin bütün sahələrində sırf Azərbaycan dilində danışırıq və lazım olan bütün xüsusi terminləri də Azərbaycan dilində ifadə edirik. Azərbaycan dili respublikamızda artıq öz yerini tutubdur. Xarici ölkələrin nümayəndələri də bizim dili bilməyərək, sadəcə onu eşidərək, dəfələrlə mənə deyiblər ki, sizin nə qədər gözəl diliniz var! Doğrudan da bu belədir. Bəlkə də biz özümüz dilimizin gözəlliyini bir o qədər dərk edə bilmirik. Azərbaycan dili çox gözəl dildir! Bilirsiniz, mən bunu dəfələrlə demişəm və bu gün də deyirəm: biz türkdilli xalqların ailəsinə mənsub olan bir xalqıq. Ancaq bunun çox şaxələri var. Bunun bir şaxəsi də Azərbaycan dilidir. Biz bunu təsdiq etmişik və bu, artıq bütün ictimaiyyət tərəfindən qəbul olunubdur. Azərbaycan dilini daha da zənginləşdirmək, daha da inkişaf etdirmək sizin ən müqəddəs borcunuzdur. O ki qaldı reklamlara və şəhərdə başqa dillərdə olan yazılara və yaxud da ki, respublika-

mızda hansısa kolleclərdə ingilis dilində dərs keçirilir, – bunların hamısına baxmaq lazımdır. Ancaq bu məsələdən bir o qədər də narahat olmaq lazım deyil. Siz ingilis dilində dərs keçilən kolleclərin sayını götürsəniz və bizim Azərbaycan dilində dərs keçilən məktəblərin sayı ilə müqayisə etsəniz, görərsiniz ki, bu kolleclər azlıq təşkil edir. Amma mən bu barədə mübahisə etmək istəmirəm. Bir halda ki, burada belə bir fikir söylənilibdir, buna diqqət yetirmək lazımdır. Reklam və məktəb məsələlərinə diqqət yetirmək lazımdır. Ancaq biz dünyada öz dilimizlə tək yaşayırıq. Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır. Və bu dili sevməlidir. Bununla yanaşı, biz çalışmalıyıq ki, məktəblərimizdə, universitetlərimizdə gənclərimiz bir neçə dil öyrənsinlər. Mütləq öyrənməlidirlər. Biz artıq dünyaya qovuşmuşuqsa, Dünya Birliyinə daxil olmuşuqsa, gərək insanlarımız bir neçə dil bilsinlər – ingilis dilini də bilsinlər, rus dilini də bilsinlər, fransız dilini də bilsinlər. Bunu yasaq etmək olmaz, bunun qarşısını almaq lazım deyil. Amma birinci öz ana dilini bilməlidirlər. Bəli, Azərbaycanda indi də insanlar var ki, əsasən rus dilində danışırlar, Azərbaycan dilində danışmırlar. Bizim dövlət orqanlarında da beləlləri var. Mən dəfələrlə xəbərdarlıq etmişəm ki, Azərbaycan dilini öyrənin, öyrənməsəniz işdən çıxaracağam. Professor Hacıyev mənə deyir ki, siz Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin işçilərini məcbur edin, onlar Azərbaycan dilini öyrənsinlər. Amma sizə deyim ki, onlar artıq öyrənirlər. Xarici ölkələrin respublikamızda olan səfirləri artıq Azərbaycan dilini öyrənirlər. Onlar mənimlə görüşəndə çalışırlar Azərbaycan dilində danışsınlar. Mən də bunlara çox sevinirəm. Hətta Rusiyanın səfiri cənab Bloxin də burada oturubdur – o, Azərbaycan dilini öyrənir, özü də çox yaxşı öyrənir. Budur bizim müstəqilliyimizin nəticəsi. Vaxtilə buraya, mərkəzdən Azərbaycan Kommunist Partiyasının ikinci katibi vəzifəsinə rus millətindən olan adamlar gəlirdi. Mən onlara Azərbaycan dilini öyrədə bilmirdim. Onlara neçə dəfə deyirdim ki, Azərbaycan dilini öyrənin, ancaq öyrənmək istəmirdilər. Amma bu gün Rusiyanın səfiri öyrənir, Amerikanın səfiri öyrənir. Bunların hamısı böyük hadisədir, nailiyyətdir. O ki qaldı şirkətlərdə hansı dildə danışmaq mə-

sələsinə – bəli, onlar öz işlərini aparmaq üçün o dilləri bilən adamları işə qəbul edirlər. Amma deyə bilmərəm ki, sən öz işini niyə ingilis dilində aparırsan, Azərbaycan dilində apar. O, öz şirkəti ilə yazışma aparır, başqa sənədlər var və s. Bunu öz dilində aparmalıdır. Eyni zamanda, sizə deyə bilərəm ki, o şirkətlərin nümayəndələri mənə yazdıqları məktubları iki dildə – həm öz dillərində, həm də Azərbaycan dilində yazırlar. Yəni onların çox yaxşı tərcüməçiləri var. Mən hərdən fikir verirəm – çox dəqiq tərcümə edirlər. Onlar məktubu mənə iki dildə göndərirlər və bəzən də özləri mənə təklif edirlər ki, dərhal bunu oxuya bilim. Beləliklə, görürsünüz, dil məsələsi ilə əlaqədar nə qədər məsələlər meydana çıxır. Ancaq yenə də ən əsas nəticə ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün də Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun!".

Ulu Öndər dilimizin həmişə hakim dil olmasını istəyir və bunu təhsil müəssisələri qarşısında başlıca tələb kimi qoyurdu.1 sentyabr 2000-ci il tarıxdə Bakı şəhərinin Nərimanov rayonunun 82 saylı pilot orta məktəbinin müəllim və şagird heyəti qarşısındakı çıxışında bildirmişdi ki, "Məktəbimiz həm dəqiq elmlərin mənimsənilməsində daha da inkişaf etməlidir, eyni zamanda, ictimai elmlər – Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı, Azərbaycan dili – bunların hamısı təhsilin çox vacib sahələridir. Azərbaycan dili! Bu gün iftixar hissi ilə deyə bilərik ki, Sovet hakimiyyəti illərində biz Azərbaycan dilini qoruduq, saxladıq və inkişaf etdirdik. Azərbaycan dili indi çox yüksək səviyyədə, yəni onun qrammatik quruluşu, başqa sahələri yüksək olan bir dildir. Sizə deyə bilərəm ki, başqa ökələrdə müxtəlif dillərə mənsub olan insanlar Azərbaycan dilini sadəcə eşidərək, onun mənasını o qədər bilməyərək, Azərbaycan dilinin nə qədər şeirə bənzədiyini, xoş ahəngli olduğunu dəfələrlə qeyd ediblər. Biz dilimizlə fəxr etməliyik. Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini ən incəliklərinə qədər bilsin və bu

dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik".

Ulu Öndər dilimizlə yanaşı yenicə tətbiqinə keçdiyimiz latın əlifbasına da böyük qayğı ilə yanaşmış, 1997-ci dərs ilinin başlanğıcında, 1 sentyabrda Bakı şəhəri 18 saylı orta məktəbin müəllim və şagird heyəti qarşısındakı çıxışında demişdir: "...Biz yeni əlifbaya – latın əlifbasına keçmişik. Mən hiss edirəm ki, latın əlifbasının tətbiqi çox ləng gedir. Hesab edirəm ki, bu işləri də sürətləndirmək lazımdır. Yaşlı nəsil kiril əlifbası ilə oxuduğuna görə latın əlifbasını oxumaqda çətinlik çəkir. Bildirmək istəyirəm ki, burada heç bir çətin iş yoxdur. Latın əlifbası ilə kiril əlifbası arasında fərq o qədər də böyük deyildir. Sadəcə, mən yaşlı nəslə müraciət edib deyirəm ki, bir balaca özünüzü əziyyətə salın və tezliklə bu kiril əlifbasından xilas olun. Əgər biz tezliklə bütün sahələrdə latın əlifbasına keçməsək, gecikmiş olacağıq. Bu işlər məktəblərdə xüsusilə təşkil olunmalıdır. Mən Təhsil Nazirliyindən, bütün məktəblərdən bunu tələb edirəm".

Bilindiyi kimi dövlət dili dövlətin bütün fialiyyət dairələrində idarəçiliyin və tənzinlənmənin ən zəruri mexanizmdir.Dilin dayağı və hüquqi bazası isə dövlətçilikdir. Dövlətçilik yoxdursa, dövlət dili də yoxdur. Dövlətçilik olmayanda dil olur, ancaq öz hüquqi bazasından məhrum olmuş bir şəklə düşür. Yəni o öz dayağını itirir və onda çoxlu fərqlənmələr meydana gəlir. Bu şəkildə dövlət də yavaş-yavaş öz milliliyini itirməyə başlayır. Bu baxımdan, hər bir dövlətin öz dövlət dilinin olması, ona qayğı ilə yanaşması, onun siyasi, hüquqi statusunun möhkəmləndirilməsi istiqamətində addımlar atması zəruridir.

Ulu Öndər Heydər Əliyev yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı. İlk növbədə müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi, formalaşması və möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət daşıyan bu tarixi Fərman dövlət dili ilə bağlı hərtərəfli və geniş məlumatları özündə ehtiva edir. Sözügedən Fərmanla

Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradılmışdı. Belə bir komissiya Ulu Öndərin rəhbərliyi ilə dil siyasətini uğurla tamamladı.

Dövlət dili uğrunda ardıcıl mübarizə aparan Ümummilli Lider ziyalıları, xalqı ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə səfərbər etmişdi. Böyük tarixi şəxsiyyət Konstitusiya haqqında nitqində xüsusi olaraq vurğulamışdı ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Bu, əslində ana dilinin dövlət dili statusunu qorumaq məqsədinin təzahürü idi.

Azərbaycan Respublikasının onillik inkişaf yolunun təcrübəsi göstərirdi ki, digər sahələrdə olduğu kimi, ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində də hələ görüləsi işlər çoxdur.

Ölkəmizin orta və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına uyğun tədrisinin təkmilləşdirilməsinə ehtiyac vardı. Bir çox kütləvi informasiya vasitələrində, rəsmi yazışmalarda, kargüzarlıq və sair sahələrdə Azərbaycan ədəbi dilinin normalarına lazımınca əməl edilmirdi. Azərbaycan dilinin reklam işində istifadəsinə ciddi qüsurlar müşahidə olunurdu.Kəskin tənqidlərə baxmayaraq, reklam vasitələrinin hazırlanmasında bir çox hallarda xarici dillərə əsassız olaraq üstünlük verilirdi.Əcnəbi dilli lövhələr gənc nəslin azərbaycançılıq ruhunda tərbiyəsinə mənfi psixoloji təsir göstərirdi. Ölkə ərazisində yayımlanan televiziya kanallarının əksəriyyəti xarici dillərdə fəaliyyət göstərirdi. Kino və televiziya ekranlarında Azərbaycan dilinə dublyaj edilmiş xarici filmlərə nadir hallarda rast gəlmək olardı. Dublyaj edilmiş ekran əsərlərinin tərcümə səviyyəsi isə olduqca aşağı idi. Azərbaycan Respublikasının xarici siyasət sahələrində, xüsusilə ölkəmizdə fəaliyyət göstərən səfirlik, xarici nümayəndəlik və şirkətlərdə Azərbaycan dilinin işlənməsi yarıtmaz hal almışdı. Xaricdə yaşayan soydaşlarımızın Azərbaycan dili dərslikləri, tədris vəsaiti, ana dilində elmi və bədii ədəbiyyat, mətbuat və sairə ilə təmin olunması qənaətbəxş deyildi. Çox qəribə görünsə də, Azərbaycan dilçiliyinin sovet dövründə əldə edilmiş sürətli inkişaf tempi son illərdə aşağı düşmüşdü

və bu sahədə bir durğunluq müşahidə olunurdu. Azərbaycanda nitq mədəniyyəti məsələlərinin tədqiqinə və nizamlanmasına kəskin ehtiyac duyulurdu. Azərbaycan dilinin tətbiq dairəsi bəzən süni olaraq məhdudlaşdırılırdı. Rəsmi və elmi üslubun vəziyyəti heç də ürəkaçan deyildi. Azərbaycan dilinin orfoqrafik, izahlı, terminoloji və sair lüğətlərinin yenidən latın qrafikası ilə hazırlanıb çap olunması, ikidilli tərcümə lüğətlərinin tərtibi və nəşri məsələləri yubadılırdı. Latın qrafikasının bərpa olunması barədə qanun qəbul edilməsindən on ilə yaxın bir müddət keçməsinə baxmayaraq, onun həyata keçirilməsi olduqca ləng gedirdi. Bütün bu və digər məsələlərin əlaqələndirilməsi və tənzimlənməsinin, onların həlli prosesinə nəzarətin vahid mərkəzləşdirilmiş bir qurum tərəfindən həyata keçirilməsinə ehtiyac vardı.

Fərmanda yazılır: Azərbaycanın dövlət müstəqilliyinin başlıca rəmzlərindən sayılan Azərbaycan dilinin tətbiq və inkişaf etdirilməsinə dövlət qayğısının artırılması, ana dilimizin öyrənilməsi, elmi tədqiqinin fəallaşdırılması, dilimizin cəmiyyətdə tətbiq dairəsinin genişləndirilməsi və bu işə nəzarətin gücləndirilməsi məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət Dil Komissiyası yaradılsın. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, Komissiya haqqında əsasnaməni bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun layihəsini bir ay ərzində hazırlayıb, Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Azərbaycan Respublikasının nazirlik, idarə, təşkilat və müəssisə rəhbərləri öz tabeliklərində olan qurumlarda dövlət dilinin və latın qrafikasının tətbiqi işinin yaxşılaşdırılması ilə bağlı uzunmüddətli kompleks planlar hazırlayıb həyata keçirsinlər və 2001-ci il avqustun 1-ə qədər ilkin nəticələr haqqında Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi orta və ali məktəblərdə Azərbaycan dilinin tədrisi və Azərbaycan dilində təhsilin keyfiyyəti ilə bağlı əsaslı dönüş yaratmaq istiqamətində qəti tədbirlər həyata keçirsin və müvafiq təkliflər proqramını bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi Yazıçılar Birliyi ilə birlikdə latın qrafikası ilə yenidən çap olunması təklif olunan elmi və bədii əsərlərin, lüğət və dərsliklərin çap proqramını bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Azərbaycan Milli Elmlər Akademiyası bir ay ərzində Azərbaycan dilçiliyinin müxtəlif sahələri üzrə elmi araşdırmaların cari və perspektiv planlarına yenidən baxıb təsdiq etsin və onların yerinə yetirilməsinin gedişi barədə hər altı aydan bir Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsin.

Respublikanın şəhər və rayon icra hakimiyyəti başçılarına tapşırılsın ki:

-Yerlərdə istifadə olunan lövhə, reklam tabloları, şüarlar, plakatlar və digər əyani vasitələrin Azərbaycan ədəbi dilinin qaydalarına uyğunlaşdırılması baxımından tədbirlər görsünlər və bu tapşırığın yerinə yetirilməsi haqqında 2001-ci il avqustun 1-nə qədər Azərbaycan Respublikasının Prezidentinə arayış versinlər;

-Yerlərdə Azərbaycan dilinin və latın qrafikasının tətbiqi işinə nəzarəti gücləndirsinlər və bu işin gedişi barədə 2001-ci il avqustun 1-nə qədər Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə, Dövlət Televiziya və Radio Verilişləri Şirkətinə tapşırılsın ki, əcnəbi ölkələrdə istehsal edilmiş və Azərbaycanda nümayiş etdirilmək üçün alınmış kino və televiziya məmulatının Azərbaycan dilinə dublyajı işinin lazımi səviyyədə qurulması və ölkə ərazisində xarici kino və telefilmlərin Azərbaycan dilində nümayiş etdirilməsi məsələləri barədə təkliflərini bir ay ərzində hazırlayıb, Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

- Ölkədə Azərbaycan dilində çap olunan qəzet, jurnal, bülleten, kitab və digər çap məhsullarının istehsalının 2001-ci il avqustun 1-ə qədər bütövlükdə latın qrafikasına keçməsini təmin etsin;

- Azərbaycan Respublikasında Dövlət dilinə qarşı gizli, yaxud açıq təbliğat aparmaq, Azərbaycan dilinin işlənməsinə və inkişafına müqavimət göstərmək, onun hüquqlarının məhdudlaşdırılmasına cəhd etmək kimi hallara, latın qrafikasının tətbiq olunmasına maneələr törədilməsinə görə məsuliyyət növlərini müəyyən edən Qanunvericilik aktının layihəsini bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında kargüzarlığın latın qrafikası ilə aparılmasını 2001-ci il avqustun 1-ə qədər təmin etsin;

- Bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

Fərmanda dilimizin inkişaf yolları və tarixi ilə bağlı bir sıra həssas məqamlara aydınlıq gətirilmiş, onun keçdiyi inkişaf yolları və mərhələləri təhlili edilmişdir. Müstəqil dövlətimizin rəsmi dili statusunu almış Azərbaycan dilinin ölkədə tətbiq edilməsi və inkişafı üçün əlverişli şərait yaradılması, bu məqsədlə bir sıra mühüm tədbirlərin həyata keçirilməsi vəzifəsi qarşıya qoyulmuşdur. Ulu Öndərin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli Fərmanı dilimizin inkişaf etdirilməsinə dövlət qayğısının ən bariz nümunəsi oldu. Bununla bütün dövlət və qeyri-hökumət təşkilatlarında, həyatımızın müxtəlif sahələrində dövlət dilinin işlək vəziyyətə gətirilməsini təmin edən və tariximizdə yeni dönəm yaradan bir siyasi mərhələnin əsası qoyuldu. Fərman dövlət dilinin problemlərinin həlli, bu məsələlərin elmi tədqiqata cəlb edilməsi üçün Azərbaycan dilçilik məktəbinin qarşısında yeni vəzifələr müəyyənləşdirdi. Vacib dövlət sənədi həyatımızın bütün sahələrində Azərbaycan dilindən istifadə qaydalarını tənzimlədi, qüsurların aradan qaldırılmasında mühüm rol oynadı. Beləliklə, bu fərman latın qrafikası haqqında 9 il əvvəl qəbul edilmiş sənədi, nəhayət, işlək vəziyyətə gətirdi. Fərmanda bu tapşırıq: "Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, ölkədə Azərbaycan dilində çap olunan qəzet, jurnal, bülle-

ten, kitab və digər çap məhsullarının istehsalının 2001-ci il avqustun birinə qədər bütünlüklə latın qrafikalı əlifbaya keçməsini təmin etsin" – kimi öz əksini tapdı.

Dövlət başçısının siyasi iradəsi və prinsipiallığı nəticəsində ölkə elə o tarixdən yeni əlifbaya – latın qrafıkalı Azərbaycan əlifbasına keçdi. Xalqımızın milli sərvəti olan ana dilinin inkişafına yönəlmiş qərarların qəbulu və həyata keçirilməsi Ulu Öndər Heydər Əliyevin böyük tarixi xidmətlərindən sayılır.

Prezident Heydər Əliyevin 2001-ci il avqust ayının 9-da imzaladığı növbəti Fərman "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" idi. İmzalanan ali dövlət sənədinə görə Azərbaycan Respublikasının ərazisində "Hər il avqust ayının 1-i gününün Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü olaraq qeyd ediləcəyi" bildirilirdi.

Bunlar liderimiz Heydər Əliyevin dövlət dili ilə bağlı siyasətinin fundamental hüquqi bazasını yaradan ali dövlət sənədləri oldu. Dilimizin böyük təəssübkeşi olan Ulu Öndər bunlarla bərabər, dilimizin inkişafını şərtləndirən digər amillərə xüsusi önəm verirdi. O, bu istiqamətdə Azərbaycan dilçilik məktəbinin, onun zəhmətkeş və ardıcıl nümayəndələrinin qarşısında mühüm vəzifələr qoyur və o vəzifələrin yerinə yetiriləcəyinə inanırdı. Heydər Əliyev dilin sosial hadisə olduğunu, buna görə də onun inkişaf mərhələlərinin canlı orqanizm olaraq sosial mühitlə üzvi bağlılığını bilirdi. Onun, bilavasitə, təşəbbüsü ilə Milli Məclisə göndərilmiş, 2002-ci ilin sentyabr ayının 30-da qəbul edilmiş "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu dövlət dili ilə əlaqəli ən vacib addımlardan biri olmuş və o çox zəruri hüquqi akt kimi tarixə düşmüşdür.

Sənəddə Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca prinsiplərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısı ifadə olunurdu. Bu Qanun, ölkə Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır. Qəbul edilən Qanun Ümummilli

Liderimizin ana dilinin taleyi barədə təməl düşüncələrinin ifadəsi kimi diqqətçəkəndir.

Müstəqil Azərbaycan dövlətinin ana dilinə hərtərəfli qayğısının təcəssümünü özündə əks etdirən bu Qanunda dövlət dilinin işlənməsi, inkişafı, saflığının qorunması, ədəbi dilin normalarına əməl edilməsi, ölkəmizdə dilçilik elminin nəzəri və tətbiqi sahələrinin inkişafı üçün lazımi şəraitin yaradılması və s. kimi məsələlər də nəzərdə tutulmuşdur.

Ulu Öndər Heydər Əliyev dilimizin saflığını, mənəvi zənginliyini qorumağın vacibliyini çıxışlarında hər zaman vurğulayır.

Ümumiyyətlə, Azərbaycan Respublikasında dil siyasətinin möhkəm əsaslar üzərində formalaşdırılması, Azərbaycan dilinin dövlət dili olaraq tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək beynəlxalq aləmdə nüfuzunun artması, bilavasitə, Ulu Öndərin adı ilə bağlıdır.

Azərbaycanda siyasi natiqliyin formalaşmasında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Ulu Öndərin danışığı öz səmimiliyi, zənginliyi, orijinallığı ilə dünyanın siyasi xadimlərinin nitqləri ilə müqayisə oluna bilər. Görkəmli dövlət xadimi Heydər Əliyev çıxışlarında şifahi nitqə üstünlük vermiş, yazılı məruzə və ya çıxışlardan, demək olar ki, imtina etmişdir.

Ümummilli Liderin çıxış etdiyi auditoriyalar öz zənginliyi ilə seçilirdi. O, həm də əzəmətli görkəmi, jest və mimikaları, səsi ilə auditoriyanın diqqətini özünə çəkə bilirdi. Böyük natiq auditoriya ilə ünsiyyətə asanlıqla girir, sual verib, cavab alırdı. Bu dahi şəxsiyyətin nitqindəki sistemlilik, ardıcıllıq və məntiqilik bütün çıxışlarında özünü göstərirdi. Heydər Əliyev çıxış edərkən bütün varlığı və inamı ilə danışır, xalq danışıq dilindən gələn ifadələrindən məharətlə istifadə edirdi.

Ana dilini ürəkdən sevən, bu dildə danışmağı ilə fəxr edən Ümummilli Lider bənzərsiz nitqlərində, dərin məzmunlu çıxışlarında dilimizin rəngarəng ifadə vasitələrindən ustalıqla istifadə edirdi. Heydər Əliyevin natiqlik məharətini ana dilini gözəl bilməsi, bu dildən mənəvi zövq alması şərtləndirir.

Ulu Öndər Heydər Əliyev əzəmətli görkəmi, gur, məzmunlu səsi ilə şifahi danışığındakı məntiqi, emosiyanı bir qədər də gücləndirir və dinləyicilərdə, onların hisslərində dərin iz qoyurdu. Heydər Əliyev nitqinin emotiv intonasiyası çox zəngindir. O, bütün varlığı, düşüncəsi, emosiyası və daxili inamı ilə danışırdı.

Heydər Əliyev dilimizin inkişafında mətbuatın da rolunu qeyd etmiş, bu istiqamətdə öz tövsiyələrini vermişdir. Ulu Öndər göstərir ki, televiziya verilişlərinin aparıcıları sözləri, ifadələri elə düzgün tələffüz etməlidirlər ki, danışığımızın, nitqimizin aydınlığı, cazibədarlığı parlaq şəkildə üzə çıxsın.

Ulu Öndər Heydər Əliyevin çıxışlarında ədəbi dilin bütün funksional üslubları bir vəhdətdə götürülür. O, öz nitqində bütün üslublardan istifadə edirdi.

Heydər Əliyevin nitqi zənginliyi, emosionallığı, mükəmməlliyi ilə bir örnək, onun ictimai-siyasi natiqlik sahəsindəki təcrübəsi, istedadı isə bir məktəbdir.

Onun 2003-cü ilin yanvarında təsdiq etdiyi "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununda Azərbaycan dili müstəqil dövlətçiliyin əsaslarından biri olaraq qəbul edilir, onun digər dillər arasında yaşaması və təkmilləşdirilməsi sahəsində konseptual ideyalar irəli sürülürdü. Bu qanunvericilik aktı ilə Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalırdı.

Ulu Öndər dövlət dilini xalqımızın ən böyük milli sərvəti hesab edir, onun göz bəbəyi kimi qorunmasının hüquqi əsaslarının yaradılmasına çalışır və buna nail olurdu. Heydər Əliyev mənsub olduğu xalqı dilin qorunması, inkişafı üçün ən etibarlı keşikçi sayırdı: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur".

Prezident dilə qayğının vacıb olması barədə hər məqamda qeyd edir, onun lüğət tərkibinin zənginliyini birbaşa sosial həyatımızla bağlayır, bunu proporsional inkişaf dinamikasının qanunları ilə əsaslandırırdı

Ulu Öndər Heydər Əliyev ana dilimizin tarixi keçmişi ilə yanaşı, mövcud durumunu və problemlərini daim diqqət mərkəzində saxlamış, bu yöndə bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilinin inkişafı və zənginləşməsi istiqamətində müxtəlif vasitələrdən istifadə edirdi. Azərbaycanda dilçi alimlərə yüksək diqqət və qayğı göstərilməsi, milli dildə nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər ana dilinin daha da inkişaf etdirilməsi məqsədi daşıyırdı.

Dil xalqın ruhunun təzahürüdür; dil onun ruhu, ruh isə onun dilidir. Hər bir xalq öz dili ilə yaranır. “Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur” – deyən Ümummilli Liderimiz Heydər Əliyev, Azərbaycan dilinin inkişafına xüsusi diqqət yetirmişdir. Böyük öndər Heydər Əliyevin bu ideyaları fundamental əsaslarda, azərbaycançılıq məfkurəsinin bel sütunudur. Çünki ana dili hər bir xalqın varlığını təsdiq edən başlıca amildir. Ana dili hər bir xalqın milli sərvəti, onun təsdiqidir. Xalqın keçdiyi tarixi yol, mədəni səviyyəsi, ilk növbədə, onun dilində öz əksini tapır. Dilini itirən xalq məhvə məhkumdur. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi xalqımızın dünyanın ən qədim xalqlarından biri olduğunu təsdiqləyir. Zaman-zaman hər bir xalqın inkişafında və tərəqqisində müstəsna xidmətlər göstərmiş şəxsiyyətlər yetişir. Heç şübhəsiz, Azərbaycan xalqı da, bu baxımdan, tarixi şəxsiyyətlər yetişdirib və bu mənada Ulu Öndər Heydər Əliyev xalqımızın yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan xalqının tərəqqi və inkişaf dövrü başladı.Minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi

imkandır. Məhz Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dil siyasəti bu sahədə əldə etdiyimizi uğurların əsasını təşkil edir. Bu gün Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Ulu Öndərin dil siyasəti onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi olmuşdur. Azərbaycan dövlətinə rəhbərlik etdiyi ilk illərdən ana dilinin sosial-siyasi, ideoloji problemləri ilə, bilavasitə, məşğul olmuşdur. Tarix üçün o qədər də böyük olmayan, təxminən onillik bir müddətdə görkəmli dövlət xadimi, həqiqətən, işləri möhtəşəm həyata keçirmişdir. Həm rəsmi, həm də qeyri-rəsmi yığıncaqlarda, məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməyən respublika rəhbəri praktik olaraq ana dilinin ictimai-siyasi mövqeyinin yüksəlməsinə təsir göstərmiş, başqalarına da nümunə olmuşdur. Ulu Öndərin “Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm” kimi müdrik kəlamındakı ana dilimizə olan məhəbbət hər bir soydaşımız üçün örnəkdir.

Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi xalqımızın dünyanın ən qədim xalqlarından biri olduğunu təsdiqləyir. Əsrlər, qərinələrdir ki, xalqımızın əbədiyaşarlığına xidmət edən ana dilimiz qədim tarixə malik olan, min illərin müxtəlif burulğanlarından alnıaçıq, üzüağ çıxaraq müasir dövrə gəlib çatmış ən böyük dəyərimizdir. Ana dilimiz dövlət rəmzlərimiz olan himn, gerb, bayraq kimi müqəddəsdir. Ana dilimizin inkişafına dövlətin həmişə xüsusi diqqət və qayğısı olub. Sovet dövründə quruluşun müəyyən təzyiqlərinə, diktələrinə baxmayaraq, Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilinin respublikada dövlət dilinə çevrilməsində əsl fədakarlıq göstərmişdir. Ana dilinin inkişafı ilə əlaqədar Ulu Öndərin müntəzəm imzaladığı fərman və sərəncamlarda, eləcə də çıxış və məruzələrində, tövsiyələrində vaxtaşırı ortaya çıxan problemlərin həlli vacib sayılırdı. Ümummilli Lider Heydər Əliyev müstəqillik illərində Azərbaycan dilinin qorunub saxlanılması, onun zənginləşdirilməsi istiqamətində də böyük işlər gördü. Azərbaycan müstəqil-

liyini qazandıqdan sonra milli şüurun inkişafı, demokratik cəmiyyət yaranması ana dilimizin tətbiq sahəsini genişləndirməyi bir zərurətə çevirdi. Ulu Öndər Heydər Əliyev Azərbaycan dilinə məhz azərbaycançılığın mənəvi əsası kimi yüksək qiymət verirdi: “Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də, dünyada yaşayan bütün azərbaycanlıların dili olsun.”Təsadüfü deyil ki, Dünya azərbaycanlılarının həmrəylik günündə Ümümmilli Lider Səməd Vurğunun “Azərbaycan” şeirini səsləndirərkən titrəyən səsi, milyonları vətən sevgisinin qəhərinə boğdu. Heydər Əliyev bir daha vətənə, xalqına, dilinə olan dəyərini bütün dünyaya bəyan etdi. Ulu öndər Heydər Əliyevin dil siyasəti özünəməxsus möhkəm prinsiplər əsasında qurulmuşdur. Bu siyasət, hər şeydən öncə, demokratiklik prinsiplərdir. Heydər Əliyevin dil siyasətinin əsaslandığı prinsiplərdən biri də dəqiqlik, uzaqgörənlikdir. Bütün sahələrdə olduğu kimi, dil siyasətində də o, qlobal məqsədləri əsas götürür və hər hansı bir məsələnin həllində onun bütün cəhətlərini, keçmişini, bu gününü, gələcəyini nəzərə alaraq, həll olunmasına qərar verirdi. Məsələləri hərtərəfli götür-qoy etmək, dərindən araşdırmaq, xeyir və zərərini dəqiq müəyyənləşdirmək Heydər Əliyevin dil siyasətində də prioritet təşkil edirdi.Ümummilli liderimiz Heydər Əliyev demişdir: “İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir”.

Ulu rəhbərin müstəqillik dövründə imzaladığı sənədlər vətəndaşlıq heysiyyəti, vətən və xalq sevgisindən qaynaqlanmış mükəmməl dil quruculuğu konsepsiyasının əbədi bünövrəsini qoymuşdur.

Müstəqil dövlətimizin rəsmi dili statusunu almış Azərbaycan dilinin geniş tətbiq edilməsi və sərbəst inkişafı üçün münbit zəmin yaranmışdır. Tarixin müxtəlif mərhələlərində dilimizə qarşı edilmiş haqsızlıqların, təzyiq və təhriflərin aradan qaldırılması üçün hazırda ölkəmizdə çox əlverişli şərait mövcuddur. Dil öz daxili qanunla-

rı əsasında inkişaf edirsə, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir.

Dilimizin dialekt və şivələrinin geniş Avrasiya məkanına yayılan türk xalqlarının az qala bütün dil xüsusiyyətlərini əks etdirəcək qədər rəngarəng olmasının da başlıca səbəbi ta qədimlərdən bu torpaqlarda eyni köklü türk etnoslarının mövcud olmasıdır. Şifahi şəkildə yayılan ilkin ədəbiyyat nümunələri – dastanlar, nağıllar, bayatılar, laylalar və sair Azərbaycan şifahi ədəbi dilinin erkən formalaşması və təkamülü zərurətini yaratmışdır.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dilinin daha da inkişaf etdirilməsi yolunda geniş üfüqlər açıldı. Təəssüflər olsun ki, respublikanın o zamankı rəhbərliyinin səriştəsizliyi nəticəsində, xalqın iradəsinə zidd olaraq, dövlət dilinin adı qeyri-qanuni şəkildə dəyişdirildi və məsələyə dolaşıqlıq, anlaşılmazlıq gətirildi. Dövlət dili haqqında məsələ 1992-ci ilin dekabrında Azərbaycanın Milli Məclisində müzakirə edildi və dövlət dilinin adının dəyişdirilməsini nəzərdə tutan antikonstitusion Qanun qəbul edildi. Bu taleyüklü məsələnin həlli üçün Milli Məclisdə cəmi 26 nəfərin lehinə səs verməsi kifayət etmişdi. Lakin dövlət dili haqqında maddə Konstitusiyada nəzərdə tutulduğuna görə, ona hər hansı dəyişiklik edilməsi ümumxalq müzakirəsi və ya Milli Məclisin üzvlərinin ən azı üçdə iki səs çoxluğu ilə qəbul edilə bilərdi. Lakin o vaxt buna məhəl qoyulmamış, xalqın iradəsi nəzərə alınmamış və məsuliyyətsiz qərar qəbul edilmişdi. Həmin məsələ yeni Konstitusiya layihəsi hazırlananda ümumxalq müzakirəsindən keçdi, demokratik şəraitdə hərtərəfli müzakirə olundu. Xalqımız 1995-ci il noyabrın 12-də referendum yolu ilə öz mövqeyini nümayiş etdirərək, dövlət dilimizin Azərbaycan dili olması maddəsinə tərəfdar olduğunu bildirdi. Beləliklə edilmiş haqsızlıq aradan qaldırıldı, dilimizin mövqeləri bərpa edildi.Hazırda ölkəmizdə cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, Azərbaycan dili orada rahat işlədilə bilməsin.

"Tariximiz bizim üçün dərs olmalıdır" deyən Ulu Öndər milli-mənəvi dəyərlərimizin xəzinəsi və daşıyıcısı olan Azərbaycan

dili ilə bağlı müstəqilliyimizin 10-cu ildönümünə həsr olunmuş mərasimdə demişdir:

"Bu on ildə bizim ən böyük nailiyyətlərimizdən biri Azərbaycan dövlət dilinin, ana dilinin hakim olmasıdır. Biz bütün dünyaya nümayiş etdiririk ki, dünyada Azərbaycan xalqı var, Azərbaycan milləti var, Azərbaycan dili var". (Professor Nizami Xudiyev. "Heydər Əliyev və dil siyasətinin uğurları".14.12.2016)

Heydər Əliyev sənət adamlarının, yazıçı və şairlərin böyük dostu, himayədari və arxası idi. "Gülüstan" poemasına görə Bəxtiyar Vahabzadəni siyasi təqiblərdən qoruması, Xəlil Rza Ulutürkə, Məmməd Araza, digər Azərbaycan yazıçılarına yaradıcılıq üçün imkanlar yaratması, qayğı göstərməsi, ustad sənətkarlarımıza SSRİ-nin ən böyük mükafatlarını, fəxri adlarını təqdim etməsi onun dilimizə və mədəniyyətimizə göstərdiyi qayğıların açıq-aydın təzahürü idi.

Açıq deməliyik ki, 70-ci illərə qədər dilimiz ölkəmizdə hakim dil olmamışdır. 1978-ci ildə qəbul olunan Konstitusiyadan sonra Ulu Öndərin xalqın və geniş ziyalı kütlələrinin rəyini nəzərə alması, apardığı dil siyasətində qlobal məqsədləri əsas götürərək hər bir məsələnin həllində hərtərəfli götür-qoy etməyi üstün tutması, dil siyasətində obyektivlik prinsiplərinə əsaslanması, onun bu sahədə uğurunu təmin etmişdir.

Sonradan dövlət dilimizin tətbiqi işinin təkmilləşdirilməsi, təsir dairələrinin genişlənməsi ilə bağlı Ümummilli Liderimizin fərmanları, sərəncamları, habelə digər hüquqi-normativ aktlar, qanunlar onun inkişafı üşün əlverişli şərait yaratdı və tədrisi işinin yüksək səviyyədə qurulmasına da geniş imkan və perspektivlər açdı.

Azərbaycan dilinin müasir dövrdəki inkişafına Ulu Öndər rəhbər və atalıq qayğısını daim göstərmiş, bununla bağlı onlarla fərman, sərəncam vermiş, onların icrasına şəxsən nəzarət etmişdir. Aşağıdakı siyahı buna ən gözəl sübutdur:

"Azərbaycan dili Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı" (09.08.2001)

"Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu" (30.09.2002)

"Azərbaycan Respublikasının dövlət dili haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası prezidentinin Fərmanı" (02.01.2003)

"Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında" Azərbaycan Respublikası prezidentinin Fərmanı (04.01.2003)

Yuxarıda göstərilənlərlə yanaşı dil və təhsil quruculuğu ilə əlaqədar olan onlarla normativ sənədlər, aktlar, təlimatlar və metodik göstərişlərdən irəli gələn tələblər ali məktəblərin fəaliyyətində və təcrübi işlərində də geniş şəkildə tətbiq edilir.

10 noyabr 2001-ci il tarixdə Dunya Azərbaycanlılarının I qurultayında Ulu Öndər öz çıxışında ürəyini bütün azərbaycanlılara açaraq deyirdi: "Əziz həmvətənlər! Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycan dilinin inkişafı haqqında bizim qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır. Biz Azərbaycanın latın əlifbasına keçməsi haqqında qərar qəbul etdik. İndi Azərbaycanda hamı, bütün dövlət orqanları yalnız latın əlifbasından istifadə edir. Bu da bizim milliliyimizi, azərbaycançılığımızı göstərən çox mühüm bir amildir. Biz bundan sonra da Azərbaycan dilinin inkişaf etdirilməsi üçün səylərimizi davam etdirəcəyik. Bilirsiniz, hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub saxlanmasında az da olsa, çox da olsa, öz xidmətini göstərmişdir. Xüsusən, bizim yazıçılarımız, ədəbiyyatçılarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azər-

baycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər böyük söz ehtiyatına malikdir. Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik. Ancaq eyni zamanda arzu edirik ki, hansı qitədə, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı o ölkənin dilini də mənimsəsin, o ölkənin adət-ənənələrindən də istifadə etsin, o ölkənin şəraitinə uyğunlaşsın. Amma Azərbaycan dilini yaşatsın və inkişaf etdirsin. Xalqları dil qədər, milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur. Biz bu vasitədən daim istifadə etməliyik. Xüsusən, başqa ölkələrdə yaşayan azərbaycanlılar. Ona görə də mən arzu edərdim ki, hər bir ölkədə Azərbaycan icmasında azərbaycanlılar həmrəy olsunlar, bir-birinə dayaq olsunlar, bir-birinə yardım etsinlər, bir-birinin dərdinə yansınlar və bizim milli adət-ənənələrimizi, milli dəyərlərimizi birlikdə gözləsinlər. Milli bayramlarımızı qeyd etsinlər. Təkcə müstəqillik bayramını, Novruz bayramını deyil, bütün başqa bayramları da qeyd etsinlər. Azərbaycan dilini yeni nəslə, uşaqlara çatdırmaq üçün müəyyən tədris imkanları yaratsınlar. Biz bu barədə kömək edəcəyik ki, bizdən sonra gələn nəsillər, sizin övladlarınız, bizim övladlarımız azərbaycançılığı daha da yüksəklərə qaldırsınlar".

H.Əliyevın Azərbaycan dilinin inkişafında xidmətlərindən söz salarkən onun yazı mədəniyyətimiz, əlifba islahatı və türk dünyasının birləşdirilməsi sahəsində gördüyü tarixi xidmətləri xüsusi qeyd etmək lazımdır. Ölkə prezidentinin 9 avqust 2001-ci il tarixdə imzaladığı "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərmanı irəliyə atılmış yeni və tarixi bir addım idi. XIX-XX əsrlərdə dəfələrlə latın qrafikalı əlifbaya keçmək üçün səylər olsa da, real nəticəsi olmamışdır. Latın qrafikalı əlifbaya keçmək ideyası türk dünyasında xüsusi bir mərhələdir. Bu ideyanın yaranması, reallaşması, tətbiqi Azərbaycanla, onun görkəmli şəxsiyyətlərindən sayılan M.F.Axundov, H.B.Zərdabi, C.Məmmədquluzadə, S.M.Qənizadə, N.Nərimanov, Ü.Hacıbəyov, B.Çobanzadə, Ə.Hüseynzadə, S.Ağamalıoğlu və b. ilə bağlı olmuşdur. Milli ruhlu

bu ziyalılar Azərbaycan xalqının tərəqqisi, maarifə, elmə yiyələnməsi yolunda latın qrafikalı əlifbanın tarixi rolunu dərk etmişlər. O dövrün reallığı bu ideyanın həyata keçməsinə həmişə mane olmuş, sədd çəkmişdir. 1926-cı ildə Bakı şəhərində keçirilən I Türkoloji qurultay türkdilli ölkələrdə latın qrafikalı əlifbaya keçməyi tövsiyə etdi. Qurultayın tövsiyəsini ilk reallaşdıran ölkə Azərbaycan oldu. Lakin 30-cu illərin repressiyası Azərbaycan xalqına çox böyük zərbələr vurdu. Bunlardan biri də latın qrafikalı əlifbanı ləğv etməsi idi. Sovet strategiyasının şovinist siyasəti nəticəsində doğma əlifbamız kiril qrafikalı əlifba ilə dəyişdirildi. Üzərindən neçə onilliklər keçdi, tarix öz ədalətli hökmünü verdi – Sovet İttifaqı dağıldı, Azərbaycan müstəqil respublikaya çevrildi, H.ƏIiyev kimi dünya şöhrətli siyasətçi, qəlbində türkçülük, azərbaycançılıq məşəli yanan dahi bir lider Azərbaycan dövlətinə yenidən rəhbərlik etdi. H.Əiiyev Türkiyədə “2001-ci ilin müdrik dövlət adamı” seçildi. Türk dünyasında türkçülük ideyasının mübariz təbliğatçısı, Azərbaycanda gedən prosesləri yaxından izləyən Qazax yazıçısı Oljas Suleymenov respublikamızda dil sahəsində başlanmış bu inkişafı belə qiymətləndirmişdir: “Latın əlifbasına keçmək böyük cəsarət, qətiyyət, siyasi iradə tələb edirdi. Cənab H.ƏIiyevdə bütün bu keyfiyyətlər, habelə zəngin siyasi təcrübə, kəskin tənqid və tarixi prosesləri istiqamətləndirə bilmək istedadı vardır. Bu, tarixi bir qərardır”. Bu fikrin xüsusi şərhə ehtiyacı yoxdur. Ölkəmizdə bu istiqamətdə oyanış baş verdi, olduqca əhəmiyyətli işlər görüldü. Xüsusilə təhsil sistemində, mətbuatda, idarəçilik işlərində proses uğurla aparıldı. Orta təhsil ocaqlarında möhtərəm prezidentimiz Ulu Öndərin məlum fərmanı tam həyata keçdiyindən, lazımi dərsliklər vaxtında çap olunduğundan şagirdlər latın qrafikalı əlifbadan sərbəst istifadə edə bildilər.

Ulu Öndərin həmişə diqqət mərkəzində saxladığı məsələlərdən biri də türk milləti və türk birliyi, onun dünya miqyasında təşkilatlanması, birgə çalışması, böyük bir siyasi, iqtisadi və mədəni gücə çevrilməsi, dünya səviyyəsində öz sözünü deməyi bacarması, iradəsini qəbul etdirmək imkanına malik olması idi. 6 fevral 2003-cü ildə TÜRKSOY-a üzv olan ölkələrin mədəniyyət nazirlərinin

Daimi Şurasının XIX toplantısının iştirakçılarını qəbul edərkən dil barədə fikirlərini onların diqqətinə çatdıraraq bildirmişdi ki,” milləti yaşatmaq və millətin indiyə qədər olduğu kimi əzilməsi imkanlarının qarşısını gələcəkdə almaq üçün dilimizi qorumalıyıq. İndi türkdilli millətlərin dillərində bir qədər fərq var. Amma bu dillərin kökü birdir. Mən belə düşünmürəm ki, biz gərək dilimizi tatar dilinə oxşadaq. Yaxud da ki, qırğızlar dillərin bizim dilə oxşatsınlar. Yox. Əsrlər boyu dillərimiz belə yaranıbdır. Amma eyni zamanda dilin işlənməsi mümkün olmadığına görə, bizim dillərimiz lazımi qədər inkişaf edə bilməyibdir. Ona görə də mən Azərbaycan dili haqqında fərman verdim. Azərbaycanda latın əlifbasına keçmək barədə fərman verdim və onun yerinə yetirilməsini təmin etdim. Azərbaycan dilinin bundan sonra da inkişaf etməsi mənim həyatımın ən birinci vəzifəsidir. Çünki millətin dilini əlindən alsan, onu öz dilindən məhrum etsən, o millət çox şey itirər. Amma millətin öz doğma dili, ana dili olanda, onu heç nə dəyişdirə bilməz. Allaha şükürlər olsun, bizim Azərbaycan dili çox mükəmməlləşib, çox genişlənibdir. Dilimizin çox böyük lüğət ehtiyatı var. Bizim Azərbaycan dili şeir dilidir. Yadımdadır, mən bir-iki dəfə ya burada, ya da Türkiyədə toplantılarda nitq söyləyəndən sonra dostum Süleyman Dəmirəl mənə deyirdi ki, sən şeir oxudun. Deyirdim ki, yox, mən nitq söylədim. O deyirdi ki, bilirəm, amma Azərbaycan dili o qədər şeir dilidir ki, bəzən fərqinə varmaq olmur ki, nitq söyləyirsən, yaxud şeir deyirsən. Eləcə də Anadolu türk dili. Anadolu türk dili də vaxtilə çox əzablar çəkibdir. Osmanlı imperatorluğunda, sarayda fars dili, ərəb dili işlənirdi. Türkiyədə türk dilinin inkişaf etdirilməsi böyük Atatürkün adı ilə bağlıdır. Bugünkü türk dilinin yaranması böyük Atatürkün xidmətləridir. Bilmirəm, siz bunu demisiniz, yoxsa yox, mən Azərbaycanda Atatürk Mərkəzi yaratmışam. Çünki Atatürk təkcə Anadolu türklərinin deyil, o, bizim hamımızındır. Mən Anadolu türk dilinin nə qədər ağır vəziyyətdə olduğunu bilirdim. Əgər Atatürk dil haqqında qərarlar qəbul etməsəydi, bu gün belə gözəl Anadolu türkcəsi olmazdı. Ona görə də dil, dil, bir də dil... Dili inkişaf etdirməliyik. Mən demişəm və bu gün də deyirəm. Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb,

fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan. Elədir, yoxsa yox? Mən bunu sizə ona görə deyirəm ki, dili inkişaf etdirmək TÜRKSOY-un əsas vəzifələrindən biridir. Dilimizi bir-birinə bağlamaq, yaxud da ki, bənzətmək lazım deyildir".

## Heydər Əliyev və dil mədəniyyətimiz

Dil mədəniyyətin bünövrəsidir, çünki dilin köməyi ilə ünsiyyət qurulur, mədəni normalar müəyyən edilir, bir sözlə, onsuz insanın cəmiyyətdə həyatı mümkün deyil. Məhz dilin sayəsində mədəniyyətlər nəsildən-nəslə ötürülür və uşaqlar öz ana dillərini öyrənərək əvvəlki nəsillərin ümumiləşdirilmiş təcrübəsini də mənimsəyirlər. Dil obyektləri, hadisələri və onların əlaqəsini düzgün qiymətləndirməyə kömək edir, insan fəaliyyətinin təşkili və əlaqələndirilməsini şərtləndirir.

Eyni zamanda dil təfəkkürə və mədəniyyətə münasibətdə müəyyənedici vasitə olaraq dünyanın spesifik mədəni simasını dərk edən insanın şəxsiyyətini formalaşdıran amildir. Hər bir xalqın, hər bir millətin var olmasının ən başlıca səbəbi özünəməxsus dilidir. Biz də fəxrlə deyə bilərik ki, bir xalq, bir toplum kimi zamanın bütün sınaqlarından ləyaqətlə keçərək dilimizi, mənəvi dəyərlərimizi qoruyub bu günümüzə qədər gətirib çıxara bilmişik. Şükürlər olsun ki, dərin tarixi kökləri olan dilimiz, mədəniyyətimiz və öz tariximiz var. Qürurluyuq ki, bu dildə danışan 80 milyondan çox həmvətənimiz dünya mədəniyyətinə böyük şairlər, yazıçılar, alimlər, siyasətçilər və dahilər bəxş etmişdir.

Məşhur etnoqraf Lev Qumilyov etnosun qorunmasında dil ünsürünün ən vacib amil olduğunu qeyd edirdi. Bu konteksdə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dilinin yaşadılması və inkişafı uğrunda apardığı mübarizənin mahiyyətini dərk etmək o qədər də çətin deyil. Dil mədəniyyətinə münasibət barədə Ulu Öndər deyir: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqı-

mıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcudur".

Heydər Əliyev bu dahiyanə fikri ilə dili əyilməzliyin, ölməzliyin simvolu sayır, onu milli sərvət adlandırır, bu müqəddəs mirasın babalarımızın əmanəti olduğunu, qorunmasını isə vətəndaşlıq borcu hesab edir.

Heydər Əliyev öz ana dilini bilməyənləri şikəst adam adlandırmaqla millətin bütövlüyünün milli dildən keçdiyini çatdırır. Bütün bu göstərilənlər uzun illər Azərbaycana rəhbərlik etmiş böyük dövlət adamının mübarizələrlə dolu həyatının əsas leytmotivini təşkil edir. Ulu Öndər dil məsələsində mövqeyini hələ Azərbaycanın Konstitusiyası hazırlanmazdan əvvəl, SSRİ Konstitusiyası barədə cəsarətlə söylədiyi fikirlərində bildirmişdi. Azərbaycanın rəhbəri SSRİ Konstitusiyası haqqında danışarkən xüsusi vurğulayırdı ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Belə mövqe, əslində, dil məsələsi ilə bağlı gözlənilən təhlükənin qarşısını almaq, çətin şəraitdə ana dilinin dövlət dili statusunu qorumaq məqsədı güdürdü.

Qeyd etməliyik ki, 1921-ci ildə Azərbaycan SSR Konstitusiyasında dilimiz haqqında heç bir maddə salınmamışdır. 1937-ci ildə isə Azərbaycan SSR Konstitusiyası layihəsində nəzərdə tutulur ki, dövlət dili türk dilidir. Moskvadan tapşırıq gəlir: həmin maddə çıxarılsın. Belə də olur, sonra isə bu məsələ tamamilə unudulur.

Ulu Öndər Heydər Əliyev “xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir” – söyləyərək bu tarixi uğuru xalqımızın böyük qələbəsi kimi qiymətləndirirdi. Əlbəttə, Heydər Əliyevin ana dili məsələsində prinsipial, qəti və barışmaz mövqe tutması başqa dillərin, o cümlədən rus dilinin tam əeyhinə getməsi demək deyildi. O anlayırdı ki, keçmişdə Sovet İttifaqında yaşayan xalqlarının elmi, mədəni tərəqqisi, dünyaya çıxışı, hələlik, əsasən rus dili vasitəsilə həyata keçirilir. Belə ki, son elmi və mədəni nailiyyətlər postsovet ölkələrində məhz ilk olaraq rus dilinə, sonra isə milli dillərə çevrilirdi. Bundan çıxış edərək, Ulu Öndər azərbaycanlıların ikinci dil kimi, rus dilini və digər dilləri mükəmməl bilmələrinin tərəfdarı

kimi çıxış edirdi. O, azərbaycanlıların yalnız ana dili çərçivəsində məhdudlaşıb qalmasının tam əleyhinə idi.

Heydər Əliyevin dil siyasətində Azərbaycan ədəbi dilinin saflığının qorunması və inkişaf etdirilməsi xüsusi yer tuturdu. Ulu Öndər dilimizin saflığının qorunmasını ziyalılarımızdan tələb edir, rəsmi toplantılarda bu məsələ barədə öz prinsipial mövqeyini açıq-aydın bildirirdi. Azərbaycan yazıçılarının VII qurultayındakı nitqində Heydər Əliyev ana dili haqqında heç nədən çəkinmədən demişdi: "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. Azərbaycan dili görünməmiş zirvələrə qalxmış, müasir poeziyanın və nəsrin, elm və texnikanın, kargüzarlığın və fəal ictimai-siyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilmişdir. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır. Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır".

Bununla bağlı görülən işlər sayəsində ilk dəfə olaraq bir neçə dilçı alimə dövlət mükafatı verildi, Azərbaycan dilçilərinin nüfuzu qalxdı. Alimlərin mükafatlandırılması dilimizin istifadə dairəsinin genişlənməsinə kömək etdi. Ulu Öndər bununla kifayətlənmir, əvvəlki illərdə müəyyən təzyiqlərə məruz qalmış alimlərə də böyük qayğı göstərirdi. Bu diqqət və qayğı nəticəsində ölkəmizdə ana dilində nəşr edilən kitabların tirajı artırılırdı.1979-cu ildə ölkədə 1300 adda 13 milyon 800 min nüsxə kitab çap edilmişdi ki, onun da 11 milyon 100 min nüsxəsi dilimizdə idi.

Ulu Öndərin dilimizə və torpağmıza bağlılığı yeni himnin müzakirəsi zamanı da özünü büruzə vermişdi. O, ölkəmizin SSRİ-nin regionu kimi deyil, bərabərhüquqlu müttəfiq respublikası kimi hüquqlarını hər yerdə qoruyurdu. Məsələn Azərbaycan KP MK-nın 1978-ci il 14 aprel tarixli iclasında respublikanın yeni himni haqqında məsələ müzakirə edilərkən məlum oldu ki, himnin mətnində "respublika" sözü yoxdur. Müzakirə zamanı Heydər Əliyev mətnə

"respublika" sözünün salınmasının vacibliyini söyləmişdi. Bəziləri himnə "respublika" sözünün salınmasının alınmadığını desələr də Ulu Öndər israrla və açıq şəkildə bildirir: "Mən çox istərdim ki, "respublika" sözü mətndə olsun. Mənə deyirlər ki, heç cür alınmır. Mən hesab edirəm ki, belə sözün olmasına nail olmaq lazımdır. Biz Azərbaycan, dövlət, diyar haqqında danışırıq, amma bura respublikadır. Yaxşı olardı ki, burada "respublika" sözü olsun".

Ulu Öndərin təkidiylə mətnə "respublika" ifadəsi daxil edildi və bəyənilərək Azərbaycan Ali Soveti Rəyasət Heyəti tərəfindən təsdiq olundu. Bununla bağlı Heydər Əliyev fəxrlə deyirdi: "Himn bizim ümumi iftixarımız, ümumi qürurumuzdur, sərvətimizdir. Mən özümü də hansısa dərəcədə bu himnin müəllifi hesab edirəm".

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra da yeni Konstitusiyanın qəbul edilməsi zamanı dil məsələsinə çöx həssaslıqla yanaşmış, bununla bağlı maddə ekranlarda canlı yayımda ziyalıların iştirakı ilə müzakirə edilmişdi. O, heç kimi təsir altına salmamaq və ziyalılara öz fikirlərini müstəqil ifadə etməyə imkan yaratmaq üçün fikrini sonda deyəcəyini bildirmişdi.

1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapdı. Bundan sonra bu sahədə məqsədyönlü strateji siyasət aparılmağa başlandı.

Ulu Öndər ana dilimizin mövcud durumunu və problemlərini də daim diqqət mərkəzində saxlayaraq bu yöndə bir sıra mühüm tədbirlərin həyata keçirilməsinə nail oldu.

Heydər Əliyevin keçən əsrin 70-ci illərindən başlayaraq ömrünün sonuna qədər yeritdiyi fəal və ardıcıl dil siyasəti həyatımızın bütün sahələrində öz əksini tapmışdır.

Təhsil sistemində çalışan bütün işçilər Ulu Öndərin dil siyasəti ilə bağlı imzaladığı fərmanlardan irəli gələn vəzifələrin yerinə yetirilməsində, dövlət dili ilə əlaqədar verdiyi müdrik göstərişlərin, irəli sürdüyü ideyaların gerçəkləşməsində yaxından iştirak edirdilər.

Milli tariximizə Heydər Əliyev epoxası kimi düşən 1969-2003-cü illərdə dilimizin beynəlxalq səviyyədə tanınması və hərtərəfli inkişafı baş vermişdir.

Ulu Öndərin 1970-ci ildə BDU-nun 50 illik yubileyində Azərbaycan dilində çıxışı ilə yeni bir dövr başlandı. Dilimiz nüfuzlu məclislərə, dövlət əhəmiyyətli tədbirlərə yol açdı.

Respublika Təhsil Nazirliyinin 2002-ci ilin iyul tarixli, 70 nömrəli kollegiya qərarında göstərilirdi ki, ümumtəhsil məktəbi şagirdlərinin əsl vətəndaş kimi yetişdirilməsində, onlara milli mənəvi və ümumbəşəri dəyərlərin aşılanmasında, milli mənliyin dərk edilməsində Azərbaycan dili və ədəbiyyat fənlərinin əhəmiyyəti böyükdür. Azərbaycan dili ölkəmizin müstəqilliyə qədəm qoyması ilə dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlının milli birliyinin yaradılmasında və əlaqələrin genişləndirilməsində müstəsna rol oynayır, soydaşlarımızın ünsiyyət silahına çevrilir.

Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən əsas göstəricisi azərbaycançılığın və milli ruhun yüksəlişi, xalqın qan yaddaşının özünə qaytarılması, milli dövlətçilik arzularının güclənməsi oldu. Ulu Öndər gənclərimizin ana dili əsasında dünyanı anlamasını istəyirdi. Azərbaycan gənclərinə başqa dillərlə yanaşı ana dilini də mükəmməl bilməyi tövsiyə edirdi.

XX əsrin ikinci yarısında Azərbaycan dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, siyasət aləminə yol açması Ulu Öndərin dil siyasəti ilə bağlıdır.

Onun dil siyasəti, dilimizin inkişafı yönündə göstərdiyi tarixi xidmətlər böyük bir məktəbdir və bu məktəbin təcrübəsindən xalqımız daim yararlanacaqdır.

Ulu Öndərin siyasi kursu onun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli lider Heydər Əliyevin siyasəti Azərbaycanda ana dilinin – ümumxalq dilinin tərəqqisi üçün elə bir tarixi şərait yaratmışdır ki, biz həmin siyasətin daimi olacağına əminik.

**Prezident İlham Əliyevin dil siyasəti**

Ümummilli Liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin böyük önəm verdiyi dil siyasətini uğurla davam etdirir. Xalqının milli adət-ənənələrinə, onun qədim mədəniyyətinə, milli kökünə bağlı olan prezidentimiz Ulu Öndərin siyasi kursunu yeni şəraitin tələblərinə uyğun şəkildə yaradıcılıqla inkişaf etdirmək məqsədiylə 12 yanvar 2004-cü ildə dillə bağlı öz ilk tarixli sərəncamını imzaladı. Ona əsasən, ana dilinə dövlət qayğısının daha da artırılmasını təmin etmək məqsədilə bir sıra tədbirlər həyata keçirilməli, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin ən gözəl nümunələri latın qrafikası ilə yenidən kütləvi şəkildə nəşr edilməli idi.

Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı bu sahədə yaranmış boşluğu aradan qaldırmaqla bərabər əlifba ilə bağlı digər texniki problemləri də həll etdi. Prezidentin adıçəkilən sərəncamın məntiqi davamı olaraq imzaladığı növbəti sərəncamlar əsasında 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından nəşrlər latın qrafikalı Azərbaycan əlifbası ilə çap edildi.

Prezident bununla Ulu Öndər tərəfindən18 iyun 2001-ci ildə latın qrafikalı əlifbaya keçidin təmin edilməsi ilə bağlı verdiy fərmanın icrasını yerinə yetirdi və qarşıya bir sıra yeni vəzifələr qoydu.

2004-cü ilin yanvarında UNESCO-nun iqamətgahında "Dədə Qorqud" dastanının 1500 illiyinə həsr olunmuş möhtəşəm tədbir, Brüsseldə "Dədə Qorqud" abidəsinin açılış mərasimi Azərbaycan dilinin, ədəbiyyatının, mədəniyyətinin layiqli təbliğinə bariz nümunə idi. Elə həmin ildə Fransa senatının muzeyində 20 Azərbaycan rəssamının 70-dən çox əsəri nümayiş etdirildi.

"Azərbaycan Milli Ensklopediyası redaksiya heyətinin tərkibinin və Əsasnamənin təsdiq edilməsi haqqında" Prezident fərmanı

imzalandı. Martın 15-də Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyini qəbul edən dövlət başçısı milli ədəbiyyatın inkişaf perspektivləri və dünya ədəbiyyatına inteqrasiya ilə bağlı tövsiyələrini verdi.

Xarici İşlər Nazirliyində respublikanın xarici ölkələrdəki diplomatik nümayəndələrinin rəhbərliyi ilə görüşdə prezident İlham Əliyev Azərbaycan mədəniyyətinin təbliği mexanizmləri ilə bağlı öz fikirlərini bəyan etdi: "Azərbaycan haqqında reallıqlar, həqiqətlər dünya ictimaiyyətinə çatdırılmalıdır. Ümumiyyətlə, mən xarici mətbuatı mütəmadi qaydada izləyirəm. Azərbaycanı yalnız neft ölkəsi kimi təqdim edirlər, yaxud da ölkə haqqında erməni-azərbaycanlı münaqişəsi ilə bağlı məlumat verilir. Amma Azərbaycanın qədim tarixi var, mədəniyyəti var, mədəni irsi var. Bu gün mətbuat dünyada çox böyük rol oynayır. Biz istərdik ki, Azərbaycan haqqında gedən məlumat reallığa əsaslansın".

2004-cü il sentyabrın 9-da Azərbaycan dili və mədəniyyəti üçün ən yaddaqalan hadisə baş verdi. Mehriban xanım Əliyeva UNESCO-nun Xoşməramlı Səfiri seçildi. Prezident İlham Əliyevin dil və mədəniyyət sahəsinə xüsusi diqqət və qayğısı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsləri sayəsində dilimiz və milli mədəniyyətimiz özünün yeni inkişaf mərhələsinə qədəm qoydu.

Prezidentin 2004-cü il yanvarın 14-də imzaladığı "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" Sərəncamı isə Azərbaycan Milli Ensiklopediyasının çoxcildli nəşrini təmin etdi. Azərbaycan Milli Ensiklopediyasının yeni nəşri etnik özünüdərkin formalaşmasına ciddi təsir göstərdi. Ensiklopediyada xalqımızın tarixi, iqtisadiyyatı, mədəniyyəti, elm və siyasətdəki yeri və rolu, respublikamızda bu sahələrdə çalışanların, həmçinin görkəmli azərbaycanlı mesenat, mühacir və neft sənayesi sahibkarlarının nümayəndələri haqqında məlumatlar, Azərbaycanın dilinin, mədəniyyətinin və tarixinin öyrənilməsində mühüm rolu olan əcnəbi tədqiqatçıların əsərləri öz əksini tapdı.

İlk dəfə Azərbaycanda muğam ifaçılığının və tədqiqatının təbliğini ehtiva edən ilk rəsmi mərkəz – muğam ocağı yaradıldı. Mehriban xanım Əliyevanın təşəbbüsü, prezident İlham Əliyevin

sərəncamı ilə 2005-ci ilin avqustunda Beynəlxalq Muğam Mərkəzinin təməli qoyuldu. 2008-ci il dekabrın 27-də isə artıq Beynəlxalq Muğam Mərkəzinin açılış mərasimi keçirildi.

Prezident İlham Əliyevin mədəni irsimizə göstərdiyi diqqət, Mehriban xanım Əliyevanın davamlı təbliğatı sayəsində muğam, aşıq sənəti, Novruz bayramı ənənələri, xalçaçılıq sənəti, tar ifaçılıq sənəti, çovqan oyunu, kəlağayı tərtibi sənəti UNESCO-nun qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edildi.

Prezident əlyazmalarımızın, kitablarımızın və mətbuat orqanlarımızın külliyatlarının qorunaraq saxlanıldığı kitabxanaların – bu milli sərvətimizin müasir texnoloji tələblərə uyğunlaşdırılmasından ötrü 20 aprel 2007-ci il tarixli fərmanı ilə "Azərbaycan Respublikasının kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı" elan etdi, bununla da bütün çıxışlarında dönə-dönə söylədiyi "Kitabxanalar Azərbaycan xalqının milli sərvətidir" şüarının həyata keçməsinə güclü təkan verdi.

2008-ci ildə cəsurluq rəmzi olan Cavad xanın qəbri üzərində məqbərə ucaldıldı. Tiflisdə Azərbaycan aydınları Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundzadənin, Həsən bəy Ağayevin və Fətəli xan Xoyskinin qəbirüstü abidələri yenidən düzəldildi.

Prezident İlham Əliyevin böyük xidməti kimi dəyərləndirilən bu addımları və Azərbaycan Milli Ensiklopediyasının nəşri onun "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın təsdiq edilməsi barədə 2 may 2009-cu il tarixli, "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun nizamnaməsinin təsdiq edilməsi haqqında" 19 fevral 2010-cu il tarixli Fərman və sərəncamları bu sahələrdə yeni stimul yaratdı. Bu qərarlarda Heydər Əliyevin dövlət dilinin inkişafı istiqamətində gördüyü işlər haqqında məlumatların, sənədlərin, ana dilimizə dair çıxışlarının, fikirlərinin toplanması, ümumiləşdirilməsi, əldə olunmuş bütün materialların kitab şəklində nəşr olunması və onun elektron versiyasının yaradılması, mühafizəsinin, qorunmasının və yayılmasının təmin edilməsi başlıca məqsəd kimi qarşıya qoyulmuşdu. Dilçi-alimlərin, ədiblərin Azərbaycan dili ilə bağlı,

Ümummilli Liderimizin ana dilinin qorunması, inkişafı yolunda gördüyü işləri əks etdirən əsərləri də bu siyahıya daxil edilmişdi.

5 iyul 2011-ci il tarixində prezident İlham Əliyev Dünya Azərbaycanlılarının III qurultayında iştirakçılara və Azərbaycan xalqına müraciətlə demişdi ki, "Azərbaycan bu il müstəqilliyinin 20 illik yubileyini qeyd edir. Bu 20 il ərzində biz böyük və şərəfli yol keçmişik. Müstəqil Azərbaycan üçün ən həlledici anlarda Azərbaycan xalqının tələbi ilə rəhbərliyə gəlmiş Heydər Əliyev ölkəmizi bəladan, faciədən, vətəndaş müharibəsindən qurtara bilmişdir. Bizim xaricdə yaşayan böyük ailəmiz vardır, bu, azərbaycanlılardır. Onlar öz doğma Vətəninə bağlı olan adamlardır. Bizi fərqləndirən əlamət ondan ibarətdir ki, harada yaşamağımızdan asılı olmayaraq, öz Vətənimizə bağlıyıq. Bura bizim vətənimizdir, hamımızın vətənidir. Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var – Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – azərbaycançılıq məfkurəsi! Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər. Dilini, milli-mənəvi dəyərlərimizi daim yaşatsınlar".

Azərbaycan Prezidenti İlham Əliyevin sonradan atdığı hər bir addım, qəbul etdiyi hər bir qərar onun ürəkdən gələn bu sözlərinin davamı və sübutu kimi görünür.

İlham Əliyevin fikrincə Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də Ulu Öndərin layiqli davamçısı kimi Azərbaycanın inkişafı naminə, dilimizin qorunması və inkişafı yolunda tam gücümüzlə səy göstəririk.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dil siyasəti məsələsi Prezident İlham Əliyevin fəaliyyətinin aparıcı tərkib hissəsi kimi həmişə diqqətdə olmuş, bu istiqamətdə böyük işlər görülmüşdür. Müasir dövrdə Azərbaycan dili elə bir inkişaf səviyyəsinə çatır ki, artıq, dilimizin qüdrəti bütün sahələrdə hiss edilir. Dilimiz ictimai, siyasi, mədəni inkişafla bağlı olaraq daha da tərəqqi

edir, üslubları zənginləşir. Prezident İlham Əliyev də ana dilimizə, əlifbamıza xüsusi qayğı ilə yanaşaraq bu sahənin inkişafını həmişə diqqətdə saxlayır. Bunun ən bariz nümunəsi 2012-ci il mayın 23-də verilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamıdır. Sərəncamda qeyd edilir ki, "Azərbaycan dili xalqımızın mənəvi sərvəti, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməli, dövlətimizin müstəqilliyinin başlıca rəmzlərindən biridir...Ölkəmizin zaman-zaman müxtəlif imperiyalar tərkibində yaşamağa məcbur olmasına baxmayaraq, ana dilimiz hətta bu ağır vaxtlarda belə milli məfkurənin, milli şüurun və milli-mədəni dəyərlərin layiqincə yaşamasını və inkişafını təmin etmişdir. Bu gün onun qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətəndaşının müqəddəs borcudur... Müasir Azərbaycan ədəbi dili siyasi-ictimai, elmi-mədəni sahələrdə geniş işlənmə dairəsinə malik, yüksək yazı mədəniyyəti olan və daim söz ehtiyatını zənginləşdirən bir dildir. O, özünün indiki yüksək səviyyəsinə görkəmli şair və yazıçıların, maarifpərvər ziyalıların zəhməti sayəsində çatmışdır. Bu prosesdə Azərbaycan dilçilik elminin böyük xidməti vardır...1969-cu ildə müstəqil Dilçilik İnstitutunun fəaliyyətə başlaması ilə dilşünaslıq elmimizin sürətli inkişaf yolu tutaraq ardıcıl şəkildə müvəffəqiyyətlər qazanması üçün möhkəm zəmin yarandı. Azərbaycan dilçiliyi Məmmədağa Şirəliyev, Əbdüləzəl Dəmirçizadə, Muxtar Hüseynzadə, Əliheydər Orucov, Səlim Cəfərov, Əlövsət Abdullayev, Fərhad Zeynalov və digər alimlərimizin yüksək elmi səviyyəli tədqiqatları yalnız dilşünaslığımızı yox, ümumən Azərbaycan ictimai fikrini zənginləşdirdi... Ali məktəblər üçün yazılmış dörd cildlik "Müasir Azərbaycan dili" dərsliyi 1974-cü ildə məhz Ulu Öndərin təşəbbüsü ilə milli dilçilik elminin inkişafına töhfə kimi qiymətləndirilərək respublikanın Dövlət mükafatına layiq görülmüşdür. Azərbaycan dilinə və ümumiyyətlə Azərbaycan dilçilərinin əməyinə verilən qiymət və onlara göstərilən qayğı Azərbaycanın keçmiş sovet məkanında, eyni zamanda beynəlxalq elm aləmində türkologiyanın mərkəzlərindən biri kimi tanınmasına

gətirib çıxarmışdır. SSRİ Elmlər Akademiyasının bu istiqamətdə yeganə “Türkologiya” jurnalı məhz Bakıda nəşr edilirdi...Azərbaycan Respublikası öz müstəqilliyinin bərpasına nail olduqdan sonra Ümummilli Liderimiz Heydər Əliyevin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli və “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2 yanvar 2003-cü il tarixli fərmanları ilə ədəbi dilimizin fəaliyyət meydanı daha da genişləndirilmiş, onun müxtəlif üslublarının potensialı bir daha üzə çıxarılmış, bütünlükdə dil mədəniyyətimiz qarşısında yeni üfüqlər açılmışdır...Ədəbi dilimizin yad ünsürlərdən təmizlənməsi istiqamətində müvafiq tədbirlərin görülməsi daim davam etdirilməlidir.

Dilçilik elmimiz təkcə Azərbaycan dili ilə bağlı deyil, həmçinin onun digər türk dilləri ilə münasibətlərini öyrənmək istiqamətində ciddi addımlar atmalı, müasir dillərin nəzəri cəhətdən araşdırılmasına, eyni zamanda qədim dünya dilləri və mədəniyyətlərinin tədqiqinə yönələn yeni layihələr işləyib hazırlamalıdır”.

Dövlətçiliyimizin başlıca rəmzlərindən olan ana dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılmasını, ölkəmizdə dilçilik elmi sahəsində vəziyyətin əsaslı surətdə yaxşılaşdırılmasını təmin etmək məqsədi ilə Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və digər aidiyyəti qurumlara tapşırıq vermişdir ki, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının layihəsini hazırlayıb 2012-ci il oktyabr ayının 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin və koordinasiya edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası yaradılsın, bununla yanaşı müxtəlif sahələrdə tərcümə işinin mərkəzləşdirilmiş qaydada və məqsədyönlü aparılması üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi yaradılsın.

Bütün bu qərarlar və tədbirlərlə yanaşı ölkə başçısının 2012-ci il may ayının 23-də "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" imzaladığı Sərəncamı da öz aktuallığı ilə seçilir. Bu sərəncam Azərbaycan dilinə göstərilən qayğının ifadəsi olmaqla yanaşı, dilimizin saflığının qorunması və daha da zənginləşdirilməsi baxımından mühüm tarixi hadisə idi. Dilimiz xalqımızın mənəvi sərvəti, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməli, dövlətimizin müstəqilliyinin başlıca rəmzlərindən biridir. Biz dilimizin dövlət dili kimi fəaliyyət göstər-məsindən böyük qürur hissi keçiririk. Onun qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətəndaşının müqəddəs borcudur.

Prezident 29 may 2012-ci il tarixli digər sərəncamı ilə 23 may 2012-ci il tarixli 2236 nömrəli Sərəncamın icrası ilə əlaqədar, ölkəmizdə dilçilik elmi üzrə araşdırmaların mərkəzi olan Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının möhkəmləndirilməsi, institutda fundamental tədqiqatların, monoqrafik əsərlərin hazırlanması və nəşrinin həyata keçirilməsi, dünyanın mötəbər kitabxanalarında, əlyazma fondlarında saxlanılan ana dilimizə aid qədim mənbələrin öyrənilməsi, həmçinin lüğətçilik sahəsində indiyədək toplanmış materialların elektron bazasının yaradılması və dialektoloji ekspedisiyaların təşkilinin təmin edilməsi məqsədi ilə Prezidentinin ehtiyat fondundan Azərbaycan Milli Elmlər Akademiyasına 2 (iki) milyon manat ayırmış, vəsaitin Nəsimi adına Dilçilik İnstitutu tərəfindən təqdim olunmuş plana əsasən aidiyyəti üzrə istifadəsinə nəzarəti Akademiyaya həvalə edilmişdir.

2013-ci ildə Paris və Strasburqda Nizami Gəncəvinin 870 illik yubileyi ilə bağlı konsert və sərgilər reallaşdı. Romada mütəfəkkir şairin abidəsi ucaldıldı

"Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 9 aprel 2013-cü il tarixli di-

gər sərəncamda isə qloballaşma şəraitində Azərbaycan dilinin imkanlarından dövrün tələblərinə uyğun istifadəni və ölkədə dilçiliyin inkişafını təmin etmək məqsədi ilə tərtib edilmiş Dövlət Proqramını təsdiq edilmiş, nəzarət və tədbirlərin icrası zamanı müvafiq təşkilatlarla işlərin əlaqələndirilməsi Nazirlər Kabinetinə həvalə edilmiş, icranın gedişatı ilə bağlı ildə bir dəfə Prezidentə məlumat təqdim edilməsi tapşırılmışdır.

Prezident İlham Əliyev fəaliyyəti dövründə elm və təhsili daim diqqətdə saxlamış, onlara qayğı ilə yanaşmış, bununla da ölkəmizdə bu sahənin sürətli inkişafını təmin etmişdir. Xalqımız İlham Əliyevin rəhbərliyi ilə özünün milli-mənəvi irsinə və bəşəri dəyərlərinə sahib çıxmış, onun kimliyini təstiq edən və millət kimi tanıdan dilimiz isə daim Prezidentin diqqətində olmuş, bu istiqamətdə bir sıra real uğurlar əldə edilmişdir. O, çıxışlarında ana dilinin, ədəbiyyatın rolunu həmişə önə çəkmiş, dövlət atributlarından söz açarkən dilimizə, onun əlifbasına xüsusi hörmətlə yanaşmış, onların qorunması və inkişafı ilə bağlı məsələlərin həyata keçirilməsini ön plana çəkmişdir. “Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir” şüarını rəhbər tutmuşdur..

Prezident dilimizə həmişə qayğı və sevgi ilə yanaşmışdır. 2015-ci ilin noyabr ayının 9-da Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyindəki çıxışında dilimiz və onun təmizliyinin qorunması ilə bağlı demişdir: “Əsrlər boyu Azərbaycan xalqını bir xalq kimi qoruyan bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, xalçaçılıq sənətimiz və digər ənənələrimiz olubdur. Bizim bu sahədəki bütün fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır. Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi qoruya, saxlaya bilmişik. Azərbaycan dilinin saflığını qoruya bilmişik. Ona görə, bu gün bəzi hallarda görəndə ki, dilimizə xaricdən müdaxilələr edilir və bəzi hallarda bu müdaxilələr Azərbaycanda da dəstək qazanır, bu, məni doğrudan da narahat edir. Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha de

mək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik.

Əlbəttə, bizim vətəndaşlar, xüsusilə gənc nəsil nə qədər çox xarici dil bilsələr, o qədər yaxşıdır. Ancaq ilk növbədə öz ana dilini bilməlidirlər. Digər tərəfdən, imkan verməməlidirlər ki, ana dilimizə yad kəlmələr daxil olsun. Buna ehtiyac yoxdur. Ancaq biz bunu görürük.

Bəzi ictimai xadimlərin, hökumət üzvlərinin çıxışlarında, bəzi televiziya verilişlərində, Milli Məclisdə eşidirəm ki, kənar kəlmələrdən istifadə edilir. Buna ehtiyac yoxdur. Əlbəttə, mən bu sahədə mütəxəssis deyiləm, ancaq bir vətəndaş kimi, hesab edirəm ki, yeni kəlmələrin icad edilməsinə heç bir ehtiyac yoxdur. Lüğətimiz o qədər zəngindir ki, bunu qorusaq və gələcək nəsillərə əmanət kimi təhvil versək bu, bizim bu sahədəki ən böyük nailiyyətimiz olacaqdır".

Dilimizə yad ünsürlərin daxil olmasından narahat olan Prezident bunların aradan qaldırılması və saflığının qoruması məqsədi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu qarşısında aşağıdakı mühüm vəzifələri qoymuşdur:

"- Dövlət televiziya kanalında və digər kanallarda "Azərbaycan dili" verilişi bərpa edilsin və verilişdə dilimizin saflığı və ədəbi dil normalarının pozulması məsələsi geniş şəkildə işıqlandırılsın;

- Azərbaycan dilinin saflığının qorunması istiqamətində maarifləndirmə işi genişləndirilsin;

- Mətbuat və televiziya işçilərinin işə qəbulu zamanı onların nitq mədəniyyətinə bələdliyi səviyyəsi yoxlanılsın;

- Nitq mədəniyyəti ilə bağlı məsələlər mətbuatda mütəmadi olaraq işıqlandırılsın;

- Ayrıca olaraq mətbuat və televiziya işçiləri üçün praktik "Nitq mədəniyyəti" vəsaiti hazırlanıb nəşr edilsin;

- Azərbaycan Milli Elmlər Akademiyasının magistrant və doktorantları üçün "Dilimiz – milli sərvətimiz" adlı müsabiqə keçirilsin;

- Ədəbi dil normalarının pozulmasını əks etdirən videoçarxlar hazırlansın.

- Təhsil Nazirliyi və Milli Televiziya və Radio Yayımları Şurası xəttilə müvafiq qurumlarda "Azərbaycan dilinin saflığını qorumaq hamının borcudur" mövzusunda müsabiqələr keçirilsin;

-- Təhsil Nazirliyinin müvafiq qurumlarında "Nitq mədəniyyəti" fənninin tədrisinin keyfiyyəti yaxşılaşdırılsın;

- "Nitq mədəniyyəti" dərsliyinin yeni təkmilləşdirilmiş nəşri hazırlansın;

- Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi ilə koordinasiya işi gücləndirilsin, birgə tədbirlərin həyata keçirilməsinə diqqət artırılsın;

- Dilimizə daxil olan yeni terminlər mütəmadi olaraq ictimaiyyətə çatdırılsın və müzakirə olunsun;

- Yeni anlayışların dilimizin daxili imkanları hesabına ifadə olunması məsələsinə diqqət artırılsın;

- Azərbaycan dilinin orfoepiya lüğəti hazırlanıb nəşr olunsun;

- Ədəbi dil normalarının pozulması hallarına qarşı müvafiq cərimələr tətbiq edilsin. (Möhsün Nağısoylu, AMEA-nın Nəsi-mi adına Dilçilik İnstitutunun direktoru, akademik. "Xalq qəzeti", 26.01.2021)."

2017-ci il oktyabr ayının 6-da Prezident İlham Əliyevin tapşırığı ilə Beynəlxalq Mətbuat Mərkəzində "Azərbaycan ədəbi dilinin qorunmasında və inkişafında KİV-in rolu" mövzusunda konfransın keçirilməsi də belə tədbirlərin davamı idi.

Dilimizin tətbiq dairəsinin genişləndirilməsi üçün 2018-ci il iyulun 18-də Prezident digər mühüm sənədi – "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı imzalayir.

1 noyabr 2018-ci il tarixdə Prezident İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı dilimizin inkişafı və qorunması sahəsində həyata keçirilən genişmiqyaslı işlərin məntiqi davamı oldu.

Prezident bu fərmanda Azərbaycan dilinin saflığının qorunmasını və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsini

təmin etmək məqsədilə dövlət dilinin tətbiqinə nəzarət edən, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edən, dövlət büdcəsindən maliyyələşən "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi"nin yaradılmasını, AMEA ilə birlikdə Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı Tədbirlər Planını hazırlanmasını, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının pozulması hallarının qarşısını almaq üçün qanunvericilik aktlarında dəyişikliklər edilməsi barədə təkliflərini hazırlanmasını istəmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı ardıcıl və uğurlu dövlət quruculuğu siyasətində ana dilinin qorunması və zənginləşdirilməsi məsələləri həmişə önəmli yer tutmuşdur. Bunu ölkə Prezidentinin Azərbaycan dili ilə bağlı silsilə sərəncam və fərmanları, eləcə də müxtəlif tədbirlərdəki çıxışları zamanı səsləndirdiyi qiymətli fikirlər sübut edir.

Vətən müharibəsində qazandığımız möhtəşəm zəfərin qürur və sevincini yaşadığımız günlərdə – 5 yanvar 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Anar Kərimovu mədəniyyət naziri vəzifəsinə təyin etməsi münasibətilə videformatda qəbul edərkən Azərbaycan dilinin dövlət statusunun ən yüksək səviyyədə təmin edilməsi ilə bağlı səsləndirdiyi ali tələbkarlıq bütün cəmiyyəti ana dilimizə yüksək sayğı ilə yanaşmağa növbəti çağırış kimi səsləndi. Ölkə Prezidenti mədəni irsimizi qorumağın vacibliyini vurğulamaqla yanaşı çıxışında ana dilimizin saflğının qorunması və inkişaf etdirilməsi məsələsinə də toxundu. İlham Əliyev bildirdi ki: "Əsrlər boyu bizi xalq kimi, millət kimi qoruyub saxlayan bizim ana dilimizdir, Azərbaycan dilidir. Azərbaycan dilinin qorunması hamımızın vəzifəsidir".

Dövlət başçısı ana dilimizin zənginliyi baxımından, dünya dilləri sırasında xüsusi yeri olduğunu da vurğuladı: "Hesab edirəm ki, zənginliyi nöqteyi-nəzərindən Azərbaycan dilinin dünya dilləri sırasında xüsusi yeri vardır".

O, dilimizin saflığının pozulması ilə bağlı narahatlığını da ifadə etdi: "Son vaxtlar Azərbaycan dilinə daxil edilən bəzi kəlmələr dilimizin saflığını pozur".

Cənab İlham Əliyev Mədəniyyət Nazirliyinə bir vəzifə olaraq tapşırdı ki, digər aidiyyəti qurumlarla birlikdə Azərbaycan dilinin qorunması istiqamətində çox ciddi işlər aparsın. Prezident xüsusilə mətbuat orqanlarında, teleradio məkanında bəzi hallarda dilimizin saflığının pozulduğunu diqqətə çatdıraraq qeyd etdi ki, bu cür halların qarşısı alınmalıdır. Prezident İlham Əliyev çıxışının dillə bağlı hissəsinin sonunda dünyada 50 milyondan çox insan üçün Azərbaycan dilinin ana dili olduğunu da ayrıca olaraq vurğuladı.

Cənab Prezident çıxışında tribuna əvəzinə, onun dilimizdəki daha yatımlı sinonimi olan kürsü sözünü işlətdi: "Azərbaycan Milli Elmlər Akademiyasının kürsüsündən və digər tədbirlərdə demişəm ki, bizim zəngin dilimiz var, biz haqlı olaraq dilimizlə fəxr edə bilərik."

Azərbaycan dilinə olan belə həssas yanaşma, təbii ki, ulu kökdən, varislikdən və ənənəyə möhkəm sadiqlikdən irəli gəlir.

Dilimiz öz varlığını və özgürlüyünü qoruyub saxlamış, tarixin amansız və sərt sınaqlarından üzüağ, şərəflə çıxmış, zaman-zaman cilalanaraq saflaşmışdır. Azərbaycan dili elmin, texnikanın görünməmiş sürətlə irəlilədiyi bir dövrdə çoxsaylı anlayışları ifadə etməyə qadir dünya dillərindən biridir.

İstər Ulu Öndər, istərsə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ana dilimizin hərtərəfli inkişafı, tətbiq dairəsinin genişlənməsi, saflığının qorunması istiqamətində mühüm tədbirlər həyata keçirmişlər.

Ölkəmizin alimləri Azərbaycan dilinin dövlət dili və dünya azərbaycanlılarının ünsiyyət vasitəsi olaraq saflığının qorunması, mövqeyinin daha da möhkəmləndirilməsi və zənginləşdirilməsi üçün var qüvvə ilə çalışmışlar və çalışmaqda davam edirlər. Belə dilçi-alimlərdən Yusif Seyidovu, Tofiq Hacıyevi, Nizami Cəfərovu, Nizami Xudiyevi, Kamal Abdullanı, Ağamusa Axundovu, Vilayət Əliyevi, Buludxan Xəlilovu və başqalarını göstərmək olar.

Azərbaycan dili daha güclü olacaqdır. Buna inamımız şəksizdir. Çünki bu gələcəyin müqəddəs təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Hər bir azərbaycanlının Prezidenti olan, xalqına ləyaqətlə xidmət edən İlham Əliyev bu müqəddəs yolu öz nurlu əməlləri ilə işıqlandırır.

Prezidentimizin dalbadal verdiyi bu cür fərman və sərəncamlar ana dilinə dövlət qayğısının artırılması, dilimizin saflığının qorunması, dil pozuntularının azaldılması və aradan qaldırılması istiqamətində təsirli tədbirlərin görülməsi, dilçilik sahəsində fundamental və tətbiqi araşdırmaların keyfiyyətinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradırdı.

Azərbaycan dilinin hazırda dünya dilləri sırasında özünəməxsus yeri, necə deyərlər, imzalar içərisində imzası vardır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, "Ana dilimiz öz imkanlarının zənginliyi, səs quruluşunun səlisliyi və qrammatik quruluşunun sabitliyi ilə səciyyələnir. Müasir Azərbaycan ədəbi dili siyasi-ictimai, elmi-mədəni sahələrdə geniş işlənmə dairəsinə malik yüksək yazı mədəniyyəti olan və daim söz ehtiyatını zənginləşdirən bir dildir".

Beləliklə, istər Ulu Öndər, istərsə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ana dilimizin hərtərəfli inkişafı, tətbiq dairəsinin genişlənməsi, saflığının qorunması istiqamətində mühüm tədbirlər həyata keçirmişlər. Ədəbi dilin saflığının qorunması hamıdan asılıdır, çünki dilin daşıyıcısı xalqdır və dil xalqın ən böyük mənəvi sərvətlərindən biridir. Məhz buna görə də varlığımız, kimliyimiz olan dilmizin saflığını qorumaq hamımızın vətəndaşlıq borcudur.

Geosiyasi maraqların tez-tez toqquşduğu, katakilizmlərin cövlan etdiyi qloballaşan dünyada, ictimai-siyasi formasiyaların əvəzlənməsindən tutmuş iqtisadi tənəzzüllərə qədər narahatlıq yaradan bu dünyada milli mənafeləri qorumaq ağır missiyadır. Bundan ötrü qətiyyətli və ardıcıl mübarizə lazımdır. Və bu mübarizədə hər zaman hədəfi sərrast nişan alan bir silah var: həqiqətin özü! Buna dərin zəka, dəmir məntiq, siyasi-fəlsəfi mühakimə qabiliyyəti, milli təəssübkeşlik, alovlu vətənpərvərliklə gəlib çatmaq olar.

Prezident İlham Əliyevin dövlətçilik və ictimai-siyasi fəaliyyətində parlaq səhifələrə nəzər salsaq yenə bir həqiqətə şahidlik etmiş olarıq: dövlət başçısı zəkası ilə bütün sferaları aydınlatmışdır. İctimai-siyasi sabitlik, yeni iqtisadi modelin uğurları, mükəmməl diplomatiya, çevik və balanslaşdırılmış xarici siyasət kursu, daxili əmin-amanlıq, humanizmə söykənən sosial siyasət prezidentin gerçəkləşdirdiyi ağır, fəqət şərəfli və taleyüklü missiyanın uğurundan xəbər verir.

Prezident Ağdam Muğam Mərkəzinin açılışındakı çıxışında qeyd etmişdir ki, "Bizim mənəvi dəyərlərimizin, Azərbaycan dəyərlərinin inkişafı, qorunması üçün ədəbiyyatımızın, musiqimizin çox böyük əhəmiyyəti var. Muğam həm ədəbiyyatdır, həm musiqidir, həm də Azərbaycan dilinin saflığını qoruyan sənətdir".

Bu çıxışında əsas məqamlardan biri də dilin qorunması və inkişafının məhz mədəniyyətlə dilin vəhdətində öyrənilməsinin vacibliyidir. Bu prizmadan baxdıqda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın folklorumuzun, aşıq musiqisinin, muğamlarımızın, maddi və qeyri-maddi mədəni irsimizin inkişafında göstərdiyi misilsiz xidmətlər ana dilimizin qorunması üçün ən vacib amillərdən biri kimi dəyərləndirilməlidir.

3 noyabr 2025-ci il tarixində Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə keçirilən yığıncaqda Prezident İlham Əliyev bir daha ana dili ilə bağlı məsələyə toxunmuş, müxtəlif bölgələrdə vəziyyətlə müntəzəm surətdə tanış olduğunu, məsələni daim diqqətdə saxladığını, Azərbaycan dilinin təmizliyinin və saflığının qorunmasının dövlətinin əsas vəzifələrindən biri olduğu üçün həmişə lazımi tədbirlər gördüyünü xüsusi olaraq vurğulamışdır. Bəzi yerlərdə, xususilə də digər ölkələrdə yaşayan azərbaycanlılar arasında ədəbi dilin itdiyini, daha çox məişət dili kimi istifadə olunduğunu, onun xarici kəlmələrlə dolu olduğun diqqətə çatdırmış, dilimizi qorumasaq, təmiz və saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik deyə xəbərdarlıq etmişdir. Bir daha vurğulamışdır ki, "hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır.

Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir.

Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər…biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax, bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm”.

Ulu Öndər ana dili ilə bağlı çoxsaylı fikirlərində milli dilin azərbaycançılıqla birbaşa bağlılığı məsələsini də önə çəkmiş, xüsusi olaraq vurğulamışdır: “Millətin milliliyini saxlayan onun ana dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dil olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir”

Bu gün çox böyük inamla demək olar ki, Ümummilli Liderimiz Heydər Əliyevin dil siyasəti, Azərbaycan dilinin inkişafına, genişlənməsinə göstərdiyi qayğı, onun siyasi varisi möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən əzmlə dilimizə, ədəbiyyatımıza, mədəniyyətimizə çox böyük sevgi ilə davam etdirilir.

# İstifadə olunan ədəbiyyat

1. Abdulla Kamal. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, 2016. MTM-İnnovation nəşriyyatı, s. 360.

2. Агаева Н.А. Азербайджанские языковеды средневе-ковья. Б., 1990.

3. Allahverdiyev Qaley. "Xətib Təbrizinin" "Şərh əl-Həmasə" əsəri. Bakı, 1992, s.107.

4. Allahverdiyev Qaley. X əsr Azərbaycan ədəbiyyatşünaslığı məsələləri. Bakı, Şam nəşriyyatı, 2004, s. 286.

5. Allaxverdiyev Qaley. Trud Xatiba Tebrizi "Kitab al-Kafi fi-l-aruz va-l-kavafi" kak istoçnik po vostoçnoy poetike.Baku, İzdatelstvo Elm, 1992 qod, s. 133.

6. Babayev Adil. Əsərləri. VII cilddə, VI cild, Azərbaycan dilçiliyinin tarixi. "MSV NƏŞR" nəşriyyatı, 2023, s. 511.

7. Bağırov Q.K. Azərbaycan dilində fellərin leksik semantik inkişafı. Bakı, 1971, səh.13.

8. Буниятов З.М. Государство Атабеков Азербайджана. Б., 1978, s.234.

9. Bünyadov Z.M., Aslanov V.İ. Əbu Həyyan haqqında bir neçə söz. (Əsirəddin Əbu Həyyan əl-Əndəlusinin "Kitab əl-İdrak li-lisan əl-ətrak" kitabına ön söz). B., 1992, s. 3.

10. Çobanzadə B.V. Türk-tatar lisaniyyətinə mədxəl. B., 1924, səh.144. 11. Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. B., 1979, s.54.

12. Dəmirçizadə Ə.M. Ədəbi dilimizin təşəkkülündə Füzuli mərhələsi. Füzuli (məqalələr məcmuəsi). B., 1958, s.27.

13. Əliyeva Jalə. "Xalq qəzeti". 2010, 8 may, s. 7.

14. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan", 1999, s. 388.

15. İbrahimov Elçin. Azərbaycanda dil siyasəti. "525-ci qəzet", 27.03.2023.

16. Кононов В.И. Махмуд Кашкари и его "Дивану лугат ит-турк" журн. "Советская тюркология". № 1, 1972 , s.13.

17. Qasımov Ramil. "Diplomatiyaya xidmət edən mədəniyyət (Prezident İlham Əliyevin mədəniyyət siyasəti)", "Qafqazinfo", 16.04.2018.

18. Mahmudov Malik. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər. VII-XII əsrlər. Bakı, 1983.
19. Mahmudov Malik. Piyada... Təbrizdən Şama qədər. B., 1980.
20. Məmmədəliyev V.M. Ərəb dilçiliyi. Bakı, 1985, s. 254-255.
21. Müstəqilliyin 25 ili: Azərbaycançılıq ideyası və dil siyasəti. Layihə rəhbəri və tərtibçi: Dəyanət Osmanlı. Bakı, 2016. s. 224.
22. Nağısoylu Möhsün. "Xalq qəzeti", 26.01.21.
23. Nizami Cəfərov. Azərbaycanşünaslığın əsasları. Bakı,Pedaqogika, 2005. s. 256.
24. Nizami Cəfərov, Dəyanət Osmanlı. İlham Əliyev. (Siyasi portret çizgiləri). Elmi red. N.Əhmədli. Azərbaycan Atatürk Mərkəzi. Bakı, 2004. s.76.
25. Nizami Cəfərov. Ədəbiyyatdan siyasətə. Elmi red. N.Əhmədl, red. S.Nəzərli; Azərbaycan Atatürk Mərkəzi. Bakı, 2003. 105 s.
26. Nizami Cəfərov, O.Musayev, D.Osmanlı. Türk dünyasının yeni lideri (İlham Əliyev haqqında) Azərbaycan Atatürk Mərkəzi. Bakı., Çaşıoğlu, 2009, s. 758.
27. Nizami Cəfərov, V Sərdarov, A.Cəfərov. Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları. Red: D.Osmanlı. Bakı, 2016, s. 214.
28. Sadıqli Ayşən. Ümumimilli Lider Heydər Əliyev və Azərbaycan dili. Bakı, Mütərcim, 2011, səh.7-8.
29. Sadıqova C. Ələsgərova T. Fars dilini tədqiq edən Azərbaycan alimləri. (X-XIX əsrin I rübü). Bakı, 1990, s.7.
30. Səfərli Ə. Yusifov X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı,1982, s. 42.
31. Şah İsmayıl Səfəvi: Tarixi-diplomatik sənədlər toplusu. Baki, 2014, Şərq-Qərb nəşriyyatı, s. 399.
32. Tərbiyət M. Daneşməndane-Azərbaycan. Bakı, 1987, s. 368.
33. Təbrizi Xətib. "Kitab əl-Kafi fi-l-əruz va-l-qəvafi", Tərcüməçi f.e.d. Qaley Allahverdiyev ("Əruz və qafiyə elmlərinin yekunu"). Bakı, "Tural" NPM, 2005, s. 426.
34. Vilayəti Əli Əkbər. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı, 1998, Əlhuda nəşriyyatı, Tehran, İran, s.421.
35. Zahidi A. Müasir ərəb dilinidə türk sözləri. Bakı, 1977, s. 3.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN DİLİ İLƏ BAĞLI NİTQ VƏ ÇIXIŞLARI, SƏRƏNCAM VƏ QƏRARLAR

## AZƏRBAYCAN SSR-in 1978-ci il KONSTİTUSİYASINDAN

Maddə 73. Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan SSR dövlət orqanlarında və ictimai orqanlarda, mədəniyyət, maarif müəssisələrində və başqa idarələrdə Azərbaycan dilinin işlədilməsini təmin edir və onun hərtərəfli inkişafına dövlət qayğı göstərir. Azərbaycan SSR-də rus dilinin, habelə əhalinin danışdığı başqa dillərin bütün bu orqanlarda və idarələrdə hüquq bərabərliyi əsasında azad surətdə işlədilməsi təmin edilir.

*Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas qanunu), Bakı, 1978.*

## AZƏRBAYCAN RESPUBLİKASININ 1995-ci il KONSTİTUSİYASINDAN

Maddə 21. Dövlət dili 1. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir. 2. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.

*Azərbaycan Respublikasının Konstitusiyası Bakı, 1996.*

# SOV.İKP MK BÜROSU ÜZVLÜYÜNƏ NAMİZƏD, AZƏRBAYCAN KP MK-nın BİRİNCİ KATİBİ HEYDƏR ƏLİYEVİN RESPUBLİKA YAZIÇILARININ VII QURULTAYINDA NİTQİNDƏN

*Bakı şəhəri, 12 iyun 1981-ci il.*

Dillərin qarşılıqlı əlaqəsi həmişə faydalıdır, xüsusən bədii söz ustaları üçün. Bu əlaqələr milli ədəbiyyatımızın əsərlərinin rus dilinə tərcüməsi kimi mühüm işdə də böyük yaradıcılıq imkanları açır. Azərbaycan və rus dillərini mükəmməl bilən hər bir yazıçı, ədəbiyyatçı çox böyük fayda verə bilər. Yazıçıların bu cür inkişafına hər vasitə ilə kömək etmək lazımdır. Biz inanırıq ki, bu, gözəl bəhrələr verər, böyük bədii nailiyyətlərə səbəb olar. Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. Sovet hakimiyyəti illərində Azərbaycan dili görünməmiş zirvələrə qalxmış, müasir poeziyanın və nəsrin, elm və texnikanın, kargüzarlığın və fəal ictimai-siyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilmişdir. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır. Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır. Bu da respublikanın bütün ədəbiyyatçılarının, Yazıçılar İttifaqının ən mühüm vəzifələrindən biridir. Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərilməlidir. Yazıçı dilin, nitq mədəniyyətinin ədəbi normasının qanunvericisi olmalıdır. Təəssüf, elə yazıçılar var ki, bu tələblər səviyyəsində dura bilmirlər. Üstəlik ayrı-ayrı yazıçılar təkcə danışıqlarında yox, həm də əsərlərində dil xətalarına yol verirlər. Bununla əlaqədar olaraq mətbuat, radio, televiziya, teatr, kino işçilərinə, mühazirəçilərə və müəllimlərə xüsusi tələbkarlıqla yanaşmaq lazımdır. Mən ümid edirəm ki, bu problemlər sizin yaradıcılıq fəaliyyətinizdə özünün praktik həllini tapacaqdır.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BAKI ŞƏHƏRİNİN TƏHSİL İŞÇİLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞINDAN

*Bakı şəhəri, 1994-cü il, avqust.*

Bizim məktəblərimiz millidir. Bilirsiniz ki, mən son vaxtlar Azərbaycanın dövlət dili, ana dili, Azərbaycan dili haqqında bir çox fərmanlar vermişəm. Azərbaycanın latın əlifbasına, latın qrafikasına keçməsi haqqında fərman vermişəm. Bu, artıq avqust ayının 1-dən tətbiq olunubdur. Çox məmnunam ki, mən buna nail oldum. Çünki bəziləri etiraz edirdilər ki, qısa müddətdə buna nail olmaq olmaz. Amma oldu. Bütün dövlət orqanlarında, hakimiyyət orqanlarında, təkcə dövlət, hakimiyyət orqanlarında yox, təhsildə, səhiyyədə, biznes sahəsində, hər yerdə Azərbaycanın dövlət dili, ana dili, Azərbaycan dili hakim olmalıdır.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BAKI DÖVLƏT UNİVERSİTETİNİN 75 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQİNDƏN

*Respublika sarayı, 26 noyabr 1994-cü il.*

Bakı Dövlət Universitetinin bütün digər xidmətləri ilə yanaşı, Azərbaycan xalqının ana dilinin inkişafındakı xidmətlərini xüsusi qeyd etməliyik. Universitet yaranarkən müəllimlərin əksəriyyəti azərbaycanlı olmamışdır. Ancaq sonrakı mərhələlərdə universitet Azərbaycanda xalqımızın ana dilinin inkişaf etməsi üçün, təbliğ olunması üçün böyük işlər görmüşdür. Biz indi müstəqil dövlət kimi azad xalq kimi öz ana dilimizlə, Azərbaycan dili ilə fəxr edirik. Ancaq əgər keçmişə nəzər salsaq, bu gün zəngin, yüksək mədəni

səviyyədə olan, çox geniş söz ehtiyatına malik olan ədəbi, mədəni dilimiz həmişə belə olmamışdır. Onu yaradanlar olub, elmi əsasını quranlar olub, inkişaf etdirənlər olub. Bu, müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə çatdırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur. Bu baxımdan Bakı Dövlət Universitetinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Bakı Dövlət Universitetinin əsas fakültələri – tarix fakültəsi, filologiya fakültəsi, fəlsəfə fakültəsi, yəni bütün bu humanitar fakültələr Azərbaycan dilinin, Azərbaycan elminin inkişafında müstəsna yer tutur. Biz bu il dahi şairimiz Məhəmməd Füzulinin 500 illik yubileyini qeyd edirik. Fəxr edirik ki, 500 il bundan öncə Məhəmməd Füzuli öz ana dilində əsərlərini yazmışdır. Eyni zamanda onu da unutmayaq ki, elə bu əsrin əvvəlində də, ortasında da ana dilimizdə yazanlarımız çox olmuşdur. Ancaq ana dilini, Azərbaycan dilini yüksəklərə qaldırmaq istəyənlər, zənginləşdirməyə çalışanlar fədakar adamlar olublar. Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu, təəccüb doğurdu, – nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlığını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər. Mən isə onlara dedim ki, burada bir qeyri-adilik yoxdur, nahaq təəccüb edirsiniz, bu, mənim ana dilimdir və ana dilində çıxış etmək elə böyük bir qəhrəmanlıq da deyildir. Ana dilini bilməmək isə, ana dilini qiymətləndirməmək isə, şübhəsiz ki, xalq qarşısında qəbahətdir. Xatırlatmaq istəyirəm ki, universitet həqiqəti axtaran, milli ruhu inkişaf etdirən bir ocaq, mənbə olmuşdur. Təsadüfi deyildir ki, bir də deyirəm, Azərbaycanın müstəqilliyi, milli azadlığı uğrunda mübarizə aparan insanların da çoxu burada təhsil almış, universitet divarları arasında işləmiş, fəaliyyət göstərmişlər və bu gün də göstərirlər. Ona görə də Bakı Dövlət Universitetinin Azərbaycan dilinin inkişafında, milli ruhun, milli şüurun inkişafında, vətənpərvərlik ruhunun inkişa-

fında olan xidmətlərini bir daha xüsusi qeyd edirəm və bu gün müstəqil Azərbaycan dövlətində belə insanlara, belə axtarışlara öz hörmət və ehtiramımı bildirirəm.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNDƏ DÖVLƏT DİLİ HAQQINDA MADDƏNİN GENİŞ MÜZAKİRƏSİNDƏ GİRİŞ VƏ YEKUN SÖZÜ

*Prezident sarayı, 2 noyabr 1995-ci il.*

Hörmətli komissiya üzvləri!
Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın növbəti iclası keçirilir. Bildiyiniz kimi, indiyə qədər komissiya tərəfindən çox iş görülüb, konstitusiyanın layihəsi hazırlanıb, mətbuatda dərc olunub, ümumxalq müzakirəsinə verilib. Oktyabrın 14-də komissiyanın iclasında biz belə qərar qəbul etdik ki, ümumxalq müzakirəsi başa çatandan sonra noyabrın 2-dək ümumxalq müzakirəsinin yekunları, verilən təkliflər əsasında konstitusiyanın layihəsi işlənilsin, komissiyada baxılsın və noyabrın 2-də son variant, yəni ümumxalq müzakirəsindən sonra hasil olmuş variant bir daha dərc edilsin ki, Azərbaycan Respublikasının yeni konstitusiyası noyabrın 12-də ümumxalq səsverməsi, referendumu vasitəsilə qəbul olunsun.

Bu gün noyabrın 2-dir. Biz bu işlərin hamısını bu günə qədər tamamlaya bilməmişik. Səbəb ondan ibarətdir ki, bir tərəfdən işlər doğrudan da çoxdur, ikinci tərəfdən də bəzi hadisələr vaxtımızı çox almışdır. Ona görə də komissiyanın iclasında həm bu gün üçün nəzərdə tutulan məsələlər barəsində müzakirə gedəcəkdir, həm də bundan sonra hansı işlər görəcəyimizi birlikdə məsləhətləşib qərar qəbul etməliyik.

Ancaq bu işlərə başlamazdan əvvəl mən oktyabrın 28-də Bakı şəhər metrosunda qəza nəticəsində həlak olmuş Azərbaycan vətəndaşlarının xatirəsini bir dəqiqəlik sükutla yad etməyi rica edirəm.

Allah həlak olanlara rəhmət eləsin!

Baş vermiş faciə ilə əlaqədar bizim gördüyümüz işlər respublika ictimaiyyətinə məlumdur. Dərhal lazımi tədbirlər görülüb, komissiya yaradılıbdır. Bu müddətdə komissiya qarşısına qoyulan vəzifələri həyata keçirir. Tələf olanların hamısı onların qohum-əqrəbaları tərəfindən götürülüb, komissiyanın iştirakı ilə dəfn edilibdir. Onların ailələrinə lazımi maddi yardım göstərilib. Xəstəxanalarda olan yaralılara tibbi yardım göstərilir. Bu faciəli hadisə bütün dünyada çox böyük əks-səda doğurubdur. Dünyanın bir çox dövlət, hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, görkəmli ictimai-siyasi xadimlər xalqımıza üz vermiş bu faciə münasibətilə göndərdikləri məktublarda, teleqramlarda, mənimlə telefon danışıqlarında faciə ilə əlaqədar xalqımıza başsağlığı vermişlər.

Mən fürsətdən istifadə edərək, başımıza gələn bu bəla, faciə ilə əlaqədar bizim dərdimizə şərik olduqlarına, bizə mənəvi dəstək göstərdiklərinə, başsağlığı verdiklərinə, öz münasibətlərini bildirdiklərinə görə bütün ölkələrin dövlət, hökumət başçılarına, bizə başsağlığı verənlərin hamısına təşəkkürümü bildirmək istəyirəm.

Eyni zamanda, bu məsələlərdə respublikamıza yardım etmək üçün bir neçə ölkədən nümayəndələr gəliblər. Onların arasında xəstələrə yardım göstərmək üçün tibb işçiləri, belə qəza hadisələrini araşdıran sahənin mütəxəssisləri, ekspertləri və müxtəlif sahələrdən olan yüksək səviyyəli nümayəndələr vardır. Bir çox dövlət başçıları mənimlə telefonla danışarkən bu barədə öz təkliflərini irəli sürmüşlər və mən də bunları qəbul etmişəm, belə nümayəndələr respublikamıza gəliblər. Bəzi ölkələr, bəzi təşkilatlar bu hadisə ilə əlaqədar respublikamıza maddi kömək, dərman yardımı da göstərirlər. Bunlara görə də mən təşəkkür edirəm.

Güman edirəm ki, bu məsələlərin araşdırılması və yaralananlara, xəstələnənlərə, xəsarət alanlara lazımi tibbi yardım gös-

tərilib, onların müalicə edilməsi üçün bizim öz imkanlarımız var. Ancaq başqa ölkələrin yardımı bu imkanlarımızı genişləndirir. Bunların hamısından istifadə edərək biz bu ağır sınaqdan da çıxacağıq.

İndi bu qəzanın başvermə səbəbləri araşdırılır. Şübhəsiz ki, qəza baş verən kimi onun haqqında bir fikir söyləmək mümkün deyildi, ola bilər, bu gün də mümkün deyil: qəza nəyə görə baş verib: – texniki səbəbdir, səhlənkarlıqdır, yaxud terrordur, təxribatdır, başqa bir cinayətdir? Bu ehtimalların hamısı mümkündür, heç birini kənara qoymaq olmaz, heç birini istisna etmək olmaz və işin bu mərhələsində hansısa bir ehtimalın üzərində dayanmaq da olmaz. Bizim fikrimiz belədir. Biz əvvəldən də belə mövqe tutmuşuq. Mən respublikamızın istintaq orqanlarına, əməliyyat orqanlarına, inzibati orqanlara dərhal göstəriş vermişəm ki, bu qəzanın başvermə səbəbləri çox dəqiq, obyektiv aydınlaşdırılmalıdır. Heç bir subyektivliyə, obyektivlikdən kənar heç bir hərəkətə yol verilə bilməz.

Bu, ağır faciədir, ancaq onun səbəblərinin araşdırılması da bizim üçün çox vacibdir. Ona görə də mən bu gün həm sizi, həm də respublikanın bütün ictimaiyyətini bir daha əmin etmək istəyirəm ki, faciənin səbəblərinin obyektiv araşdırılması üçün bütün tədbirləri görəcəyik və heç kəs narahat olmasın, bu səbəblər tam obyektiv aydınlaşdırılacaqdır. İndi bəzi adamlar özləri təhqiqat aparmaq istəyirlər, bəzi jurnalistlər təhqiqat aparmaq istəyirlər. Bəzi mətbuat orqanlarında, qəzetlərdə, xüsusən müxalifət qəzetlərində cürbəcür şayiələri, ehtimalları götürüb məqalələr yazır-lar. Belə mətbuat orqanlarına, belə müəlliflərə məsləhət görərdim ki, bu işlərlə məşğul olmasınlar. Xalqın faciəsindən istifadə edib öz şəxsi məqsədlərini həyata keçirmək lazım deyil. Hər kəs öz məqsədinə nail olmaq istəyirsə, onu sivilizasiya yolu ilə, qanun çərçivəsində, adət-ənənələrimizə uyğun olaraq etməlidir, onların əsasında hərəkət etmək lazımdır. Bu faciədən istifadə edib orada-burada demək ki, “iqtidar bu işə baxmadı, onu görmədi, bunu eləmədi” – bunlar hamısı boş sözlərdir və şübhəsiz ki, belələri xalqımızın içərisində heç bir dəstək ala bilməzlər.

Hətta bu gün mənə deyirlər ki, respublikamızda cinayət tö-

rədərək qaçıb başqa yerdə, o cümlədən Moskvada gizlənmiş adamlar oradan bəyanatlar verirlər, cürbəcür şayiələr yayırlar. Bu da əhəmiyyətsizdir. Bunlara bəlkə də heç fikir vermək lazım deyil. Ancaq mən bu barədə ona görə deyirəm ki, bu faciə zamanı xalqın hamısının birləşməsi əvəzinə ayrı-ayrı insanların bu faciədən öz məqsədləri üçün istifadə etməsi, onların nə qədər mənəviyyatdan kənar mövqedə durduqlarını və mənəviyyatsız olduqlarını bir daha sübut edir.

Respublikanın baş prokuroru burada oturubdur. Mən onunla hər gün əlaqə saxlayıram. O, istintaqa rəhbərlik edir. Mən ona göstərişlər vermişəm. Dünən axşam da onunla çox ətraflı danışıq aparmışam. Onlar Bakıya gələn xarici mütəxəssislərlə də görüşüblər. Burada sizin yanınızda bir daha təkrar edirəm ki, bu faciənin, qəzanın başvermə səbəbləri dürüst, obyektiv aydınlaşdırılmalıdır.

Biz bunun nəticəsində tədbirlər görməliyik. Şübhəsiz ki, bizim bu mühüm nəqliyyat vasitəsi sahəsində, eyni zamanda günahkarlar haqqında tədbirlər görülməlidir. Əgər doğrudan da qəsdən cinayət olubsa – onların haqqında tədbirlər görülməlidir.

Dünən gecə mən Moskva televiziyasına baxırdım. Belə başa düşdüm ki, orada metro sahəsində bir rəhbər işçi ilə söhbət aparırdılar. Soruşdular ki, Moskva metrosunun vəziyyəti necədir? O, Moskva metrosu vaqonlarının nə qədər ağır vəziyyətdə olduğunu dedi. Deyəsən dedi ki, Moskva metrosunun 4 min vaqonu var, onların yarısından çoxu elə belə ağır vəziyyətdədir. İndi bu, bizim həyatımızın reallığıdır.

Vaxtilə biz nə metro vaqonlarını özümüz istehsal etmişik, nə bizdə belə bir istehsal var, nə də ki, metronun bütün başqa ləvazimatlarını özümüz istehsal etmişik. Bunlar hamısı Sovetlər İttifaqının cürbəcür yerlərində istehsal olunub Azərbaycana gətirilən avadanlıqlardır, maşınlardır, dəzgahlardır. Biz onlardan istifadə etmişik və bu gün də istifadə edirik. Ola bilər, o müxalifətdə olan, qəzetlərdə yazan adamlar heç bir şey bilmədikləri kimi, bunu da bilmirlər. Ancaq mən Azərbaycanda işləyərkən bu sahə ilə çox ətraflı məşğul olmuşam, çünki Bakı metropoliteninin, ola bilər, əksər hissəsi mənim burada və Moskvada işlədiyim vaxt tiki-

libdir. Moskvada işləyərkən isə mən Nazirlər Soveti sədrinin birinci müavini kimi bütün nəqliyyat kompleksinə, o cümlədən metro tikintisi işlərinə də rəhbərlik edirdim. Demək istəyirəm ki, o vaxt bütün Sovetlər İttifaqında on şəhərdə metro tikilirdi. O şəhərlərdə metro tikintisi işlərinə diqqət yetirərək mən xüsusi diqqəti Bakı metrosunun tikintisinə yönəldirdim. Bu məsələlərin həll olunması üçün o vaxtlar çox tədbirlər görmüşdüm. Yəni bu işi mən bilirəm. Mən mütəxəssis deyiləm, ancaq bu işlə yaxından məşğul olduğum üçün bunu bilirəm.

Metronun vəziyyətini də bilirəm. Ona görə də bu məsələləri tündləşdirməyə, cürbəcür şayiələr yaymağa, cürbəcür böhtan fikirlər söyləməyə ehtiyac yoxdur. Yenə də deyirəm, mən baş prokurora, bütün istintaq orqanlarına əmr vermişəm ki, bu məsələ ilə ciddi məşğul olsunlar və öz qərarlarını, nəticələrini mənə təqdim etsinlər.

İndi komissiyanın iclasının bugünkü gündəliyi haqqında. Mən qeyd etdim ki, biz verilən təkliflər əsasında bu günədək layihəni tamamilə işləyib qurtarıb mətbuata verməliydik. Bu, mümkün olmadı və bunun da səbəbləri aydındır. Bu gün isə yenə də komissiyanın iclasında əhali, ictimaiyyət tərəfindən verilmiş təkliflərin hamısının müzakirə olunması gündəliyə salınmayıbdır. Mən gündəliyə bir məsələni təklif etmişəm və bu gün bu məsələnin müzakirə olunmasını lazımlı hesab edirəm. O da konstitusiya layihəsinin 23-cü maddəsi – Azərbaycanın dövlət dili haqqında olan maddədir. Nə üçün mən bu maddəni xüsusi müzakirə etməyi lazım bilirəm, nə üçün maddəyə bu qədər diqqət verilir və nə üçün şəxsən mən diqqət verirəm? Ona görə ki, bu maddə konstitusiyamızın çox əsas maddələrindən biridir.

Bir də ona görə ki, dövlət dili haqqında respublikamızın tarixində və xüsusən XX əsr tariximizdə cürbəcür mənbələrdə cürbəcür ifadələr olubdur. Bunların hamısını müzakirə edib, son bir qərara gəlmək lazımdır. Ona görə də mən bu məsələnin xüsusi müzakirə olunmasını lazım bilmişəm.

1992-ci ilin dekabrında Milli Məclis Azərbaycanın dövlət dili haqqında bir qanun qəbul edibdir. Dünən yox, srağagün, yəni oktyabrın 31-də bu məsələ ilə əlaqədar Elmlər Akademiyasının

binasında Azərbaycan ziyalılarının – akademiyanın elmi idarələrinin, universitetlərin, yaradıcılıq birliklərinin nümayəndələrinin və alimlərimizin, şairlərimizin, yazıçılarımızın, dil, ədəbiyyat, elm sahəsində mütəxəssislərin böyük bir yığıncağını keçirməyi lazım bildim. Həmin yığıncağın birinci hissəsində mən özüm də iştirak etdim. Orada çox geniş müzakirə gedib.

Müzakirə zamanı mən həmin məsələnin nə üçün bu cür müzakirə olunması haqqında fikirlərimi demişəm və bu, televiziyada verilibdir. Mən təkrar etmək istəmirəm.

Yəqin ki, siz televiziya ilə bunu görmüsünüz, eşitmisiniz. Kim eşitməyibsə, mənim çıxışım qəzetdə dərc olunub, oxuya bilər.

Sadəcə onu qeyd etmək istəyirəm ki, bu məsələyə komissiyanın sədri, Azərbaycanın prezidenti kimi şəxsən mən xüsusi fikir verirəm. Bir də qeyd edirəm ki, tarixi əhəmiyyət kəsb etdiyinə, vacibliyinə, həm də onun barəsində cürbəcür fikirlər olduğuna görə, hətta müəyyən qanunsuz qərar qəbul edildiyinə görə mən bu məsələyə xüsusi əhəmiyyət verirəm.

1992-ci ilin dekabrında Milli Məclis tərəfindən qəbul olunmuş qanun, – mənasını, məzmununu kənara qoyaraq, – qanunvericilik nöqteyi-nəzərindən qeyri-qanuni bir sənəddir. Çünki konstitusiyada Azərbaycanın dövlət dili haqqında dəyişiklik etmək üçün gərək konstitusiya qanunu qəbul ediləydi. Konstitusiya qanunu qəbul etmək əvəzinə qəbul olunmuş bu adi qanun, şübhəsiz ki, konstitusiyada dəyişiklik edə bilməz. Azərbaycan Respublikasının 1978-ci ildə qəbul olunmuş konstitusiyasında "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" yazılıbdır.

1992-ci ilin dekabr ayında isə Milli Məclisin 26 üzvünün səs verməsi ilə qanun qəbul olunubdur ki, "Azərbaycanın dövlət dili türk dilidir". Belə bir qanun qəbul edərkən 1978-ci ildə qəbul olunmuş konstitusiya qanunu ləğv olunmayıbdır. Şübhəsiz ki, bu qanun onu ləğv edə bilməzdi. O qanun da qalıbdır, yəni konstitusiya da qalıb, bu qanun da qəbul olunub. Ona görə də qanunvericilik, qanunçuluq nöqteyi-nəzərindən burada böyük qüsurlara yol verilibdir. Bu, məsələnin bir tərəfi.

İkinci tərəfi ondan ibarətdir ki, Milli Məclis tərəfindən qeyri-qanuni qəbul olunmuş bu qanun respublikamızda birmənalı qəbul edilməyib. Əhalinin bir hissəsi, demək olar ki, əksəriyyəti ümumiyyətlə bu qanunun qəbul edilməsindən narazı olubdur, ola bilər, bir hissəsi bəyənibdir. Ancaq qanunvericilik, ümumiyyətlə siyasət sahəsində təcrübəsi olan adamlar bu qanun qeyri-qanuni qəbul edildiyinə görə bundan narahat olublar.

Bax, belə bir vəziyyət yaranıb. Şübhəsiz, bunların hamısı da o zaman, o dövrdə, həmin 1992-ci ildə Azərbaycana rəhbərlik edən adamların bu cür ciddi, belə məsuliyyətli işə məsuliyyətsiz yanaşmalarını bir daha nümayiş etdirir, sübut edir. Bax, belə səhvlər buraxmamaq, həmin qeyri-qanuni yollarla getməmək üçün və bu məsələni xalqın iradəsi ilə həll etmək üçün konstitusiya komissiyasının sədri kimi mən bu işə çox ciddi fikir verirəm, bu məsələnin ciddi müzakirə edilməsini lazım bilmişəm. Ona görə də komissiyanın bugünkü iclasında yalnız bu maddəni, bu məsələni müzakirə etməyi təklif edirəm.

Onu da qeyd etmək istəyirəm ki, əgər mən komissiya sədri, bir prezident olaraq, bəzilərinin hesab etdiyi kimi, məsələn, hansısa bir tərəfə meyl etsəydim, onu edə bilərdim. Konstitusiyanın layihəsi müzakirə olunub və oktyabrın 14-də konstitusiya komissiyasında son dəfə müzakirə edilib, dərc olunub. Son müzakirə zamanı konstitusiya komissiyasının üzvlərindən üç nəfər dil haqqında öz fikirlərini bildirib.

Komissiyanın üzvləri Bəxtiyar Vahabzadə, Anar, Elçin Əfəndiyev deyirlər ki, dövlət dili yazılsın: Azərbaycan türk dili, ya Azərbaycan türkcəsi. Komissiyanın başqa üzvləri, bu fikri bəyənməyiblər, yəni bu fikrə qoşulmayıblar. Prosedura, müzakirə nöqteyi-nəzərindən vəziyyət bundan ibarətdir. Ancaq yenə də deyirəm, bu çox həssas, incə məsələ olduğuna görə əgər bir adam da bu barədə bir söz deyirsə, ona fikir vermək lazımdır və burada məsələni adi çoxluq ilə, azlıq ilə həll etmək olmaz. Baxın, 1992-ci ilin dekabrında bu məsələni Milli Məclisdə zorla həyata keçiriblər. Əgər zorla olmasaydı, Milli Məclisin üzvlərinin əksəriyyəti gərək buna səs verəydi. Ancaq əksəriyyəti səs verməyibdir.

Milli Məclisin iclasda iştirak edən 39 nəfər üzvündən bu məsələyə 26 nəfər səs verib.

Milli Məclisin 50 üzvü var. Belə bir qanunun qəbul edilməsi üçün Milli Məclisin üzvlərinin üçdə ikisi səs verməli idi. Əgər üçdə ikisi səs verməyibsə, demək, təmkinlik göstərmək lazım idi. Bu ideyanı mütləq həyata keçirmək istəyən adamlar bunu bir daha müzakirə etməli idilər, bir daha məsləhətləşmələr aparmalı idilər və o adamları da inandırmaq lazım idi ki, belə bir qərar qəbul olunmalıdır. Əgər onlar inanmasaydılar, onlarla hesablaşmaq lazım idi. Bunlar olmayıb. Mən hesab etmirəm ki, bu, təcrübəsizlikdən olub. Mən hesab edirəm ki, o insanlar – o vaxt Azərbaycana rəhbərlik edən adamlar təcrübəsizliyindən də çox, böyük iddialarla yaşayırdılar. Onların hər biri hesab edirdi ki, bütün bu alçaq dağları onlar yaradıblar, başqaları yaratmayıblar. Bax, belə iddialara görə onlar bu işləri ediblər. Əgər bu iddialar olmasaydı, buna heç böyük təcrübə də lazım deyildi. Dünya təcrübəsi, adi bir təcrübə var ki, hər şeyi müzakirə etmək olar.

Yenə də deyirəm, bu müzakirə prosesinə baxsanız, bizim müzakirəmiz belə olmayıb. Komissiyada üç nəfər adam başqa təklif verib. Amma qalanları isə deyirlər ki, Azərbaycan dili yazılsın. Nə üçün onda bəs üç nəfər başqa təklif verdiyi halda, biz layihədə bunu Azərbaycan dili olaraq müzakirəyə vermişik, mətbuatda dərc etdirmişik? Bunu izah etmək istəyirəm.

Birincisi, ona görə ki, bizim mövcud konstitusiyamızın 73-cü maddəsində Azərbaycan dili yazılıb. İkincisi, ona görə ki, uzun müddət – indi bu gün məlum oldu, yəqin onun tarixi haqqında arayışlar da veriləcəkdir – 1936-cı ildən sonar bizim dilimiz Azərbaycan dili yazılıb. Üçüncüsü də ona görə ki, 1992-ci ilin dekabrında qəbul olunmuş qanun qeyri-qanunidir. Ancaq buna baxmayaraq, bizim bu üç ziyalı, komissiya üzvü tərəfindən verilən təklifi nəzərə alaraq mən məsləhət gördüm ki, bu məsələ qoy ümumxalq müzakirəsinə verilsin: layihəni vermişik ki, xalq müzakirə etsin, öz fikrini desin, ancaq bu məsələ ilə məşğul olan mütəxəssislərimiz, alimlərimiz, yazıçılarımız, dilçilərimiz, tarixçilərimiz və bu dairədə maraqlı olan təşkilatlar qoy bunu xüsusi

müzakirə etsinlər. Mən bu barədə komissiyanın işçi qrupunun sədri Ramiz Mehdiyevə göstəriş verdim və ondan sonra bilirsiniz ki, mənim başım qarışdı, ABŞ-a səfərə getdim, gəldim.

O vaxt biz belə danışdıq ki, məsələn Yazıçılar Birliyi ayrıca, Jurnalistlər Birliyi ayrıca, dilçilik institutları, ədəbiyyat institutları ayrıca müzakirə etsinlər. Universitet ümumən yox, çünki universitetdə fizika, kimya, biologiya, riyaziyyat mütəxəssisləri də var, bəlkə, deyək ki, onlar dilə o qədər də maraq göstərmir-lər, ancaq universitetdə dilçiliklə məşğul olan mütəxəssislər bu-nu ayrıca müzakirə etsinlər və bu müzakirələrin nəticəsini konstitusiya komissiyasına versinlər.

Mən oktyabrın 30-da işçi qrupunun iclasını çağırdım və öyrəndim ki, mənim göstərişim həyata keçirilməyib, bu müzakirələr aparılmayıb. Ona görə də oktyabrın 31-də Elmlər Akademiyasının böyük salonunda belə bir yığıncağın çağırılmasını lazım bildim və bunu etdik.

Ancaq onu da bildirmək istəyirəm ki, ümumxalq müzakirəsindən sonra konstitusiya layihəsinə 1400 təklif – müəyyən düzəlişlər, əlavələr gəlib. Həmin 1400 təklifdən 18-i dövlət dili ilə əlaqədardır. Bu 18 təklifdə dövlət dilini cürbəcür formalarda – ya türk dili, yaxud da ki, Azərbaycan türkcəsi yazmaq təklif edilir. Əgər bu işə yenə də mexaniki münasibət göstərilsə də, ümumxalq müzakirəsi olubdur, 18 təklif elə bir böyük rəqəm deyildir. Mən bunu qoyardım komissiyanın iclasına, 18 təklifə baxardıq, layihədə olan maddəni də qəbul edərdik. Amma hesab edirəm ki, bu yolla getmək lazım deyil. Oktyabrın 31-də ziyalılarla xüsusi görüş keçirdim, ondan sonra orada olan çıxışlar haqqında mənə məlumat verdilər. Həmin məlumatları alandan sonra mən belə bir qərar qəbul etdim ki, bu gün bu məsələ komissiyanın iclasında xüsusi müzakirə olunsun.

Bugünkü iclasa komissiyanın və işçi qrupunun üzvlərindən əlavə, oktyabrın 31-də Elmlər Akademiyasında keçirilən o yığıncaqda çıxış edən 27 nəfərin hamısı dəvət olunubdur. Ona görə yox ki, onlar bir də, təkrar çıxış etsinlər. Amma bir halda ki, onlar çıxış ediblər, ona görə də buraya dəvət olunublar. Eyni za-

manda mən xahiş edirəm ki, bu işlə məşğul olan bizim mütəxəssislər, dilçilər, ədəbiyyatçılar, Yazıçılar Birliyinin tək rəhbərliyi yox, müəyyən bir qrup adam dəvət olunsunlar. Burada onlar da iştirak edirlər. Mən istəyirəm ki, bu məsələni bax, belə bir şəraitdə müzakirə edək.

Bir məsələni də nəzərinizə çatdırmaq istəyirəm. Bu çox taleyüklü, tarixi, ciddi bir məsələdir. Bu məsələni hissiyyata qapılmaqla, emosiyalarla həll etmək olmaz. Kimin ürəyi nə istəyirsə, onunla həll etmək olmaz. Ümumiyyətlə, xalqın taleyi həll edilən halda, xalqın taleyi ilə əlaqədar olan məsələlərin həllinə gərək hər kəs çox böyük məsuliyyət hissi ilə yanaşsın. Meydanda qışqırmaq, orada çıxış etmək, hay-küy salmaq, yaxud birinə demək ki, bu vicdanlıdır, bu vicdansızdır, bilirsiniz, bu ifadələr lazım de-yil. Bu məsələləri həll etmək üçün alqışlar da, qışqırıqlar da la-zım deyil. Təmkinlə, sakit, sərbəst, gələcəyi düşünərək, keçmişə düzgün qiymət verərək bu məsələləri müzakirə etmək lazımdır.

Təəssüf ki, son illərdə respublikamızda bəzi emosional, hissiyyata qapılan çıxışlar və sairə müvəqqəti olaraq müəyyən bir auditoriyanı ələ alıb, ona təsir göstərib. Bunlar hamısı müvəqqəti şeylərdir. Amma bizim mənəvi dəyərlərimiz daimi xarakter daşıyır, onlar bəşəridir. Ona görə də bu işlərə cılız yanaşmaq olmaz. Məsələn, mənə dedilər və dünən axşam televiziya ilə çıxışların bir hissəsini verdilər, baxdım: bəzisi çıxış edir, yerdən qışqırırlar, əl çalırlar, kimisə qəhrəman hesab edirlər ki, o qəhrəmanlıq edib, bizim dilimizi türk dili edib və sairə.

Bilirsiniz, bunlar yararsız şeylərdir. Birincisi, bunlar həmin o qışqıranların, hay-küy salanların səviyyəsizliyini göstərir. Mən bunu tam məsuliyyətlə demək istəyirəm. Eyni zamanda bunlar bizim işimizin layiqli həll olunmasına kömək etmir. Ola bilər, kiminsə qəlbində hansısa hissiyyat çox coşqundur. Hər kəs bir fərddir, hər fərdin də özünəməxsus xasiyyəti, fikri var. Bizdə hər şey azaddır. Hər kəs öz sözünü azad deyə bilər, buna etiraz yoxdur. Ancaq belə məsələnin həll olunmasına çox məsuliyyətli, çox düşüncəli yanaşmaq lazımdır. Yenə də deyirəm, emosiyalara, hissiyyata qapılmaq lazım deyil, subyektivliyə, konyunkturluğa yol

vermək olmaz. Bizim keçmişimizdə konyunkturluğa, bəzən subyektivliyə, volyuntarizmə görə başımıza çox iş gəlib. Gəlin bundan sonra bu səhvləri buraxmayaq. 1992-ci ildə qəbul olunmuş o qeyri-qanuni qanun da elə subyektivliyin, volyuntarizmin bir nümunəsidir. Bax, bunları nəzərə alaraq, baxmayaraq ki, işlərimiz həddindən artıq çoxdur, tutduğumuz o qrafik bir qədər gecikir, mən hesab edirəm ki, bunun eybi yoxdur, bu məsələni bu gün sərbəst mü-zakirə etmək üçün mən sizi buraya dəvət etmişəm və məsələni müzakirəyə çıxarmışam. Güman edirəm, dediklərim hər bir şəxs üçün, burada sərbəst fikir söyləmək üçün şərait yaradır.

Müzakirən başlamaq üçün mən istəyirəm ki, Ramiz Mehdiyevə söz verəm və o, Elmlər Akademiyasında keçirilən yığıncağın nəticəsi barədə məlumat versin. Çünki mən orada çıxış etdim, yəni məsələnin qoyuluşu haqqında fikirlərimi söylədim, ondan sonra getdim ki, orada iştirakımla heç bir fikrə təsir etməyim. Amma indi komissiyanın üzvləri, o cümlədən mən də bilməliyik ki, orada gedən müzakirələr nə cür olub və onun məzmunu nədən ibarətdir, nə nəticə verib.

### *Yekun sözü*

Hesab edirəm ki, biz ətraflı fikir mübadiləsi apardıq. Bütün fikirlər dinlənildi. Bu cürbəcür fikirlər, xüsusən bu dairələrdədir. Əhalidə, xalqımızın içində bu qədər fikir ayrılığı yoxdur. Mən belə hesab edirəm. Bunlara baxmayaraq biz hər bir ziyalının, alimin və xüsusən dil-ədəbiyyat sahəsində böyük işlər görmüş şəxslərin fikirlərini dinləməliyik və onlarla hesablaşmalıyıq. Güman edirəm ki, biz son qərarı konstitusiya komissiyasının gələn iclasında qəbul edərik. Bu gün burada konstitusiya üzvlərindən savayı dəvət olunmuş şəxslər də var. Onlar hamısı dəvət olunub ki, biz ictimai fikri və xüsusən bizim elm sahəsində, ədəbiyyat sahəsində olan mütəxəssislərin fikrini öyrənək. Bunları

Öyrənəndən, biləndən sonra konstitusiya komissiyasının gələn iclasında biz son Qərara gələrik və bunu müzakirə edərik.

Ancaq bu müzakirəni sona çatdıraraq öz tərəfimizdən onu bildirmək istəyirəm ki, bizim dilimiz əsrlər boyu yaşayıb. Biz dövlət müstəqilliyimizi 1918-ci ildə əldə etdik. Qısa bir müddətdən sonra bu dövlət müstəqilliyi əldən getdi. Dörd il bundan öncə dövlət müstəqilliyi yenidən əldə olundu. Keçmiş tariximizi yüksək qiymətləndirərək, eyni zamanda XX əsrdə xalqımızın həyatında, tarixində böyük nailiyyətlər əldə olunmasını və böyük dirçəlişi, böyük irəliləməni xüsusi qiymətləndirməliyik. Əgər keçmişdə bizim ayrı-ayrı dahi şəxsiyyətlərimiz orta əsrlərdən tutmuş indiyə qədər xalqımızın adını qaldırıblarsa, XX əsrdə və xüsusən son dövrdə – XX əsrin əvvəlindən götürsək, 1918-ci ildə bizim ilk müstəqil respublikamızın yarandığı vaxtdan götürsək və nəhayət 1920-ci ildə sovet respublikası yarandığı dövrdən götürsək, – bu dövrdə əldə edilən nailiyyətlər Azərbaycan xalqının tarixində heç vaxt olmayıbdır. Biz bunu nəinki qeyd etməliyik, biz bununla fəxr edə bilərik və mən şəxsən özüm fəxr edirəm. Mən XX əsrin əvvəllərində doğulmuşam, indi XX əsrin sonuna qədər yaşayıram. Mənim həyatım bu dövrdə keçibdir və çox şeylərin şahidiyəm. Ona görə də mən bilirəm, görmüşəm və tarixi də oxumuşam ki, bizim xalqımız bu dövrdə böyük bir inkişaf dövrü keçibdir. İndi bu populist sözlər çoxdur ki, imperiya belə eləyibdir, imperiya elə eləyibdir. Bizim xalqımızı, nə bilim, parçalayıblar o vaxt, filan eləyiblər, peşməkan eləyiblər.

Bunlar tarixi həqiqətdir. Ancaq nəticəsi nədən ibarətdir? Nəticəsi ondan ibarətdir ki, bizim xalqımızın mədəniyyəti yaranıbdır, böyük ədəbiyyatı yaranıbdır. Əgər keçən əsrlərdə biz iki-üç şəxsiyyətin adını çəkə bilirdiksə, indi XX əsrdə görün nə qədər şəxsiyyətlərin adlarını çəkirsiniz. Elmimiz yaranıb, ədəbiyyatımız yaranıb, mədəniyyətimiz yaranıb, musiqimiz yaranb, rəssamlıq məktəbimiz yaranıb, tariximiz yaranıb. Dünyada məşhurlaşmışıq.

Müstəqillik almazdan əvvəl də biz məşhurlaşmışdıq, amma müstəqillik əldə edəndən sonra artıq dünyada məşhurlaşmışıq. Görün nə qədər böyük bir yol keçmişik biz! İndi biz Birləşmiş Millətlər Təşkilatının 50 illiyini qeyd eləyirik. 1945-ci ildə

BMT yaranarkən dünyada cəmisi 50 dövlət onun tərkibinə daxil idi. İndi, 50 ildən sonra Birləşmiş Millətlər Təşkilatına 184 dövlət daxildir. Onlardan biri də müstəqil Azərbaycan Respublikasıdır, Azərbaycan dövlətidir.

Bizim xalqımız savadlanıbdır. Mən başqa xalqlarla müqayisə edib kimin hansı səviyyədə olduğunu demək istəmirəm. Ancaq indi sərhədlər açılıb, dünya açılıb. Hamınız getmisiniz, gəzmisiniz, görmüsünüz. Mənim özüm də əvvəl gördüklərimdən indi daha çox görmüşəm. Mən görürəm hansı ölkədə xalqın ümumi savadı hansı səviyyədədir. Bunu görürük. Qonşu ölkələrdə də görürük. Asiya ölkələrində də görürük. Afrika ölkələrində də görürük. Avropa ölkələrinin bəzilərində də görürük. Azərbaycanda xalqın ümumi savad səviyyəsi, ümumi mədəniyyət səviyyəsi haradadır? Nə qədər Azərbaycan vətəndaşı indi xarici ölkələrə gedib yüksək səviyyəli mütəxəssis kimi işləyir. Düzdür, bizim üçün bəlkə də bu, mənfi cəhətdir ki, ağıllı adamlarımız, böyük mütəxəssislərimiz, incəsənət xadimlərimiz, mədəniyyət xadimlərimiz gedirlər, başqa ölkələrdə işləyirlər.

İndi respublikamızın belə vəziyyətinə görə. Amma bunun müsbət cəhəti də var. Müsbət cəhəti ondan ibarətdir ki, demək, xalqımızın dili, mədəniyyəti, elmi səviyyəsi o qədər yüksəkdir ki, bizim adamlarımız – bu mühitdə yetişmiş adamlar gedib başqa ölkədə müəllimlik edə bilirlər, professorluq edə bilirlər, dərs deyə bilirlər, başqa sahələrdə böyük mütəxəssis kimi işləyə bilirlər. İndiyə qədər bu səviyyə yaranmasa idi, bu ola bilərdimi.

Avropada vaxtilə cürbəcür ölkələrdən gedib fəhləlik edirdilər. Xatirimdədir, Sovetlər İttifaqı zamanı Yuqoslaviya ilə bizim əlaqələrimizlə bağlı mən bir neçə dəfə onlarla görüşmüşdüm. Orada nümayəndə heyətləri ilə olmuşdum. Yuqoslaviyanın əhalisinin bir milyondan çoxu gedib Almaniyada fəhləlik eləyirdi. Mən onların rəhbərləri ilə mübahisə aparırdım ki, bəs siz nə cür buraxırsınız ki, adamlarınız gedib Almaniyada fəhləlik eləyirlər? Deyir, biz bundan xeyir götürürük. Nə xeyir götürürsünüz? Birinci, onlar burada yaxşı yaşaya bilmirlər, orada isə fəhlə olaraq buradan yaxşı yaşayırlar. İkincisi isə, onlar orada pul qazanırlar, o

pulu banklara keçirirlər, o da bizim banka keçirir və maliyyə vəziyyətimiz yaxşılaşır. Yuqoslaviya kimi ölkədən, başqa ölkələrdən də siz bilirsiniz ki, nə qədər adam gedib Avropa ölkələrində fəhləlik eləyib. Bəli, daha mən onun adını çəkmək istəmirəm, qonşumuzdur, o biri qonşu ölkələrdən. Amma bizim adamlarımız gedib universitetlərdə dərs deyirlər, gedib Türkiyədə yüksək incəsənət sahələrində müəllimlik eləyirlər, bəstəkarlıq öyrədirlər, başqa işlər görürlər. İndi görün bizim xalqımız bu dövrdə, bu XX əsrdə, xüsusən bax, bu dövrdə nə qədər inkişaf edibdir.

Bu gün, əlbəttə, ötən dövrün repressiyaları haqqında demək olar, insanlara edilmiş zülm haqqında demək olar, ədalətsizlik haqqında demək olar. Bunları demək olar. Bu bizim tariximizdir. Tarixi həqiqəti həmişə demək lazımdır. Ancaq bununla yanaşı, əldə olunan nailiyyətlərimizi niyə unudursunuz? Bu nailiyyətlərin içərisində, burada deyildi və mən də bunu təsdiq edirəm, bu, şəxsən mənim də fikrimdir, Azərbaycan dili, indi bunu nə adlandırırsınız adlandırın, Azərbaycan dili bütün tarixdə bu qədər zənginləşməyibdir, nəinki bu 60 ilin içərisində bu qədər zənginləşməyib, bu qədər inkişaf etməyib, Azərbaycan dilində bu qədər kitablar, bu qədər romanlar, bu qədər şeirlər, bu qədər hekayələr yazılmayıbdır. Bu bizim tarixi yolumuzdur, bu bizim tarixi nailiyyətimizdir. Müstəqil Azərbaycan Respublikası deyəndə biz Azərbaycan Respublikası deyirik. Buna başqa ad vermək olmaz. Əgər buna kimsə başqa ad versə, bu bizim xalqımıza, torpağımıza, millətimizə xəyanət ola bilər. Bu, Azərbaycan Respublikasıdır və bizi Azərbaycan Respublikası kimi tanıyırlar.

Mən beş gün Nyu-Yorkda oldum. Bu beş gündə 50-60 görüş keçirmişəm, bəlkə də 70 görüş keçirmişəm. Dünyanın ən böyük ölkələrinin prezidentləri ilə bərabərhüquqlu görüşlər keçirmişəm. Amerika Birləşmiş Ştatlarının prezidenti ilə mənim görüşüm olubdur. Dünən yenə ondan məktub almışam və məktubda da yazır ki, görüşümüzdən nə qədər məmnundur, nə qədər məzmunlu, ətraflı görüşümüz olubdur. Bu, bir mənə görə deyil. Bu, Azərbaycan xalqına görədir, Azərbaycan millətinə görədir, Azərbaycan Respublikasına görədir.

Bütün bunları da nəzərə almaq lazımdır. Hissiyyata qapılıb bunları unutmayın. Bilin ki, biz müstəqil dövlət kimi dünyada artıq öz yerimizi tutmuşuq. Ona görə, hansı qərar qəbul eləyəcəyiksə, gərək bu, milli mənliyimizə, milli qürurumuza toxunmasın. Bunu da bilmək lazımdır. Bunu da unutmaq olmaz. Nizaminin sözləri də bizim üçün əzizdir, Füzulinin sözləri də bizim üçün əzizdir, Cəlil Məmmədquluzadənin, Mirzə Fətəli Axundovun sözləri də, Sabirin sözləri də bizim üçün əzizdir, hamısı bizim üçün əzizdir. Amma bugünkü reallıq var. Bu reallığı nə Nizami Gəncəvi görə bilərdi, nə Füzuli görə bilərdi, nə də Cəlil Məmmədquluzadə. Reallıq bütün bu tariximizin hamısından üstündür və bu, bizim üçün gələcəyə böyük bir yol açır. Əgər Ermənistanın təcavüzündən qurtara bilsək, əgər dövlətçiliyimizi möhkəmləndirə bilsək, bilin, Azərbaycanın çox böyük gələcəyi var.

Ona görə də biz gərək öz milli mənliyimizi həmişə yüksək saxlayaq. Bilirsiniz, mən uzun həyat yolu keçmişəm, bu gün də yaşayıram, sizinlə birlikdə işləyirəm. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə də mən istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə də milli mənliyimizi gərək itirməyək. Milli mənliyimiz də var, onunla da biz fəxr edə bilərik.

Gəlin bir balaca fasilə verək, konstitusiya komissiyasının gələn iclasında bu barədə son qərarı qəbul eləyək.

Sağ olun.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNDƏ DÖVLƏT DİLİ HAQQINDA MADDƏNİN GENİŞ MÜZAKİRƏSİNDƏ GİRİŞ VƏ YEKUN SÖZÜ

*Prezident Sarayı, 5 noyabr 1995-ci il.*

Bu gün biz Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlamaq üçün təşkil olunmuş komissiyanın növbəti iclasını, ola bilər ki, son iclasını keçiririk. Komissiyanın noyabrın 2-də keçirdiyimiz iclasında biz ümumxalq müzakirəsindən sonra konstitusiya layihəsinin bir maddəsini müzakirə etdik. Bu gün isə biz konstitusiya layihəsi dərc ediləndən və onun ümumxalq müzakirəsindən sonra ictimaiyyət, əhali, mətbuat tərəfindən konstitusiya komissiyasına daxil olmuş təkliflərə, əlavələrə, dəyişikliklərə baxmalıyıq, onlar haqqında müəyyən fikrə gəlməliyik, onlardan hansıları qəbul oluna bilərsə, qəbul edib bu layihəni daha da təkmilləşdirməliyik.

Komissiyanın işçi qrupunun üzvləri daxil olmuş bütün təklifləri təhlil ediblər, baxıblar və işçi qrupunun bu barədə müəyyən fikirləri var. Ona görə də komissiyanın işini elə qurmaq olar ki, işçi qrupu bu təkliflər haqqında bizə öz fikirlərini təqdim edər və biz, komissiya üzvləri həmin təkliflərdən hansının qəbul edilib-edilməməsini müəyyənləşdirərik. Hesab edirəm ki, biz bu işi mütləq başa çatdırmalıyıq və nəhayət, layihənin son variantı hazır olub dərc edilməlidir.

Bütün bu təkliflər haqqında işçi qrupunun məlumatını dinləməzdən əvvəl, hesab edirəm ki, konstitusiyanın 23-cü maddəsi haqqında aparılan müzakirələri yekunlaşdırmaq lazımdır. Həmin maddə xüsusi əhəmiyyət kəsb etdiyinə və bu barədə bəzi fikirlər olduğuna görə bilirsiniz ki, bu maddə geniş müzakirə olunubdur. Ümumxalq müzakirəsindən sonra bu maddə bir dəfə bizim elm müəssisələrinin, yaradıcılıq təşkilatlarının, universitetlərin nüma-

yəndələrinin, ictimaiyyətin başqa təbəqələrinin – ziyalıların iştirakı ilə Elmlər Akademiyasında müzakirə edilibdir. Ondan sonra noyabrın 2-də bu maddə konstitusiya komissiyasında bir çox əlavə şəxslərin iştirakı ilə müzakirə olunubdur. Həmin müzakirə təxminən beş saat davam etdi. O vaxt biz bütün təklifləri dinlədik və xatirinizdədir ki, qərar qəbul olunmadı. Bu qərarı biz bu gün qəbul etməliyik. Ona görə də işçi qrupunun bütün başqa təkliflər haqqında məlumatını dinləməzdən əvvəl hesab edirəm ki, bu maddə haqqında müzakirələrimizi tamamlamalıyıq və bu barədə son fikrimizi müəyyənləşdirməliyik, bundan sonra isə başqa maddələrə aid təkliflərə baxmalıyıq.

…Demək, alimlərimiz, yazıçılarımız, mütəxəssislərimiz iki böyük müzakirədə öz sözlərini deyə biliblər. Ancaq bundan əvvəl, konstitusiyanın layihəsi mətbuatda dərc ediləndən sonra əhali, xalq arasında müzakirə olunubdur. Keçən dəfə dedim və bu gün yeni məlumat almışam, işçi qrupu məlumat verir ki, komissiyanın ayrı-ayrı maddələrinə dair 3 minə yaxın təklif gəlib. Bunların içərisində Azərbaycanın dövlət dilinə aid 23 təklif vardır, onların müəllifləri dövlət dilini türk dili, yaxud Azərbaycan türkcəsi adlandırmaq istəyirlər. Noyabrın 2-də konstitusiya komissiyasının iclasında bu komissiyanın üzvlərinin bir qismi çıxış etdi, onların adları burada deyildi, hər biri öz mövqeyini bildirdi. Konstitusiya komissiyasının başqa üzvləri bu barədə nə demək istəyirlər?

### *Yekun sözü*

Müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul etmək çox məsuliyyətli, eyni zamanda çox şərəfli bir vəzifədir. Xoşbəxt adamlarıq ki, bu vəzifə bizim üzərimizə düşübdür. Eyni zamanda məsuliyyətimizi də dərk etməliyik və düşünməliyik ki, biz tarix qarşısında, gələcək nəsillər qarşısında bu işimizə görə daim cavabdeh olacağıq. Ona görə də bu məsələyə, bu işə fövqəladə diqqət yetirməliyik, bu məsələyə obyektiv, çox səbrlə və məsuliyyətlə yanaşmalıyıq. Mən bu gün bəyan etmək istəyi-

rəm ki, konstitusiya komissiyası təşkil olunandan indiyə qədər bu komissiyada belə bir mühit yaranıb: konstitusiya komissiyasının üzvləri, o cümlədən komissiyanın sədri kimi mən də məhz bu prinsiplər əsasında öz üzərimizə düşən vəzifənin həll olunmasına çalışırıq.

İş sona çatır. Biz bu gün layihəni axıra qədər müzakirə edib, ümumxalq müzakirəsindən sonra daxil olmuş təklifləri təhlil edib, konstitusiya layihəsinin son variantını hazırlayıb dərc etdirməliyik. Bu proseslər içində siz – konstitusiya komissiyasının üzvləri də görürlər, bütün ictimaiyyət də bunun şahididir ki, mən dövlət dili ilə əlaqədar olan maddənin hərtərəfli müzakirə edilməsinə cəhd göstərirəm və nə qədər vaxt sərf olunsa da bunu çox lazımlı hesab edirəm. Görürəm, bəzilərinin hövsələsi çatmır, bəziləri düşünürlər ki, məsələ aydındır, qərar qəbul etmək lazımdır. Ancaq mən belə hesab edirəm ki, bu məsələdə tam aydınlıq hasil olmalıdır. Əgər mən şəxsən bu işə ümumi nöqteyi-nəzərdən yanaşsaydım, biz bu məsələni indiyədək bir neçə dəfə müzakirə etmişdik və komissiya üzvlərinin əksəriyyətinin fikri birdir.

Birincisi, komissiyada layihə hazırlanarkən bu məsələ işçi qrupunda müzakirə olunub. Layihəyə bir neçə dəfə baxılıb. Sonra oktyabrın 14-də bu məsələ müzakirə edilərkən biz bu maddə barədə fikir mübadiləsi apardıq. Mən bunu bir neçə dəfə demişəm, komissiya üzvlərindən üç nəfər bu barədə, yəni Azərbaycan dövlətinin konstitusiyasında olan maddədən fərqli söylədi ki, indiyədək Azərbaycan dili dövlət dili yazılıb, indi isə bu ya Azərbaycan türkcəsi, ya Azərbaycan türk dili, ya da sonradan deyildiyi kimi, Azərbaycan (türk) dili yazılsın. Komissiyanın qalan üzvləri bu fikri dəstəkləmədilər. Onların hamısı Azərbaycan dili tərəfdarı oldu. Bu gün çıxış edən komissiyanın üzvü Etibar Məmmədov da o vaxt başqa fikir söyləmədi; o, ümumiyyətlə fikir söyləmədi. Belə olan halda, əgər mən, komissiyanın sədri kimi, bu məsələlərə ümumi prinsip nöqteyi-nəzərindən yanaşsaydım (üç nəfər deyir ki, belə olsun, amma qalanları deyir ki, belə olsun), məsələni bununla da qurtarmaq olardı. Ancaq mən hesab edirəm ki, üç nəfər komissiyanın üzvləri arasında sayca çox azlıq təşkil edirsə də,

birincisi, komissiyanın hər bir üzvünün fikrinə diqqət vermək və onu nəzərə almaq lazımdır; ikincisi də, bu fikri söyləyən adamlar bizim ziyalılarımızdır – mədəniyyət, elm, ədəbiyyat sahəsində tanınmış və böyük fəaliyyət göstərmiş adamlardır. Demək, bunların fikirlərini daha da geniş müzakirə etmək lazımdır.

Ancaq eyni zamanda 1978-ci ildə qəbul edilmiş konstitusiyada Azərbaycanın dövlət dili Azərbaycan dili yazıldığına görə və on illər müddətində Azərbaycan dili həyatımızın hər yerində bərqərar olunduğuna görə biz layihənin 23-cü maddəsində yazdıq ki, "Azərbaycanın dövlət dili Azərbaycan dilidir". Bunu da ümumxalq müzakirəsinə verdik.

Ancaq bilirsiniz, bunu keçən görüşlərimizdə demişəm, mən çalışırdım ki, başqa fikir söyləyənlərin fikirlərinin, dəlillərinin nə qədər əsaslı olduğunu, tarixi, elmi nöqteyi-nəzərdən nə qədər münasib olduğunu araşdıraq. Mən bütün bu müddətdə çalışmışam şərait yaradım ki, insanlar sərbəst danışsınlar, hərənin sözü sərbəst meydana çıxsın. İkinci tərəfdən də bu müzakirələrdə, mübahisələrdə məsələni mən şəxsən özüm üçün daha da aydınlaşdırmaq istəyirdim. Baxmayaraq ki, bu məsələnin tarixi də mənə məlumdur, xalqımızın tarixini də, dilimizi də pis bilmirəm və dilimizin tarix boyu keçdiyi yollar da başqaları kimi mənə də məlumdur, bəlkə bir çoxlarından da az məlum deyil. Ona görə də ola bilərdi ki, mən dərhal bir mövqe tutum. Ancaq mən bunu etmədim. Hesab edirəm ki, belə də lazım idi, bu da həmin sahəyə maraq göstərənlərin, mütəxəssislərin fikirlərinin açılmasına şərait yaradacaqdır. Ona görə də layihə mətbuatda dərc olunandan sonra biz bu məsələnin yenidən müzakirə edilməsini lazım bildik.

Oktyabrın 31-də Elmlər Akademiyasında bütün ziyalıların nümayəndələri bu məsələni müzakirə etdilər. 25-dən çox adam çıxış etdi. Mən bununla qane olmadım. Noyabrın 2-də konstitusiya komissiyasının iclasını tamamilə buna həsr etdim. Biz beş saata qədər müzakirə apardıq. O müzakirədən sonra bəlkə də qərar qəbul etmək olardı. Görürsünüz ki, mən bu gün konstitusiya komissiyasının və işçi qrupunun üzvlərinin burada iştirakı ilə müza-

kirəni yenə də davam etdirirəm. Bütün bu müzakirələrin nəticəsində mən də öz fikrimi demək istəyirəm.

Dil, millət fəlsəfi məfhumdur, tarixi anlayışdır. İnsanlar dünyada mövcud olandan onlar hansısa dillərdə danışıblar. Bir halda ki, insanlar olub, demək, onların bir-biri ilə əlaqəsi üçün dil də olubdur. İnsanlar dünyada mövcud olandan müəyyən tayfalar, qruplar yaranıbdır, bundan sonra onlar genişlənib, millət şəklinə gəlib çıxıblar. Ona görə həm millət anlayışı, həm dil anlayışı, yenə deyirəm, fəlsəfi məfhumdur, fəlsəfi, tarixi anlayışdır. Dialektikanın qanununa görə, bu iki anlayış daim inkişafda, dəyişiklikdə olubdur.

Güman edirəm tarixçilərimiz, filosoflarımız elmi nöqteyinəzərdən mənim budediyim sözlərlə razı olarlar. Beləliklə, heç kəs deyə bilməz ki, XII əsrdə kim nə deyibsə, o bu gün bizim üçün ehkamdır. Heç kəs deyə bilməz ki, XV əsrdə kim nə deyibsə, o da bizim üçün ehkamdır. Bunu nəzərə almaq lazımdır və bunu unutmaq lazım deyil. Bu gün biz dövlət dilimiz haqqında məsələni müzakirə edərkən heç bir konyukturaya yol verməməliyik. Hansısa bir qərarı qəbul edəcəyiksə, – bu kimin xoşuna gələcək, ya gəlməyəcək, – bu bizi narahat etməməlidir. Biz bunu həqiqət əsasında qəbul etməliyik və kimdənsə üzrxahlıq da etməməliyik: bağışlayın, biz sizinlə qardaşıq, amma biz dilimizi belə etmək istəyirik. Mən bununla da razı deyiləm.

Noyabrın 2-də keçirilən müzakirədə dilçi alimlərdən biri dedi, mən də onun dediyinə istinad edirəm ki, keçmiş Sovetlər İttifaqının ərazisində türkdilli 23 xalq məskun olubdur. Yəni türkdilli xalqlar çoxsaylıdır və millətcə, dilcə türk kökündən olan xalqlar çoxsaylıdır. Əgər keçmiş Sovetlər İttifaqının ərazisində türkdilli 23 xalq olubsa, onun hüdudlarından kənarda da var. Bu da təbiidir, çünki dünyada olan dillər ayrı-ayrı dil qruplarına bölünüblər və bu dil qrupları tarix boyu, əsrlər boyu formalaşıblar, sonra şaxələniblər və hər bir şaxə müəyyən proseslər nəticəsində öz istiqamətində inkişaf edib və gəlib indiki səviyyəyə çatıbdır. Şübhəsiz ki, dünyada olan dillərin bugünkü səviyyəsi də son hədd deyil.

Bəşəriyyət, insan cəmiyyəti daimidir, hər şey inkişafdadır, yüz, iki yüz, beş yüz ildən sonra nə olacaqdır, bunu biz indi de-yə bilmərik. Ancaq şübhəsiz ki, nə dünya belə olacaqdır, nə də dünyanın mənzərəsi bu şəkildə qalacaqdır. Hər şey inkişafdadır. Belə olan halda, şübhəsiz ki, bizim mənsub olduğumuz türkdilli xalqlar da şaxələniblər, məskun olduqları yerin, ərazinin təsiri altında, qonşularının, başqa amillərin təsiri altında hərəsi öz istiqamətində inkişaf ediblər.

Ancaq bu dillərin, yəni bizim bu türk dili qrupuna mənsub dillərin gəlib dövlət dili səviyyəsinə çatması XX əsrdə baş veribdir. Mən başqa Avropa dillərini demirəm. Dövlət dili statusu alınması da, şübhəsiz ki, hər bir dövlətin dövlət kimi formalaşması ilə bilavasitə əlaqədardır. Osmanlı imperatorluğu və Osmanlı dili bu müzakirələr zamanı tez-tez yada salınır. Amma məlumdur ki, Osmanlı imperatorluğunun dövlət dili XIX əsrədək türk dili deyildi, tarixçilərimiz bunu yaxşı bilirlər. İmperatorluq Osmanlı imperatorluğu idi, amma dövlət dili türk dili deyildi. Götürün arxivlərdə onların kitablarına baxın, həmin padşahların, sultanların fərmanlarına baxın, onlar türk dilində yazılmayıb. Bütün bunlar ərəb-fars dillərində yazılıb. Gedin İstanbuldakı muzeylərə baxın, yəqin çoxları baxıblar, kim baxmayıbsa, gedib baxa bilər. Mən bundan Türkiyənin dövlət başçıları ilə danışıqlarımda da söhbət açmışam. Onlar da deyirlər ki, bəli, belə olub. Onlar da Türkiyə Cümhuriyyəti yaranandan sonra indiki türk dilini formalaşdırıb, dövlət dili ediblər. O, orada inkişaf edibdir, o ərazidə yaşayan türklər, türkdilli xalqlar həmin dili dövlət dili ediblər. Bizim üçün dost, qardaş olan Türkiyə Cümhuriyyətinin böyük Atatürkdən sonra onun fəaliyyəti nəticəsində bir cümhuriyyət kimi meydana gəlməsi, dünya birliyində öz yerini tutması və özünün dövlət dili olması bizi sevindirən bir haldır. Bir qardaş, dost ölkə kimi biz bunu böyük bir nailiyyət hesab edirik.

Bizim ərazimizdə, yəni Azərbaycanda yaşayan insanlar, İranda yaşayan və bizim dilə mənsub olan insanlar, Türkiyənin Şərq hissəsində yaşayan və azəri adlanan insanlar keçmişdə də, elə XX əsrdə də biz danışdığımız dildə danışıblar. Ona görə də

dilimizin dövlət dili statusu alması yalnız və yalnız 1978-ci ildə qəbul edilmiş konstitusiyada olubdur. O vaxta qədər bizim dilimiz dövlət dili statusu almayıbdır. Hamı bu həqiqəti bilməlidir.

Biz öz əcdadlarımıza daim minnətdar olmalıyıq, ona görə ki, torpaqlarımız, ərazimiz cürbəcür şahlıqların, sultanlıqların, xəlifələrin, dövlətlərin əlinə keçdiyi vaxtlarda da, dilimiz itməyib, yaşayıb. Onu xalq yaşadıbdır, eyni zamanda onu xalqımızın böyük şəxsiyyətləri yaşadıblar. Böyük şairimiz, filosofumuz, mütəfəkkirimiz Nizami Gəncəvi əsərlərinin hamısını fars dilində yazmağına baxmayaraq, yenə də türk dili haqqında öz sözünü deyibdir. Böyük Füzuli əsərlərinin əksəriyyətini ərəb dilində yazmağına baxmayaraq, türk dilində də yazıbdır və dilimizi yaşadıbdır. Molla Pənah Vaqif, Mirzə Fətəli Axundov, XX əsrdə dünyaya gəlmiş böyük şəxsiyyətlər – yazıçılar, o cümlədən Cəlil Məmmədquluzadə, şairlər, dövlət xadimləri və mütəfəkkir insanlar – Həsənbəy Zərdabi, Əhmədbəy Ağayev, Əlibəy Hüseynzadə, Fətəlixan Xoyski, Məmmədəmin Rəsulzadə, Nəriman Nərimanov, Dadaş Bünyadzadə və başqaları öz əsərləri ilə, verdikləri qərarlarla, dekretlərlə, sənədlərlə bizim dilimizi yaşadıblar. Ancaq dilimiz dövlət dili statusu almayıb.

Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, bunların hamısına baxmayaraq, dilimiz yaşayıb və ilbəil zənginləşibdir. Mən bunu bir dəfə demişəm və bu gün bir daha deməyi lüzumlu hesab edirəm ki, 1920-ci ildə dilimiz bu qədər zəngin, eyni zamanda bu qədər sadə, səlis, bu qədər təmiz və cazibədar olmayıbdır. 30-cu ildə də, 40-cı ildə də belə olmayıbdır. Demək, həyat inkişaf etdikcə, xalqımız mədəniyyət yolu ilə, elm yolu ilə inkişaf etdikcə, irəliyə getdikcə, dünya mədəniyyətindən bəhrələndikcə öz dilini də ilbəil inkişaf etdiribdir. Əgər XX əsri götürsək, xüsusən 20-ci ildən indiyədək Azərbaycanda böyük dilçi alimlər ordusu, böyük ədəbiyyatçılar, şairlər, yazıçılar, jurnalistlər ordusu yaranıbdır. Məhz bu dövrdə biz Nizami Gəncəvini qaldırıb dünyaya tanıda bilmişik, Məhəmməd Füzulini də, Nəsimini də qaldırıb dünyaya tanıtmışıq, Vaqifi də, Mirzə Fətəli Axundovu da, Sabiri də, Seyid Əzim Şirvanini də, Abbasqulu Ağa Bakıxanovu da tanıtmışıq və

bütün bunların hamısını o dövrdə etmişik. Bu şəxsiyyətlər keçən əsrlərdə, dövrlərdə məgər dünyada bu qədər məşhur olublarmı? Yox, heç vaxt. Bu, bizim dövrümüzün bəhrəsidir və bunların hamısı da Azərbaycan adı ilə, dili ilə bağlı olubdur.

Biz Nizami Gəncəvinin əsərlərini, bütün poemalarını, "Xəmsə"sini ilk dəfə 1948-ci ildən sonra öz dilimizə, yəni indi danışdığımız Azərbaycan dilinə tərcümə etdirmişik və xalqımıza çatdırmışıq. Siz bunu da bilməlisiniz ki, mən Nizami Gəncəvinin "Xəmsə"sinin ilk dəfə rus dilinə tərcümə edilib Moskvada nəşr edilməsinə nail olmuşam. Siz də, bütün ictimaiyyət də bilməlidir ki, mən Nizami Gəncəvinin "Xəmsə"sinin, beş poemasının rus dilində Moskvada, "Xudojestvennaya literatura" nəşriyyatında yenidən çap edilməsinə nail olmuşam. Mən bununla bir neçə il məşğul olmuşam. Nizami Gəncəvinin poemaları rus dilində tamamilə nəşr edilməmişdi. Hətta sonra həyat mənə möhlət vermədi, o vaxt Moskvada bu işlərlə məşğul olarkən aydınlaşdırdım ki, Nizami Gəncəvinin əsərlərinin rus dilinə tərcüməsi tamam təkmil deyil. Mən o zaman belə bir fikrə düşdüm və onu həyata keçirməyə çalışdım ki, yenidən tərcüməçilər qrupu yaradıb Nizami Gəncəvinin əsərlərini orijinaldan rus dilinə tərcümə etdirim – tək Rusiya üçün yox, çünki rus dilini Rusiyadan savayı başqa ölkələrdə də çox bilirlər. Bunlar hamısı bu dövrün bəhrəsidir.

O cümlədən biz Nəsiminin 600 illik yubileyini keçirərkən Nəsiminin əsərlərini ilk dəfə Azərbaycan dilinə tərcümə etdirib xalqımıza çatdırdıq.

Beləliklə, bu dövr bizim üçün, ədəbiyyatımız, tariximiz üçün böyük bəhrəli, məhsuldar bir dövrdür və bu dövrdə dilimiz inkişaf edibdir. Dövlət dili statusu almaq üçün gərək dövlət olsun. Əgər bir dil bir dövləti təmsil etmirsə, o dilə nə deyirsən de, o, dövlət dili ola bilməz. Hüquqi, fəlsəfi nöqteyi-nəzərdən bunu da bilmək lazımdır. Biz Sovetlər İttifaqının tərkibində müstəqil dövlət olmasaq da, onun tərkibində respublika idik, dövlət idik, özümüzün himnimiz, gerbimiz, bayrağımız var idi. Doğrudur, bunlar hamısı Ümumittifaq tərkibində idi, amma hamısı var idi.

Bax, belə olan vaxtda da biz dilimizi dövlət dili etmək üçün nə qədər çətinliklər çəkdik, nə qədər əzab-əziyyətə düşdük.

Amma eyni zamanda bir şey də sizin üçün yəqin maraqlı olar ki, mən bunu bilirdim, ancaq indi xahiş etdim gətirdilər. Sovetlər İttifaqının 1977-ci ildə qəbul olunmuş konstitusiyası buradadır, kim istəyir götürüb oxuya bilər, burada dövlət dili maddəsi yoxdur.

Noyabrın 2-də keçirilən müzakirədə Baş Arxiv İdarəsinin rəisi arayış verdi və məlum oldu ki, 1936-cı ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən layihədə yazılmışdı ki, dövlət dili türk dili olsun. Ancaq bizim nümayəndələr Moskvaya gedib qayıdandan sonra 1937-ci ildə konstitusiya qəbul ediləndə dövlət dili maddəsi yazılmayıb. 1936-cı ildə Sovetlər İttifaqının konstitusiyasında da dövlət dili maddəsi yoxdur. 1977-ci ildə qəbul olunmuş Sovetlər İttifaqı konstitusiyasında dövlət dili barədə maddə yoxdur. Bunun səbəbi o deyildir ki, Sovetlər İttifaqı bir dövlət deyildi, yox. Yəqin dövlət dilini yazmayan adamlar istəmirdilər ki, dillər parçalansın. Bir də bilirdilər ki, onsuz da rus dili hakim dildir və bunu konstitusiyaya yazmağa da ehtiyac yoxdur. Mən belə düşünürəm. Ancaq bilin, bu məsələ müzakirə olunmamışdı. Mən bunu da bildirmək istəyirəm ki, biz 1977-1978-ci ildə Azərbaycan Konstitusiyasına "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" yazmağa çalışanda bizə Moskvadan deyirdilər ki, axı SSRİ konstitusiyasında bu yoxdur və siz nə üçün yazırsınız? Deyirdilər ki, bizdə də yoxdur, sizdə də olmamalıdır.

Dilimizin inkişafı bax, belə mərhələlərdən keçib və nəhayət, bizim bugünkü dilimiz – zəngin dilimiz var. Əgər biz tarixi nöqtələri bir də yadımıza salsaq, 1936-cı ildən indiyədək Azərbaycanda bizim dilimiz Azərbaycan dili adlanmışdır. Bütün sənədlərdə Azərbaycan dili adlanır. Bütün yerlərdə Azərbaycan dili adlanır. 1978-ci ildəki konstitusiyada "Azərbaycan dili dövlət dilidir" yazılmışdır. Bu gün də hamımız deyirik ki, bizim dilimiz Azərbaycan dilidir.

Tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək, eyni zamanda bu gün deməliyik və mə-

nəvi haqqımız var deyək ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb, özünəməxsus adını götürüb və gəlib dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişdirib başqa ad qoymaq heç bir nöqteyi-nəzərdən düzgün deyil – həm tarixi nöqteyi-nəzərdən, həm fəlsəfi nöqteyi-nəzərdən, həm Azərbaycanın dövlətçiliyi nöqteyi-nəzərindən, ölkəmizin bu günü və gələcəyi nöqteyi-nəzərindən düzgün deyil.

Mən bir dəfə dedim ki, biz gərək öz milli mənliyimizi heç vaxt itirməyək. Xalqların hər biri tarixi yol keçib, hər birinin də özünəməxsus nailiyyəti var. Bizim ərazimizdə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş hüdudlar çərçivəsində Azərbaycan Respublikasında yaşayanlar azərbaycanlılardır. Bizim keçmişimiz məlumdur, biz onu inkar etmirik, yenə də deyirəm, biz türk mənşəli bir xalqıq. Bizim dilimiz türk dilləri qrupuna məxsus dildir. Ancaq o 23 dil kimi, bizim də öz dilimiz var. Biz öz dilimizi gedib heç bir başqa dilə nə qarışdırmalıyıq, nə də ona yapışdırmalı, qoşmalıyıq. Bizim özümüzün dilimiz var.

Bu dil də bizim dilimizdir. Mən bunu demişəm, yenə də deyirəm, türk dilləri qrupuna məxsus olan digər dillər, ola bilər, həsəd apara bilərlər ki, bizim dilimiz nə qədər zəngindir.

Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu reallıqdır. Mən keçən dövrü kənara qoyuram, 60 il ərzində bu, mövcud olmuş reallıqdır. Gün-gündən, aybaay inkişaf etmiş reallıqdır.

Azərbaycanda rus dili nə qədər hakim oldusa da, vaxtilə Azərbaycanda nə qədər çalışdılar ki, Azərbaycan dilini sıxışdırıb çıxarsınlar, rus dilini geniş yaysınlar, amma biz dilimizi qoruduq, saxladıq. Biz dilimizi itirmədik. İndi biz dilimizdə sərbəst danışırıq və hər bir mürəkkəb fikri öz dilimizdə ifadə etməyə qadirik. Bu, böyük nailiyyətdir. Bu, iqtisadi, başqa nailiyyətlərin hamısından üstün bir nailiyyətdir ki, bizim bir millət kimi özümüzə məx-

sus dilimiz var və o da o qədər zəngindir ki, dünyanın hər bir hadisəsini biz öz dilimizdə ifadə edə bilirik.

Ona görə də bir də deyirəm, tarixi keçmişimizə, əcdadlarımıza böyük hörmət və ehtiram hissini bildirərək, bu gün biz tarixi bir addım atmalıyıq: müstəqil Azərbaycan Respublikasının dövlət dilini qəbul etməliyik. Müstəqil Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir.

Mən hesab edirəm ki, biz bu layihəni bu gün hazırlayarkən 23-cü maddəyə baxıb onu bəlkə də bir az təkmilləşdirmək, genişləndirmək olar. Hər halda bunu qəbul edirik, referenduma veririk. Bəli, qoy xalq öz sözünü desin. Ancaq biz də xalqın nümayəndəsi, cəmiyyətin üzvü kimi, eyni zamanda xalq tərəfindən böyük səlahiyyətlərə malik olan şəxslər kimi bu gün öz fikrimizi deyirik. Əgər etiraz yoxdursa, bununla da bu məsələnin müzakirəsini bitirək.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ HAZIRLAYAN KOMİSSİYANIN İCLASINDA ÇIXIŞINDAN

*Prezident Sarayı,10 Noyabr 1995-ci il.*

Bildiyiniz kimi, bunları nəzərə alaraq həmin maddə demokratik şəkildə hərtərəfli müzakirə olunub. Birincisi onu qeyd etmək istəyirəm ki, konstitusiya komissiyasına daxil olmuş üç min təklifdən yalnız 23 təklifdə konstitusiyada dövlət dilinin türk dili və ya Azərbaycan türkcəsi adlandırılması təklif edilib. Ancaq buna baxmayaraq, mən konstitusiya komissiyasının sədri kimi bu məsələnin vacibliyini nəzərə alaraq, özüm bu müzakirələrin geniş aparılmasının təşəbbüskarı olmuşam. Bu heç bir reqlamentə yazılmamışdır və heç kəs də bunu mənə təklif etməmişdir. Mən bunu burada sizə deməliyəm.

Konstitusiya komissiyasının üzvlərindən də heç kəs mənə təklif etməmişdir ki, bu maddə xüsusi müzakirə olunsun. Ancaq yenə də deyirəm, bu maddənin çox mühüm əhəmiyyətini dərk edərək mən bu maddənin xüsusi müzakirə olunmasını təklif etdim və bunu da təşkil etdim.

Bildiyiniz kimi, oktyabrın 14-də konstitusiya komissiyasında bu məsələ müzakirə olundu. Ondan sonra oktyabrın 31-də bu maddə Elmlər Akademiyasında Azərbaycan alimlərinin, ziyalılarının, jurnalistlərin, yazıçıların, şairlərin və dil sahəsində bütün mütəxəssislərimizin iştirakı ilə geniş müzakirə olundu. Orada 27 adam çıxış etdi. Ondan sonra konstitusiya komissiyasının iclası bir daha məhz buna həsr olundu. Konstitusiya komissiyasının üzvlərindən əlavə ora bu işlə məşğul olan bir çox yüksək səviyyəli mütəxəssislər, eyni zamanda bu işə xüsusi maraq göstərən şəxslər dəvət edildi. Orada da məsələ müzakirə olundu, 25-dən çox adam çıxış etdi. Bundan sonra layihənin son variantı konstitusiya komissiyasında yenidən müzakirə edilərkən bu məsələ barəsində bilavasitə çıxış edib öz fikirlərini demək imkanı olmamış komissiya üzvləri də çıxış etdilər və beləliklə, biz bu məsələni aşkarlıq, tam demokratiya şəraitində həyata keçirdik. Hesab edirəm ki, bütün bunların nəticəsində ən doğru, düzgün və ən əsaslı bir qərar qəbul etdik ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir. Bu, Azərbaycan xalqı üçün, onun mənəviyyatı, dilinin inkişafı üçün çox əhəmiyyətli qərardır. O, Azərbaycanda bütün Azərbaycan xalqının tərkibini təşkil edən xalqların hamısının özləri üçün bir dili qəbul etməsi üçün çox əsaslı bir qərardır və hesab edirəm ki, həm keçmişimizə böyük hörmətdir, həm də gələcək nəsillər üçün böyük bir sərvətdir. Mən hesab edirəm ki, biz çox düzgün və əsaslı qərar qəbul etmişik.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN YAZIÇILARININ X QURULTAYINDA NİTQİNDƏN

*Prezident sarayı, 30 dekabr 1997-ci il.*

Bir neçə kəlmə də dil haqqında danışmaq istəyirəm. Çünki burada dil haqqında söhbət getdi. Görürsünüzmü, bu gün mən sizə nə qədər təriflər deyirəm. Heç bir tənqid yoxdur. Həmişə də tərifləyirəm. Siz buna layiqsiniz. Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünaslarımızın, dilçi alimlərin böyük xidməti var. Bu gün danışdığımız dil 20-ci ildə danışılan dil deyil. Elədir, yoxsa yox? (Yerdən səs: Bəli, tamamilə doğrudur) Bəli, əsrin əvvəlindəki dil deyil. Amma ondan qat-qat mükəmməl dildir. Bu, bizim ən böyük sərvətimizdir. Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq, millət ola bilməz. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, Şərq ölkəsinin əsarəti altında olduğumuz zaman da, sovet imperiyasının tərkibində olduğumuz zaman da biz bu dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf etdirmişik. Bu, xalqımızın, xüsusən, bizim söz ustalarının, ədəbiyyatçıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin ən böyük nailiyyətidir. Doğrudur, vaxt var idi ki, biz dilimizi bugünkü kimi işlədə bilmirdik. Onun da səbəbləri məlumdur. Yadımdadır, ilk dəfə Yazıçılar İttifaqının qurultayında mən Azərbaycan dilində nitq söyləyəndən sonra tənəffüsə çıxdıq. Hamı gəlib məni təbrik edirdi. Ona görə ki, mən orada birinci növbədə Azərbaycan dilində danışdım. Dedim ki, əziz qardaşlar, axı burada elə bir şücaət yoxdur. Bu, bizim öz dilimizdir. Mən bunu anladım. Çünki dövlət adamları Azərbaycan dilində danışmamışdılar. Bu dil məişət dili olmuşdu və bir də ədəbiyyatın dili olmuşdu. Amma dövlət dili olmamışdı. Mənim nitqimi yazıçılar

böyük bir hadisə kimi qəbul etdilər. Biz o illərdə çalışdıq ki, dilimiz inkişaf etsin. Bu sahədə çox çalışdıq. Baxmayaraq ki, elə bir Dövlətdə yaşayırdıq ki, hakim dil rus dili idi. Ancaq biz dilimizi inkişaf etdirdik və siz, sizin əsərləriniz, ədəbiyyat olmasaydı, şübhəsiz ki, dilimiz bu cür inkişaf edə bilməzdi. İndi bizim çox gözəl dilimiz var. Burada professor Hacıyev çıxış edərək türk yazarlarının qurultayından bir xatirəni yada saldı. Bilirsiniz, bu hadisə məni sevindirdi. Çünki biz dil haqqında müzakirə apararkən professor Hacıyev belə mövqedə idi ki, dilimizin adı başqa cür olmalıdır. Biz isə qəbul etdik ki, Azərbaycan dili olmalıdır. Amma onun sözləri məni ona görə sevindirdi ki, bizim Türkiyədən gələn alimimiz, dostumuz dilimizin qiymətini verə bilibdir. İş onda deyil ki, bunu mən danışıram, sən danışırsan, o biri danışır. İş ondadır ki, dilimizin qiymətini verə bilibdir. Həqiqətən, bizimlə dost, qardaş ölkədə – Türkiyədə də dilimizi – Azərbaycan dilini çox sevirlər. Azərbaycanda mövcud olan Azərbaycan dili çox mükəmməl dildir, çox zəngin dildir, çox inkişaf etmiş dildir, böyük söz ehtiyatına malik dildir. İndi baxın, dövlətin bütün sahələrində sırf Azərbaycan dilində danışırıq və lazım olan bütün xüsusi terminləri də Azərbaycan dilində ifadə edirik. Azərbaycan dili respublikamızda artıq öz yerini tutubdur. Xarici ölkələrin nümayəndələri də bizim dili bilməyərək, sadəcə onu eşidərək, dəfələrlə mənə deyiblər ki, sizin nə qədər gözəl diliniz var! Doğrudan da bu belədir. Bəlkə də biz özümüz dilimizin gözəlliyini bir o qədər dərk edə bilmirik. Azərbaycan dili çox gözəl dildir! Bilirsiniz, mən bunu dəfələrlə demişəm və bu gün də deyirəm: biz türkdilli xalqların ailəsinə mənsub olan bir xalqıq. Ancaq bunun çox şaxələri var. Bunun bir şaxəsi də Azərbaycan dilidir. Biz bunu təsdiq etmişik və bu, artıq bütün ictimaiyyət tərəfindən qəbul olunubdur. Azərbaycan dilini daha da zənginləşdirmək, daha da inkişaf etdirmək sizin ən müqəddəs borcunuzdur. O ki qaldı reklamlara və şəhərdə başqa dillərdə olan yazılara və yaxud da ki, respublikamızda hansısa kolleclərdə ingilis dilində dərs keçirilir, – bunların hamısına baxmaq lazımdır. Ancaq bu məsələdən bir o qədər də narahat olmaq lazım deyil. Siz ingilis dilində dərs keçilən kolleclərin sayını götürsəniz və bizim Azərbaycan dilində dərs keçilən məktəblərin sayı ilə müqayisə etsəniz, görərsiniz ki, bu kol-

leclər azlıq təşkil edir. Amma mən bu barədə mübahisə etmək istəmirəm.

Bir halda ki, burada belə bir fikir söylənilibdir, buna diqqət yetirmək lazımdır. Reklam və məktəb məsələlərinə diqqət yetirmək lazımdır. Ancaq biz dünyada öz dilimizlə tək yaşayırıq. Bizim rinci yətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır. Və bu dili sevməlidir. Bununla yanaşı, biz çalışmalıyıq ki, məktəblərimizdə, universitetlərimizdə gənclərimiz bir neçə dil öyrənsinlər. Mütləq öyrənməlidirlər. Biz artıq dünyaya qovuşmuşuqsa, Dünya Birliyinə daxil olmuşuqsa, gərək insanlarımız bir neçə dil bilsinlər – ingilis dilini də bilsinlər, rus dilini də bilsinlər, fransız dilini də bilsinlər. Bunu yasaq etmək olmaz, bunun qarşısını almaq lazım deyil. Amma birinci öz ana dilini bilməlidirlər. Bəli, Azərbaycanda indi də insanlar var ki, əsasən rus dilində danışırlar, Azərbaycan dilində danışmırlar. Bizim dövlət orqanlarında da beləlməri var. Mən dəfələrlə xəbərdarlıq etmişəm ki, Azərbaycan dilini öyrənin, öyrənməsəniz işdən çıxaracağam. Professor Hacıyev mənə deyir ki, siz Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin işçilərini məcbur edin, onlar Azərbaycan dilini öyrənsinlər. Amma sizə deyim ki, onlar artıq öyrənirlər. Xarici ölkələrin respublikamızda olan səfirləri artıq Azərbaycan dilini öyrənirlər. Onlar mənimlə görüşəndə çalışırlar Azərbaycan dilində danışsınlar. Mən də bunlara çox sevinirəm. Hətta Rusiyanın səfiri cənab Bloxin də burada oturubdur – o, Azərbaycan dilini öyrənir, özü də çox yaxşı öyrənir. Budur bizim müstəqilliyimizin nəticəsi. Vaxtilə buraya, mərkəzdən Azərbaycan Kommunist Partiyasının ikinci katibi vəzifəsinə rus millətindən olan adamlar gəlirdi. Mən onlara Azərbaycan dilini öyrədə bilmirdim. Onlara neçə dəfə deyirdim ki, Azərbaycan dilini öyrənin, ancaq öyrənmək istəmirdilər. Amma bu gün Rusiyanın səfiri öyrənir, Amerikanın səfiri öyrənir. Bunların hamısı böyük hadisədir, nailiyyətdir. O ki qaldı şirkətlərdə hansı dildə danışmaq məsələsinə – bəli, onlar öz işlərini aparmaq üçün o dilləri bilən adamları işə qəbul edirlər. Amma deyə bilmərəm ki, sən öz işini niyə ingilis dilində aparırsan, Azərbaycan dilində apar. O, öz şirkəti ilə yazışma aparır, başqa sənədlər var və s. Bunu öz dilində aparmalı-

dır. Eyni zamanda, sizə deyə bilərəm ki, o şirkətlərin nümayəndələri mənə yazdıqları məktubları iki dildə – həm öz dillərində, həm də Azərbaycan dilində yazırlar. Yəni onların çox yaxşı tərcüməçiləri var. Mən hərdən fikir verirəm – çox dəqiq tərcümə edirlər. Onlar məktubu mənə iki dildə göndərirlər və bəzən də özləri mənə təklif edirlər ki, dərhal bunu oxuya bilim. Beləliklə, görürsünüz, dil məsələsi ilə əlaqədar nə qədər məsələlər meydana çıxır. Ancaq yenə də ən əsas nəticə ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün də Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun!

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN RESPUBLİKAMIZIN VƏ XARİCİ ÖLKƏLƏRİN ALİ MƏKTƏBLƏRİNƏ QƏBUL OLUNMUŞ TƏLƏBƏLƏRLƏ GÖRÜŞDƏ NİTQİNDƏN

*Prezident sarayı, 29 avqust 1997-ci il.*

Mən keçmişdə də demişəm və bu gün də deyirəm, şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini – dövlət dilini yaxşı bilsin. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. Bəlkə də biz bu dildə danışmağımıza görə öz dilimizin zənginliyini və gözəlliyini hələ tam dərk edə bilməmişik. Ancaq bilin ki, bu, həqiqətdir. Ona görə də bunu heç bir şeyə dəyişmək olmaz. Xarici dil bilmək, əlbəttə ki, lazımdır, vacibdir. Mən bir daha arzu edirəm ki, vətəndaşlarımız ingilis dilini də, rus dilini də, fransız dilini də, alman dilini də, türk dilini də, ərəb dilini də, fars dilini də, hətta Çin dilini də bilsinlər. Gənclərimiz nə qədər çox dil bilsələr bir o qədər zəngin dünyagörüşünə malik olacaqlar. Bu, müasir dünyanın tələbləridir. Amma ən əsası ondan ibarətdir ki, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini mükəmməl

bilməlidir. Gənclərə tövsiyə edirəm ki, əgər kiminsə bu barədə çatışmazlığı varsa, çalışın, bunu aradan qaldırın. Xarici ölkələrdə təhsil alarkən, həmin ökənin dilini öyrənərkən, eyni zamanda, başqa dilləri öyrənərkən öz dilinizi heç vaxt unutmayın və öz ana dilinizi heç bir başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz. Hətta öz dilimizdə danışmağı başqalarına da öyrədin. Ümumiyyətlə, mən fikir verirəm, – respublikamıza başqa ölkələrdən gəlib işləyənlər, dövlət nümayəndələri, səfirliklərdə çalışanlar Azərbaycan dilini öyrənməyə çalışırlar. Bu, çox sevindirici haldır. Bunun özü də yenilikdir. Mənim xatirimdədir, keçmiş zamanda ədəbiyyat tarixini öyrənərkən fəxr edirdik ki, vaxtilə Lermontov bir müddət Azərbaycanda olmuş, Quba zonasında yaşamışdır. O, öz dostuna yazmışdı ki, mən burada Azərbaycan dilini öyrənirəm. Avropada fransız dili kimi, Qafqazda da Azərbaycan dili çox məşhur və mötəbər bir dildir. Hətta Lermontovun belə bir yazısı da var. Biz bunu böyük iftixar hissi ilə qeyd edirdik ki, görün, Lermontov burada yaşayıb, dilimizə belə böyük hörmət edib və bizim dilimizi öyrənməyə çalışıb. Bunun özü tarixdə nadir bir hadisədir. İndinin özündə də bizim dili öyrənməyə çalışırlar. Bəziləri artıq bizim dildə danışırlar. Bu, çox gözəldir. Çünki biz öz dilimizin hörmətini qaldırmalıyıq. Ona görə ki, bizim dilə hörmət edilsin, dilimizi öyrənsinlər, mənimsəsinlər. Mən əminəm ki, başqa ölkələrdə də bizim dilimiz nə qədər geniş yayılsa, öyrənilsə Azərbaycan ədəbiyyatını, mədəniyyətini ana dilimizdə oxuyanlar, öyrənənlər, respublikamızın necə zəngin mənəviyyata, ədəbiyyata, mədəniyyətə malik olduğunu dərk edəcəklər. Mən bu məsələ ilə əlaqədar öz fikirlərimi sizə çatdırıram və güman edirəm ki, bu tövsiyələrimi unutmayacaqsınız.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YENİ DƏRS İLİNİN BAŞLANMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN YIĞINCAQDA NİTQİNDƏN

*Bakı,18 №-li orta məktəb 1 sentyabr 1997-ci il.*

Biz yeni əlifbaya – latın əlifbasına keçmişik. Mən hiss edirəm ki, latın əlifbasının tətbiqi çox ləng gedir. Hesab edirəm ki, bu işləri də sürətləndirmək lazımdır. Yaşlı nəsil kiril əlifbası ilə oxuduğuna görə latın əlifbasını oxumaqda çətinlik çəkir. Bildirmək istəyirəm ki, burada heç bir çətin iş yoxdur. Latın əlifbası ilə kiril əlifbası arasında fərq o qədər də böyük deyildir. Sadəcə, mən yaşlı nəslə müraciət edib deyirəm ki, bir balaca özünüzü əziyyətə salın və tezliklə bu kiril əlifbasından xilas olun. Əgər biz tezliklə bütün sahələrdə latın əlifbasına keçməsək, gecikmiş olacağıq. Bu işlər məktəblərdə xüsusilə təşkil olunmalıdır. Mən Təhsil Nazirliyindən, bütün məktəblərdən bunu tələb edirəm.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNDƏ DÖVLƏT DİLİ HAQQINDA MADDƏNİN GENİŞ MÜZAKİRƏSİNDƏ NİTQİ

*Respublika Elmlər Akademiyası Rəyasət Heyətinin iclas salonu, 31 oktyabr 1995-ci il.*

Hörmətli xanımlar və cənablar, hörmətli ziyalılar!

Əvvəlcə bildirmək istəyirəm ki, sizinlə yenidən görüşməkdən çox məmnunam. Sizə və sizin simanızda Azərbaycanın bütün ziyalılarına işlərində uğurlar, səadət və xoşbəxtlik arzu edirəm.

Ölkəmiz tarixinin çox mühüm bir mərhələsini yaşayır. Res-

publikamızda böyük iqtisadi, ictimai-siyasi proseslər gedir və bir çox mühüm məsələlər həll olunur. Dövlət quruculuğu sahəsində aparılan işlər sırasında müstəqil Azərbaycan Respublikasının parlamentinə seçkilər və müstəqil dövlətimizin ilk konstitusiyasının qəbul olunması çox böyük əhəmiyyət kəsb edir.

Bildiyiniz kimi, bir neçə aydır ki, biz və respublikanın bütün ictimaiyyəti, dövlət orqanları çox ciddi məşğul olurlar. Nəticədə demək olar ki, biz mühüm tədbirlər ərəfəsindəyik. Təəssüf ki, bu mərhələdə respublikamıza böyük faciə üz verdi. Qəza nəticəsində metro stansiyasında insanlarımız tələf oldu. Biz ağır itkilərə məruz qaldıq, çoxlu soydaşımızı itirdik. Respublikamız matəm keçirdi və indi də bu ağır yaranın əzab-əziyyətini çəkirik. Ancaq şübhəsiz ki, bu hadisə bizim işlərimizi, gedən proseslərin inkişafını dayandıra bilməz. Qarşımıza qoyduğumuz vəzifələri vaxtında həyata keçirməyə qadirik və həyata keçirəcəyik. Müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasının qəbul edilməsi tarixi hadisə olacaqdır. Bildiyiniz kimi, bizim indi qüvvədə olan konstitusiyamız da var. Konstitusiya tariximiz böyükdür. Azərbaycanın ilk konstitusiyası 1921-ci ildə qəbul olunubdur. 1920-ci ildə Azərbaycanda sosialist respublikası qurulandan sonra o vaxt respublikamız özünün ilk konstitusiyasını qəbul etmişdir. Ondan qabaq isə – 1919-cu ildə ilk Azərbaycan Demokratik Respublikası yaranandan sonra Konstitusiya aktı qəbul olunmuşdu. Ancaq o zaman konstitusiya qəbul edilməmişdi. Dediyim kimi, ilk konstitusiya 1921-ci ildə qəbul olundu. O vaxt Azərbaycan Sovet Sosialist Respublikası idi. Ancaq biz hələ İttifaqa daxil deyldik.

1922-ci ilin dekabrında Sovetlər İttifaqı yarandı və Azərbaycan Respublikası da Sovetlər İttifaqının tərkibinə daxil oldu. Bundan sonra Sovetlər İttifaqının konstitusiyası qəbul edildi. Həmin konstitusiyaya uyğun olaraq Azərbaycanın 1921-ci ildə qəbul olunmuş konstitusiyasında müəyyən dəyişikliklər aparıldı.

Ancaq yeni konstitusiya qəbul edilmədi. Azərbaycan Respublikası həmin konstitusiya ilə Sovetlər İttifaqının tərkibində yaşadı. 1937-ci ildə respublikamızın yeni konstitusiyası qəbul edildi. Bu, 1936-cı ildə qəbul olunmuş Sovetlər İttifaqı konstitu-

siyasına uyğun olan konstitusiya idi. Sonra isə, 1977-ci ildə Sovetlər İttifaqının yeni konstitusiyası qəbul olundu. Ona uyğun olaraq 1978-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Həmin konstitusiya indiyədək qüvvədədir.

Şübhəsiz ki, ondan sonrakı dövrdə respublikamızda baş vermiş böyük dəyişikliklərlə, Azərbaycanın müstəqil dövlət olması ilə əlaqədar həmin konstitusiyaya müəyyən dəyişikliklər edilibdir. Lakin bizim üçün əsas sənəd 1991-ci il oktyabrın 18-də qəbul olunmuş Konstitusiya Aktıdır. Beləliklə, biz bu konstitusiya ilə yaşamışıq. Ancaq indi müstəqil Azərbaycan Respublikasının yeni konstitusiyasını qəbul edirik. Bir də qeyd edirəm, bu, çox böyük tarixi hadisədir və bizim, indiki nəsillərin üzərinə çox böyük məsuliyyət qoyur.

Konstitusiya elə bir sənəddir ki, o gərək uzun müddət yaşasın. Onun ömrü uzun olmalıdır. Konstitusiya tez-tez dəyişilə bilməz. Əgər konstitusiya doğrudan da həm bu günü, həm də gələcəyi tamamilə əks etdirə bilirsə, o, uzunömürlü ola bilər, gələcəkdə ona dəyişikliklər etməyə ehtiyac olmaz və ya çox cüzi dəyişikliklər aparıla bilər. Ona görə də bu işə həddindən artıq məsuliyyətlə yanaşmaq lazımdır. Biz belə də yanaşırıq. Yəni öz məsuliyyətimizi dərk edirik və bu mühüm sənədin qəbul olunması üçün gələcək nəsillərin qarşısında nə qədər cavabdeh olacağımızı da dərk edirik.

Mən konstitusiya komissiyasının sədri kimi konstitusiya layihəsinin hazırlanması dövründə, bu günə qədər çalışmışam ki, layihənin hazırlanmasında bu sahədə biliyi, elmi, təcrübəsi olan bütün alimlər, mütəxəssislər, hüquqşünaslar, dövlət xadimləri, ictimai-siyasi xadimlər, mədəniyyət xadimləri iştirak etsinlər.

Konstitusiya komissiyasının tərkibi bu dediyim fikirləri əks etdirir. Eyni zamanda mən hesab edirəm ki, bu böyük məsuliyyəti yalnız konstitusiya komissiyasının üzvlərinin öhdəsinə qoymaq olmaz. Bu məsuliyyəti hamımız, bütün xalqımız daşımalıdır. Hər bir vətəndaş həm bu gün üçün, həm də gələcək nəsillər üçün konstitusiyanın hazırlanmasında iştirak etməyə çalışmalıdır, öz səylərini və xidmətlərini göstərməlidir. Şübhəsiz ki, kim nəyə qadirdirsə, kim nəyi bacarırsa, kim nə edə bilərsə, etməlidir. Azər-

baycanda bu sahədə bilikli, təcrübəli, bacarıqlı adamlar çoxdur. Lazımdır ki, bu işdə heç kəs biganə qalmasın. Lazımdır ki, hər bir kəs, hər bir vətəndaş konstitusiyanın hazırlanmasını və qəbul olunmasını öz şəxsi işi kimi, taleyi kimi qəbul etsin. Belə olan halda biz Azərbaycanın müstəqilliyini təmin edən, vətəndaşlarımızın hüquqlarını qoruya bilən, ölkəmizin dövlətçiliyini möhkəmləndirən və respublikamızın müstəqil bir dövlət kimi yaşaması üçün əsas olan qanun, konstitusiya qəbul edə bilərik.

Hesab edirəm ki, bu sahədə çox iş görülübdür. Konstitusiya layihəsinin hazırlanmasına biz çox vaxt sərf etdik. Bu iş çoxdan başlanıbdır – bizim mütəxəssislər bu işə bir il bundan öncə başlayıblar. Ancaq biz bu işə mütəşəkkil olaraq iyun ayından başladıq və çox intensiv iş getdi.

Konstitusiya komissiyası yaranarkən yeni konstitusiya layihəsinin bir çox müddəaları demək olar ki, işlənib hazırlanmışdı. Konstitusiya komissiyası yarandı, onun işçi qrupu təşkil edildi. Həmin qrup gərgin işlədi və layihə konstitusiya komissiyasında bir neçə dəfə müzakirə ediləndən sonra ümumxalq müzakirəsinə verildi.

İndi müzakirələr sona çatır. Biz gərək ümumxalq müzakirəsi zamanı verilmiş təklifləri, düzəlişləri iki-üç gün içərisində təhlil edək, konstitusiya komissiyasında baxaq və onların dəyərlilərindən, xeyirlilərindən istifadə edək, beləliklə də layihəni təkmilləşdirək. Şəxsən mənim məqsədim bundan ibarətdir. Mən bu işə çox məsuliyyətlə yanaşıram. Çünki həm Azərbaycanın konstitusiya tarixini bilirəm və onu böyük diqqətlə təhlil etmişəm, həm də indiyədək Azərbaycanda dövlət quruculuğu sahəsində aparılan işlərin çoxunun iştirakçısıyam. 1977-ci ildə Sovetlər İttifaqında yeni konstitusiya qəbul olundu. O konstitusiyanın hazırlanması dövrü çox böyük idi. Konstitusiya komissiyası təşkil olunmuşdu. O vaxtlar Sovetlər İttifaqında, hər bir müttəfiq respublikada geniş işlər aparılırdı. Mən həmin konstitusiya komissiyasının üzvü idim və 1977-ci ildə qəbul olunmuş konstitusiyanın hazırlanmasında iştirak etmişəm. Hətta həmin konstitusiya qəbul olunarkən Sovetlər İttifaqı Ali Sovetinin sessiyasında çıxış etmişəm. Sonra isə bir il biz öz respublikamızın – Azərbaycan Respublikasının konstitu-

siyasını hazırlamaqla məşğul olduq. Biz də komissiya yaratdıq. Mən respublikanın rəhbəri kimi konstitusiya komissiyasının sədri idim.

Xatirimdədir, biz o vaxt nə qədər çox iş gördük. Doğrudur, qeyd etdiyim kimi, bizim qəbul etdiyimiz konstitusiya Sovetlər İttifaqı konstitusiyasının müddəalarına uyğun olmalı idi, ona münasib yazılmalı idi və eyni zamanda respublikamızın bəzi xarakterik cəhətlərini özündə əks etdirməli idi. Hesab edirəm ki, o vaxt biz buna nail ola bildik. O dövrün, o zamanın şərtləri daxilində biz Azərbaycanın konstitusiyasını qəbul etdik.

Beləliklə, mən bu məsələlərin tarixini öyrəndiyimə görə, həm də bir çox hissəsində bilavasitə iştirak etdiyimə görə indi müstəqil Azərbaycan Respublikasının konstitusiyasını tam müstəqil, heç bir dövlətdən, heç bir mərkəzdən, heç bir kəsdən asılı olmayaraq özümüzün sərbəst qəbul etməyimizin nə qədər məsuliyyətli və şərəfli olduğunu dərk edirəm. Ona görə də indiyədək çalışmışam ki, bu konstitusiyanın hazırlanmasında hamı çox yaxından, ürəkdən iştirak etsin. Çalışsın, maksimum səy göstərsin ki, bizim konstitusiyamız mükəmməl olsun. Buna nə qədər nail olduğumuzu şübhəsiz ki, xalq qiymətləndirməlidir. Çünki layihə dərc olunubdur, müzakirədən keçibdir. Aparılan müzakirələr və konstitusiya komissiyasına daxil olan təkliflər onu göstərir ki, xalq, ictimaiyyət, vətəndaşlar bu layihəni ümumən qəbul edirlər. Layihənin əleyhinə birbaşa çıxan yoxdur. Ancaq onu təkmilləşdirmək üçün təkliflər, əlavələr, dəyişikliklər irəli sürülür. Mən dünən işçi qrupu ilə görüşmüşəm. Onların mənə verdiyi məlumatdan aydın olur ki, konstitusiya komissiyasına 1400 təklif, dəyişiklik daxil olubdur. Bu təkliflər cürbəcürdür və konstitusiyanın müxtəlif maddələrinə aiddir. Onlar təhlil olunur. İşçi qrupu onların təhlili və qiymətləndirilməsi ilə məşğuldur və o təkliflərdən hansının qəbul olunub-olunmaması barədə konstitusiya komissiyasına öz fikrini söyləyəcəkdir.

Nəhayət, bunlar konstitusiya komissiyasında həll olunacaqdır. Güman edirəm ki, müzakirə nəticəsində alınan təkliflər konstitusiya layihəsini daha da təkmilləşdirəcək və biz bu günlərdə konstitusiyanın son layihəsini bir daha mətbuatda dərc edəcəyik

ki, vətəndaşlarımız noyabr ayının 12-də parlament seçkiləri zamanı eyni zamanda ümumxalq səsverməsi, referendum yolu ilə konstitusiya layihəsinə öz münasibətlərini bildirsinlər. Referendumun nəticəsinə görə də konstitusiyanın qəbul edilməsi məsələsi həll olunacaqdır. Vətəndaşlardan daxil olan təkliflərdən başqa, layihə ayrı-ayrı təşkilatlarda, birliklərdə, müəssisələrdə, idarələrdə, elm ocaqlarında, yaradıcılıq təşkilatlarında, mədəniyyət birliklərində müzakirə edilibdir. Burada deyildi ki, layihəni Elmlər Akademiyası da müzakirə edib və öz fikrini bildiribdir. Ancaq mən konstitusiyanın bir maddəsinin xüsusi müzakirə olunmasını lazım hesab edirəm. Bu, Azərbaycanın dövlət dili haqqında olan 23-cü maddədir.

Konstitusiya komissiyasında layihə müzakirə olunarkən komissiyanın üzvlərindən üç nəfər – şair Bəxtiyar Vahabzadə, yazıçılar Anar və Elçin Əfəndiyev belə fakir söylədilər ki, “dövlət dili Azərbaycan türk dilidir” yazılsın. Biz bu məsələni müzakirə etdik. Son layihəni dərc olunmağa göndərərkən belə qərara gəldik ki, bu layihədə indiyədək konstitusiyada olduğu kimi yazaq. Bu barədə sizə qısa tarixi arayış vermək istəyirəm.

1921-ci ildə qəbul olunmuş ilk Azərbaycan konstitusiyasında dövlət dili haqqında heç bir maddə yoxdur. 1937-ci ildə qəbul edilmiş Azərbaycan konstitusiyasında da dövlət dili haqqında heç bir maddə olmayıbdır.

1956-cı ildə Azərbaycan Respublikasının Ali Soveti 1937-ci ildə qəbul olunmuş konstitusiyaya əlavə edibdir. Konstitusiya Azərbaycan Respublikasında dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə edilibdir. O vaxt işləyən adamlarımız bunu xatırlayırlar. Həmin dövrdə bu maddənin qəbul edilməsi respublikada müəyyən mübahisələr doğurdu. Mən də onun şahidiyəm. Bu maddənin qəbul olunmasından sonra həyata keçirilən bəzi tədbirlər daha çox mübahisələr və narazılıqlar doğurdu. Bu, deyə bilərəm ki, o vaxt respublikamızı çətin vəziyyətə saldı. Çünki belə bir maddə qəbul edilən kimi, o vaxt – bəzən belə də olur, bəzi adamlar özlərini həddindən çox vətənpərvər, millətə həddindən artıq yaxın göstərmək istəyirdilər – dərhal göstərişlər verildi ki, bütün idarələrdə, təşkilatlarda yazışmaların hamısı ancaq

Azərbaycan dilində getsin. Makinalar dəyişdirilməyə başlandı. Şübhəsiz ki, o vaxt bizim kargüzarlıq işlərində, katiblikdə, yazışmalarda rus dili üstünlük təşkil edib. Çünki əsas işlər rus dilində gedirdi. Ona görə işçilərin çoxu da rusdilli idi – ya rus, ya da erməni millətindən, yaxud rusdilli azərbaycanlılardan ibarət idi. Onların bəzilərini işdən çıxarmağa başladılar. Bu, Azərbaycanda böyük narazılıq doğurdu. Bundan da o vaxt Azərbaycana pis münasibət, bəlkə də düşmən münasibəti göstərən qüvvələr istifadə etdilər. Xatirinizdədir ki, 1959-cu ildə Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi Azərbaycanda millətçilik olması barədə qərar qəbul etdi. O vaxt Azərbaycan rəhbərliyi dəyişildi, bəzi vəzifəli şəxslər bundan istifadə edib öz şəxsi məqsədlərinə nail oldular. Hər halda, bu tarix məlumdur. Ondan sonra bu məsələ müəyyən qədər sakitləşdi.

1977-78-ci illərdə biz yeni konstitusiyanı qəbul edərkən bu məsələ, şübhəsiz ki, əsas məsələlərdən biri idi. Biz yeni konstitusiyada Azərbaycanın dövlət dilinin Azərbaycan dili olması barədə maddə hazırladıq. Qeyd etdiyim kimi, mən həmin konstitusiyanı hazırlayan komissiyanın sədri idim və bu işlərə rəhbərlik edirdim.

Ancaq bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur. Mən indi sizin vaxtınızı alıb bunların hamısını geniş danışmağa ehtiyac duymuram. Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz konstitusiyamıza yazmalıyıq və yazacağıq.

Moskvada bir neçə dəfə müzakirələr oldu. Cürbəcür fikirlər səsləndi və həmin fikirlərin əksəriyyəti ondan ibarət idi ki, belə olmamalıdır. Ancaq biz buna nail olduq və 1978-ci ildə, səhv etmirəmsə, aprel ayında biz konstitusiyanı qəbul etdik. Həmin konstitusiyada yazıldı ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir. Xatirimdədir, o vaxt başqa respublikanın rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Ukraynanın rəhbəri Şerbitski ilə mənim kəskin danışıqlarım xatirimdədir. O buna çox etiraz edirdi,

belə əsaslandırırdı ki, siz belə yazdığınız halda gərək onda biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, sizə heç kəs mane olmur. Siz bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında sizin xüsusi çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz, bunu yaza bilərsiniz. Ancaq siz nə üçün bizə mane olursunuz? Mübahisəmiz çox gərgin oldu.

Hər halda biz bunu etdik. Deyə bilərəm ki, o vaxt on beş müttəfiq respublikadan yalnız üç respublikanın – Azərbaycan, Gürcüstan və Ermənistanın konstitusiyalarında dövlət dili haqqında maddə var idi. Qalan respublikaların heç birinin konstitusiyasında dövlət dili haqqında maddə yox idi. Mən 1978-ci ildə qəbul edilmiş konstitusiyanı nəzərdə tuturam. Qeyd etmək istəyirəm ki, o cümlədən Baltikyanı respublikalar da – onlar öz milli ənənələrini başqalarına nisbətən daha çox qoruyub saxlamağa çalışırdılar. O vaxt onları ümumiyyətlə, millətçi respublikalar hesab edirdilər – buna baxmayaraq, onlar öz konstitusiyalarında dövlət dilini yazmamışdılar.

Ancaq biz buna nail olduq. Hesab edirəm ki, bu, o dövrdə, o zamanın şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində çox böyük hadisə oldu. İndiyə qədər konstitusiyamızın 73-cü maddəsi – "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" maddəsi qüvvədədir. Bunu, yəni "Azərbaycan Konstitusiyasının 73-cü maddəsi qüvvədədir" fikrini nəzərə alaraq, yeni konstitusiyanın son layihəsini dərc edərkən yazdıq ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir.

Ancaq sizə məlumdur ki, 1992-ci ildə başqa proseslər olmuşdur. 1992-ci ilin dekabrında Azərbaycanın Milli Məclisində dövlət dili haqqında məsələ müzakirə edilmişdir. Bu müzakirə nəticəsində qərar qəbul olunub ki, Azərbaycanın dövlət dili türk dilidir. O vaxt mən Bakıda yaşamırdım, Naxçıvanda idim. Eşitdiklərimdən, bildiklərimdən belə hiss etdim ki, bu qərar respublikada birmənalı qarşılanmayıbdır. Bu qərardan çox narazı olanlar var idi, onu çox bəyənənlər də var idi.

Sonra, konstitusiya layihəsini hazırlayarkən mən bunu araşdırdım. Bu barədə mənə əvvəl də demişdilər. Ancaq bir var ki, bir şeyi ordan-burdan eşidəsən, bir də var ki, özün araşdırasan. Mən

bunu şəxsən özüm üçün araşdırdım və məlum oldu ki, bildiyiniz kimi, burada özbaşınalığa, volyuntarizmə yol verilibdir. Mən bunu deyərkən, əvvəlcədən xahiş və xəbərdarlıq edirəm ki, fikirlərim heç kəsə öz sözlərini demək üçün təsir etməsin. Mən sizə olmuş şeylərin xronologiyasını danışdım. İstəyirəm ki, burada sərbəst müzakirələr getsin. Dövlət dili haqqında maddə konstitusiya qanunudur. Yəni bu, ya konstitusiyada olmalıdır, ya da, ona dəyişiklik edilərsə, hüquqa görə, konstitusiya təcrübəsinə, qanunların qəbul edilməsi təcrübəsinə görə, bu, konstitusiya qanunu kimi qəbul olunmalıdır. Ancaq bu məsələnin həllinə çox məsuliyyətsiz, səthi yanaşılmışdır.

Qəbul olunmuş qərar haqqında mən hər hansı fikir söyləmək istəmirəm. Çünki əgər fikir desəm, siz belə başa düşərsiniz ki, mən hansısa tərəfi saxlayıram. Mən heç bir tərəf saxlamıram. Ona görə də bura, sizin görüşünüzə şəxsən özüm gəlmişəm ki, fikrimi bilavasitə özüm sizə çatdırım. Ancaq hər bir şey gərək özünə layiq qayda-qanunla edilsin.

Məsələn, mən sizə dedim ki, 1978-ci ildə bu maddəni konstitusiyaya yazmaq üçün üç-dörd ay müzakirə apardıq. Bu o demək deyildi ki, bizim aramızda ”dövlət dilimiz Azərbaycan dili olmalıdır” fikrinə şübhə edənlər olmuşdur. Ancaq o zaman biz müstəqil deyildik. Sovetlər İttifaqının tərkibində idik və Sovetlər İttifaqının, Kommunist Partiyasının rəhbərliyindən asılı idik. Ona görə də həm öz istəyimizi həyata keçirməli idik, həm də buna razılıq almalıydıq. Biz bundan ötrü müharibə etməyəcəydik, üsyan qaldırmayacaqdıq. Əgər kimsə hesab edir ki, üsyan qaldırmaq olardı – bu, ağılsız fikirdir. Yəni mən onu demək istəyirəm ki, bu məsələlərin həlli zarafatyana, səthi ola bilməz. Bu, tarixi bir hadisədir. Biz müəyyən edirik ki, dövlət dilimiz hansı dildir. Bunun da səbəbi ondan ibarətdir ki, bizim dilimizə tarixdə müxtəlif cür münasibət olub və cürbəcür ad veriblər.

Ona görə də mən Milli Məclisin qərarının nəticəsinə toxunmayaraq və o barədə öz münasibətimi bildirməyərək yalnız həmin qərarın qəbul olunması proseduras haqqında danışmaq istəyirəm. Belə bir mühüm qərar üç-dörd günün içərisində kiçik qrup adamın iradəsi, istəyi nəticəsində qəbul olunubdur. Bax,

mən bunu heç bir vəchlə qanuni hesab etmirəm. Mən hesab edə bilmərəm ki, bu işə ciddi münasibət göstərilibdir.

Məsələ belə olmuşdur. Milli Məclisdə Azərbaycanın dövlət dili məsələsi müzakirə olunarkən Məclis üzvlərindən biri deyib ki, gəlin yazaq "Azərbaycanın dövlət dili Azərbaycan türk dilidir", başqa birisi deyib ki, niyə belə yazırıq. Yazaq ki, "türk dilidir". Mübahisə gedibdir – mən bütün stenoqrama baxmışam. Kim necə çıxış edibsə, hamısı məlumdur. Mən sadəcə olaraq demək istəyirəm, indi buna heç ehtiyac da yoxdur, bunun indi əhəmiyyəti yoxdur. Bəlkə kimsə bununla maraqlanır, amma mən hesab edirəm ki, o qədər də maraqlı deyil.

Bəli, mübahisə gedibdir. Bir qismi buna etiraz edibdir, bir qismi isə əvvəlki təklifdən də qabağa gedərək deyib ki, yazaq "bizim dilimiz türk dilidir". Məsələ Milli Məclisdə səsə qoyularkən həmin iclasda Milli Məclisin 50 üzvündən 39-u iştirak edibdir. Onların 26-sı dilimizin türk dili kimi qəbul olunmasına səs verib, 7-si, ya 8-i əleyhinə səs verib, qalanları isə bitərəf olubdur. Beləliklə də dövlət dilimizin adı dəyişilibdir. Hər bir şey etmək olar, əgər doğrudan da o, həqiqətə və bizim məqsədlərimizə uyğundursa. Ancaq belə məsuliyyətli işləri çox ağıllı, bacarıqlı, eyni zamanda xalqın iradəsinə əsaslanaraq görmək lazımdır. 1978-ci ildə qəbul olunmuş konstitusiya ümumxalq müzakirəsindən keçibdir. Deyilə bilər ki, o vaxt sovet dövrü idi, müzakirələr formal keçirdi. Bəli, bu sözü demək olar. Ancaq müzakirələr olubdur. O konstitusiya dərc edilibdir, onun barəsində xalqın məlumatı olubdur. Nəhayət, Ali Sovetin sessiyasında həmin konstitusiya yekdilliklə qəbul edilibdir.

İndi bu böyüklükdə tarixi bir qərar Azərbaycan xalqının iradəsi nəzərə alınmadan 26 nəfər tərəfindən qəbul olunubdur. Burada da böyük bir səhv buraxılıbdır. Həmin səhv ondan ibarətdir ki, əgər Milli Məclis doğrudan da belə bir qərar qəbul etməli olsaydı, həmin qərar qanuna, konstitusiyaya görə Məclis üzvlərinin üçdə ikisi tərəfindən səs verildiyi halda qəbul olunmalı idi. Yəni konstitusiya qanunu sadə səs çoxluğu ilə yox, üçdə iki səs çoxluğu ilə qəbul olunmalıdır. Milli Məclisdə bu təklif səslərin üçdə ikisini toplaya bilməyib. 50 deputatdan 26-sı, yəni sadə səs

çoxluğu ilə, bir səs üstünlüyünə görə qəbul olunubdur.

Burada da konstitusiya qanunu pozularaq, volyuntarizm, özbaşınalıq edilərək belə bir qanunun qəbul olunduğu hesab edilmişdir. Təəssüflər olsun ki, bu işi Milli Məclisin o vaxtkı sədri İsa Qəmbərov və o qrupa məxsus olan deputatlar ediblər. O dövrdə Azərbaycanın prezidenti olan Elçibəy də bu qanunu imzalayıbdır. Mən yenə deyirəm, bu qanunun məna və nəticəsini kənara qoyaraq sadəcə qanunvericilik nöqteyi-nəzərindən, dövlət məsuliyyəti nöqteyi-nəzərindən bu mühüm məsələyə nə qədər məsuliyyətsiz yanaşdıqlarını qeyd etmək istəyirəm.

Bilirsiniz ki, 1993-cü ilin iyun ayının ortalarından Ali Sovetə, Milli Məclisə mən sədrlik etməyə başladım. Mən dörd ay Milli Məclisə sədrlik etdim. O vaxt Milli Məclisin bəzi üzvləri bir neçə dəfə məsələ qaldırdılar ki, həmin qanun düzgün qəbul edilməmişdir. Yəni o, konstitusiya qanunu kimi qəbul olunmayıbdır – imzalanmasına baxmayaraq bu qanun saxta qanundur. Dedilər ki, gəlin buna yenidən baxaq. Mən buna imkan vermədim. Çünki əgər bir səhv buraxılıbsa, o vaxt buna cürbəcür münasibətlər olubdur və müəyyən gərginlik yaranıbdır. İndi bu səhvi biz tələsik düzəltməyə başlasaq və ya hesab etsək ki, bunu düzəltmək lazımdır – bu, yeni çətinlik yaradacaqdır. Mən buna imkan vermədim.

Ali Sovetin sədri Rəsul Quliyev məlumat verir ki, bu il də Məclisin üzvlərindən bir neçəsi bu məsələni yenidən qaldırıb. Yenə də buna imkan verilməyibdir. Ancaq indi, yeni konstitusiya qəbul etdiyimiz zaman bu məsələdə mövqelərimiz müəyyənləşdirilməlidir. Aydınlaşdırmalıyıq ki, hansı formanı qəbul edək. Biz ya bu layihədə olan ifadəni, ya komissiya üzvlərindən bir neçəsinin təklif etdiyi "dövlət dilimiz Azərbaycan türk dilidir" fikrini, yaxud da Milli Məclisin bir qrup üzvü tərəfindən qeyri-qanuni qəbul olunmuş formanı qəbul etməliyik. Həmin o qeyri-qanuni qanun icra olunur. İndi mənə deyirlər ki, bizim dərsliklərdə ana dilini türk dili kimi yazırlar. Mən soruşdum ki, bəs niyə belə yazırlar? Dedilər ki, bu cür qanun qəbul olunubdur. Ancaq qanunun özü də qeyri-qanuni yolla qəbul edilmişdir. Yəni o qanunun gücü yoxdur. Mən sizə bunu açıq deyirəm. Amma eyni zamanda, mən

hansı fikri qəbul edəcəyimiz barədə sizə öz mövqeyimi demirəm. Sadəcə olaraq anlatmaq istəyirəm ki, bu qanunun gücü yoxdur. Bildirmək istəyirəm ki, Azərbaycanın müstəqillik dövründə bu taleyüklü tarixi məsələlərə bu qədər məsuliyyətsiz yanaşan insanlar hesab edirəm ki, xalq qarşısında xəyanət edirlər. Doğrudan da, əgər belə bir qanun lazım idisə, o, xalqın iradəsi ilə qəbul edilməli idi. Bunun üçün referendum keçirmək lazımdır. Həmin referendum sayəsində əgər bu nəticə əldə olunarsa, deməli, xalqın əksəriyyəti bunu istəyir. Yaxud da əgər referendum keçirmək istəmirlərsə, heç olmasa parlament çərçivəsində qanunu pozmayaydılar. Zorakılıq, volyuntarizm, vəzifəsindən sui-istifadə etmək – bax, dəhşətlisi budur. Təəssüf ki, bu, bizim həyatımızda çox vaxtlar olub. Ayrı-ayrı vəzifəli şəxslər vəzifə tutandan sonra hesab edirdilər ki, xalqın taleyi də onların əlindədir, tarix də onların əlindədir – nə istəsələr onu edə bilərlər. Bax, dərd burasındadır. Bunları nəzərə alıb mən konstitusiya komissiyasında bu məsələ qalxan kimi belə bir təklif verdim: bu məsələyə səthi yanaşmaq olmaz. Bu məsələ xüsusi müzakirə olunmalıdır. Bu, birinci növbədə o dairələrdə xüsusi müzakirə olunmalıdır ki, həmin dairələr bu məsələdə səriştəlidir – yəni bu məsələdə onların biliyi, təcrübəsi var və onlar bu işin mütəxəssisləridir.

Mən sizə dedim ki, indi ümumxalq müzakirəsinə 1400 təklif verilibdir. Bunlar konstitusiyanın ayrı-ayrı maddələri haqqındadır. Onların 18-də təklif olunur ki, bizim dövlət dilimiz Azərbaycan dili yox, türk dili yazılsın. 1400 təklifin içərisində 18 təklif bir şey deyildir. Ancaq mən təkcə 18 təklifə görə yox, sadəcə belə bir halın yarandığına görə, belə bir hadisənin mövcud olduğuna görə və bəzi ziyalılarımızın bu fikirdə olduğuna görə bu məsələnin dərindən araşdırılmasını lüzumlu hesab edirəm.

Ona görə də komissiyanın son iclasında layihəni ümumxalq müzakirəsinə verərkən mən Ramiz Mehdiyevə tapşırdım ki, bu məsələ xüsusi müzakirə olunsun. Şübhəsiz ki, fabrikdə, zavodda, yaxud da kolxoz və ya sovxozda bunu xüsusi müzakirə etməyə ehtiyac yoxdur. Əlbəttə, oralardan da müəyyən fikir almaq olar. Bu məsələ xüsusi marağı olan dairələrdə xüsusi müzakirə edilməlidir. Yəni bizim elmi müəssisələrdə, Elmlər Akademiya-

sında – burada dilçilik, ədəbiyyat, tarix, fəlsəfə, hüquq, şərqşünaslıq institutları var, görürsünüz ki, nə qədər elmi institutlarımız var, böyük təcrübəli, bilikli adamlarımız var, sonra, universitetlərimizdə, məsələn, Bakı Dövlət Universitetində Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan ədəbiyyatı tarixi və sair kafedralar var, keçmiş pedaqoji institutumuzda – indi N.Tusi adına Pedaqoji Universitetdir – orada da dilçiliklə məşğul olan çoxlu kafedralarımız var. Yəni bizim elm və tədris ocaqlarımızda xüsusi olaraq dilçiliklə məşğul olurlar. Yaradıcılıq ittifaqlarında, ilk növbədə Yazıçılar Birliyində, bu məsələni, yəni dili yazıçılar daha yaxşı bilirlər, həm tarix nöqteyi-nəzərindən, həm də onun tətbiqi nöqteyi-nəzərindən, digər yaradıcılıq birliklərində bu məsələ müzakirə olunsun. Mən xahiş etdim ki, hər bir birlikdə, hər bir elmi idarədə olan müzakirələrin nəticələrini gətirin, biz onlara konstitusiya komissiyasında baxaq. Çox təəssüf edirəm ki, mənim bu göstərişim yerinə yetirilməyibdir. Mən bu göstərişi verəndən sonra şübhəsiz ki, başqa işlərlə məşğul idim. Bilirsiniz ki, oktyabrın 20-də mən Amerikaya getdim və 25-də axşam oradan qayıtdım, ondan sonar ayın 28-də metroda faciə baş verdi. Yəni mənim bu 15 gündəki fəaliyyətim, iş cədvəlim sizə məlumdur. Mən dünən bu işlə məşğul olmağa başladım və işçi qrupu ilə görüşərkən soruşdum ki, bu məsələni necə müzakirə etmisiniz, nə nəticəyə gəlmisiniz. Çünki layihədə Azərbaycan dilinin yazılması o demək deyildir ki, bu mütləq Azərbaycan dili olmalıdır.

Mən bir daha qeyd edirəm, biz layihədə Azərbaycan dilini ona görə yazmışıq ki, bu, bizim konstitusiyada yazılıbdır. Ondan sonra Milli Məclisdə qəbul olunmuş qərar qeyri-konstitusion qərardır. Bir halda ki, biz indi yeni konstitusiya qəbul edirik, cəmiyyətimizdə cürbəcür fikirlər var – bu fikirləri araşdırmaq, təhlil etmək lazımdır. Onlardan tarixilik nöqteyi-nəzərindən, bu günümüz və gələcəyimiz nöqteyi-nəzərindən doğru olanını qəbul etmək lazımdır. Yəni bu işdə xalqın iradəsini nəzərə almaq lazımdır. Bu sahədə xalqın iradəsini ən yüksək səviyyədə bizim alimlərimiz, ziyalılarımız, xüsusən də ictimai elmlər sahəsində çalışan mütəxəssislərimiz, yazıçılarımız, şairlərimiz deyə bilərlər. Ona görə də mən yenə çox narahat oldum. Göstərişlərimi yerinə yetir-

mədiklərinə görə əməkdaşlarımızı tənqid etdim. Onlar mənə belə izahat verdilər ki, guya sonra mənim göstərişimi müzakirə edərkən belə fikirləşiblər ki, bu cür müzakirəetmək lazım deyil, çünki bu, ajiotaj yaradacaqdır. Ona görə də belə hesab ediblər ki, gəlin bunu elə ümumi müzakirədən keçirək və xüsusi müzakirə etməyək. Mən bundan narazı oldum və ona görə də dünən göstəriş verdim ki, bütün dediyim sahələrin nümayəndələri və ümumiyyətlə kim istəyirsə bura dəvət olunsunlar. Mən dedim ki, Yazıçılar Birliyi üzvlərinin hamısını çağırın. Dünən axşam dedilər ki, orada 500 nəfər adam var. Mən dedim ki, onların 500-nü də çağırın. Biri dedi ki, orada bəzi adamlar belə də deyə bilər, elə də deyə bilər. Mən dedim ki, onları da çağırın. Qoy onlar nə deyirlərsə, gəlib burada desinlər. Hər deyilən sözdən bir məna çıxır. Biz bundan niyə qaçmalıyıq ki. Mən dedim ki, siyasi partiyaların nümayəndələrini də çağırın. Eşitdim ki, müxalifət qəzetlərində bu maddəni tənqid edirlər və onlar Milli Məclisin qəbul etdiyi qərarın tərəfdarlarıdırlar. Dedim ki, qoy onlar da gəlsin. Bura hamı gəlməlidir. Çünki bu bizim elə bir işimizdir ki, bunu gərək aşkar, açıq, heç kəsdən çəkinmədən müzakirə edək. Ona görə ki, ən düzgün, ən optimal fikrə gəlməliyik.

Son vaxtlar, deyəsən bu layihə dərc olunandan sonra hansısa bir müxalifət qəzetində oxudum ki, "bizim dilimizi vaxtilə Stalin və Mikoyan dəyişiblər, dilimizi Azərbaycan dili onlar adlandırıblar, indi də onların yolu ilə getmək istəyirik". Mən dünən onlara dedim ki, bilirsiniz, bax bunu yazan adamlar – əgər siz bu müzakirədən qaçmısınızsa və hesab edirsinizsə ki, bu, ajiotaj yaradacaq, hesab edirsinizsə elə bu yazılan qəbul olunmalıdır – üç ildən sonra, beş ildən sonra, xüsusən də Heydər Əliyev dünyadan gedəndən sonra götürüb yazacaqlar ki, “Heydər Əliyev Stalin və Mikoyanla birlikdə bizi bu yola gətirdi, yoxsa biz başqa yolla gedəcəydik”. Mən bu tarixi məsuliyyətdən qorxmuram. Ancaq mən də araşdırıram. İstəyirəm ki, həqiqəti aydınlaşdıraq. Ona görə də xahiş edirəm ki, mənim bu çıxışımı vəziyyəti aydınlaşdırmaq niyyəti ilə qəbul edəsiniz. Mən bu barədə heç bir fikir söyləmirəm və heç söyləməyəcəyəm də. Mən bu fikri sizin sərəncamınıza verəcəyəm.

Buna görə də mən dedim ki, sizi dəvət etsinlər. Əvvəlcə fikirləşdim ki, müzakirəni özünüz aparasınız. Sonra qərara gəldim ki, yaxşı olar, buraya özüm də gəlim və bu fikirləri izah edim. Çünki özüm izah etməyəndə bəzən yenə də məsələni qarışdıracaqlar və fikirləri düzgün çatdırmayacaqlar. Mən sizə fikrimi özüm çatdırıram. Buraya televiziyanı da dəvət etmişəm. Burada nə deyilirsə, hamısını qoy yazsınlar və xalqa çatdırsınlar, hər şeyi aydınlaşdıraq. Məsələ bundan ibarətdir. Ona görə mən istəyirəm ki, siz məsuliyyəti dərindən dərk edərək müzakirə edəsiniz, bu məsələyə səthi yanaşmayasınız. Bu, çox mühüm məsələdir. Məsələn, bizim bəzi ziyalılar deyirlər ki, əgər indi biz Azərbaycan dili yazsaq, onda bəs Füzuli nə dilində yazıbdır? Cəlil Məmmədquluzadə nə dilində yazıbdır Belə sözlər deyirlər.

Eyni zamanda deyirlər ki, guya 1935-36-cı illərdə bizim dilimiz türk dili adlanıbdır və dilimizin adı o vaxt dəyişilibdir. Amma şəxsən məndə bu barədə tarixi bir sənəd yoxdur. Bu, hansı fərmanla, hansı qərarla, hansı sənədlə dəyişdirilibdir, – bu, məndə yoxdur. Bilmirəm, bəlkə kimdəsə var. Ancaq tariximiz elə olubdur ki, vaxtilə bizə "azərbaycanlı" da deməyiblər. İndi əgər biz Cəlil Məmmədquluzadəyə, Mirzə Ələkbər Sabirə, Nəriman Nərimanova və ya başqalarına istinad ediriksə, elə onların əsərlərində deyirlər ki, biz müsəlmanıq. Bəli, o vaxt deyirdilər ki, biz müsəlmanıq. Yazıların əksəriyyətində belədir. Bizə "azərbaycanlılar" da demirdilər, bəlkə türklər deyirdilər. Amma çox vaxt deyirdilər ki, biz müsəlmanıq. Nəhayət, XX əsrin axırlarında biz bu məsələləri tam aydınlaşdırmalıyıq və bu məsələyə nöqtə qoymalıyıq ki, bütün söz-söhbətə son qoyulsun.

Siz hansı qərarı qəbul etsəniz, həmin qərarı biz konstitusiyaya yazarıq. Mən bununla da sözümü qurtarıram. Ancaq iki kəlmə onu demək istəyirəm ki, mən bu danışdığımız dili – buna hansı dil deyirsiniz deyin, çox gözəl dil hesab edirəm. Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı çox böyükdür. Qrammatika sahəsində həddindən artıq böyük nailiyyətlərimiz var. Şəxsən mən bu dili sevirəm.

Bilirsiniz ki, keçmişə qara yaxmaq istəyənlər bunu bir müddət etdilər. Ancaq bu, əhəmiyyətsizdir. Tarixi dəyişdirmək

olmaz. Bizim dilçilərin, alimlərin xatirində olmalıdır ki, deyəsən, 70-ci illərin axırı idi – dövlət mükafatları verilirdi. Biz xüsusən Azərbaycan dili haqqında kitab yazmış böyük bir kollektivə dövlət mükafatı verdik. Bu mükafatı onun müəllifinə görə yox, əsərin özünə və bu kitabın dilimizin təhlilinə həsr olunmasına görə verdik. Adətən biz mükafatları bir romana, bir şeirə, bir poemaya, bir teatr tamaşasına, bir rəsm əsərinə görə veririk. Amma bu mükafatı mən xüsusi mükafat hesab edirəm. Burada mənim şəxsi təşəbbüsüm, şəxsi məqsədim o olubdur ki, ictimaiyyət bir daha bilsin ki, biz dilimizin inkişafına nə qədər fikir veririk.

Bu müddətdə dilimizin böyük qrammatikası yaranıbdır. Böyük dərsliklər, əsərlər var. Respublikamızda böyük dilçilik institutu mövcuddur. Bizim böyük dilçilərimiz var, yadımdadır, akademik Şirəliyev, Dəmirçizadə, mən o vaxtkı adamları deyirəm, indi yaşayan alimlər adlarını demədiyimə görə məndən inciməsinlər. Bəli, bizim böyük alimlərimiz vardır.

Azərbaycanda türkologiya da çox inkişaf edibdir. Keçmiş Sovetlər İttifaqının ərazisində türkologiyaya demək olar ki, Azərbaycan qədər fikir verən olmayıbdır. Təsadüfi deyildir ki, Sovetlər İttifaqında buraxılan yeganə "Türkologiya" jurnalı Azərbaycanda nəşr edilirdi. İndi də nəşr olunur. Yəni bu sahədə bizim böyük nailiyyətlərimiz var. Alimlərimiz, bilikli adamlarımız və belə zəngin dilimiz var.

Dilimizin 30-cu illərdəki vəziyyətini təsəvvür edin. Götürün, oxuyun 20-ci ildə yazılan kitabları. İndiki dilimizi götürün. Dilimiz nə qədər zənginləşib, nə qədər gözəlləşibdir, nə qədər cazibədar olubdur, nə qədər də şirindir. Bu bizim dilimizdir. Amma adını nə qoyacaqsınız – o, sizin işinizdir. Mən dediyim bir-iki tənqidi sizin daha düz qəbul etməyiniz üçün Şahin Əliyevə söz verirəm. O, Milli Məclisin qəbul etdiyi həmin qərarı sizə oxusun? Azərbaycan Respublikasının 1978-ci ildə qəbul olunmuş konstitusiyasının dövlət dili haqqında 73-cü maddəsi Milli Məclisin məlum qərarı ilə ləğv olunmur, o, qüvvədədir. Milli Məclisin qəbul etdiyi bu qərar da qüvvədədir. Bax, respublikamızda belə qarışıqlıq yaranıbdır. O vaxt dövlət və hökumət başçıları, bu böyük məsuliyyəti üzərinə götürən adamlar belə qərarı, qanunu qəbul

edərkən sizinlə məsləhətləşiblərmi? Onlar Elmlər Akademiyası, Yazıçılar Birliyi ilə, bizim bu alimlərimizlə, dilçilərimizlə məsləhətləşiblərmi? Əgər məsləhətləşməyiblərsə, əgər İsa Qəmbərov, İbrahim İbrahimov, İsgəndər Həmidov Azərbaycan xalqının dili haqqında da qərar qəbul edirlərsə, onlar çox böyük səhv edirlər.

Mən sizdən xahiş edirəm ki, bugünkü məsələni sərbəst müzakirə edəsiniz. Dözümlü olun, hərə öz fikrini desin. Heç kəs kənarda qalmasın, heç nədən çəkinməsin və heç kəs də narahat olmasın ki, onun dediyinə görə ya mənfi, ya da müsbət münasibət bəslənəcəkdir.

Mən sizi tərk edirəm. İstəmirəm ki, burada iştirakımla məsələnin müzakirəsi zamanı ya o tərəfə, ya bu tərəfə təsir edəm. Mən gəlmişdim ki, sizə sadəcə olaraq məlumat verim və məqsədimizi sizə çatdırım.

Güman edirəm ki, siz bu məsələni ətraflı müzakirə edib öz qərarınızı bizə çatdıracaqsınız. Mən sizin qərarınızı gözləyəcəyəm.

Sağ olun.

## Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI*

Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Müstəqil dövlətimizin rəsmi dili statusunu almış Azərbaycan dilinin geniş tətbiq edilməsi və sərbəst inkişafı üçün münbit zəmin yaranmışdır. Tarixin müxtəlif mərhələlərində dilimizə qarşı edilmiş haqsızlıqların, təzyiq və təhriflərin nəticələrinin aradan qaldırılması üçün hazırda ölkəmizdə çox əlverişli şərait mövcuddur. Dil öz daxili qanunları əsasında inkişaf edirsə də, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir.

Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur.

Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir.

Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə etmək kamilliyinə yetişə bilməsi üçün hər hansı xalqa bir neçə minillik tarix yaşaması lazım gəlir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır.

Azərbaycan dilinin dünya dilləri arasında ən kamil dillərdən biri olduğu həqiqətini bir çox xalqların görkəmli nümayəndələri də dönə-dönə etiraf etmişlər. Onlar öz əsərlərində bu dili XIX əsrdə Avropada geniş yayılmış fransız dili ilə müqayisə edərək, onu Av-

rasiyanın hər tərəfində işlənilən bir dil kimi yüksək qiymətləndirmişlər. Milyonlarla azərbaycanlının hal-hazırda mədəni inkişaf vasitəsi olan bu dil tarixən nəinki Qafqazda yayılmışdır, hətla müəyyən dövrlərdə daha geniş məkanda müxtəlif dilli xalqların da istifadə elədikləri ümumi bir dil olmuşdur.

Neçə-neçə böyük mədəniyyətin yaradıcısı olan xalqımızın tarixi qədər onun dilinin təşəkkülü tarixi də olduqca qədimdir. Azərbaycan dili türk mənşəli ümumxalq canlı danışıq dili zəminində əmələ gəlib şifahi ədəbi dilə çevrilənədək və sonradan bu əsasda Azərbaycan ədəbi dilinin yazılı qolu təşəkkül tapana qədər yüz illər boyunca mürəkkəb bir yol keçmişdir.

Qədim və zəngin tarixə malik türk dil ailəsinin oğuz qrupuna daxil olan Azərbaycan dilinin tarixi miladdan əvvəlki dövrlərə gedib çıxır. Ayrı-ayrı türk boy birləşmələrinin ümumi anlaşma vasitəsi olan bu dil IV-V əsrlərdən etibarən ümumxalq danışıq dili kimi fəaliyyət göstərməyə başlamışdır. Dilimizin özəyini ta qədimlərdən Azərbaycan torpaqlarındakı türk əsilli boyların və soyların dili təşkil etmişdir.

Azərbaycan dili dialekt və şivələrinin geniş Avrasiya məkanına yayılan türk xalqlarının az qala bütün dil xüsusiyyətlərini əks etdirəcək qədər rəngarəng olmasının da başlıca səbəbi ta qədimlərdən bu torpaqlarda etnik baxımdan eyni köklü türk etnoslarının mövcud olmasıdır. Şifahi şəkildə yayılan ilkin ədəbiyyat nümunələri-dastanlar, nağıllar, bayatılar, laylalar və sair Azərbaycan şifahi ədəbi dilinin erkən formalaşması və təkamülü zərurətini yaratmışdır.

Azərbaycan ədəbi dilinin yazılı qolu da əlverişli tarixi şəraitdə ümumxalq dili əsasında təşəkkül tapmışdır. Xalq şifahi şəkildə yaratdıqlarını əbədiləşdirmək üçün sonradan onları yazıya köçürmüşdür. Bu prosesin də yazı dilinin təşəkkülü və sabitləşməsində böyük əhəmiyyəti olmuşdur. Bu baxımdan "Kitabi-Dədə Qorqud" eposu olduqca səciyyəvidir. Abidənin bədii dilinin özünəməxsus səlisliyi bir daha göstərir ki, "Kitabi-Dədə Qorqud"un meydana çıxa bilməsi üçün Azərbaycan dili böyük tarixi-ədəbi hazırlıq mərhələsi keçməli idi.

Qaynağını uzaq keçmişdən alan Azərbaycan dilinin ilk və ən

qədim yazılı nümunələri günümüzədək gəlib çatmasa belə, ölkəmizin ərazisində qədim əlifbaların varlığı, həmçinin yazı dilimizin bədii məna kamilliyi və digər amillər bu dilin dərin tarixi köklərə malik olduğunu sübuta yetirir. Həsənoğlu, Qazi Bürhanəddin, Nəsimi kimi söz sənətkarları Azərbaycan ədəbi dilinin belə bir bünövrəsi üzərində yüksəlmişlər.

XVI əsr Azərbaycan dilinin mövqelərinin möhkəmlənməsi ilə əlamətdardır. Səfəvilər dövlətinin yaranması ilə Azərbaycan dili dövlət dili səviyyəsinə qalxaraq rəsmi və dövlətlərarası yazışmalarda işlədilməyə başlandı. Səfəvilər dövründə Azərbaycan dili sarayda və orduda tam hakim mövqe tutaraq dövlət dili kimi rəsmiləşdi. Anadilli ədəbiyyatın böyük ustadları Şah İsmayıl Xətai və Məhəmməd Füzuli, xalq ədəbiyyatımızın adı bizə bəlli ilk qüdrətli nümayəndəsi Aşıq Qurbani bu dövrdə yetişmişdir. Əgər şifahi şeir dili Qurbaninin əsərlərində əks olunmuşdusa, xalq şeiri dilinin yazılı qolu Şah İsmayıl Xətai və Məhəmməd Əmaninin yaradıcılığı ilə təmsil olunmuşdu. Füzulinin dolğun dili isə elmi və fəlsəfi olduğu qədər də xəlqi idi.

XVII əsrin xalq şeirində cərəyan edən proseslər XVIII əsrdə şifahi xalq ədəbiyyatının bədii dilə təsiri şəklində özünü göstərir. Ədəbi dildə sadəliyə, canlı danışıq elementlərinə meylin gücləndiyi bu dövrdə Azərbaycan dilinin yeni inkişaf mərhələsi məhz Molla Pənah Vaqifin yaradıcılığı ilə başlanır.

XVIIII əsrdə Azərbaycan ədəbi dilində üslub baxımından da zənginləşmə prosesi gedir. Elmi üslubun təşəkkülü üçün şərait yaranır, ayrı-ayrı elm sahələrinə dair bir çox əsərlər yazılır.

XIX əsr ədəbi dilimizin inkişafı xalqımızın həyatında baş verən köklü bir hadisə ilə yaxından bağlıdır. Bu, Azərbaycanın ikiyə parçalanması və nəticədə iki ayrı dövlətin tabeçiliyində bir-birindən fərqli mədəni mühitdə yaşamağa məhkum olması hadisəsidir. Müstəmləkəçilik siyasəti ilə yanaşı, Rusiyanın Şimali Azərbaycanda oynadığı mədəniləşdirici rol başqa elm sahələri kimi dilçiliyin də inkişafına zəmin yaratmışdır. XIX əsrin ortalarından etibarən Azərbaycan dilinə aid bir sıra dərsliklər və dərs vəsaitləri yazılıb nəşr olunmuşdur. Milli maarifçi ziyalılar özləri ana dilini öyrənməyin, onu qoruyub saxlamağın ən əsas yolunun məktəblərdə tədrisin

ana dilində aparılmasında gördüklərindən Azərbaycan dilinə aid dərsliklər və lüğətlər yazmağa başlamışdılar. Azərbaycan dilinə dair ilk dərsliklərin yazılmasında o dövrün görkəmli maarifçiləri Mirzə Kazım bəy, Mirzə Şəfi Vazeh, Seyid Əzim Şirvani, Aleksey Çernyayevski, Mirzə Əbülhəsən bəy Vəzirov, Seyid Ünsizadə, Rəşid bəy Əfəndiyev, Sultan Məcid Qənizadə, Məmmədtağı Sidqi, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Abdulla Şaiq və başqalarının xidmətlərini qeyd etmək lazımdır.

Zaman keçdikcə dövrün tələbinə uyğun olaraq Azərbaycan dilinin istifadə dairəsi də genişlənmiş, onun tətbiqinin və inkişafının elmi əsaslar üzərində aparılması ehtiyacı meydana çıxmışdır. Rusca-azərbaycanca və azərbaycanca-rusca lüğətlər, təcrübi-tədris kitabları nəşr olunmuşdur. Məhz bu dövrdən başlayaraq Azərbaycan ədəbi dilinin normalarının müəyyənləşməsində nəzəri-dilçilik ideyaları təzahür edir. Bu baxımdan Mirzə Fətəli Axundovun ədəbi dil haqqında milli ədəbiyyatın realist məzmununa uyğun gələn tezisləri xüsusilə diqqəti cəlb edir.

Dram, satira, realist nəsr dilinin yarandığı XIX əsrdə elmi üslubun əsası kimi müasir elmi-fəlsəfi dilin ilk nümunələrinə də rast gəlirik. Mətbuat dili də bu əsrin məhsuludur. "Əkinçi"dən başlayaraq yaranmış milli mətbuat bu dilin inkişafında mühüm rol oynamışdır.

XX yüzillik isə Azərbaycan ədəbi dilinin ən sürətli tərəqqisi və çiçəklənməsi dövrüdür. Ədəbi dil məsələsi hələ əsrin əvvəlindən ictimai-siyasi mübarizənin tərkib hissəsi olmuşdur. Həmin dövrdə ana dili kitabları hazırlanmış, dərsliklər buraxılmış, müntəxəbatlar tərtib olunmuşdur. Azərbaycan dilinin səs quruluşuna və qrammatik sisteminə dair kitablar yazılmışdır.

Mətbuat ana dili, ədəbi dil uğrunda mübarizənin önündə gedirdi. Ədəbi dil normasının müəyyənləşməsində bütün görkəmli ziyalılar iştirak edirdilər. Xalq dili xəzinəsinin qapıları “Molla Nəsrəddin” vasitəsilə ədəbi dilin üzünə açılırdı. Bu dövrdə yaranan səhnə sənəti də yeni milli-mədəni şəraitdə ədəbi dilə bədii nitq vasitəsilə öz töhfəsini vermişdir.

Ana dilinin taleyinə heç bir ziyalının laqeyd qalmadığı bu dövrdə Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacı-

bəyov, Ömər Faiq Nemanzadə kimi görkəmli söz ustaları Azərbaycan dilinin saflığı və onun yad ünsürlərdən qorunması uğrunda fədakarcasma mübarizə aparırdılar.

Azərbaycan ədəbi dilinin tarixində bundan sonrakı yeni mərhələ sovet dövrü ilə başlayır. Ərəb əlifbasını daha uyğun bir əlifba ilə əvəz etmək məqsədilə 1921-ci ildə Əlifba Komitəsi yaradıldı və həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtib etmək tapşırıldı. Bir qədər sonra isə yeni əlifbaya keçildi. 1926-cı ildə Bakıda Birinci Beynəlxalq Türkoloji Qurultay çağırıldı. Bu, türk dünyası üçün böyük tarixi əhəmiyyəti olan bir hadisə idi. Qurultayın Bakıda keçirilməsini 20-30-cu illər Azərbaycanının dilçilik sahəsindəki elmi potensialına verilən qiymət kimi səciyyələndirmək olar.

Təəssüflə qeyd etmək lazımdır ki, sonralar qurultayın qərarlarının yerinə yetirilməsi yolunda süni maneələr yaradıldı, türkdilli xalqların mədəni inteqrasiyasına yönəldilmiş bu nəcib iş siyasi məqsədlərə qurban verildi, Azərbaycanın dilçi alimlərinin böyük əksəriyyəti isə totalitar rejimin repressiyalarına məruz qaldı. 1939-cu ildə latın qrafikalı əlifbadan kiril qrafikası əsasında yaradılmış yeni Azərbaycan yazısına qəti və məcburi keçmək haqqında qərar verildi. Beləliklə, 1924-cü ildən 1939-cu ilə qədər keçən on beş il ərzində xalqın yazı mədəniyyətinə bir-birinin ardınca iki ağır zərbə dəydi. Buna baxmayaraq, Azərbaycan dili çətinliklə də olsa, bütün bu illər ərzində yenə öz saflığını qoruya bilmiş, elmi və bədii ədəbiyyatda, publisistikada böyük imkanlara malik olduğunu nümayiş etdirmişdir.

1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının tərkibində müstəqil Dilçilik İnstitutunun yaranması dilçiliyimizin bir elm kimi inkişafına da təkan verdi. Dilçilik elmimiz XX əsrdə sürətli inkişaf dövrü yaşamışdır. Həmin dövrdə ədəbi dilimizi tədqiq edən Bəkir Çobanzadə, Məmmədağa Şirəliyev, Əbdüləzəl Dəmirçizadə, Muxtar Hüseynzadə, Əliheydər Orucov, Səlim Cəfərov, Əlövsət Abdullayev, Fərhad Zeynalov və başqa dilçi alimlərimizin böyük ordusu yaranmışdır. Dərin qürur və fərəh hissi ilə demək olar ki, Azərbaycan dilçilərinin gərgin əməyi sayəsində dilçiliyin bütün sahələrində səmərəli işlər görülmüş, dil tarixi, dialektologiya, müasir dil, lüğət-

çilik sahələrində dəyərli tədqiqatlar aparılmışdır. Keçmiş sovet məkanında, eləcə də beynəlxalq miqyasda Azərbaycan türkoloji araşdırmaların önəmli mərkəzlərindən biri olmuşdur. Beləliklə, XX əsr bütövlükdə Azərbaycan dilinin yazı mədəniyyətinin əsl inkişaf yoluna qədəm qoyduğu bir dövrdür. Məhz bu dövrdə dilimizin funksional imkanları genişlənmiş, üslubları zənginləşmiş, dilin daxili inkişaf meylləri əsasında yazı qaydaları cilalanmışdır.

Müstəqil Azərbaycan Respubükasının 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdir. Hər hansı bir dilin dövlət dili statusu alması, şübhəsiz ki, hər bir dövlətin bir dövlət kimi formalaşması ilə bilavasitə bağlıdır. Azərbaycan xalqının tarixində Azərbaycan dili XVI əsrdə Səfəvilər hakimiyyəti dövründə dövlət dili səviyyəsinə qalxsa da, həmin ənənə milli dövlətçiliyin itirilməsi nəticəsində uzun müddət qırılmışdır. Yalnız 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Azərbaycan dilinin geniş tətbiq olunması yolunda böyük imkanlar açıldı. Bu sahədə bəzi addımlar atılsa da, gənc respublikanın ömrünün qısa olması Azərbaycan dilinin cəmiyyətdə dövlət dili kimi mövqelərinin tam bərqərar edilməsinə imkan vermədi.

Azərbaycanda sovet hakimiyyəti yaradıldıqdan sonra qəbul edilmiş ilk konstitusiyada, ümumiyyətlə dövlət dili haqqında heç bir maddə olmamışdır. SSRİ-nin tərkibinə daxil olduqdan sonrakı dövrdə, daha doğrusu Azərbaycanın 1937-ci ildə qəbul edilmiş konstitusiyasında da belə bir maddə yox idi. Yalnız 1956-cı ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə 1937-ci il konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması barədə maddə əlavə edildi. Lakin respublikanın o dövrdəki rəhbərliyinin mövcud siyasi vəziyyəti lazımınca qiymətləndirə bilməyərək hadisələri sürətləndirmək cəhdləri bu nəcib işi uğursuzluğa düçar etdi.

Nəhayət, Mərkəzin bütün maneələrinə baxmayaraq, respublikanın 1978-ci ildə qəbul edilən konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması barədə maddənin daxil edilməsi müyəssər oldu. Bu, həmin dövr üçün çox cəsarətli və qətiyyətli bir addım idi.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dilinin daha da inkişaf etdirilməsi yolun-

da geniş üfüqlər açıldı. Təəssüflər olsun ki, respublikanın o zamankı rəhbərliyinin səriştəsizliyi nəticəsində xalqın iradəsinə zidd olaraq dövlət dilinin adı qeyri-qanuni şəkildə dəyişdirildi və məsələyə dolaşıqlıq, anlaşılmazlıq gətirildi. Dövlət dili haqqında məsələ 1992-ci ilin dekabrında Azərbaycanın Milli Məclisində müzakirə edildi və dövlət dilinin adının dəyişdirilməsini nəzərdə tutan antikonstitusion qanun qəbul edildi. Təəssüf ki, belə taleyüklü məsələnin həlli üçün o zaman Milli Məclisə cəmi 26 nəfərin lehinə səs verməsi kifayət edirdi. Halbuki dövlət dili haqqında müddəa konstitusiyada nəzərdə tutulduğuna görə ona hər hansı dəyişiklik edilməsi ümumxalq müzakirəsi, ali qanunvericilik orqanı üzvlərinin ən azı üçdə iki səs çoxluğu iiə edilə bilərdi. Lakin o zaman adi qanunvericilik qaydalarına məhəl qoyulmamış, xalqın iradəsi nəzərə alınmadan volyuntarist və məsuliyyətsiz bir qərar qəbul edilmişdir.

Müstəqil Azərbaycan Respublikasının ilk konslitusiyasının layihəsinə baxılarkən dövlət dili, daha doğrusu dövlətin dilinin adı haqqında müddəa geniş müzakirə obyekti oldu. Həmin məsələ yeni konstitusiya layihəsini hazırlayan komissiyada, kütləvi informasiya vasitələrində, müxtəlif elmi forumlarda, yığıncaqlarda, idarə, təşkilat və müəssisələrdə sərbəst, demokratik şəraitdə hərtərəfli müzakirə olundu. Nəhayət, xalq 1995-ci il noyabrın 12-də referendum yolu ilə öz mövqeyini nümayiş etdirərək Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması müddəasına tərəfdar olduğunu bildirdi. Ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu, cəmiyyətdəki mövqeləri tam bərpa edildi. İndi Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə cilalanmış kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır. Hazırda ölkəmizdə cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, Azərbaycan dili orada rahat işlədilə bilməsin.

Bununla yanaşı Azərbaycan Respublikasının onillik inkişaf yolunun təcrübəsi göstərir ki, digər sahələrdə olduğu kimi ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində də hələ görüləsi işlər çoxdur. Ölkəmizin orta və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, milli-mədəni inkişaf tariximizin tələblərinə cavab verən tədrisi işinin təkmilləşdirilməsinə ehtiyac vardır.

Bir çox kütləvi informasiya vasitələrində, rəsmi yazışmalarda, kargüzarlıq və sair sahələrdə Azərbaycan ədəbi dilinin normalarına lazımınca əməl olunmur. Azərbaycan dilinin reklam işində istifadə edilməsində ciddi qüsurlar müşahidə olunur. Kəskin tənqidlərə baxmayaraq, reklam vasitələrinin hazırlanmasında bir çox hallarda xarici dillərə əsassız olaraq üstünlük verilir. Şəhər və qəsəbələrimizin görkəminə xələl gətirən əcnəbi dilli lövhələr gənc nəslin azərbaycançılıq ruhunda tərbiyəsinə mənfi psixoloji təsir göstərir. Ölkə ərazisində yayımlanan televiziya kanallarının əksəriyyəti xarici dillərdə fəaliyyət göstərir. Kino və televiziya ekranlarında Azərbaycan dilinə dublyaj edilmiş xarici filmlərə nadir hallarda rast gəlmək olar, dublyaj edilmiş ekran əsərlərinin tərcümə səviyyəsi isə olduqca aşağıdır. Azərbaycan Respublikasının xarici siyasət sahələrində, xüsusilə ölkəmizdə fəaliyyət göstərən səfirlik, xarici nümayəndəlik və şirkətlərdə Azərbaycan dilinin işlənməsi yarıtmaz vəziyyətdədir. Xaricdə yaşayan soydaşlarımızın Azərbaycan dili dərslikləri, tədris vəsaiti, ana dilində elmi və bədii ədəbiyyat, mətbuat və sairə ilə təmin olunması qənaətbəxş deyildir.

Çox qəribə görünsə də, Azərbaycan dilçiliyinin sovet dövründə əldə edilmiş sürətli inkişaf tempi son illərdə aşağı düşmüşdür və bu sahədə bir durğunluq müşahidə olunur. Azərbaycanda nitq mədəniyyəti məsələlərinin tədqiqinə və nizamlanmasına kəskin ehtiyac duyulur. Azərbaycan dilinin tətbiq dairəsi bəzən süni olaraq məhdudlaşdırılır. Rəsmi və elmi üslubun vəziyyəti heç də ürəkaçan deyildir. Azərbaycan dilinin orfoqrafik, izahlı, terminoloji və sair lüğətlərinin yenidən latın qrafikası ilə hazırlanıb çap olunması, ikidilli tərcümə lüğətlərinin tərtibi və nəşri məsələləri yubadılır. Latın qrafikasının bərpa edilməsi barədə qanun qəbul edilməsindən on ilə yaxın bir müddət keçməsinə baxmayaraq, onun həyata keçirilməsi olduqca ləng gedir. Bütün bu və digər məsələlərin əlaqələndirilməsi və tənzimlənməsinin, onların həlli prosesinə nəzarətin vahid mərkəzləşdirilmiş bir qurum tərəfindən həyata keçirilməsinə ehtiyac vardır.

Azərbaycanın dövlət müstəqilliyinin başlıca rəmzlərindən sayılan Azərbaycan dilinin tətbiq və inkişaf etdirilməsinə dövlət qayğısının artırılması, ana dilimizin öyrənilməsi, elmi tədqiqinin fəal-

laşdırılması, dilimizin cəmiyyətdə tətbiq dairəsinin genişləndirilməsi və bu işə nəzarətin gücləndirilməsi məqsədilə **qərara alıram:**

1.Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət Dil Komissiyası yaradılsın. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, Komissiya haqqında Əsasnaməni bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2.Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun layihəsini bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3.Azərbaycan Respublikasının nazirlik, idarə, təşkilat və müəssisə rəhbərləri öz tabeliklərində olan qurumlarda dövlət dilinin və latın qrafikasının tətbiqi işinin yaxşılaşdırılması ilə bağlı uzunmüddətli kompleks planlar hazırlayıb həyata keçirsinlər və 2001-ci il avqustun 1-ə qədər ilkin nəticələr haqqında Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

4.Azərbaycan Respublikasının Təhsil Nazirliyi orta və ali məktəblərdə Azərbaycan dilinin tədrisi və Azərbaycan dilində təhsilin keyfiyyəti ilə bağlı əsaslı dönüş yaratmaq istiqamətində qəti tədbirlər həyata keçirsin və müvafiq təkliflər proqramını bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

5.Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi Yazıçılar Birliyi ilə birlikdə latın qrafikası ilə yenidən çap olunması təklif olunan elmi və bədii əsərlərin, lüğət və dərsliklərin çap proqramını bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

6.Azərbaycan Milli Elmlər Akademiyası bir ay ərzində Azərbaycan dilçiliyinin müxtəlif sahələri üzrə elmi araşdırmaların cari və perspektiv planlarına yenidən baxıb təsdiq etsin və onların yerinə yetirilməsinin gedişi barədə hər altı aydan bir Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

7.Respublikanın şəhər və rayon icra hakimiyyəti başçılarına tapşırılsın ki:

-yerlərdə istifadə olunan lövhə, reklam tabloları, şüarlar, plakatlar və digər əyani vasitələrin Azərbaycan ədəbi dilinin qaydalarına uyğunlaşdırılması baxımından tədbirlər görsünlər və bu tapşı-

rığın yerinə yetirilməsi haqqında 2001-ci il avqustun 1-nə qədər Azərbaycan Respublikasının Prezidentinə arayış versinlər;

-yerlərdə Azərbaycan dilinin və latın qrafikasının tətbiqi işinə nəzarəti gücləndirsinlər və bu işin gedişi barədə 2001-ci il avqustun 1-ə qədər Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

8Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə, Dövlət Televiziya və Radio Verilişləri Şirkətinə tapşırılsın ki, əcnəbi ölkələrdə istehsal edilmiş və Azərbaycanda nümayiş etdirilmək üçün alınmış kino və televiziya məmulatının Azərbaycan dilinə dublyajı işinin lazımi səviyyədə qurulması və ölkə ərazisində xarici kino və telefilmlərin Azərbaycan dilində nümayiş etdirilməsi məsələləri barədə təkliflərini bir ay ərzində hazırlayıb Azərbaycan Res-publikasının Prezidentinə təqdim etsin.

9.Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

- ölkədə Azərbaycan dilində çap olunan qəzet, jurnal, bülleten, kitab və digər çap məhsullarının istehsalının 2001-ci il avqustun 1-nə qədər bütövlükdə latın qrafikasına keçməsini təmin etsin;

- Azərbaycan Respublikasında dövlət dilinə qarşı gizli, yaxud açıq təbliğat aparmaq, Azərbaycan dilinin işlənməsinə və inkişafına müqavimət göstərmək, onun hüquqlarının məhdudlaşdırılmasına cəhd etmək kimi hallara, latın qrafikasının tətbiq olunmasına maneələr törədilməsinə görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- mərkəzi və yerli icra hakimiyyəti orqanlarında kargüzarlığın latın qrafikası ilə aparılmasını 2001-ci il avqustun 1-ə qədər təmin etsin;

-bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Heydər ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti,***

*Bakı şəhəri, 18 iyun 2001-ci il.*

## Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında

## *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Bütün obyektiv çətinliklərə, bu və ya digər problemlərər baxmayaraq, tarixi baxımdan olduqca qısa bir müddət – on il ərzində xalqımızın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunub möhkəmləndirilməsi, demokratik hüquqi, dünyəvi dövlət quruculuğunun həyata keçirilməsi, yeni iqtisadi münasibətlər sisteminin yaradılması, ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi sahələrində qazanılmış nailiyyətlər Azərbaycanın intensiv inkişaf dövrünə qədəm qoymasına imkan yaratmışdır. Bu gün qətiyyətlə demək olar ki, Azərbaycanda artıq sosial-iqtisadi inkişafı yeni mərhələsinin möhkəm təməli qoyulmuş və ölkəmiz müstəqil inkişaf yolu ilə inamla irəliləyir. Azərbaycan müstəqil dövlət kimi bütün dünyada tanınır və dünya birliyində öz layiqli yerini tutur. Müstəqilliyimiz sarsılmaz, dönməz xarakter almışdır.

Müstəqil inkişaf yolunda atılmış hər bir uğurlu addım, əldə edilmiş hər bir qələbə xalqımızı azad, müstəqil Azərbaycanın xəşbəxt gələcəyinə dərin nikbinlik və böyük inamla baxmağa rühlandırır, yeni güc, qüvvət verir. Azərbaycan Respublikasının hər bir uğuru dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq bütün həmvətənlərimizin də qəlblərində böyük qürur və ixtiralar hissi doğurur. Bütün dünya azərbaycanlıların əcdadlarının məskəni, tarixi vətəni olan Azərbaycan soydaşlarımızın daim diqqət mərkəzindədir.

Ölkəmizin inkişaf və tərəqqi yolundakı nailiyyətlərində dünyanın müxtəlif ölkələrində yaşayan, ürəklərində Azərbaycan amalını daşıyan bütün həmvətənlərimizin də öz payı vardır. Müstəqil Azərbaycan Respublikası dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş soydaşlarımıza doğma atalıq duyğuları bəsləyir, öz övladlıq borclarını layiqincə yerinə yetirə bilmələri üçün onlara lazımi imkanların yaradılmasına səy göstərir.

Azərbaycanlılar minliiklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına bö-

yük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hal-hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

Öz doğma yurdunda yaşayan azərbaycanlılar başqa ölkələrdə məskunlaşmış həmvətənləri ilə həmişə maraqlanmış, onlarla əlaqələr yaratmaq arzusu ilə yaşamışlar. Lakin keçmiş sovet dövlətinin qadağaları bu arzunun həyata keçirilməsinə imkan verməmişdir. Sovet rejiminin zəifləməyə başladığı 80-cı illərin sonlarında Azərbacan xalqı öz həmvətənləri ilə əlaqələr yaratmaq üçün səylərini artırdı. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 16 dekabr 1991-ci il tarixli qərarı ilə həmin səylərin böyük əhəmiyyətləri nəzərə alaraq

dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Sonra bu bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikasının Ali Soveti də qərar qəbul etdi. Belə-liklə, 1991-ci ildən etibarən Azərbaycan hamımız üçün əziz bir bayram olan 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü təntənə ilə qeyd olunur. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.

Müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasət sahələrində fəaliyyəti, əldə etdiyi uğurlar bütün dünya azərbaycanlılarının milli şüurunu, özünüdərkini, ana torpağı Azərbaycana bağlılığını günü-gündən möhkəmləndirir. Azərbaycan icmallarının ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən cəmiyyətləri, klub və dərnəkləri soydaşlarımızın və həmvətənlərimizin təşkilatlanması, səylərinin birləşdirilməsi, onlarfn fəaliyyətinə məqsədyönlü xarakter verilməsi yolunda faydalı iş aparır, məskunlaşdıqları ölkələrdə Azərbaycanı daha tanıtmaq üçün müxtəlif tədbirlər görür. Bu qurumlar bir-biri ilə, habelə Azərbaycan Respublikasının hökumət və qeyri-hökumət təşkilatları ilə əlaqədar yaradır, əməkdaşlıq etməyə səy göstərirlər. Azərbaycan Respublikası isə bütün dünya azərbaycanlıları-

nın həmrəyliyinə nail olmaq üçün öz üzərinə düşən tarixi missiyanı yerinə yetirməyə çalışır. Həmin yolda bu vaxta kimi atılmış addımların nəticələrinin təhlili göstərir ki, xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, müstəqil Azərbaycan Respublikasının həyatının müxtəlif sahələrində meydan çıxan problemlərinin həllində olan fəal iştirakının təmin edilməsi, ölkəmizin beynəlxalq nüfuzunun daha da artmasına xidmət edən mütəşəkkil, samballı bir qüvvəyə çevrilməsi yolunda hələ çox iş görülməlidir. Belə bir işin məqsədyönlü və uğurlu yerinə yetirilməsi isə ilk növbədə həmin sahədə toplanmış təcrübənin hərtərəfli müzakirə və təhlil edilib müvafiq strateji proqramın hazırlanmasını tələb edir.

Xaricdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsi zərurətini nəzərə alaraq qərara alıram:

1. 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlıların I Qurultay keçirilsin.

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi məqsədilə işçi qrupu yaratsın, iş planı hazırlayıb təsdiq etsin və onun yerinə yetirilməsinə nəzarət etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti,***

*Bakı şəhəri, 23 may 2001-ci il.*

*Qeyd: Dünya Azərbaycanlılarının I Qurultayı "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2001-ci il tarixli, 724 nömrəli Sərəncamına əsasən 2001-ci il noyabr ayının 9-10-da Bakı şəhərində keçirilib. Qurultayda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvləri müəyyənləşdirilmiş və Heydər Əliyev Şuranın sədri seçilib.*

## Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında

## *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli 506 nömrəli fərmanının yerinə yetirilməsi məqsədi ilə qərara alıram: Azərbaycan Respublikasının Dövlət dil komissiyası aşağıdakı tərkibdə təsdiq edilsin:

Komissiyanın sədri:

**Heydər Əliyev – Azərbaycan Respublikasının Prezidenti.**

Komissiya sədrinin müavinləri:

Ramiz Mehdiyev – Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri, Mahmud Kərimov – Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Anar Rzayev – Azərbaycan Yazıçılar Birliyinin sədri, Milli Məclisin deputatı.

Komissiyanın üzvləri: Vasif Talıbov – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Milli Məclisin deputatı, Elçin Əfəndiyev – Azərbaycan Respublikası baş nazirinin müavini, Hacıbala Abutalıbov – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, Misir Mərdanov – Azərbaycan Respublikasının Təhsil naziri, Polad Bülbüloğlu – Azərbaycan Respublikasının Mədəniyyət naziri, Nizami Xudiyev – Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri, Milli Məclisin deputatı, Yusif Hümbətov – Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri, Əli Həsənov – Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri, Fatma Abdullazadə – Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri, Nizami Cəfərov – Azərbaycanda Atatürk Mərkəzinin müdiri, Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Bəkir Nəbiyev – Azərbaycan Milli Elmlər Akademiyasının ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi, Bəxtiyar Vahab-

zadə – xalq şairi, Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Mirvarid Dilbazi – xalq şairi, Nəbi Xəzri – xalq şairi, Qabil İmamverdiyev – xalq şairi, Cabir Novruz – xalq şairi, Fikrət Qoca – xalq şairi, Əkrəm Əylisli – xalq yazıçısı, Vaqif Səmədoğlu – xalq şairi, Milli Məclisin deputatı, Sabir Rüstəmxanlı – şair-publisist, Milli Məclisin deputatı, İsmayıl Vəliyev – "Azərbaycan ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru, Kamal Abdullayev – Bakı Slavyan Universitetinin rektoru, Mübariz Yusifov – Gəncə Dövlət Universitetinin rektoru, Ağamusa Axundov – Nəsimi adına Dilçilik İnstitutunun direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Vasim Məmmədəliyev – Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin dekanı, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Məsud Mahmudov – Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu direktorunun müavini, Vilayət Əliyev – Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, Tofiq Hacıyev – Bakı Dövlət Universitetinin kafedra müdiri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Yusif Seyidov – Bakı Dövlət Universitetinin kafedra müdiri, Adil Babayev – Azərbaycan Dillər Universitetinin kafedra müdiri, Samət Əlizadə – Bakı Dövlət Universitetinin professoru, Əzizə Cəfərzadə – Bakı Dövlət Universitetinin professoru, Elbrus Əzizov – Bakı Dövlət Universitetinin professoru, Rəhilə Məhərrəmova – Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi, Aydın Ələkbərov – Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun böyük elmi işçisi, Müseyib Məmmədov – Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri, İsmayıl Məmmədov – Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri.

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti,**

*Bakı şəhəri, 4 iyul 2001-ci il.*

## Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında

## *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI*

Qədim və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqı dünya sivilizasiyasına bir çox dəyərli töhfələr vermişdir. Onların ilk nümunələri bəşər tarixinin böyük kəşfi olan yazı vasitəsi ilə Qobustan və Gəmiqaya təsvirləri, həmçinin epiqrafik abidələr şəklində daşların yaddaşına həkk olunaraq günümüzədək yaşamışdır. Tarixi faktlar sübut edir ki, bu qiymətli əsərləri yaradarkən Azərbaycan xalqı müxtəlif əlifbalardan istifadə etmişdir.

İslamın qəbuluna qədər olan dövrün yazıları ilə yaradılan bu qiymətli xəzinənin böyük bir qismi məhv edilmiş, zaman keçdikdə həmin abidələrin qələmə alındığı yazı şəkilləri unudulmuş və ya ərəb qrafikasına keçirilmişdir. İslamın yayıldığı dövrlərdən isə xalqımız ərəb əlifbasından istifadə yolu ilə min ildən artıq bir zaman ərzində tariximizin ən yeni mərhələsinədək zəngin mədəni irs yaratmışdır. Ərəb əlifbası yüzillər boyu geniş məkanda Müsəlman Şərqi xalqlarının ümumi yazı sistemi kimi formalaşmışdır. Böyük Azərbaycan ədibləri, alimləri, mütəfəkkirləri, İslam mədəniyyətinin təşəkkül tapıb inkişaf etməsində mühüm rol oynayaraq beşər sivilizasiyasını zənginləşdirmişlər. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqəsinə xidmət edən ərəb qrafikasının dilimizin səs sistemini bütün dolğunluğu ilə əks etdirə bilməməsi, onun quruluşu və xarakteri haqqında tam aydın təsəvvür yaratmaması XIX əsrin ikinci yarısından etibarən Mirzə Fətəli Axundov başda olmaqla dövrün mütərəqqi maarifçi ziyalılarını əlifba islahatı problemi üzərində düşünməyə vadar etmişdir. Bu, Azərbaycan xalqının həmin dövrdə yaşadığı tarixi şəraitdən doğan zərurət idi. Öz qaynağını Avropadan alan yeni dövrün maarifçilik hərəkatı Azərbaycan mədəniyyətinin inkişaf istiqamətini müəyyənləşdirmiş və bu da yeni mədəniyyət tipinə uyğun müasir əlifbaya olan ehtiyacı aktuallaşdırmışdı. XX əsrin əvvəllərində cərəyan edən ictimai-siyasi və mədəni proseslərin gedişatı mövcud əlifbanı daha münasibi ilə əvəz etmək ideyasını meydana atmışdı.

1922-ci ildə Azərbaycan hökumətinin qərarı əsasında yeni

Əlifba Komitəsinin yaradılması, həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtibinin tapşırılması yeni qrafikaya keçilməsi yolunda atılmış ilk ciddi addım oldu. 1923-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi surətləndirildi. 1926-cı ildə keçirilmiş Birinci Ümumittifaq Türkoloji qurultayın tövsiyələrinə cavab olaraq 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi.

Qısa bir müddət ərzində latın qrafikasının işlədilməsi Azərbaycanda geniş kütlələr arasında savadsızlığın ləğvi üçün olduqca əlverişli zəmin yaratdı. Bütün bu nailiyyətlərə baxmayaraq, həmin əlifba 1940-cı il yanvarın 1-dən kiril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifba ilə əvəz olundu. Yarım əsrdən çox bir müddət ərzində kiril qrafikası ilə Azərbaycan elmi və mədəniyyətinin qiymətli nümunələri yaradıldı. Lakin kiril qrafikasının dilimizin səs quruluşuna uyğun gəlməməsi Azərbaycan ziyalılarını bu əlifbanın təkmilləşdirilməsi yolunda mütəmadi iş aparmağa sövq etdi. Təcrübə göstərdi ki, kiril qrafikasının dilimizin səs quruluşuna uyğunlaşdırılması yolunda nə qədər cəhd göstərilsə də, optimal variantın əldə edilməsi mümkün deyildir, bu da onun və vaxtsa dəyişdiriləcəyi ehtimalını gücləndirirdi.

Müstəqilliymizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zərüri etdi. Bu isə müvafiq qanunun qəbul olunması ilə nəticələndi.

On ilə yaxın bir müddətdə latın qrafikalı Azərbaycan əlifbasını keçidin ölkəmizdə 2001-ci ilin avqust ayında bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq **qərara alıram:**

1. Hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilsin.

2. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti,***

*Bakı şəhəri, 9 avqust 2001-ci il.*

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN 10-cu İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQİNDƏN

*Respublika sarayı, 17 oktyabr 2001-ci il.*

On il Azərbaycanın çoxəsrlik həyatında tarixi nöqteyi-nəzərdən az bir zamandır. Amma bu on il içərisində Azərbaycan xalqı böyük məsafə qət edibdir. On il müstəqil yaşamaq, yaratmaq, irəliyə getmək – bu on ilin mənası və xalqımız üçün böyük əhəmiyyəti budur. On il ərzində Azərbaycan xalqı bəyan etdiyi demokratik, hüquqi, dünyəvi dövlət qurubdur, onun təsisatlarını yaradıbdır. Bu dövlətin yaşaması üçün, inkişaf etməsi üçün çoxsaylı qanunlar qəbul edilibdir. Bazar iqtisadiyyatı yolu ilə gedərək, bütün sahələrdə islahatlar aparıb və bu islahatların nəticəsinə nail olubdur. On il müddətində Azərbaycan dünya miqyasında özünə layiq yerini tutubdur, bütün beynəlxalq təşkilatlarda təmsil olunur. Dünyanın bütün ölkələri ilə diplomatik əlaqələr yaradıb, bir çox ölkələrlə qarşılıqlı faydalı, çox uğurlu əməkdaşlıq edir. Bu on il bizim xalqımızın çoxəsrlik həyatında ən böyük tarixi hadisədir, ən qiymətli nemətdir. Yadımdadır, 1978-ci ildə biz Azərbaycanın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə, Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük. Hələ 1978-ci ildə qəbul olunmuş Konstitusiyada, bir çox başqa respublikalardan fərqli olaraq, Azərbaycan dili haqqında maddə yazdıq və Azərbaycan dövlət dilinin Azərbaycan dili olduğunu orada göstərdik. Amma bu da bizdə Azərbaycan dilinin hakim olmasını təmin edə bilmədi. Çünki biz böyük bir dövlətin içində idik. Bütün işlər o dildə keçirilirdi. Amma indi biz Azərbaycan dilini, bizim ana dilimizi, millətimizin dilini hakim dil etmişik və bütün dünyaya nümayiş etdiririk ki, dünyada Azərbaycan xalqı var, Azərbaycan mədəniyyəti var və bu xalqın doğma ana dili, dövlət dili – Azərbaycan dili vardır.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YENİ DƏRS İLİNİN BAŞLANMASI VƏ BİLİK GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ TOPLANTIDA NİTQİNDƏN

*Bakı, Nərimanov rayonu, 82 saylı pilot orta məktəbi*
*1 sentyabr 2000-ci il.*

Məktəbimiz həm dəqiq elmlərin mənimsənilməsində daha da inkişaf etməlidir, eyni zamanda, ictimai elmlər – Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı, Azərbaycan dili – bunların hamısı təhsilin çox vacib sahələridir. Azərbaycan dili! Bu gün iftixar hissi ilə deyə bilərik ki, Sovet hakimiyyəti illərində biz Azərbaycan dilini qoruduq, saxladıq və inkişaf etdirdik. Azərbaycan dili indi çox yüksək səviyyədə, yəni onun qrammatik quruluşu, başqa sahələri yüksək olan bir dildir. Sizə deyə bilərəm ki, başqa ökələrdə müxtəlif dillərə mənsub olan insanlar Azərbaycan dilini sadəcə eşidərək, onun mənasını o qədər bilməyərək, Azərbaycan dilinin nə qədər şeirə bənzədiyini, xoş ahəngli olduğunu dəfələrlə qeyd ediblər. Biz dilimizlə fəxr etməliyik. Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYINDA NİTQİ

*09 noyabr, 2001-ci il.*

Əziz həmvətənlər! Hörmətli nümayəndələr, qonaqlar!

Hörmətli xanımlar və cənablar! Sizi Dünya azərbaycanlılarının I qurultayının açılışı münasibətilə səmimi qəlbdən təbrik edirəm, qurultayın işinə uğurlar diləyirəm. Dünya azərbaycanlılarının I qurultayı müstəqil Azərbaycanın həyatında, bütün dünya azərbaycanlılarının həyatında tarixi hadisədir. Bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycan icmalarının nümayəndələri birinci dəfə olaraq Azərbaycana, onun paytaxtı Bakı şəhərinə toplaşmışlar və özlərinin I qurultayını keçirirlər. Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında qəbul etdiyimiz qərara səs verdiklərinə görə və bu qurultayda iştirak etmək üçün Azərbaycana, Bakıya gəldiklərinə görə bütün nümayəndələrə, qonaqlara, onların təmsil etdikləri müxtəlif ölkələrdə olan Azərbaycan icmalarına təşəkkür edirəm.

Biz, Azərbaycanda yaşayan azərbaycanlılar öz həmvətənlərimiz haqqında daim düşünmüşük. Uzun illər Sovetlər İttifaqı kimi böyük bir super dövlətin tərkibində ikən xaricdəki soydaşlarımızla, həmvətənlərimizlə əlaqə saxlamaq mümkün olmadığı halda, biz daim düşünmüşük ki,müxtəlif ölkələrdə azərbaycanlılar necə yaşayırlar, nə edirlər və məhdud imkanlardan istifadə edərək onlarla əlaqələr qurmağa çalışmışıq. 1991-ci ildə Sovetlər İttifaqının dağılması və Sovetlər İttifaqının tərkibində olan 15 müttəfiq respublikanın öz müstəqilliyini əldə etməsi, Azərbaycan xalqının milli azadlıq arzularının yerinə yetirməsi, Azərbaycanın öz istiqlaliyyətini bəyan etməsi və 1920-ci ildə itirilmiş müstəqilliyi bərpa etməsi bizə imkan verdi ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılarla öz əlaqələrimizi genişləndirək, onlarla həmrəyliyimizi bildirək və dünya azərbaycanlılarının daha da həmrəy olması üçün öz xidmətlərimizi göstərək. Biz hələ müstəqilliyimizin ilk aylarında, 1991-ci il dekabr

ayının 31-də Dünya azərbaycanlılarının həmrəylik günü haqqında qərar qəbul etdik. Biz o vaxtdan bu günü böyük bayram kimi qeyd edirik və o vaxtdan da dünyada yaşayan azərbaycanlılarla əlaqələrimiz tədricən inkişaf etməyə başladı. Bunlar hamısı Azərbaycanın müstəqilliyinin və Azərbaycan xalqının milli azadlığının nəticəsidir. Azərbaycan xalqı böyük, qədim tarixə malikdir. Çoxəsrlik tariximizdə xalqımız bir çox sınaqlardan çıxmış, yaşamış, öz mənliyini itirməmiş, öz milliliyini itirməmiş, dünya sivilizasiyasına dəyərli töhfələr vermiş, dünya sivilizasiyasını zənginləşdirmişdir. Ancaq tarixin müxtəlif mərhələlərində azərbaycanlılar bəzi məhrumiyyətlərə düçar olmuşlar. Ona görə də bütün dünyaya səpələnmiş azərbaycanlıların birliyi, həmrəyliyi indi həm bizim üçün, müstəqil Azərbaycan dövləti üçün, həm də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan öz dövlət müstəqilliyini elan edəndən sonra çox böyük, şanlı-şöhrətli, eyni zamanda məşəqqətli yol keçmişdir. Biz bu günlər Azərbaycanın dövlət müstəqilliyinin elan olunmasının 10-cu ildönümünü böyük təntənə ilə bayram etdik. Biz on il ərzində keçdiymiz yolu bir də təhlil etdik, əldə etdiyimiz nailiyyətləri bəyan etdik, eyni zamanda qarşımızda duran vəzifələri müəyyən etdik. Hələ həll olunmamış bir çox problemləri təhlil edib, onların həll olunması üçün lazımi tədbirlər görməyə başladıq.

Azərbaycanın müstəqilliyi və on il müstəqil dövlət kimi yaşaması bizim çoxəsrlik tariximizdə ən əhəmiyyətli, ən vacib, ən dəyərli bir hadisədir. Bizim üçün, müstəqil Azərbaycan üçün bu 10 il asan yol olmayıbdır. Biz Azərbaycanda yeni həyat qurmağa başlamışıq. Azərbaycanın demokratiya yolu ilə getməsini bəyan etmişik. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulması işinə başlamışıq. Azərbaycanın iqtisadiyyatını dünya iqtisadiyyatı, inkişaf etmiş ölkələrin iqtisadiyyatı ilə inteqrasiya etmək, bazar iqtisadiyyatı sisteminə keçmək prosesinə başlamışıq. Bunlar hamısı Azərbaycanın ağır və çətin bir şəraitdə yaşadığı zaman baş vermişdir. Məlumdur ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə edərkən, yəni bəyan edərkən Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdı və dörd il idi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi davam edirdi. Azərbaycanın ayrılmaz hissəsi

olan Dağlıq Qarabağ bu illərdə demək olar ki, Azərbaycanın nəzarətindən çıxmış, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş və onun ətrafında olan yaşayış məntəqələrinə də təcavüzlər başlanmışdı. Məhz belə bir tarixi şəraitdə Azərbaycan öz dövlət müstəqilliyini elan etmişdir. Təbiidir ki, belə bir şəraitdə müstəqil dövlət qurmaq çox ağır və çətin bir iş idi. Eyni zamanda Azərbaycanın həm müstəqilliyi elan etməsi ərəfəsində, həm də özünü müstəqil dövlət elan etdikdən sonra Azərbaycanın həyatında çox mürəkkəb proseslər baş vermişdir. Ermənistan silahlı qüvvələri torpaq iddiası ilə çıxış edərək, Azərbaycanın Dağlıq Qarabağ vilayətini əlinə keçirmək məqsədi ilə hərbi əməliyyatlara başladığı və ermənilərin hamısı bu amal ətrafında bir yumruq kimi birləşdiyi bir halda, təəssüf ki, bu, Azərbaycanda olmamışdır.

Çünki o illər Azərbaycanda bütün xalqı birləşdirib, səfərbər edib torpaqlarımızı qorumaq və Eermənistan silahlı qüvvələrinə lazımi cavab vermək əvəzinə, hakimiyyət mübarizəsi getmiş, daxili çəkişmələr mövcud olmuş, ayrı-ayrı siyasi qüvvələrə məxsus silahlı dəstələr meydan sulamışlar. Bu da təbii ki, Azərbaycanın, xalqın birliyini zəiflətmiş və nəhayət, 1993-cü ildə Azərbaycan vətəndaş müharibəsi ilə üzləşmiş, Azərbaycanın varlığı təhlükə altına düşmüş və ölkəmizin parçalanması artıq başlanmışdı. Buna görə də müstəqillik elan olunandan sonra Azərbaycanda dövlət quruculuğu işi çox zəif getmişdir. Bunlar hamısı Azərbaycanda ictimai-siyasi sabitliyi pozmuş, xalqın rifah halını ağırlaşdırmışdır, Bizim üçün bunların ən zərərli nəticəsi o idi ki, bu fürsətdən istifadə edən Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ ətrafında olan inzibati rayonlarının bir neçəsini işğal etmiş, o torpaqlarda yaşayan azərbaycanlıları zorla öz yerindən-yurdundan çıxarmışdır. Beləliklə, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altına düşmüş, həm Ermənistan ərazisindən çıxarılmış, həm də işğal olunmuş torpaqlardan çıxarılmış bir milyondan artıq azərbaycanlı indiyədək ağır vəziyyətdə, çadırlarda yaşayır. Azərbaycan belə bir şəraitdə müstəqil dövlət kimi ilk illərini yaşamışdır. Ona görə də bizim qarşımızda duran vəzifə ondan ibarət idi ki, mənfi proseslərin qarşısı alınsın, Azərbaycanın torpaqlarının müdafiə olunması üçün bütün güclər, səylər səfərbər olunsun

və Azərbaycan müstəqil dövlət kimi yaşasın, inkişaf etsin. Azərbaycanda ondan sonrakı dövr ictimai-siyasi sabitliyin yaranması dövrü olubdur. Biz ondan sonra da – 1994-cü ilin oktyabrında, 1995-ci ilin martında hakimiyyəti silahla devirmək cəhdləri ilə rastlaşdıq. Bunların qarşısı alındı, ancaq bunlar da Azərbaycana zərbələr vurdu. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi ilə ciddi məşğul olaraq, 1994-cü ilin mayında atəşkəs haqqında razılığa gəldik. İndi 7 ildən artıqdır ki, müharibə getmir, qan tökülmür. Ancaq eyni zamanda, Azərbaycanın torpaqlarının bir qismi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır və o torpaqlardan çıxarılmış qaçqınlar, köçkünlər ağır vəziyyətdə yaşayırlar.

Azərbaycanın müstəqilliyinin on ilinin sonrakı mərhələsi ölkəmizin daxilində ictimai-siyasi vəziyyəti sabitləşdirməkdən, Azərbaycanın dünyada mövqelərini möhkəmləndirməkdən, Azərbaycanı bir müstəqil dövlət kimi yaşatmaq və inkişaf etdirməkdən ibarət olubdur. Biz çox çətin, ağır yollardan keçərək ötən on il müddətində buna nail olmuşuq. Indi dünyada on yaşı olan müstəqil Azərbaycan dövləti var. Onun milli dövlət bayrağı var, milli himni var, milli gerbi var. Azərbaycan dünya birliyində özünə layiq yer tutubdur. Azərbaycanın dövlət bayrağı bütün beynəlxalq təşkilatların iqamətgahları qarşısında dalğalanır, müstəqil Azərbaycanın başı üstündə dalğalanır və daim dalğalanacaqdır, bu yüksəkliklərə qalxmış bayraq bundan sonra heç vaxt enməyəcəkdir. Güman edirəm ki, bizim qonaqlarımız, xarici ölkələrdə yaşayan azərbaycanlılar Azərbaycanın həyatı ilə maraqlanırlar, Azərbaycanda gedən prosesləri izləyirlər və bizim əldə etdiyimiz nailiyyətlərdən xəbərdardılar. Ancaq eyni zamanda, bu gün birinci qurultayda mən bir daha demək istəyirəm ki, Azərbaycan müstəqil dövlət kimi, özünün dövlət quruculuğu prosesini həyata keçirir. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulubdur. Azərbaycan tarixdə ilk dəfə özünün milli Konstitusiyasını qəbul edibdir, azad seçkilər vasitəsilə Milli Məclisini – parlamentini seçibdir, ölkənin Prezidentini seçibdir. Azərbaycanda bütün sahələrdə islahatlar həyata keçirilir. Məlumdur ki, Azərbaycan 70 il SSRİ kimi böyük dövlətin tərkibində olmuş və başqa ölkələrdəkindən tamamilə fərqli olan siyasi-iqtisadi

sistem şəraitində yaşamışdır. Bu gün qeyd etmək lazımdır ki, o illər biz müstəqilliyimizdən məhrum olsaq da, Azərbaycan xalqımızın, millətimizin daxili potensialını hərəkətə gətirərək inkişaf etmiş, böyük nailiyyətlər əldə etmiş və müstəqilliyi elan edərkən böyük iqtisadi və intellektual potensiala malik olmuşdur. Azərbaycanın müstəqil dövləti onun böyük iqtisadi və intellektual potensialı üzərində qurulubdur. Ancaq indi biz tamamilə başqa iqtisadi-siyasi sistem yolu ilə gedirik. Keçmişdəkiləri dəyişdirmək, onlardan imtina etmək, yeni sistemdə iş qurmaq, onu həyata keçirmək – bu, ağır, çətin bir prosesdir. Bu, bizim keçid dövrümüzdür və keçid dövrümüzün böyük problemləri var.

Birincisi, insanların şüurunda çox böyük dəyişikliklər baş verməlidir. İkincisi, yeni iqtisadi siyasət uğurla getməlidir. Bunun üçün isə gərək, keçmiş iqtisadi şəraitdən yeni iqtisadi şəraitə keçid uğurlu olsun. Biz bütün bunlar üçün islahatlar həyata keçiririk. Siyasi, iqtisadi, sosial, humanitar sahələrdə bir çox islahatlar həyata keçirmişik və onların müsbət nəticələrini əldə etmişik. Bütün çətinliklərə baxmayaraq, biz yeni iqtisadi siyasətin həyata keçirilməsində uğurlar qazanmışıq. Özəlləşdirmə proqramını həyata keçirmişik və keçiririk. Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən torpaq islahatı apamışıq. Məlumdur ki, Azərbaycan əhalisinin təxminən yarısı kənd yerində yaşayır və kənd təsərrüfatı ilə məşğuldur. 70 il hökm sürən kolxoz-sovxoz sistemini dağıtmaq, torpağı sahibinə – kəndlilərə vermək, onlar üçün torpaqdan səmərəli istifadə etmək şəraiti yaratmaq bunlar hamısı çox ağır və çətin proseslərdir. Ancaq biz buna nail olmuşuq. Azərbaycanda bazar iqtisadiyyatı inkişaf edir. Beləliklə, Azərbaycan 1990-cı ildən başlamış iqtisadi tənəzzülün qarşısını 1995-1996-cı illərdə ala bilmiş, ondan sonrakı dövr isə Azərbaycanın həyatında inkişaf dövrü olmuşdur. Biz inkişaf edirik. Azərbaycanda iqtisadiyyatın bütün sahələri uğurla inkişaf edir. Bu, təkcə bizim fikrimiz deyil, beynəlxalq iqtisadi-maliyyə mərkəzlərinin, yəni bu işlərə nəzarət edən mərkəzlərin də fikridir. Ancaq hələ bizim qarşımızda çox böyük problemlər və böyük çətinliklər var. Hələ ki, biz Azərbaycanda əhalinin rifah halını istənilən səviyyəyə qaldıra bilməmişik. Sovetlər İttifaqı vaxtı Azərbaycanda yaradılmış böyük sənaye müəssisələrinin bir qismi indi işlə-

mir, bir qismi isə çox az gücü ilə işləyir. Bu, böyük işsizlər dəstəsi yaradıbdır. Bu da Azərbaycanın əsas problemlərindən biridir. Qeyd etdiyim kimi, bir milyondan artıq qaçqının, köçkünün bir tərəfdən, yaşamaq üçün lazımi şəraiti yoxdur, ikinci tərəfdən, onlar işlə təmin olunmayıblar və dövlətin yardımı, humanitar təşkilatların yardımı ilə yaşayırlar. Bu da bizim üçün böyük bir problemdir. Ancaq biz bu problemləri ardıcıl surətdə həll edirik. Biz əldə etdiyimiz nailiyyətlər haqqında danışarkən, eyni zamanda, heç də həyatımızda olan çətinlikləri, problemləri, çatışmazlıqları, nöqsanları gizlətmək məqsədi daşımırıq. Biz onları Azərbaycanın vətəndaşlarına da, bütün dünyaya da açıq-aydın etiraf edirik. Məhz bu yol ilə biz Azərbaycanın qarşısında duran problemləri həll edə və ölkənin inkişafını daim təmin edə biləcəyik. Bu sahədə görülən işlər sırasında Azəbaycanın dövlət neft strategiyasının xüsusi əhəmiyyəti var. Biz bu strategiyanı 1993-1994-cü illərdə hazırlayıb həyata keçirməyə başlamışıq, Azərbaycanın zəngin sərvətləri olan neft və qaz yataqlarının dünyanın böyük, müasir texnikaya, texnologiyaya malik olan neft şirkətləri ilə müştərək işlənilməsini təmin etmişik. Indi bu işlər gedir. Azərbaycanın Xəzər dənizindəki yataqların, ümumiyyətlə, Azərbaycan ərazisində olan neft-qaz yataqlarının müştərək işlənilməsi üçün 21 müqavilə imzalanıbdır, xarici ölkələrdən 32 böyük neft şirkəti bu müqavilələrin iştirakçısıdır. Artıq biz gördüyümüz işlərin, neft strategiyasının real nəticələrini əldə etmişik. Artıq biz nefti yeni yerlərdən hasil edirik, xarici şirkətlərlə bərabər dünya bazarlarına çıxarırıq. Bunun üçün çox əhəmiyyətli olan neft və qaz kəmərləri yaradırıq. İki neft kəməri – biri şimal istiqamətində Bakı-Novorossiysk, biri də qərb istiqamətində Bakı-Supsa yaranıbdır və Azərbaycan neftini ixrac edir. Son illər çox böyük layihə üzərində işləmişik və Azərbaycanın gələcəkdə hasil olunacaq böyük həcmli neftinin dünya bazarlarına ixracı üçün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasına artıq başlamışıq. Azərbaycanın zəngin "Şahdəniz" yatağından hasil olacaq qazın da Türkiyəyə ixracı üçün lazımi müqavilələr imzalamışıq və qaz kəmərinin inşasına başlayırıq. Bizim neft strategiyamız təkcə bilavasitə neft hasilatı ilə məşğul olan şirkətlərin yox, eyni zamanda bir çox başqa şirkətlərin Azərbaycanda çalışması üçün və beləliklə, ölkəyə külli miqdarda xarici investisi-

yanın daxil olması üçün şərait yaradıbdır. Bu, Azərbaycanın yeni mənzərəsidir. Bu, ancaq və ancaq Azərbaycanın müstəqilliyi şəraitində ola bilərdi.

Bilirsiniz ki, Azərbaycan nefti dünyada məhşurdur. Hələ 150 il bundan öncə dünyada ilk dəfə Azərbaycanda sənaye üsulu ilə neft hasil olubdur. Sonrakı illərdə neft hasilatı artıb, ancaq bu, Azərbaycan xalqına məxsus olmayıbdır. Bizim hasil etdiyimiz zəngin neft və qaz 70 il Sovetlər İttifaqının ümumi iqtisadiyyatına qatılıbdır. Biz bundan lazım olan bəhrələri götürə bilməmişik. Məhz dövlət müstəqilliyi, milli azadlığımız, taleyimizi özümüzün həll etmək imkanları bizə bu şəraiti yaradıbdır və biz də bu şəraitdən səmərəli istifadə edirik. Azərbaycan çox mühüm bir coğrafi-strateji mövqeyə malikdir. Bunun həm iqtisadi əhəmiyyəti var, həm də siyasi əhəmiyyəti var. Bu baxımdan, biz Avropa Birliyi ilə, başqa beynəlxalq təşkilatlarla müştərək işlər görürük. Bu sırada Avropa Birliyinin TRASEKA proqramının həyata keçirilməsi, tarixi Böyük ipək yolunun bərpa olunması sahəsində Azərbaycan çox işlər görmüşdür və biz bunun müsbət nəticələrini əldə edirik. Ancaq gələcəkdə bu proqram çox böyük müsbət nəticələr verəcəkdir.

Böyük ipək yolunun bərpası, TRASEKA proqramının həyata keçirilməsi ilə əlaqədar 1998-ci ildə Azərbaycanda Avropa Birliyi ilə ilk beynəlxalq konfrans keçirildi. Şərqdə Yaponiyadan Qərbdə İspaniyaya qədər olan 32 dövlətin, 14 beynəlxalq təşkilatın nümayəndələri bu konfransda iştirak etdilər və biz İpək yolunun bərpası, TRASEKA proqramının həyata keçirilməsi üçün ilk sazişin imzalanmasınının şahidi olduq. Bu sahədə görülən işlər, yenə deyirəm, gələcəkdə böyük nəticəsini verəcəkdir.

Bunlar Azərbaycanın həyata keçirdiyi qlobal layihələrdir. Ancaq Azərbaycanın gündəlik həyatında çoxsaylı işlər görülür və güman edirəm ki, siz burada olduğunuz zaman təqdim edilən materiallardan və başqa vasitələrdən bunları özünüz görəcəksiniz və bunlarla tanış olacaqsınız. Dünya azərbaycanlılarının 1 qurultayının keçirilməsi həm Azərbaycan üçün, həm də bütün dünya azərbaycanlıları üçün çox böyük əhəmiyyət kəsb edir. Azərbaycanlılar dünyada gedən miqrasiya prosesi nəticəsində bir çox ölkələrə səpələnmişlər. Bu, təbii bir prosesdir, onun qarşısını almaq olmaz, al-

maq da lazım deyil və ümumən müsbət xarakter daşıyır. Doğrudur, indi müstəqil dövlət olandan sonra bəzi müxalifət dairələri bizi tənqid edirlər ki, Azərbaycan əhalisinin xeylisi, biri deyir – 1 milyon, biri deyir – 2 milyon – kənarda yaşayır. Ancaq mən bunu heç də mənfi bir hadisə kimi qəbul edə bilmərəm. Çünki hər bir millət, hər bir xalq yalnız öz doğma torpağı çərçivəsində, milli məhdudiyyət şəraitində yaşaya bilməz. Bir də qeyd edirəm, dünyada miqrasiya prosesi bütün ölkələrə, xalqlara aiddir. Əgər azərbaycanlılar bu proses nəticəsində dünyanın bir çox ölkələrində məskunlaşıblarsa, orada özləri üçün həyat qurublarsa, özlərinin həyat şəraitini təmin ediblərsə – bunlar hamısı dünyada azərbaycanlıların nə qədər geniş şəkildə yayıldığını göstərir. Biz hesab edirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların hər biri yaşadığı ölkədə həyatını özü istədiyi kimi qurub yaşayır. Yaşadığı ölkənin vətəndaşıdır, onun qanun-qaydaları ilə yaşamalıdır və istədiyi yol ilə getməlidir. Ancaq eyni zamanda, indi azərbaycanlıların bir müstəqil dövləti mövcud olduğu halda, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların bir-biri ilə daha da sıx əlaqə qurması, öz həmrəyliklərini bəyan etməsi və müstəqil Azərbaycan dövləti ilə əlaqələr yaratması tarixin bu mərhələsində çox əhəmiyyətli bir vəzifə kimi meydana çıxır. Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək, indi müstəqil Azərbaycan ilə daha da sıx əlaqələr qursunlar. Bunlar hamısı dünyada olan bütün azərbaycanıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir.

Biz indi böyük məmnuniyyətlə qeyd edə bilərik ki, dünyanın bir çox ölkələrində – Avropada, Şimali Amerikada artıq böyük Azərbaycan icmaları yaranıbdır. Son illər bu icmalar get-gedə təşkilatlanır, genişlənir və azərbaycanlıların yaşadıqları ölkələrdə onların birliyini, həmrəyliyini təmin edir. Son illər bu proses surətlə gedir. Güman edirəm ki, məhz müstəqil Azərbaycanın varlığı bu həmrəyliyin inkişafının əsasını təşkil edir. Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi,

istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı, azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir – ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şeirlərimiz, mahnılarımızdır, xalqımıza mənsub olan adət-ənənələrdir. İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın. Dünyada eyni zamanda assimlyasiya prosesi də var. İnsanlar – mən azərbaycanlılar haqqında danışıram – gərək yaşadıqları ölkədə, yenə deyirəm, o şəraiti mənimsəyərək, orada özləri üçün yaxşı mövqelər tutsunlar. Ancaq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən məhz bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır.

Azərbaycan dövlət müstəqilliyni əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inki-şafının təmin olunması deməkdir. Bizim bu qurultayı keçirməkdə məqsədimiz məhz bundan ibarət olmuşdur. Güman edirəm ki, qurultay nümayəndələri, dünyanın bir çox uzaq ölkələrindən Azərbaycana, doğma Vətənə gəlmiş soydaşlarımız burada, qurultay günlərində bir-biri ilə daha da sıx ünsiyyətdə olacaqlar, bir-birini anlamağa çalışacaqlar, müxtəlif ölkələrdə olan icmaların bir diaspor kimi formalaşmasında daha fəal iştirak edəcəklər və Azərbaycan ilə dünyada, digər ölkələrdə olan azərbaycanlıların əlaqələrini möhkəmləndirəcəklər. Hesab edirəm ki, qurultay bu sahədə, azərbaycançılıq ideyalarının həyata keçirilməsi üçün, dünya azərbaycanlılarının həmrəyliyinin genişləndirilməsi və inkişaf etdirilməsi üçün çox mühüm tarixi bir mərhələdir. Ümid edirəm ki, bu qurultay bizim qarşımızda duran vəzifələrin yerinə yetirilməsində çox böyük rol oynayacaqdır, öz xidmətlərini göstərəcəkdir. Müstəqil dövlət kimi Azərbaycan öz milli mənafelərinə uyğun olan müstəqil

xarici siyasət aparır. Müstəqil xarici siyasət aparmaq müstəqilliyi daha da möhkəmləndirmək deməkdir. Biz həm xarici əlaqələrdə, həm də Azərbaycanın daxilində bir çox çətinliklərlə rastlaşmağımıza baxmayaraq, öz müstəqilliyimizi qoruyaraq dünyada müstəqil siyasət aparırıq. Azərbaycan sülhsevər dövlətdir. Biz dünyanın bütün ölkələri ilə lazım olan səviyyədə iqtisadi, siyasi, ictimai, elmi, humanitar əlaqələr yaratmışıq, yaradırıq və bu əlaqələri inkişaf etdiririk və etdirəcəyik. Ancaq Azərbaycan heç vaxt öz müstəqil siyasətindən geri çəkilməyəcəkdir. Onun müstəqil xarici siyasəti Azərbaycanın müstəqilliyinin əsas rəmzidir, əsas göstəricisidir.

Azərbaycan dünyanın bütün beynəlxalq təşkilatlarının üzvüdür. Bilirsiniz ki, bu ilin əvvəlində Azərbaycan mötəbər Avropa Şurasının da həqiqi üzvü seçilibdir. Bunlar Azərbaycanın xarici siyasətinin, eyni zamanda Azərbaycanın həyatında aparılan demokratik dəyişikliklərin, bütün sahələrdə tətbiq olunan islahatların məntiqi nəticəsidir. Azərbaycan dünyəvi dövlətdir və dünyəvi dövlət kimi dünyada öz yerini tutubdur. Bu, bizim strateji yolumuzdur. Hüquqi, demokratik və dünyəvi dövlət – bizim dövlət quruculuğunda əsas prinsipimiz budur. Həyatımızda əsas prinsiplər budur. Biz bu yol ilə gedirik və bundan sonra da gedəcəyik.

Sizə deyə bilərəm ki, biz bir çox ağır və çətin məsələləri həll etdik və qarşıda duran üfüqləri də çox yaxşı görürük. Azərbaycanın böyük təbii sərvətləri, əlverişli coğrafi-strateji mövqeyi, güclü iqtisadi, intellektual potensialı və azərbaycanlıların yüksək mədəni səviyyəsi müstəqil ölkəmizin gələcəyinin çox xoşbəxt və firavan olmasını təmin edəcəkdir. Əmin ola bilərsiniz ki, bu yol, qarşıda duran üfüqlər, perspektiv tam realdır. Apardığı iqtisadi siyasət sayəsində bir neçə ildən sonra Azərbaycan zəngin ölkələrdən biri olacaqdır. Azərbaycan xalqının rifah halı çox yaxşılaşacaqdır. Azərbaycanda hər kəs sərbəst, azad yaşayacaqdır. Azərbaycanda demokratik quruculuq işləri, söz azadlığı, insan azadlığı, vicdan azadlığı, mətbuat azadlığı – bütün azadlıqlar təmin olunub və bundan sonra da təmin olunacaqdır. Yəni siyasi dünyagörüşündən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı burada, doğma vətənində rahat, özü istədiyi kimi yaşayacaqdır. Ancaq bizim üçün ən çətin problem, bizi ən çox narahat edən Ermənistan-Azərbaycan, Dağlıq

Qarabağ münaqişəsidir. İşğal edilmiş torpaqlarımızın azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsidir. Biz bu sahədə çox işlər görmüşük. Bütün beynəlxalq təşkilatlarda bu məsələləri qaldırmışıq və lazımi qərarlar qəbul olunubdur.

1993-cü ildə Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin işğal etdiyi torpaqlardan qeyd-şərtsiz çıxması barədə dörd qətnamə qəbul etmişdir. Təhlükəsizlik Şurası sədrinin altı bəyanatı var. Ancaq Ermənistan bunlara məhəl qoymur. 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon zirvə görüşündə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli haqqında çox əhəmiyyətli bir sənəd qəbul edilmişdir. ATƏT-in tərkibində olan 54 dövlətdən 53-ü buna səs vermiş, təkcə Ermənistan etiraz etmişdi. Ancaq təəssüflər olsun ki, bu mötəbər təşkilatın, ATƏT-in zirvə görüşünün irəli sürdüyü qərar yenə də Ermənistan tərəfindən qəbul olunmur. Biz məsələni sülh yolu ilə həll etmək üçün daim çalışırıq. Bilirsiniz ki, hələ 1993-cü ildə Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün ATƏT-in Minsk qrupu yaranıbdır. Minsk qrupuna 1997-ci ilin əvvəlindən üç böyük dövlət – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa rəhbərlik edir. Biz ötən illər bu təşkilatla, Minsk qrupu ilə, onun həmsədrləri ilə çox işlər görmüşük. Üç-dörd gün bundan öncə həmsədrlər – Rusiyanın, Amerika Birləşmiş Ştatlarının və Fransanın təmsilçiləri yenə də bölgəmizdə olmuş, bizimlə görüşüb danışıqlar aparmış, Ermənistanda olmuşlar. Biz bir daha bəyan etmişik ki, məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq və bunu hər iki tərəfdən müəyyən kompromislər nəticəsində həll etmək olar. Ancaq bu, beynəlxalq hüquq normaları əsasında, dünya-da hamı tərəfindən tanınmış prinsiplər – ölkələrin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həll olunmalıdır. Biz bu işi davam etdirəcəyik. Əmin olduğumu bildirmək istəyirəm ki, biz bu münaqişənin də ləğv olunmasına, aradan götürülməsinə nail olacağıq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır, işğal olunmuş torpaqlar azad ediləcək, yerin-dən-yurdundan didərgin düşmüş qaçqınlar öz doğma torpaqlarına qayıdacaqlar.

Təbiidir ki, bu sahədə beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycan diasporuna da böyük ehtiyacımız var. Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan diasporu son illər təşkilatlanır və Azərbaycan icmaları, diasporu yaşadıqları ölkədə, ümumiyyətlə, beynəlxalq aləmdə artıq özlərini göstərirlər. Amma bu, bizim diasporun formalaşmasının ilkin mərhələsidir. Hamımız – siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər. O ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır. Bu gün işinə başlayan qurultay da məhz bu məqsədi daşıyır.

Bir də qeyd edirəm, biz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların hər birinin öz ölkəsində yaxşı yaşamasını, öz mövqeyini möhkəmləndirməsini, öz rifah halını yaxşılaşdırmasını arzulayırıq. Arzulayırıq ki, hər bir azərbaycanlı yaşadığı ölkədə ictimai-siyasi həyatda fəal iştirak etsin, özünə görkəmli bir yer tutsun, müəyyən təsir imkanına malik olsun. Biz bunları arzu edirik.

Bu barədə müəyyən xidmətlər göstərmək üçün biz dövlətimizin tərkibində Azərbaycan diasporu ilə iş üçün xüsusi bir orqanın yaradılması haqqında da qərar qəbul edəcəyik. Güman edirəm ki, belə mərkəzləşmiş bir orqan, yəni Azərbaycan icmaları ilə daim əlaqə saxlayan orqan həm icmaların və ümumiyyətlə, Azərbaycan diasporunun formalaşmasına, həm də bizim əlaqələrimizin daha da inkişafına xidmət edəcəkdir. Əziz həmvətənlər! Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycan dilinin inkişafı

haqqında bizim qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır. Biz Azərbaycanın latın əlifbasına keçməsi haqqında qərar qəbul etdik. İndi Azərbaycanda hamı, bütün dövlət orqanları yalnız latın əlifbasından istifadə edir. Bu da bizim milliliyimizi, azərbaycançılığımızı göstərən çox mühüm bir amildir. Biz bundan sonra da Azərbaycan dilinin inkişaf etdirilməsi üçün səylərimizi davam etdirəcəyik. Bilirsiniz, hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub saxlanmasında az da olsa, çox da olsa, öz xidmətini göstərmişdir. Xüsusən, bizim yazıçılarımız, ədəbiyyatçılarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər böyük söz ehtiyatına malikdir. Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik. Ancaq eyni zamanda arzu edirik ki, hansı qitədə, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı o ölkənin dilini də mənimsəsin, o ölkənin adət-ənənələrindən də istifadə etsin, o ölkənin şəraitinə uyğunlaşsın. Amma Azərbaycan dilini yaşatsın və inkişaf etdirsin.

Xalqları dil qədər, milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur. Biz bu vasitədən daim istifadə etməliyik. Xüsusən, başqa ölkələrdə yaşayan azərbaycanlılar.
Ona görə də mən arzu edərdim ki, hər bir ölkədə Azərbaycan icmasında azərbaycanlılar həmrəy olsunlar, bir-birinə dayaq olsunlar, bir-birinə yardım etsinlər, bir-birinin dərdinə yansınlar və bizim milli adət-ənənələrimizi, milli dəyərlərimizi birlikdə gözləsinlər, milli bayramlarımızı qeyd etsinlər. Təkcə müstəqillik bayramını, Novruz bayramını deyil, bütün başqa bayramları da qeyd etsinlər. Azərbaycan dilini yeni nəslə, uşaqlara çatdırmaq üçün müəyyən tədris imkanları yaratsınlar. Biz bu barədə kömək edəcəyik ki, bizdən sonra gələn nəsillər, sizin övladlarınız, bizim övladlarımız

azərbaycançılığı daha da yüksəklərə qaldırsınlar, Azərbaycan dilini, milli-mənəvi dəyərlərimizi daim yaşatsınlar. Əziz dostlar!

Əmin ola bilərsiniz ki, müstəqil bir dövlət kimi Azərbaycan on ildir ayaq üstə möhkəm durubdur. Ötən dövrdə biz Azərbaycanın müstəqilliyini inkişaf etdirmişik və bu gün bəyan edirəm ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir və daimidir. Əziz dostlar, müstəqil Azərbaycan həmişə sizin dayaq yeriniz olacaq, pənah gətirdiyiniz yer olacaqdır və təbiidir ki, Azərbaycanda biz də sizi özümüzün elçiləri hesab edirik, sizə çox ümidlər bəsləyirik, sizə arxalanırıq, sizi özümüzə dayaq hesab edirik. Müstəqil Azərbaycan dövləti gənc olduğu kimi, Azərbaycanın həmrəyliyi də, dünya azərbaycanlılarının birliyi də, müxtəlif ölkələrdəki Azərbaycan icmaları da gəncdirlər. Ancaq indi biz yeni bir mərhələ keçmişik. Biz formalaşırıq, müstəqilliyimiz möhkəmlənir, xarici ölkələrdə yaşayan azərbaycanlılar daha sürətlə təşkilatlanır və bizim hamımız birlikdə azərbaycançılığı yaşadacağıq, daimi edəcəyik, əbədi edəcəyik.

Əziz dostlar!

Mən sizin hamınıza cansağlığı və səadət arzulayıram. Xarici ölkələrdən gəlmiş nümayəndələrdən və qonaqlardan xahiş edirəm ki, Azərbaycan xalqının, onun dövlətinin, Prezidentinin salamlarını, sevgisini, məhəbbətini bütün Azərbaycan icmalarına, hər bir azərbaycanlıya çatdırasınız.

Sizin hər birinizə işlədiyiniz sahədə, gördüyünüz işdə, yaşadığınız yerlərdə uğurlar arzulayıram. Harada yaşamasından asılı olmayaraq, hər bir ailəyə, hər bir azərbaycanlıya xoşbəxt həyat və xoşbəxt gələcək arzulayıram. Qoy, çaylarımız qurumasın! Qoy, ağaclarımız kəsilməsin! Qoy, çırağımız sönməsin!

Azərbaycan xalqına eşq olsun!

Yaşasın müstəqil Azərbaycan, Azərbaycan, Azərbaycan!

**Azərbaycan Respublikasında**
**Dövlət dili haqqında**

***AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU***

Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır.

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır.

**I fəsil. Ümumi müddəalar**

M a d d ə 1 . **Dövlət dilinin hüquqi statusu**

1.1. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinin I hissəsinə müvafiq olaraq Azərbaycan dilidir. Dövlət dilini bilmək hər bir Azərbaycan Respublikası vətəndaşının borcudur.

1.2. Azərbaycan Respublikasının dövlət dili kimi Azərbaycan dili ölkənin siyasi, ictimai, iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində işlədilir.

1.3. Azərbaycan Respublikası dövlət dilinin işlənməsini, qorunmasını və inkişafını təmin edir.

1.4. Azərbaycan Respublikasında dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarında, dövlət qurumlarında, siyasi partiyalarda, qeyri-hökumət təşkilatlarında (ictimai birlik və fondlarda), həmkarlar təşkilatlarında, digər hüquqi şəxslərdə, onların nümayəndəliklərində və filiallarında, idarələrdə dövlət dilinin tətbiqi ilə bağlı fəaliyyət bu Qanuna uyğun olaraq həyata keçirilir, o cümlədən kargüzarlıq işləri dövlət dilində aparılır.

1.5. Dövlət dilinin tətbiqinin normaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1.6. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla (və ya onların nümayəndəlikləri ilə) və xarici dövlətlərin diplomatik nümayəndəlikləri ilə yazışmalar Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq xarici dildə Azərbaycan dilinə tərcümə olunmaq şərtilə aparıla bilər.

M a d d ə 2 . **Azərbaycan Respublikasında dövlət dili haqqında qanunvericilik**

Azərbaycan Respublikasında dövlət dili haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

M a d d ə 3 . **Dövlət dilinin işlənməsi, qorunması və inkişafı sahəsində dövlətin əsas vəzifələri**

3.0. Dövlət dilinin işlənməsi, qorunması və inkişafı sahəsində dövlətin əsas vəzifələri aşağıdakılardır:

3.0.1. Azərbaycan Respublikası Konstitusiyasının və bu Qanunun tələblərinə uyğun olaraq dövlət dili ilə bağlı hüquq qaydalarının müəyyənləşdirilməsi;

3.0.2. dövlət dilinin tətbiqi işinə, bu dilin işlənməsi və qorunması ilə bağlı qanunvericiliyin müddəalarına riayət olunmasının təmin edilməsi;

3.0.3. Dövlət dilinin inkişaf proqramının hazırlanması və dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsinin təmin edilməsi;

3.0.4. Dövlət dilinin saflığının qorunması, dilçilik elminin nəzəriyyəsi və praktikasının inkişafı üçün müvafiq şəraitin yaradılması və tədbirlərin həyata keçirilməsi;

3.0.5. Dövlət dilinin işlənməsi üçün zəruri olan maddi bazanın yaradılması;

3.0.6. Xarici ölkələrdə yaşayan azərbaycanlıların Azərbaycan dilində təhsil almalarına, bu dildən sərbəst istifadə etmələrinə köməklik göstərilməsi.

## II fəsil. Dövlət dilinin işlənməsi, qorunması və inkişafı

M a d d ə 4 . **Dövlət dilinin rəsmi mərasimlərdə işlənməsi**

4.1. Azərbaycan Respublikasının dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının, dövlət qurumlarının keçirdiyi bütün rəsmi mərasim və tədbirlər Azərbaycan Respublikasının dövlət dilində aparılır.

4.2. Bu Qanunun 4.1-ci maddəsinin tələbləri Azərbaycan Respublikasının təşkil etdiyi beynəlxalq səviyyəli rəsmi mərasimlərə və tədbirlərə, habelə müvafiq icra hakimiyyəti orqanları tərəfindən digər ölkələrdə keçirilən hər hansı rəsmi mərasim və tədbirə şamil olunmur.

M a d d ə 5 . **Dövlət dilinin təhsil sahəsində işlənməsi**

5.1. Azərbaycan Respublikasında təhsil dövlət dilində aparılır.

5.2. Azərbaycan Respublikasında başqa dillərdə təhsil müəssisələrinin fəaliyyəti qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir. Belə müəssisələrdə dövlət dilinin tədrisi məcburidir.

5.3. Azərbaycan Respublikasında ali və orta peşə-ixtisas təhsili müəssisələrinə qəbul zamanı Azərbaycan dili fənnindən imtahan verilməlidir.

M a d d ə 6 . **Dövlət dilinin televiziya və radio yayımlarında işlənməsi**

Mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikası ərazisində təsis edilən və fəaliyyət göstərən, dövlət dilində yayımlanan bütün televiziya və radio kanallarının aparıcıları dövlət dilini mükəmməl bilməli və səlis danışıq qabiliyyətinə malik olmalıdırlar. Televiziya və radio kanallarında dublyaj olunan filmlər və verilişlər dövlətin müəyyən etdiyi dil normalarına uyğun olmalıdır.

M a d d ə 7 . **Dövlət dilinin xidmət sahələrində, reklam və elanlarda işlənməsi**

7.1. Azərbaycan Respublikası ərazisində bütün xidmət sahələrində, reklam və elanlarda dövlət dili işlənilir. Əcnəbilərə xidmət göstərilməsi ilə bağlı müvafiq xidmət sahələrində dövlət dili ilə yanaşı digər dillər də tətbiq oluna bilər. Zəruri hallarda reklam və elanlarda (lövhələrdə, tablolarda, plakatlarda və sair) dövlət dili ilə yanaşı, digər dillərdən də istifadə oluna bilər. Lakin onların tutduğu sahə Azərbaycan dilindəki qarşılığının tutduğu sahədən böyük olmamalı və Azərbaycan dilindəki yazıdan sonra gəlməlidir.

7.2. Azərbaycan Respublikasının ərazisində bütün xidmət sahələrində, reklam və elanlarda dövlət dili dövlət dilinin normalarına uyğun olaraq tətbiq edilməlidir.

7.3. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, habelə ixrac edilən malların üzərindəki etiketlər və digər yazılar müvafiq xarici dillərlə yanaşı, dövlət dilində də olmalıdır.

7.4. Azərbaycan Respublikasına idxal edilən mal və məhsulların üzərindəki etiketlər və adlar, onlardan istifadə qaydaları barədə izahat vərəqələri başqa dillərlə yanaşı, Azərbaycan dilinə tərcüməsi ilə müşayiət olunmalıdır.

M a d d ə 8 . **Dövlət dilinin xüsusi adlarda işlənməsi**

Azərbaycan Respublikası vətəndaşlarının adları, atalarının adları və soyadları dövlət dilində yazılır. Azərbaycan Respublikası vətəndaşlarının adları və soyadlarının dəyişdirilməsi müvafiq qanunvericiliklə tənzimlənir.

M a d d ə 9 . **İnzibati ərazi bölgüsü ilə əlaqədar dövlət dilindən istifadə**

“Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünü təşkil edən inzibati ərazi vahidlərinin – şəhər, rayon, inzibati ərazi dairəsi, qəsəbə və kəndlərin adları dövlət dilində yazılmalıdır, onların dövlət dilinin normalarına uyğun olaraq yazılışı müvafiq qurum tərəfindən müəyyənləşdirilir. Bu maddədə göstərilən inzibati ərazi vahidlərinin adları dövlət dili ilə yanaşı xarici dillərdə də yazıla bilər. Belə olan halda inzibati ərazi vahidinin adı əvvəlcə dövlət dilində və ondan sonra xarici dildə verilməlidir.

M a d d ə 1 0 . **Coğrafi obyektlərin adlarında dövlət dilinin işlədilməsi**

10.1. Azərbaycan Respublikasında coğrafi obyektlərin adlarının dövlət dilinin normalarına uyğun olaraq yazılışı müvafiq qurum tərəfindən müəyyənləşdirilir.

10.2. Azərbaycan coğrafi adlarının xarici dillərdə verilməsi Azərbaycan dilində səslənməsinə, coğrafi adların beynəlxalq yazılış qaydalarına uyğun olaraq müəyyən edilir.

M a d d ə 1 1 . **Dövlət dilinin hüquq mühafizə orqanlarında, Silahlı Qüvvələrdə, notariat fəaliyyətində, inzibati icraatda, məhkəmə icraatında və inzibati xətalar üzrə icraatda işlənməsi**

11.1. Azərbaycan Respublikasının hüquq mühafizə orqanlarında Azərbaycan Respublikasının dövlət dili işlənir. Dövlət dilini bilməyən şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada tərcüməçidən istifadə edə bilərlər.

11.2. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, sərhəd qoşunlarında və daxili qoşunlarda, qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, dövlət dili işlənir.

11.3. Azərbaycan Respublikasının notariat fəaliyyəti üzrə kargüzarlıq dövlət dilində aparılır. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxs dövlət dilini bilmirsə və ya notariat hərəkətinin hər hansı başqa dildə aparılmasını xahiş edirsə, notarius imkan daxilində tərəfindən rəsmiləşdirilən sənədlərin mətnlərini arzu edilən dildə tərtib edə bilər və ya mətn tərcüməçi tərəfindən ona tərcümə edilə bilər.

11.4. Konstitusiya Məhkəməsində icraat dövlət dilində aparılır. Konstitusiya Məhkəməsində baxılan işin iştirakçısı olan və icraatın aparıldığı dili bilməyən şəxslərə işin bütün materiallarının onların bildiyi dilə tərcüməsi və Konstitusiya Məhkəməsinin iclaslarında ana dilində çıxış etməsi təmin olunur.

11.5. Azərbaycan Respublikası məhkəmələrində cinayət mühakimə icraatı dövlət dilində aparılır. Azərbaycan Respublikası Ci-

nayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada bütün növ məhkəmə icraatları digər dillərdə aparıla bilər.

11.6. Azərbaycan Respublikası məhkəmələrində mülki işlər, inzibati və iqtisadi mübahisələr üzrə məhkəmə icraatı dövlət dilində aparılır. Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada bütün növ məhkəmə icraatları digər dillərdə aparıla bilər.

11.7. Azərbaycan Respublikasında İnzibati xətalar üzrə icraat dövlət dilində aparılır. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada inzibati xətalar üzrə icraat digər dillərdə aparıla bilər.

11.8. İnzibati aktın qəbul edilməsi, icra olunması, dəyişdirilməsi və ya ləğv edilməsi, habelə inzibati şikayətlərə baxılması üzrə müvafiq inzibati orqanlar tərəfindən inzibati icraat dövlət dilində və ya müəyyən ərazi əhalisinin əksəriyyətinin dilində aparılır. İnzibati icraatda iştirak edən və icraatın aparıldığı dili bilməyən şəxslərə tərcüməçinin xidmətindən istifadə etmək hüququ izah və təmin edilir.

M a d d ə 1 2 . **Dövlət dilinin beynəlxalq yazışmalarda işlənməsi**

12.1. Azərbaycan Respublikasının beynəlxalq yazışmaları dövlət dilində aparılır. Belə yazışmalar zəruri hallarda dövlət dili ilə yanaşı, müvafiq xarici dillərdən birində də aparıla bilər.

12.2. Azərbaycan Respublikasının ikitərəfli beynəlxalq müqavilələri dövlət dilində də, çoxtərəfli beynəlxalq müqavilələr isə müqavilə bağlayan tərəflərin razılığı ilə müəyyən edilən dildə (dillərdə) tərtib olunmalıdır.

12.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr (sazişlər və s.) və qoşulduğu beynəlxalq konvensiyalar (protokollar və s.) dövlət dilində nəşr edilməlidir.

M a d d ə 1 3 . **Dövlət dilinin normaları**

13.1. Azərbaycan dilinin orfoqrafiya və orfoepiya normaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Hüquqi, fiziki və vəzifəli şəxslər həmin normalara əməl etməlidirlər.

13.2. Müvafiq icra hakimiyyəti orqanı 5 ildə bir dəfədən az olmayaraq yazı dili normalarını təsbit edən lüğətin (orfoqrafiya lüğətinin) nəşr olunmasını təmin edir.

M a d d ə 1 4 . **Dövlət dilinin əlifbası**

Azərbaycan Respublikasının dövlət dilinin əlifbası latın qrafikalı Azərbaycan əlifbasıdır.

M a d d ə 1 5 . **Dövlət dilinin nəşriyyat işində işlənməsi**

15.1. Dövlət dilinin nəşriyyat işində işlənməsi Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən həyata keçirilir.

15.2. Azərbaycan Respublikasında dövlət dilində nəşr olunan çap məhsulları latın qrafikalı Azərbaycan əlifbasında buraxılmalıdır.

15.3. Azərbaycan yazı mədəniyyətinin tarixində mühüm rol oynamış ərəb və kiril əlifbalarından xüsusi hallarda (lüğətlərdə, elmi nəşrlərdə ədəbiyyat göstəricisi və s.) istifadə edilə bilər.

M a d d ə 1 6 . **Dövlət dilinin vətəndaşların şəxsiyyətini təsdiq edən rəsmi və vahid ümunəli sənədlərdə işlədilməsi**

16.1. Azərbaycan Respublikası vətəndaşlarının doğum və nikah haqqında şəhadətnamələri, şəxsiyyət vəsiqəsi, əmək kitabçası, hərbi bileti və yalnız, ölkə daxilində etibarlı sayılan digər rəsmi və vahid nümunəli sənədlər dövlət dilində tərtib edilir.

16.2. Azərbaycan Respublikası vətəndaşlarının pasport və təhsil haqqında sənədləri, zəruri hallarda digər sənədləri dövlət dili ilə yanaşı xarici dillərdə də tərtib edilir.

M a d d ə 1 7 . **Dövlət dilinin dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının, hüquqi şəxslərin, onların nümayəndəliklərinin və filiallarının, idarələrin adında işlədilməsi**

Azərbaycan Respublikasının dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının, hüquqi şəxslərin, onların nümayəndəliklərinin və filiallarının, idarələrin adları Azərbaycan dilinin normalarına uyğun olaraq yazılır. Göstərilən təsisatların adını əks etdirən lövhələr, blanklar, möhürlər və kargüzarlıqla bağlı rəsmi xarakterli bütün digər ləvazimatlar dövlət dilində tərtib olunur.

M a d d ə 1 8 . **Dövlət dilinin qorunması və inkişafı**

18.1. Azərbaycan Respublikasında dövlət dilinə qarşı gizli, yaxud açıq təbliğat aparmaq, bu dilin işlənməsinə müqavimət göstərmək, onun tarixən müəyyənləşmiş hüquqlarını məhdudlaşdırmağa cəhd etmək qadağandır.

18.2. Azərbaycan Respublikasının ərazisindəki bütün kütləvi informasiya vasitələri (mətbuat, televiziya, radio və s.), kitab nəşri və digər nəşriyyat işi ilə məşğul olan qurumlar Azərbaycan dilinin normalarına riayət olunmasını təmin etməlidirlər.

**III fəsil. Yekun müddəaları**

M a d d ə 1 9 . **Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanun pozan hüquqi, fiziki və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

M a d d ə 2 0 . **Qanunun qüvvəyə minməsi**

20.1. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

20.2. Bu Qanun qüvvəyə mindiyi gündən "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının 22 dekabr 1992-ci il tarixli 413 nömrəli Qanunu qüvvədən düşmüş hesab edilir.

**Heydər ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti*,**

*Bakı şəhəri, 30 sentyabr 2002-ci il.*

## “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI*

“Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- həmin Qanunun 4.2-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanlar”nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- həmin Qanunun 9-cu və 10.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq qurumun səlahiyyətlərini həyata keçirən orqana dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

“Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun 1.5-ci və 13.2-ci maddələ-

rində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.2. həmin Qanunun 7.1-1-ci maddəsinin üçüncü cümləsində və 13.1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.3. həmin Qanunun 7.1-1-ci maddəsinin üçüncü cümləsində "qurum" dedikdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur;

2.4. həmin Qanunun 13.1-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti (Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası ilə razılaşdırmaqla) nəzərdə tutulur.

3. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti,***
*Bakı şəhəri, 2 yanvar 2003-cü il.*

# AZƏRBAYCAN REZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKSOY-un ÜZVÜ OLAN ÖLKƏLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİ DAİMİ ŞURASININ XIX TOPLANTISININ İŞTİRAKÇILARINI QƏBULDA ÇIXIŞINDAN

*Bakı şəhəri, 6 fevral 2003-cü il.*

Milləti yaşatmaq və millətin indiyə qədər olduğu kimi əzilməsi imkanlarının qarşısını gələcəkdə almaq üçün dilimizi qorumalıyıq. İndi türkdilli millətlərin dillərində bir qədər fərq var. Amma bu dillərin kökü birdir. Mən belə düşünmürəm ki, biz gərək dilimizi tatar dilinə oxşadaq. Yaxud da ki, qırğızlar dillərin bizim dilə oxşatsınlar. Yox. Əsrlər boyu dillərimiz belə yaranıbdır. Amma eyni zamanda dilin işlənməsi mümkün olmadığına görə, bizim dillərimiz lazımi qədər inkişaf edə bilməyibdir. Ona görə də mən Azərbaycan dili haqqında fərman verdim. Azərbaycanda latın əlifbasına keçmək barədə fərman verdim və onun yerinə yetirilməsini təmin etdim. Azərbaycan dilinin bundan sonra da inkişaf etməsi mənim həyatımın ən birinci vəzifəsidir. Çünki millətin dilini əlindən alsan, onu öz dilindən məhrum etsən, o millət çox şey itirər. Amma millətin öz doğma dili, ana dili olanda, onu heç nə dəyişdirə biməz. Allaha şükürlər olsun, bizim Azərbaycan dili çox mükəmməl ləşib, çox genişlənibdir. Dilimizin çox böyük lüğət ehtiyatı var. Bizim Azərbaycan dili şeir dilidir. Yadımdadır, mən bir-iki dəfə ya burada, ya da Türkiyədə toplantılarda nitq söyləyəndən sonra dostum Süleyman Dəmirəl mənə deyirdi ki, sən şeir oxudun. Deyirdim ki, yox, mən nitq söylədim. O deyirdi ki, bilirəm, amma Azərbaycan dili o qədər şeir dilidir ki, bəzən fərqinə varmaq olmur ki, nitq söyləyirsən, yaxud şeir deyirsən. Eləcə də Anadolu türk dili. Anadolu türk dili də vaxtilə çox əzablar çəkibdir. Osmanlı imperatorluğunda, sarayda fars dili, ərəb dili işlənirdi. Türkiyədə türk dilinin inkişaf etdirilməsi böyük Atatürkün adı ilə bağlıdır. Bugünkü türk

dilinin yaranması böyük Atatürkün xidmətləridir. Bilmirəm, siz bunu demisiniz, yoxsa yox, mən Azərbaycanda Atatürk Mərkəzi yaratmışam. Çünki Atatürk təkcə Anadolu türklərinin deyil, o, bizim hamımızındır. Mən Anadolu türk dilinin nə qədər ağır vəziyyətdə olduğunu bilirdim. Əgər Atatürk dil haqqında qərarlar qəbul etməsəydi, bu gün belə gözəl Anadolu türkcəsi olmazdı. Ona görə də dil, dil, bir də dil... Dili inkişaf etdirməliyik. Mən demişəm və bu gün də deyirəm. Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan. Elədir, yoxsa yox? Mən bunu sizə ona görə deyirəm ki, dili inkişaf etdirmək TÜRKSOY-un əsas vəzifələrindən biridir. Dilimizi bir-birinə bağlamaq, yaxud da ki, bənzətmək lazım deyildir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AZƏRBAYCAN DİLİ İLƏ BAĞLI SƏRƏNCAM VƏ QƏRARLARI, NİTQ VƏ ÇIXIŞLARI

## Azərbaycan dilində latin qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Müstəqil Azərbaycan Respublikasında həyatın müxtəlif sahələrində aparılan islahatlar içərisində latın qrafikalı Azərbaycan əlifbasının bərpa edilməsi böyük tarixi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli fərmanları ölkənin ictimai-siyasi həyatında mühüm hadisə olmuş və latın qrafikalı Azərbaycan əlifbasına keçidi bütövlükdə təmin etmişdir. Latın qrafikalı Azərbaycan əlifbası artıq həyatımızın bütün sahələrində tam yerini tutmuşdur. Bununla yanaşı Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin vaxtilə kiril qrafikası ilə çap olunmuş qiymətli nümunələrinin latın qrafikasında yenidən kütləvi şəkildə nəşr olunması günün ən vacib məsələlərindən biri olaraq qalır.

Dövlət müstəqilliyinin başlıca rəmzlərindən biri sayılan ana dilinə dövlət qayğısının daha da artırılmasını təmin etmək, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin ən gözəl nümunələrini müasir dövrdə təbliğ etmək və gələcək nəsillərə çatdırmaq məqsədilə Azərbaycan dilində əvvəllər kiril qrafikasında çap olunmuş əsərlərin latın qrafikası ilə yenidən nəşrinin kütləvi şəkildə həyata keçirilməsi zərurətini nəzərə alaraq qərara alıram:

1. 2004-cü ildə latın qrafikası ilə ilk mərhələdə çapı nəzərdə tutulan əsərlərin siyahısı təsdiq olunsun (siyahı əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2004-cü ildə Azərbaycan Respublikasının bütün kütləvi kitabxanalarına və orta tədris müəssisələrindəki kitabxanalara latın qrafikası ilə yenidən çap olunmuş kitabların alınması üçün zəruri vəsaitin ayrılmasını təmin etsin.

3. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki,

- Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə 2005-2008-ci illərdə latın qrafikası ilə yenidən çapı nəzərdə tutulan əsərlərin siyahısını bir ay müddətində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- Azərbaycan Respublikasının Nazirlər Kabineti və respublikanın maliyyə qurumları ilə birlikdə müvafiq plan-qrafik tərtib edib latın qrafikası ilə yenidən nəşr olunması nəzərdə tutulan kitabların çapını təmin etsin;

- Azərbaycan Respublikasının aidiyyatı qurumları ilə birlikdə yenidən çapı nəzərdə tutulan kitabların mətnlərinin elektron daşıyıcıları və internet vasitələri ilə yayılmasını, latın qrafikasında "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın yaradılmasını təmin etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti,***

*Bakı şəhəri, 12 yanvar 2004-cü il.*

**Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında**

***AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI***

1976-1987-ci illərdə çap olunmuş "Azərbaycan Sovet Ensiklopediyası" Azərbaycan tarixində bilik və məlumatların bütün sahələrini əhatə edən ilk universal xarakterli fundamental əsər olmuşdur. Böyük elmi potensialın cəlb olunması ilə hazırlanan bu on cildli ensiklopediyanın nəşri Azərbaycanın elmi və mədəni həyatında mühüm hadisəyə çevrilmişdir.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi ilə yeni dövrün tələblərinə cavab verən, xalqımızın həyatında baş vermiş mühüm ictimai-siyasi, tarixi, elmi və mədəni hadisələri obyektiv şəkildə əks etdirən yeni ensiklopediyanın hazırlanıb latın qrafikasında nəşr edilməsi zərurəti meydana çıxmışdır. Dövlət əhəmiyyətli bu mühüm işin həyata keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. 2004-2008-ci illərdə çoxcildli Azərbaycan Milli Ensiklopediyası nəşr edilsin.

2. "Azərbaycan Ensiklopediyası" nəşriyyat-poliqrafiya birliyi Azərbaycan Milli Elmlər Akademiyasının tabeçiliyinə verilsin.

3. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimov Azərbaycan Milli Ensiklopediyasının baş redaktoru təyin edilsin.

4. Azərbaycan Milli Ensiklopediyasının baş redaktoru

- bir ay ərzində ensiklopediyanın redaksiya heyətinin tərkibini və əsasnaməsini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- ensiklopediyanın hazırlanması və nəşri ilə bağlı maliyyə xərclərinin smetasını iki ay ərzində tərtib edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

- üç ay ərzində Azərbaycan Milli Ensiklopediyasının sözlük layihələrinin hazırlanıb geniş müzakirəyə çıxarılmasını təmin etsin;

- redaksiya heyəti ilə birlikdə Azərbaycan Milli Ensiklopediyasının yüksək elmi səviyyədə çapa hazırlanmasını təmin etsin;

- 2004-cü ilin sonuna qədər ensiklopediyanın "Azərbaycan Respublikası" adlanan birinci cildinin hazırlanıb latın qrafikasında nəşr olunmasını, onun mətninin elektron daşıyıcıları və internet vasitələri ilə yayılmasını təmin etsin;

- Azərbaycan Milli Ensiklopediyasının hazırlanması işlərinin gedişi haqqında Azərbaycan Respublikasının Prezidentinə müntəzəm məlumat versin.

5. Azərbaycan Respublikasının icra hakimiyyəti orqanlarına, bütün elmi təşkilatlarına və yaradıcılıq birliklərinə Azərbaycan Milli Ensiklopediyasının çapa hazırlanmasında iştirak etmək tövsiyə olunsun.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

7. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti,***

*Bakı şəhəri, 12 yanvar 2004-cü il.*

**“Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 8 fevral 2006-cı il tarixli, 1291 nömrəli Sərəncamına əsasən qurultay 2006-cı il mart ayının 16-da Bakı şəhərində keçirilib. Qurultayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədri seçilib.**

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ II QURULTAYINDA NİTQI

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar! Əziz həmvətənlər!

Mən sizin hamınızı Dünya azərbaycanlılarının II Qurultayının açılışı münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Dünya azərbaycanlılarının qurultayı çox böyük tarixi hadisədir. Bu gün burada gözəl film nümayiş etdirildi. Biz o gözəl anları yenidən yada saldıq. Məhz xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə beş il bundan əvvəl Dünya azərbaycanlılarının I Qurultayı keçirilmişdir. Qurultayın Azərbaycanın müasir tarixində müstəsna rolu olmuşdur. Aparılmış müzakirələr, fikir mübadiləsi, qurultayın qərarları bütün dünyada yaşayan azərbaycanlıları bir-biri ilə daha da sıx birləşdirdi. Məhz o qurultaydan sonra Heydər Əliyevin qərarı ilə Azərbaycanda Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Komitə Azərbaycan diasporlarının təşklatlanmasında çox uğurlu fəaliyyət gös-tərir. 2002-ci ildə xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Qanun qəbul edilmişdir və bu da öz növbəsində, bu işin hüquqi bazasını təşkil etdi. Bütün bu tədbirlər, bütün bu addımlar öz bəhrəsini verməkdədir. Dünyada yaşayan soydaşlarımız təşkilatlanır, yaşadıqları ölkələrin həyatında daha da fəal rol oynayırlar.

Əlbəttə ki, bu, həm onların mövqelərini möhkəmləndirir, eyni zamanda, müstəqil Azərbaycan Respublikasının mövqeyini gücləndirir, əhəmiyyətini artırır.

Biz çox şadıq ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar o ölkələrin həyatında, iqtisadiyyatında çox mühüm rol oynayırlar və demək olar ki, artıq çox möhkəm mövqelərə malikdirlər. Eyni zamanda, hesab edirəm ki, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında da çox mühüm rol oynamalıdırlar. Çünki buna bütün imkanlar var. Müstəqil Azərbaycan Respublikası bütün ölkələrlə çox işgüzar, səmərəli münasibətlər qurmaqdadır. Belə olan halda, əlbəttə ki, xaricdə yaşayan azərbaycanlılar da bunu öz gündəlik həyatında hiss edirlər.

Mənim müxtəlif ölkələrə çoxsaylı səfərlərim çərçivəsində, demək olar ki, həmişə Azərbaycan diasporu ilə görüşlərim, açıq söhbətlərim olubdur. Mən həmişə qeyd etmişəm, bu gün də demək istəyirəm ki, Azərbaycan dövlətinin möhkəm olması dünyada yaşayan azərbaycanlıların da mövqeyini möhkəmləndirir.

Eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar bizim üçün də dayaqdır. Çünki Azərbaycan gənc müstəqil dövlətdir. Biz yalnız 15 ildir müstəqillik şəraitində yaşayırıq və təəssüflər olsun ki, bu günədək bir çox ölkələrdə Azərbaycan haqqında kifayət qədər dolğun məlumat yoxdur. Bu məlumatı, Azərbaycan həqiqətlərini, Azərbaycanın problemlərini, eyni zamanda ölkəmizin artan nüfuzunu, önəmini dünya ictimaiyyətinə, çatdırmaq, əlbəttə ki, bizim ümumi işimizə çox böyük töhfə olacaqdır.

Mən əminəm ki, artıq mövcud olan gözəl meyillər bu qurultaydan sonra daha da güclənəcəkdir. Azərbaycanlılar daha da möhkəm təşkilatlanacaq, yaşadıqları ölkələrdə daha da möhkəm mövqelərə sahib olacaqlar və beləliklə, dünyadakı 50 milyonluq Azərbaycan xalqı daha da yaxşı yaşayacaq, öz məqsədlərinə nail olacaqlar.

Mən qeyd etdim ki, bu təşkilatlanma prosesi dünya azərbaycanlılarını bir araya dəvət etmək təklifi və təşəbbüsü ulu öndər Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan xalqına xidmət etməkdən ibarət olmuşdur. Xalqımızın lideri ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycanın inkişafına xidmət edirdi. 1970-ci illərdə

Azərbaycan Sovet İttifaqı çərçivəsində bir respublika kimi yaşayırdı. O illərdə də Azərbaycanın inkişafına böyük töhfələr verilmişdir.

1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbər seçilmişdi. Azərbaycan o vaxt bütün müttəfiq respublikalar arasında ən geridə qalmış yerdə idi. 1982-ci ildə o, bu vəzifəsini başa çatdıranda Azərbaycan artıq ən qabaqcıl yerlərdə idi. Məhz o illərdə Azərbaycanın güclü sənaye, iqtisadi potensialı yaranmışdır və bu, indi müstəqil Azərbaycana xidmət edir. Baxmayaraq ki, Azərbaycan müstəqil dövlət deyildi, ancaq o illərdə bir çox sahələrdə məhz Azərbaycanda müstəqillik əlamətləri tətbiq olundu. Müxtəlif istiqamətlərdə atılan addımlar elə bil ki, gələcəyə yönəldilmişdir. Elə bil ki, Heydər Əliyev görürdü, bir gün Azərbaycan müstəqil olacaq və bu müstəqil ölkəyə güclü iqtisadi potensial, ordu lazım olacaqdır. Ona görə o, kadrların hazırlanmasında, Azərbaycanda iqtisadi və sənaye potensialının yaranmasında müstəsna xidmətlər göstərmişdir.

Ancaq Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndə ölkmiz yenə çox böyük problemlərlə üzləşmişdi. 1991-ci ildə Sovet İttifaqı dağılanda Azərbaycan, demək olar ki, ən çətin vəziyyətdə olan ölkə idi: iqtisadi böhran, siyasi böhran, hərbi böhran, vətəndaş müharibəsi, Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz və bunun nəticəsində torpaqların işğal olunması, vətəndaş qarşıdurması. Bütövlükdə, Azərbaycanın dövlətçiliyi sual altında idi.

1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə Azərbaycana rəhbərliyə qayıdandan, Prezident vəzifəsinə seçiləndən sonra ölkədə ictimai-siyasi vəziyyət normallaşdı, sabitləşdi. Ölkəni narahat edən, təhlükə törədən problemlər aradan qaldırıldı və dinamik inkişafa qədəm qoyuldu. Məhz o illərdən sonra Azərbaycan dünya birliyində möhkəm yerini tuta bilmişdir.

Azərbaycanda başlanmış iqtisadi islahatlar çox sürətlə aparılır və indi Azərbaycan iqtisadi inkişaf sürətinə görə nəinki, keçmiş sovet respublikaları arasında, həm də dünyada birinci ölkədir. Bütün bunlar bir daha onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xid-

mətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayır və möhkəmlənir.

Müstəqillik böyük sərvətdir. Bəzən deyirlər ki, Azərbaycanın sərvətləri onun təbii ehtiyatları, coğrafi vəziyyətidir, yaxud da bölgədə mövcud olan mövqeləridir. Azərbaycanın ən böyük sərvəti onun müstəqilliyidir. Biz uzun illər, əsrlər boyu bu müstəqillikdən məhrum olmuşduq. Azərbaycan uzun illər ərzində çar Rusiyasının müstəmləkəsi idi. Ondan sonra Sovet İttifaqının respublikası idi. Bu gün isə biz müstəqil dövlətik, Azərbaycan dünya birliyinin üzvüdür. Biz gərək bu müstəqilliyi möhkəmləndirək.

Mən dəfələrlə demişəm, bu gün də qeyd etmək istəyirəm ki, müstəqillik yalnız dövlət atributları ilə ölçülmür. Müstəqillik rəmzləri ilə ölçülmür. Müstəqillik o deməkdir ki, dövlət və ölkənin rəhbərliyi öz xalqının maraqlarına tam cavab verən müstəqil siyasət aparmaq iqtidarında olsun. Bu gün bu var və bunun təməli məhz 19-90-cı illərin ortalarında qoyulmuş, Azərbaycan bütün potensialını işə sala bilmişdir. Bu gün bizim artan nüfuzumuz, gücümüz imkan verir ki, Azərbaycan tam şəkildə müstəqil siyasət aparsın. Bu siyasət Azərbaycan xalqının milli maraqlarının qorunmasına, dünya azərbaycanlılarının birliyinin möhkəmlənməsinə yönəldilibdir.

Heydər Əliyev siyasəti Azərbaycanda hər bir sahədə davam etdirilir. Xarici siyasətimiz çox uğurludur, çox fəaldır. Azərbaycan beynəlxalq təşkilatlarda çox önəmli yer tutur, bizim mövqelərimiz möhkəmlənir. Son illər ərzində müxtəlif beynəlxalq təşkilatlarda, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim xeyrimizə, yəni ədalətli qərarlar qəbul edilibdir. Biz qonşu ölkələrlə çox gözəl münasibətlərimizi saxlaya bilmişik, onları möhkəmləndiririk və bu, bizim inkişafımız üçün çox vacibdir. Çünki biz bu bölgədə yaşayırıq və bölgədə sülhün, təhlükəsizliyin bərqərar olması, regional əməkdaşlığın inkişafı bizim maraqlarımıza xidmət edir.

Azərbaycanın addımları bütün sahələrdə, o cümlədən xarici siyasətdə müsbət nəticələrini verməkdədir. Sizə bildirmək istəyirəm ki, son iki il ərzində Azərbaycanın 21 səfirliyinin açılması haqqında qərarlar verilibdir. İndi Azərbaycanın müxtəlif ölkələrdə 46 səfirliyi

olacaq ki, onların da 21-nin açılması haqqında son iki ildə qərar verilibdir. Onların bəziləri açılıb fəaliyyət göstərir, bəziləri isə bu yaxınlarda açılacaqdır. Bu, nə deməkdir?! O deməkdir ki, Azərbaycan öz xarici siyasətini daha da dolğun, hərtərəfli şəkildə aparacaqdır. Çünki, – yəqin siz də bunu hiss edirsiniz, biz də bunu bilirik, – əfsuslar olsun ki, Azəbaycan həqiqətləri dünya ictimaiyyəti tərəfindən o qədər də yaxşı dərk edilmir. Məlumat qıtlığı var, bəzi hallarda informasiya blokadası ilə də üzləşirik. Çünki bizim əleyhimizə dünyanın erməni lobbisi fəaliyyət göstərir və hər vəchlə çalışır ki, Azərbaycanı ləkələsin, Azərbaycanda gedən proseslərə mənfi don geyindirsin və beləliklə, Azərbaycanı təcrid edilmiş vəziyyətə salsın. Yəni bu da var.

Ancaq eyni zamanda, ümumiyyətlə, məlumatsızlıq da var. Ona görə səfirliklərin açılması, Azərbaycanın çox fəal xarici siyasəti, diasporların möhkəmlənməsi və artan nüfuzu Azərbaycanı dünya birliyinə olduğu kimi təqdim edir. Bizə məhz bu lazımdır. Bizə o lazımdır ki, Azərbaycanda gedən proseslər dünya üçün açıq olsun. Son iki il yarım ərzində mən çoxsaylı xarici səfərlər etmişəm. Mənim müxtəlif qonaqlarla çox görüşlərim olubdur. Görürəm ki, Azərbaycana ilk dəfə gələn qonaqlar tam başqa fikirlə gəlirlər. Amma burada reallıqları, ab-havanı görəndə, Azərbaycanın ümumi inkişafını, cəmiyyətdə hökm sürən dözümlülüyü, tolerantlığı, qonaqpərvərliyi, vətəndaş həmrəyliyini görəndə Azərbaycandan tamamilə başqa fikirlə ayrılırlar. Ona görə, diasporun fəaliyyəti məhz bu istiqamətdə də öz töhfəsini verməlidir və bunu etmək üçün diaspor daha da möhkəm təşkilatlanmalıdır.

Bir sözlə, xarici siyasət sahəsində biz öz xəttimizi aparırıq. Amma bu işdə, əlbəttə ki, sizin də fəaliyyətinizə, fəal olmağınıza böyük ehtiyac var. Son illər ərzində mən hiss edirəm ki, bu iş artıq əlaqələndirilmiş şəkildə aparılır. Xarici İşlər Nazirliyinin, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin, Azərbaycan diasporlarının fəaliyyəti, müxtəlif ölkələrdə Azərbaycanla bağlı keçirilən tədbirlər, konfranslar, simpoziumlar, aksiyalar – bütün bunlar bizim mövqelərimizi möhkəmləndirir, digər tərəfdən, Azərbaycan haqqında real məlumatı da dünya birliyinə çatdırır.

Azərbaycanda son illər ərzində iqtisadi inkişaf sahəsində də

böyük irəliləyiş var. Ölkəmiz bu istiqamətdə böyük uğurlar əldə edibdir. Bizim iqtisadiyyatımız dünyada ən yüksək sürətlə artır. Keçən il iqtisadi artım 26 faizdən çox olub və bu, dünyada ən yüksək göstəricidir. 2005-ci ildə Azərbaycanda sənaye istehsalı 33 faizdən çox artıbdır. Bu da dünyada ən yüksək göstəricidir. Keçən il əhalinin pul gəlirləri 27 faiz artmışdır. Son iki il yarım ərzində Azərbaycanda 340 min yeni iş yeri açılmışdır. Bu, işsizliyin aradan qaldırılmasına böyük kömək göstərir. Azərbaycanda iki il bundan əvvəl yoxsulluğun səviyyəsi 49 faiz idi, yəni keçən ilin sonuna 29 faizə düşübdür. Yenə də bu, böyük rəqəmdir. Mən demişəm, nə üçün Azərbaycan vətəndaşları yoxsulluq şəraitində yaşamalıdırlar? Prezident seçiləndən sonra vəzifə qoymuşam ki, Azərbaycanda bir nəfər də yoxsul insan olmamalıdır. Biz buna nail olacağıq. Mən əminəm ki, 2006-cı ildə görülən işlər imkan verəcək ki, yoxsulluq şəraitində yaşayanların sayı kəskin şəkildə aşağı düşsün.

Azərbaycanda regional inkişaf proqramı çox sürətlə həyata keçirilir. Bakı, bizim doğma paytaxtımız çox sürətlə inkişaf edir. Eyni zamanda, regionlarda inkişaf çox sürətlidir. Yeni elektrik stansiyaları, qaz xətləri, yollar, su kəmərləri tikilir, bütün təsərrüfat və sənaye infrastrukturu yenilәşir. Eyni zamanda, humanitar sahədə də böyük işlər görülübdür. İndi bütün bölgələrdə ən müasir xəstəxanalar tikilir. Təkcə 2005-ci ildə Azərbaycanda 300-dən çox yeni məktəb tikilmişdir. Ən müasir, ən yüksək səviyyədə idman kompleksləri, üzgüçülük hovuzları, poliklinikalar inşa olunmuşdur. Bütün bunlar Azərbaycanın ümumi inkişafını müəyyən edir.

Biz güclü olmalıyıq, zəngin dövlət yaratmalıyıq. Bunu etmək üçün, ilk növbədə, iqtisadi potensial möhkəmlənməlidir. Bu istiqamətdə biz öz işimizi düşünülmüş konsepsiya şəklində qururuq. Proqram tərtib edirik və sonra o, icra olunmağa başlayır. İndi Bakı şəhərinin inkişafına dair iki mühüm proqram qəbul edilibdir. Onlar artıq icra olunmağa başlayır.

Bir sözlə, iqtisadi sahədə Azərbaycanın davamlı və dayanıqlı inkişafı təmin olunacaq və ölkəmiz ildən-ilə möhkəmlənəcək, büdcəmiz artacaqdır. Mən sizə bildirmək istəyirəm ki, 2005-ci ildə büdcəmiz 2004-cü ilə nisbətən 70 faiz artmışdır. 2006-cı ildə 2005-ci ilə nisbətən yenə 70-80 faiz artmışdır. Büdcə xərcləri artır, deməli,

Azərbaycanda investisiya layihələri icra olunur, insanların rifah halı yaxşılaşır, maaşlar, pensiyalar mütəmadi qaydada qaldırılır və qaldırılacaqdır. Minimum əmək haqqı insanın minimum tələbatını ödəməlidir. Biz buna nail olacağıq və o gün uzaqda deyildir.

Bir sözlə, iqtisadi potensialın güclənməsi bizim bütün planlarımızı gerçəyə çevirəcəkdir. Planlarımız da çoxdur. Biz ölkəmizi hərtərəfli inkişaf etdirməliyik. Həm bölgələr, həm şəhərlər, kəndlər inkişaf etməli, həm də bütün infrastruktur ən müasir tələblərə cavab verməlidir. Bizim bu istiqamətdə çoxlu fikirlərimiz, planlarımız var.

Bildiyiniz kimi, 10 ildən artıqdır ki, Azərbaycanda Heydər Əliyevin neft strategiyası həyata keçirilir. Neft böyük sərvətdir, təbii ehtiyatdır. Ancaq bu, o zaman xalqa xidmət edir ki, dənizin dibindən çıxarılsın və ondan sonra dünya bazarlarına çatdırılsın. Azərbaycanın neft strategiyasının məğzi məhz bunda idi: xarici sərmayəni cəlb etmək, Azərbaycanda əlverişli sərmayə mühiti yaratmaq və böyük enerji şirkətlərini Azərbaycana cəlb etmək. Bu gün bu var. Azərbaycanda neft hasilatı ildən-ilə artır. Neft Fondu yaradılıbdır və o, şəffaf, ictimaiyyət üçün açıq bir qurumdur. Neft Fonduna nə qədər vəsait yığıldığını Azərbaycanın hər bir vətəndaşı bilir. Çünki bu barədə mütəmadi qaydada məlumat dərc olunur. Bu şəffaflıq, aşkarlıq, əlbəttə ki, bizə çox lazımdır. Hamı bilməlidir ki, ölkənin nəyi var, haraya və necə xərclənir. İctimai nəzarət çox güclü olmalıdır. Xüsusilə Azərbaycana daha böyük həcmdə vəsaitin daxil olacağı indiki mərhələdə.

Azərbaycanın neft strategiyası uğurla icra edilir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri bu il istismara veriləcəkdir. Bizim enerci daşıyıcılarımız dünya bazarına, Avropa bazarına çatdırılacaqdır. İlk növbədə, biz bundan çox böyük iqtisadi mənfəət götürəcəyik. Bu, bizə imkan verəcək ki, ölkəmizi ən yüksək səviyyədə inkişaf etdirək və müasirləşdirək. Digər tərəfdən, o da heç bir şübhə doğurmur ki, Azərbaycanın bölgədəki, qitədəki, dünyadakı mövqeləri möhkəmlənəcəkdir. Çünki Azərbaycan Avropa və dünya istehlakçıları üçün çox önəmli ölkəyə çevrilir. Bu, bizim gücümüzü, önəmimizi artırır, sözümüzün çəkisini artırır və milli maraqlarımıza xidmət edir. Bu il başa çatacaq o nəhəng layihələr eyni zamanda regionda gedən proseslərə çox müsbət təsir gös-

tərəcəkdir. Çünki regional inkişaf meyilləri artıq çox aydındır. Azərbaycan regional inkişaf kontekstində çox fəal rol oynayır, bütün regional layihələrin iştirakçısı və bir çoxunun təşəbbüskarıdır. Bizim iştirakımız olmadan regionda heç bir – nə siyasi, nə enerci, nə iqtisadi layihə, nə də nəqliyyat layihəsi həyata keçirilə bilər.

Azərbaycan Asiyanı Avropa ilə birləşdirən körpüdür. Biz indi öz nəqliyyat infrastrukturumuzu möhkəmləndiririk. Müxtəlif şəhərlərdə yeni hava limanları tikilir, magistral. Bizim dəniz nəqliyyatımıza, dəmir yolumuza böyük investisiyalar qoyulur. Bir sözlə, nəqliyyat sektoru gələcəkdə çox mühüm rol oynayacaqdır. Regionda digər mühüm layihə də məhz bununla bağlıdır. Türkiyəni Azərbaycanla dəmir yolu ilə birləşdirmək – Bakı-Tbilisi-Qars dəmir yolunu işə salmaq indi bizim əsas vəzifəmizdən biridir və buna nail olacağıq. Belə olan halda, həm Azərbaycanla Türkiyə dəmir yolu ilə birləşir, bütün yükdaşımalar bu marşrutla aparılacaqdır. Eyni zamanda, bu da aydındır ki, bizim torpaqlarımızı zəbt edən, bizə qarşı təcavüz edən işğalçı dövlət – Ermənistan bütün bu layihələrdən kənarda qalacaqdır.

Biz heç vaxt imkan verə bilmərik ki, torpaqlarımızı zəbt edən ölkə bizimlə regional əməkdaşlıq etsin. Biz Ermənistanı bütün regional layihələrdən təcrid etmişik. Çünki bizim iştirakımız olmadan heç bir beynəlxalq layihə işləyə bilməz.

Yenə də buna qayıtmaq istəyirəm, bu beynəlxalq, regional layihələr indi təkcə Azərbaycanın, yaxud da onun qonşularının maraqlarını təmin etmir, geniş mənada, dünya üçün əhəmiyyətli layihələrə çevrilir. Azərbaycanın rolu getdikcə artacaqdır. Bizim də məqsədimiz budur. Biz istəyirik ki, Azərbaycan qüdrətli dövlət olsun, Azərbaycan xalqı yaxşı, sülh şəraitində yaşasın, rifah içində yaşasın. Biz istəyirik ki, bütün qonşularımızla münasibətlərimiz yüksək səviyyədə olsun ki, bölgədə sabitlik pozulmasın, əməkdaşlıq olsun. Bizim siyasətimiz məhz buna istiqamətləndirilibdir. Bütün sahələrdə də biz uğurları, nailiyyətləri görürük və əminəm ki, gələcəkdə bunlar daha da artacaqdır.

Bizim büdcəmiz ildən-ilə artır. İndi Azərbaycan öz iqtisadiyyatını tam şəkildə bazar prinsipləri əsasında qurubdur və ümumi daxili məhsulun çəkisində özəl sektorun payı təxminən 75 faizdir.

Nəzərə alsaq ki, bizim ümumi daxili məhsulun böyük hissəsini təmin edən neft-qaz sənayesi dövlət inhisarındadır, bu, çox yüksək göstəricidir. Onu göstərir ki, Azərbaycanda iqtisadiyyat liberallaşıb, sahibkarlıq çox sürətlə inkişaf edir, özəl sektor inkişaf edir. Beləliklə, Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri artıq çox dərin köklər salır.

Amma bununla yanaşı, sosial məsələlərə də böyük diqqət göstərilir. Əgər büdcəmizin strukturuna nəzər salsaq görərik ki, Azərbaycan büdcəsi sosialyönümlüdür. Yəni, bu nə deməkdir? O deməkdir ki, büdcənin əsas hissəsi sosial məsələlərə istiqamətləndi-rilibdir. Maaşlar, pensiyalar, sosial müavinətlər, humanitar sahəyə – təhsilə, shiyyəyə və s. ayrılan xərclər artır. Bu, sintezdir. Bazar iqtisadiyyatının önəmini heç kim inkar edə bilməz. Uzun illər sosi-alizm və kapitalizm sistemlərinin toqquşması da nə ilə nəticələndi, biz hamımız onu yaxşı bilirik. Yəni hər bir ölkənin uğurlu, uzunmüddətli inkişafını ancaq bazar iqtisadiyyatı prinsipləri təmin edə bilər. Ancaq əgər biz öz fəaliyyətimizi yalnız bu sahə ilə məhdudlaşdırsaq, onda Azərbaycanda ədalətli inkişaf gedə bilməz. Biz sosial sektora, sosial sahəyə daim çox böyük diqqət göstərməliyik. Çünki biz insanlar üçün yaşayırıq. Bizim məqsədimiz insanlara xidmət etməkdir. Mən şəxsən öz vəzifəmi məhz bunda görürəm. Bu, böyük vəzifədir, böyük məsuliyyətdir, xalq qarşısında məsuliyyətdir. Mən xalq qarşısında məsuliyyət daşıyıram. Ona görə çalışmalıyam ki, Azərbaycan xalqı, onun hər bir vətəndaşı gündəlik həyatında korluq, çətinlik çəkməsin, problemlə üzləşməsin.

Yoxsulluq şəraitində yaşayanların sayının kəskin şəkildə aşağı salınması, işsizliyin aradan qaldırılması bu məqsədləri güdür. Ona görə sosial sahə bizim işimizdə çox böyük yer tutur və gələcəkdə bu sahəyə daha da böyük investisiyalar qoyulacaqdır. İndi o dövr keçir ki, Azərbaycanın yalnız və yalnız xarici sərmayədən asılı olduğu, yaxud da ölkənin inkişafını xaricdən gələn sərmayənin müəyyən etdiyi dövr indi arxada qalır. Biz artıq o dövrü yavaş-yavaş bitiririk. Ancaq yenə də çox maraqlıyıq və çalışmalıyıq ki, Azərbaycana daha da böyük həcmdə xarici sərmayə gətirək. Sizə bir rəqəm də gətirə bilərəm, xarici sərmayələrin adambaşına düşən həcminə görə Azərbaycan bütün bölgədə ən birinci yerdədir. Yəni bizim liberal siya-

sətimiz, sərmayə mühitinin əlverişli olması, sərmayələrin qorunması bu nəticələrə gətirib çıxarıbdır. Ancaq indi öz imkanlarımız da var, biz daha çox öz gücümüzə güvənməliyik. Çünki buna imkan var. Bir də ki, 15 illik müstəqillik tarixi bizə hər şeyi açıq-aydın göstərdi. Biz özümüz möhkəmlənməliyik, güclənməliyik. Yalnız o təqdirdə Azərbaycan zəngin, qüdrətli dövlətə çevriləcəkdir.

Əlbəttə ki, sosial sahədə də işlər davam etdiriləcəkdir. Diq-qətimizin böyük hissəsi Azərbaycanda ən çətin vəziyyətdə yaşayan insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilibdir. Ermənistanın işğalından əziyyət çəkən qaçqınlar, köçkünlər ən çətin vəziyyətdə yaşayanlardır. Onlar üçün yeni şəhərciklər salınır, yeni binalar tikilir. Bu yaxınlarda Ağdam rayonunda yeni qəsəbənin açılışında iştirak edirdim. Mən iki il yarım bundan əvvəl demişəm ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Bu istiqamətdə işlər görülür. Yəqin ki, gələn il bütün çadır şəhərcikləri ləğv ediləcək və onların əvəzinə ən müasir tələblərə cavab verən evləri, xəstəxanaları, uşaq bağçaları, məktəbləri, yolları, su, enerji təchizatı, bir sözlə bütün infrastrukturu olan gözəl şəhərciklər salınacaqdır. Bu, bizim vəzifəmizdir və onu yerinə yetirəcəyik.

Ancaq bunlar müvəqqəti tədbirlərdir. Bizim torpaqlarımız işğaldan azad olunandan sonra yeni şəhərlər tikəcəyik. Çünki işğal olunmuş torpaqlarda bütün binalar dağıdılıbdır. Erməni vandalları bütün binaları, orada olan bütün qəbiristanlıqları, məscidləri, məktəbləri, tarixi abidələri – hamısını dağıdıblar. Bu, vəhşilikdir. Biz torpaqlarımızı azad edəndən sonra o bölgələri yenidən bərpa edəcəyik. Bizim iqtisadiyyatımız buna imkan verəcəkdir.

Bildiyiniz kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi uzun illərdir ki, öz həllini tapmır. Düzdür, danışıqlar gedir, atəşkəs əldə ediləndən sonra danışıqların mərhələləri olubdur. Bir neçə dəfə sanki tərəflərin mövqeləri də yaxınlaşmışdır. Ancaq nəticə etibarilə münaqişə öz həllini tapmır. Biz 12 ildir ki, sülh danışıqlarına sadiqik. 12 ildir Ermənistanla Azərbaycan arasında atəşkəs rejimi var. Biz bu danışıqların bir nəticə verəcəyini ümid edərək, onlarda iştirak edirik. Ancaq nə vaxta qədər?! Bu proses əbədi ola bilməz. Çünki Azərbaycan xalqının və iqtidarının səbri tükənir. Biz sülh prosesinə sadiqik, danışıqlarda iştirakımız bunu bir daha göstə-

rir. Biz istəyirik ki, bu məsələni müharibə yolu ilə yox, sülh yolu ilə həll edək. Bizim bütün səylərimiz, addımlarımız buna yönəldilibdir.

Amma biz görəndə ki, Ermənistan tərəfi konstruktiv mövqe tutmur, danışıqlarda özünü səmimi aparmır, dünya ictimaiyyətini aldatmaq istəyir, çaşdırmaq istəyir, onda bizim ayrı yolumuz qalmır. Bizim başqa yolumuz yoxdur. Biz nə vaxta qədər sülh prosesində iştirak edəcəyik?! Mən demişəm, necə deyərlər, əgər son ana qədər, son sınağa qədər biz hiss etsək ki, imkan var, sülh prosesində iştirak edəcəyik. Əgər görsək ki, bu proses, sadəcə, imitasiya xarakteri daşıyır, Azərbaycan bu prosesdə iştirak etməyəcəkdir. Bu münaqişə yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər.

Tarixi baxımdan Dağlıq Qarabağ Azərbaycan torpağıdır və həmişə Azərbaycan torpağı olubdur. Ermənilər oraya XIX əsrin ortalarına qədər köçürülmüşlər. Hətta Dağlıq Qarabağın özündə bunu təsdiq edən, 1978-ci ildə qoyulmuş və ermənilərin Qarabağa köçürülməsinin ildönümünü əks etdirən abidə də var idi. Sonra ermənilər onu vurub dağıtdılar. Ermənilər bizim torpaqlarımıza qonaq kimi gəlmişdilər. Ondan sonra orada əhali baxımından üstünlük əldə edərək, separatizm meyillərinə təkan verdilər. Davakar separatizm və Ermənistanın təcavüzkar, işğalçı siyasəti indi Azərbaycan tor-paqlarının işğal olunmasına gətirib çıxarıbdır.

Beynəlxalq hüquq normaları hamı üçün eyni olmalıdır. Heç kim heç bir müstəsna yanaşmaya, yaxud da hüquqa malik ola bilməz. Beynəlxalq hüquq normaları tələb edir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bizim ərazi bütövlüyümüz bütün dünya tərəfindən qəbul edilir, Birləşmiş Millətlər Təşkilatı tərəfindən, bütün təşkilatlar tərəfindən tanınmışdır. Ona görə Ermənista-nın işğalçı qüvvələri işğal olunmuş torpaqlardan çıxmalıdır, Azərbaycan vətəndaşları öz dədə-baba torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Ondan sonra Ermənistanla Azərbaycan arasında normal münasibətlər bərpa oluna bilər. Biz ancaq bu yolla sülh sazişinə imkan verə bilərik. Biz Dağlıq Qarabağın heç vaxt – nə bü gün, nə sabah, nə 10 ildən sonra, nə də 100 ildən sonra Azərbaycandan ayrılmasına razılıq verməyəcəyik.

Biz zərərçəkən tərəfik. Ermənistan bizə qarşı etnik təmizləmə

siyasəti aparıbdır və vaxt gələcək, onlar buna görə beynəlxalq ictimaiyyət qarşısında cavab verəcəklər. Biz onlara imkan veririk ki, əgər onlar konstruktiv təkliflərə razılıq versələr, Minsk qrupunun həmsədrləri tərəfindən irəli sürülmüş yeni çərçivəyə razılıq versələr, Praqa prosesində səmimi şəkildə iştirak etsələr, onda, Dağlıq Qarabağdakı ermənilərin təhlükəsizliyi, rahat yaşaması təmin olunacaqdır.

Dünyada mövcud olan çox müsbət təcrübə – milli azlıqlar üçün muxtariyyət təcrübəsi. Avropanın özündə də muxtariyyətlər var. Bir sıra başqa ölkələrdə də var. Muxtariyyət o demək deyil ki, sən separatizmlə məşğul olasan və yaşadığın torpağı o ölkədən ayırasan. Müxtəlif ölkələrdə muxtariyyət var, onun öz qayda-qanunları, tənzimləyici mexanizmləri var. Ancaq muxtariyyət bir, separatizm isə tamamilə başqa şeydir. Muxtariyyət mümkündür və dünyada mövcud olan müsbət təcrübə, əlbəttə, münaqişə ilə əlaqədar da tətbiq olunmalıdır.

Yenə də deyirəm, bu, bizim prinsipial mövqeyimizdir və bu mövqedən heç vaxt dönməyəcəyik. Ancaq o da həqiqətdir ki, 12 ildir atəşkəs rejimi var və münaqişə öz həllini tapmır. Belə olan halda biz nə etməliyik? Bu barədə artıq Azərbaycanda, iqtidarda məsləhətləşmələr gedir. Əgər biz görsək ki, Ermənistan sülh prosesini pozmaq niyyətindədir və buna gətirib çıxaracaq, onda, əlbəttə ki, Azərbaycan öz siyasətində sülh prosesində iştirak məsələsinə yenidən baxmalı olacaqdır.

Ancaq bununla yanaşı, iqtisadiyyatı inkişaf etdirməklə yanaşı, biz ordu quruculuğunu da möhkəmləndiririk. Son illər ərzində bu sahəyə böyük diqqət göstərilir. Sizə deyə bilərəm ki, Azərbaycanın hərbi büdcəsi ildən-ilə artır. 2005-ci ildə 2004-cü ilə nisbətən 70 faiz artmışdır. 2006-cı ildə 2005-ci illə müqayisədə 100 faiz, yə-ni 2 dəfə artmışdır. 2007-ci ildə daha da çox artacaqdır. İndi bizim hərbi büdcəmiz 600 milyon dollara bərabərdir. Mən vəzifə qoymuşam ki, yaxın zamanlarda bizim hərbi büdcəmiz Ermənistanın bütün büdcəsinə bərabər olsun. Ermənistan bizimlə heç vaxt rəqabət apara bilməyəcəkdir. Ermənistan rəhbərliyi bunu nə qədər tez başa düşsə, onlar üçün də bir qədər sərfəli olacaqdır. Çünki Azərbaycan inkişafdadır. Azərbaycanda siyasi proseslər sürətlə gedir və demok-ratik-

ləşmə prosesləri gedir. Beynəlxalq təşkilatlarla əməkdaşlığımız möhkəmlənir. Avratlantik strukturlarına inteqrasiya siyasətimiz uğurla gedir. Avropa İttifaqı ilə "Yeni qonşuluq siyasəti" çərçivəsində tədbirlər planı hazırlanır. NATO ilə "Fərdi tərəfdaşlığın fəaliyyət planı" hazırdır və yaxın vaxtlarda icra ediləcəkdir.

Digər beynəlxalq təşkilatlarda Azərbaycan mövqelərini möhkəmləndirir. Avropa Şurası keçən ilin yanvarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair çox mühüm qətnamə qəbul etmişdir və orada ilk dəfə qeyd olunmuşdur ki, Ermənistan Azərbaycan torpaqlarını zəbt edibdir. Bu vaxta qədər müxtəlif təşkilatlarda deyilirdi ki, hansısa erməni qüvvələri və bu, çox mü-cərrəd bir termin idi. Avropa Şurasının qətnaməsində açıq göstəril-mişdir ki, Avropa Şurasının üzvü olan bir ölkə, Avropa Şurasının üzvü olan digər ölkəyə qarşı təcavüz edib və bu təcavüz nəticəsində etnik təmizləmə halları olub, torpaqların 20 faizi işğal edilib və bir milyon qaçqın-köçkün yaranıbdır. Yəni, bu, çox mühüm bir qətnamədir.

Azərbaycan İslam Konfransı Təşkilatında çox fəaldır və İslam dünyası ilə əlaqələrimiz daha da möhkəmlənir. Bu sahəyə böyük önəm veririk. Müsəlman ölkələrinə mənim səfərlərim və o ölkələrdən qonaqların Azərbaycana səfərləri bizim həmrəyliyimizi daha da möhkəmləndirir. Biz digər təşkilatlarda regional müstəvidə GUAM təşkilatında, MDB-də də fəalıq. Yəni siyasi proseslər, Azərbaycanın artan mövqeləri, artan önəmi və ölkədə gedən demokratikləşmə, xalqla iqtidar arasında olan birlik, vəhdət bizim mövqelərimizi möhkəmləndirir.

Digər tərəfdən, iqtisadi potensial baxımından Ermənistanla Azərbaycan arasında olan uçurum ildən-ilə daha da dərinləşəcəkdir. Bizim proqramlarımızın əsas məqsədi ondan ibarətdir ki, çox qısa müddət ərzində iqtisadi potensialımızı gücləndirək ki, Qarabağ məsələsində mövqelərimiz daha da möhkəm olsun. Əgər bu olmasa, əgər iqtisadi artım olmasa, maliyyə intizamı möhkəmlənməsə, Azərbaycanda çox cəsarətli iqtisadi islahatlar aparılmasa, biz büdcəni haradan dolduracağıq, orduya bu qədər pulu haradan ayıra biləcəyik? İqtisadi potensial da bizim tərəfimizdədir və ildənilə bizim büdcəmiz artacaq və bütün hərbi xərclər də artacaqdır.

Məsələnin ikinci tərəfi. Azərbaycanın dünyada artan mövqeləri. Xüsusilə enerci daşıyıcıları ilə bağlı bəzi bölgələrdəki ixtilaflar, ziddiyyətlər və problemlər artıq Azərbaycanı dünyada alternativ enerji daşıyıcıları nəql edən ölkə kimi təqdim edir. Biz bunu hiss edirik. Əgər iki il bundan əvvəl biz Avropa ölkələri ilə danışıqlarda, sadəcə olaraq, müəyyən istiqamətləri müəyyən edirdiksə və danışıqlar daha çox nəzəri xarakter daşıyırdısa, indi praktik xarakter daşıyır. İndi Azərbaycanın nefti və qazı Avropaya nəql ediləcək və hər iki tərəf bunda çox maraqlıdır. Yəni Azərbaycan dövlət kimi, əlbəttə ki, Ermənistanla heç cür müqayisə edilə bilməz. Ermənistan bütün regional layihələrdən təcrid olunmuş vəziyyətdədir. Ona görə ki, biz onları təcrid etmişik. Ermənistanın inkişaf potensialı çox məhduddur, faktiki olaraq yoxdur. İnvestisiya qoyulmur, əhali oradan gedir, yoxsulluq ölkəni bürüyür. Ermənistanın işğalçı siyasəti, əsassız iddiaları öz xalqına nə vaxta qədər mənfi təsir göstərəcəkdir?! Ona görə Dağlıq Qarabağ məsələsinin həlli, Azərbaycanın ərazi bütövlüyünün bərpası Ermənistan xalqına da xidmət göstərəcəkdir. Onlar da bu çətin vəziyyətdən çıxa, regionda gedən proseslərdə iştirak edə və ölkələrə normal qonşu ola bilərlər.

İndi baxın, onların hansı qonşu ilə normal münasibətləri var? Heç biri ilə. Azərbaycanın isə bütün qonşuları ilə çox açıq, səmimi münasibətləri var. Çünki biz əməkdaşlığa açığıq. Altdanaltdan heç kimə qarşı heç bir təxribat törətmirik, separatizmlə məşğul olmuruq. Əksinə, Azərbaycan ölkədə yaşayan bütün xalqların doğma vətənidir. Azərbaycan çoxmillətli ölkədir. Burada müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Azərbaycanda nə milli, nə dini zəmində heç vaxt problem olmamışdır və olmayacaqdır. Bu, bizim strateci xəttimizdir. Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar.

Amma Ermənistana baxın – monodövlətdir, orada heç bir başqa millət yaşaya bilmir. Orada sovet vaxtında deyəsən 90 faiz idi, indi doxsan doqquz onda neçə faiz erməni yaşayır. Başqa insanlar, başqa millətə mənsub olanlar orada yaşaya bilmirlər. Onlar bu siyasətdən əl çəkməlidirlər. Bu siyasət onları uçuruma aparır.

Biz öz tədbirlərimizi görməliyik, biz möhkəmlənməliyik. Azərbaycan öz iqtisadi potensialını, hərbi potensialını, siyasi imkan-

larını tam şəkildə işə salır. Biz hər istiqamətdə çox sürətlə, düşünülmüş proqram və konsepsiya əsasında irəliləyirik. Yenə də qeyd etmək istəyirəm ki, bu istiqamətdə Azərbaycan diasporunun çox böyük rolu var. Mən istəyirəm ki, həm Azərbaycanın dünyada təbliğ edilməsində, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasında, azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakında bu rol daha da güclü olsun. Məsələn, mən çox istəyirəm ki, azərbaycanlılar yaşadıqları bütün ölkələrin siyasi həyatında daha fəal rol oynasınlar. Siyasi partiyalara üzv olsunlar. Çalışsınlar ki, o ölkələrin qanunvericilik orqanlarına seçilsinlər. Bu, bizim mövqelərimizi möhkəmləndirir.

İqtisadi sahədə bizim mövqelərimiz çox möhkəmdir. Bu da çox önəmlidir və bizim imkanlarımızı daha da artırır. İndi gərək biz siyasi müstəvidə möhkəmlənək. Buna da gözəl zəmin var. Çünki iqtisadi baza olandan sonra siyasi proseslərdə iştirak etmək daha da asan olacaq və mən sizi bu işə də dəvət edirəm. Bizim diasporumuz həm siyasi, həm də iqtisadi proseslərdə fəal iştirak etməklə, Azərbaycanın mövqelərini daha da möhkəmləndirəcək ki, gücümüz daha da artsın. Bizim gücümüz sizin fəaliyyətinizdir. Sizin isə gücünüz Azərbaycan dövlətinin güclü olmasıdır. Azərbaycan dövləti nə qədər güclü olsa, sizin mövqeləriniz də bir o qədər güclü olacaqdır. Azərbaycanlıların yığcam yaşadıqları, yaxud da çox böyük sayda yaşadıqları ölkələrin dövlət, hökumət başçıları ilə mənim bu barədə çox geniş söhbətlərim olubdur. Elə bir görüş olmayıbdır ki, biz bu məsələyə toxunmayaq. Elə bir tədbir olmayıb ki, mən bu mövzunu dilə gətirməyim. Hər dəfə bunu edirəm və edəcəyəm. Çünki bu, bizim xalqımızın nüfuzunu möhkəmləndirir.

Azərbaycan xalqı böyük xalqdır. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Bizim hamımızın bir Vətəni var – Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək. Bu işdə hamımıza uğurlar diləyirəm.

Sağ olun.

## Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamlarına uyğun olaraq Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri kütləvi tirajla nəşr olunaraq ölkənin bütün kitabxana şəbəkəsinə hədiyyə edilmişdir. Hər iki sərəncam üzrə Azərbaycan və dünya ədəbiyyatı, eləcə də lüğət və ensiklopediyalar silsiləsindən ümumi tirajı 9 milyondan artıq kitab kitabxanalara göndərilərək oxucuların ixtiyarına verilmişdir. Proses indi də davam etməkdədir. Bu nəşrlər sayəsində gənc nəslin latın qrafikası ilə çap olunmuş bədii və elmi ədəbiyyata ehtiyacının ödənilməsi istiqamətində mühüm işlər görülmüşdür. Lakin həmin kitabların satışının nəzərdə tutulmaması və kitab həvəskarlarının öz şəxsi kitabxanalarını latın qrafikasında nəfis şəkildə çap olunmuş ədəbiyyat nümunələri ilə zənginləşdirmək tələbatı onların ayrıca olaraq nəşri zərurətini meydana çıxarmışdır.

Müasir Azərbaycan oxucularının dünya ədəbiyyatına olan mənəvi tələbatını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan və dünya ədəbiyyatı nümayəndələrinin əsərlərindən ibarət 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası" nəfis tərtibatla nəşr edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan

Respublikası Təhsil Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının və Azərbaycan Yazıçılar Birliyinin tövsiyələrini nəzərə almaqla bu Sərəncamın 1-ci bəndində qeyd olunan "Dünya ədəbiyyatı kitabxanası"nın nəşri ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti,***
*Bakı şəhəri, 24 avqust 2007-ci il.*

## Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında

## *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

"Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 24 avqust tarixli 2354 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

1. Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərindən ibarət 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası"na daxil olunmuş əsərlərin siyahısı təsdiq edilsin (siyahı əlavə olunur).

2. Azərbaycan Milli Elmlər Akademiyası bu Sərəncamın 1-ci bəndi ilə təsdiq olunmuş Siyahıya daxil edilmiş əsərlərin tərcüməsi, tərtibatı və çapa hazırlanması barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti,***
*Bakı şəhəri, 30 dekabr 2007-ci il.*

**Azərbaycan Respublikası Prezidentinin
2007-ci il 30 dekabr tarixli
Sərəncamı ilə təsdiq olunmuş
"Dünya ədəbiyyati kitabxanasi"na daxil olunmuş
əsərlərin siyahısı**

*30.12.2007*

**I. Klassik dünya ədəbiyyatı**

1. Aleksandr Puşkin. Seçilmiş əsərləri
2. Anton Çexov. Seçilmiş əsərləri
3. Artur Konan Doyl. Əsərləri
4. Cek London. "Martin İden"
5. Con Milton. Seçilmiş əsərləri
6. Conatan Svift. "Qulliverin səyahəti"
7. Çarlz Dikkens. "Oliver Tvistin macəraları"
8. Daniel Defo. "Robinzon Kruzo"
9. Edqar Allan Po. Seçilmiş əsərləri
10. Emil Zolya. Seçilmiş əsərləri
11. Fenimor Kuper. Əsərləri
12. Fransua Rable. "Qarqantua və Pantaqruel"
13. Fridrix Şiller. Seçilmiş əsərləri
14. Fyodor Dostoyevski. Seçilmiş əsərləri, I cild
15. Fyodor Dostoyevski. Seçilmiş əsərləri, II cild
16. Fyodor Dostoyevski. Seçilmiş əsərləri, III cild
17. Gi de Mopassan. Seçilmiş əsərləri
18. Henrix Heyne. Seçilmiş əsərləri
19. Herman Melvil. Seçilmiş əsərləri
20. Homer. "İliada"
21. Homer. "Odisseya"
22. Jül Vern. Seçilmiş əsərləri
23. İohan Volfqanq Gete. Əsərləri
24. Qustav Flober. Əsərləri
25. Lev Tolstoy. Seçilmiş əsərləri, I cild

26. Lev Tolstoy. Seçilmiş əsərləri, II cild
27. Lev Tolstoy. Seçilmiş əsərləri, III cild
28. Mark Tven. Seçilmiş əsərləri
29. Mayn Rid. Seçilmiş əsərləri
30. Migel de Servantes. “Lamançlı Don Kixot”
31. Nikolay Qoqol. Seçilmiş əsərləri
32. O’Henri. Seçilmiş əsərləri
33. Onore de Balzak. Seçilmiş əsərləri
34. Oskar Uayld. Seçilmiş əsərləri
35. Prosper Merime. Seçilmiş əsərləri
36. Redyard Kiplinq. Seçilmiş əsərləri
37. Robert Stivenson. Seçilmiş əsərləri
38. Sədi Şirazi. “Gülüstan”, “Bustan”
39. Stendal. Seçilmiş əsərləri
40. Valter Skott. Seçilmiş əsərləri
41. Viktor Hüqo. Seçilmiş əsərləri, I cild
42. Viktor Hüqo. Seçilmiş əsərləri, II cild
43. Viktor Hüqo. Seçilmiş əsərləri, III cild
44. Vilyam Şekspir. Seçilmiş əsərləri
45. Yunus Əmrə. Əsərləri

## II. Müasir dünya ədəbiyyatı

46. Akutaqava Rünoske. Seçilmiş əsərləri
47. Aqata Kristi. Seçilmiş əsərləri
48. Andre Morua. Seçilmiş əsərləri
49. Andrey Platonov. Seçilmiş əsərləri
50. Antuan Ekzüperi. Seçilmiş əsərləri
51. Artur Miller. Seçilmiş əsərləri
52. Ayzek Azimov. Seçilmiş əsərləri
53. Bertolt Brext. Seçilmiş əsərləri
54. Cerom Selincer. Seçilmiş əsərləri
55. Con Apdayk. Seçilmiş əsərləri
56. Con Faulz. Seçilmiş əsərləri
57. Corc Oruel. Seçilmiş əsərləri

58. Çingiz Aytmatov. Seçilmiş əsərləri
59. Erix Mariya Remark. Seçilmiş əsərləri
60. Ernest Seton-Tompson. Seçilmiş əsərləri
61. Frans Kafka. Seçilmiş əsərləri
62. Fransuaza Saqan. Seçilmiş əsərləri
63. Frensis Skott Fitscerald. Seçilmiş əsərləri
64. Fridrix Dürrenmatt. Seçilmiş əsərləri
65. Henrix Mann. Seçilmiş əsərləri
66. Herbert Uells. Seçilmiş əsərləri
67. Xorxe Luis Borxes. Seçilmiş əsərləri
68. Xulio Kortasar. Seçilmiş əsərləri
69. Jorj Simenon. Seçilmiş əsərləri
70. Jorji Amadu. Seçilmiş əsərləri
71. Karlos Kastaneda. Seçilmiş əsərləri
72. Leon Feyxtvanger. Seçilmiş əsərləri
73. Marqaret Mitçell. "Küləklə sovrulanlar"
74. Marsel Prust. Seçilmiş əsərləri
75. Mixail Bulqakov. Seçilmiş əsərləri
76. Nazim Hikmət. Seçilmiş əsərləri
77. Nəcib Fazil Qısakürək. Seçilmiş əsərləri
78. Paulo Koelye. Seçilmiş əsərləri
79. Somerset Moem. Seçilmiş əsərləri
80. Stanislav Lem. Seçilmiş əsərləri
81. Stefan Sveyq. Seçilmiş əsərləri
82. Stiven Kinq. Seçilmiş əsərləri
83. Tomas Vulf. Seçilmiş əsərləri
84. Umberto Eko. "Qızılgülün adı"
85. Vladimir Nabokov. Seçilmiş əsərləri

## III. Nobel mükafatına layiq görülmüş müəlliflərin əsərləri

86. Alber Kamyu. Seçilmiş əsərləri
87. Aleksandr Soljenitsın. Seçilmiş əsərləri
88. Bernard Şou. Seçilmiş əsərləri

89. Boris Pasternak. Seçilmiş əsərləri
90. Con Qolsuorsi. Seçilmiş əsərləri
91. Con Maksvell Kutzee. Seçilmiş əsərləri
92. Con Steynbek. Seçilmiş əsərləri
93. Elfrida Yelinek. Seçilmiş əsərləri
94. Elias Kanetti. Seçilmiş əsərləri
95. Ernest Heminquey. Seçilmiş əsərləri
96. Eyvind Yonson. Seçilmiş əsərləri
97. Fransua Moriak. Seçilmiş əsərləri
98. Günter Qrass. Seçilmiş əsərləri
99. Harold Pinter. Əsərləri
100. Henrix Böll. Seçilmiş əsərləri
101. Herman Hesse. Seçilmiş əsərləri
102. Jan-Pol Sartr. Seçilmiş əsərləri
103. Joze Saramaqo. Seçilmiş əsərləri
104. İvan Bunin. Seçilmiş əsərləri
105. Kenzaburo Oe. Seçilmiş əsərləri
106. Knut Hamsun. Seçilmiş əsərləri
107. Qabriel Qarsia Markes. Seçilmiş əsərləri
108. Lüis Sinkler. Seçilmiş əsərləri
109. Migel Asturias. Seçilmiş əsərləri
110. Mixail Şoloxov. Seçilmiş əsərləri
111. Moris Meterlink. Seçilmiş əsərləri
112. Nadin Qordimer. Seçilmiş əsərləri
113. Nəcib Məhfuz. Seçilmiş əsərləri
114. Orxan Pamuk. Seçilmiş əsərləri
115. Per Lagerkvist. Seçilmiş əsərləri
116. Rabindranat Taqor. Seçilmiş əsərləri
117. Romen Rollan. Seçilmiş əsərləri
118. Samuel Bekket. Seçilmiş əsərləri
119. Sol Bellou. Seçilmiş əsərləri
120. Tomas Eliot. Seçilmiş əsərləri
121. Tomas Mann. "İosif və qardaşları"
122. Toni Morrison. Seçilmiş əsərləri
123. Uilyam Folkner. Seçilmiş əsərləri

124. Uilyam Qoldinq. Seçilmiş əsərləri
125. Yasunari Kavabata. Əsərləri

## IV. Dünya ədəbiyyatı üzrə antologiyalar

126. Alman ədəbiyyatı antologiyası
127. Amerika ədəbiyyatı antologiyası
128. Antik ədəbiyyat antologiyası
129. Dünya dramaturgiyası (antologiya), I cild
130. Dünya dramaturgiyası (antologiya), II cild
131. Dünya elmi-fantastik ədəbiyyatı antologiyası, I cild
132. Dünya elmi-fantastik ədəbiyyatı antologiyası, II cild
133. Fransız ədəbiyyatı antologiyası
134. İngilis ədəbiyyatı antologiyası
135. İspan ədəbiyyatı antologiyası
136. İtalyan ədəbiyyatı antologiyası
137. Qədim yunan-roma əfsanələri
138. Latın Amerikası ədəbiyyatı antologiyası
139. Dünya yazıçılarının nağılları
140. Ərəb ədəbiyyatı antologiyası
141. Rus nəsri antologiyası
142. Rus şeiri antologiyası
143. Skandinav ədəbiyyatı antologiyası
144. Türk xalqları ədəbiyyatı antologiyası, I cild
145. Türk xalqları ədəbiyyatı antologiyası, II cild
146. Türk xalqları ədəbiyyatı antologiyası, III cild
147. Yapon ədəbiyyatı antologiyası
148. XX əsr dünya ədəbiyyatı antologiyası, I cild
149. XX əsr dünya ədəbiyyatı antologiyası, II cild
150. XX əsr dünya ədəbiyyatı antologiyası, III cild

## "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2014-cü illərdə inkişafı üzrə dövlət proqramı"nın təsdiq edilməsi barədə

## *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikasında kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması, elmi-mədəni sərvətlərdən hərtərəfli istifadə imkanlarının genişləndirilməsi, cəmiyyətin informasiya təminatının artırılması, eləcə də Azərbaycan kitabxanalarının dünya informasiya məkanına daxil olmasının təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti,***
*Bakı şəhəri, 6 oktyabr 2008-ci il.*

**"Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafi üzrə milli strategiya"nın və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafi üzrə milli strategiyanın həyata keçirilməsi ilə bağlı dövlət proqramı"nın təsdiq edilməsi haqqında**

***AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında" 2008-ci il 10 aprel tarixli 2756 nömrəli Sərəncamının 2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" təsdiq edilsin.

2. "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı" təsdiq edilsin.

3. Bu Sərəncamın 1-ci və 2-ci bəndlərində qeyd olunan Milli Strategiyanın və Dövlət Proqramının həyata keçirilməsi üzrə əlaqələndirici orqan Azərbaycan Milli Elmlər Akademiyası müəyyən edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti,***

*Bakı şəhəri, 4 may 2009-cu il.*

**“Dünya Azərbaycanlılarının III Qurultayının keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 21 yanvar 2011-ci il tarixli, 1293 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü ilə bağlı tədbirlər planı”na əsasən qurultay 2011-ci il iyul ayinin 5-6-da Baki şəhərində keçirilmişdir.**

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYINDA NİTQİ

Hörmətli xanımlar və cənablar!
Əziz qonaqlar!
Əziz həmvətənlər!

Mən sizin hamınızı Dünya azərbaycanlılarının III qurultayının açılışı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Hər birinizə cansağlığı, uğurlar arzulayıram.

Bu qurultay çox əlamətdar bir hadisədir. Azərbaycanda Dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi artıq gözəl ənənəyə çevrilmişdir. Bu ənənənin təməlini 2001-ci ildə ulu öndər Heydər Əliyev qoymuşdur. Onun təşəbbüsü ilə Bakıda ilk dəfə olaraq dünya azərbaycanlıları bir araya gəldilər, çox gözəl qurultay keçirildi. Ondan sonra dünyada yaşayan azərbaycanlıların təşkilatlanması üçün yeni şərait yaradılmışdır.

2002-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. İndi onun adı Diasporla İş üzrə Komitədir. Bütün qitələrdə yaşayan soydaşlarımız komitənin fəaliyyəti nəticəsində öz təşkilatlarını yaratmışlar. Bu təşkilatlar bu gün artıq bütün qitələrdə, bütün ölkələrdə uğurla fəaliyyət göstərirlər.

Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün ulu öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda onun təşəbbüsü ilə 31 dekabr Dünya azərbaycanlılarının Həmrəyliyi günü kimi elan edilmişdir. Bu gün 31 dekabr bizim milli bayramımızdır.

Bu gün nümayiş olunan filmdə ölkəmizin inkişafının müxtəlif istiqamətləri göstərilmişdir. Azərbaycan bu il müstəqilliyinin 20 illik yubileyini qeyd edir. Bu 20 il ərzində biz böyük və şərəfli yol keçmişik. İyirmiillik yubileyi qeyd edərkən ölkəmiz, xalqımız üçün ulu öndər Heydər Əliyevin verdiyi töhfələri bir daha yada salırıq. Müstəqil Azərbaycan üçün ən həlledici anlarda Azərbaycan xalqının tələbi ilə rəhbərliyə gəlmiş Heydər Əliyev ölkəmizi bəladan, faciədən, vətəndaş müharibəsindən qurtara bilmişdir.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan müstəqilliyə qovuşmuşdur. Ancaq o vaxt ölkədə gedən proseslər və mövcud olan ağır vəziyyət müstəqilliyimizi sual altına qoymuşdu. Ölkədə xaos, anarxiya, kütləvi itaətsizlik hökm sürürdü. İqtisadi və siyasi tənəzzül faktiki olaraq ölkəmizi uçuruma aparırdı. Bundan əlavə, Ermənistanın Azərbaycana qarşı təcavüzü və təcavüz nəticəsində torpaqlarımızın işğal altına düşməsi, daxili çəkişmələr, qarşıdurmalar və vətəndaş müharibəsinin başlanması – bütün bunlar müstəqilliyimizin ilk illərinin hadisələri idi.

1993-cü ildə Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində bütün xoşagəlməz hallara son qoyuldu. Ölkəmizdə sabitlik yarandı və Azərbaycanda inkişaf dövrü başlandı. Ona görə biz tam əminliklə və qətiyyətlə deyirik: Heydər Əliyev müstəqil Azərbaycanın banisidir, müstəqil Azərbaycanın qurucusudur. Bu gün Azərbaycan onun qoyduğu yolla gedərək inkişaf edir.

Azərbaycanın inkişaf istiqamətləri 1993-cü ildə və dövlətçiliyimizin formalaşmasının ilk illərində müəyyən edilmişdir. O dövr üçün bu təşəbbüslər həlledici məna daşıyırdı. Çünki bu gün Azərbaycanın reallıqları məhz o dövrdə müəyyən edilmiş və seçilmiş istiqamətlər üzərində qurulmuşdur. Düzgün istiqamət seçilmişdir: Azərbaycan dünya birliyinə inteqrasiya etməli, açıq qapılar siyasəti aparmalı, xarici investisiyaları cəlb etməli idi. Biz bütün bunlara

nail ola bilmişik. Azərbaycanda demokratik, dünyəvi dövlətin qurulması da məhz Heydər Əliyevin siyasətinin nəticəsidir. Bu gün Azərbaycan sürətlə və uğurla inkişaf edən ölkədir. Ölkəmizdə siyasi proseslər çox müsbət istiqamətdə gedir. Siyasi sistem təkmilləşir. Ölkəmiz demokratik əsaslarla idarə olunur. Söz, vicdan, mətbuat azadlığı, insan hüquqlarının qorunması məsələləri bizim üçün prioritetdir. Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla gedir. Biz bütün beynəlxalq qurumlarla, beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq aparırıq.

Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. Bizim Əsas Qanunumuz imkan verir ki, ölkəmiz uğurla və sürətlə inkişaf etsin.

Ölkə qarşısında duran vəzifələr icra edilir. Bir daha demək istəyirəm ki, 1990-cı illərdə düzgün müəyyən edilmiş istiqamət bugünkü reallıqlara gətirib çıxarmışdır. Bu gün Heydər Əliyev siyasəti yaşayır, davam etdirilir və yeni formalarla zənginləşdirilir.

Azərbaycanda müasir dövlət quruculuğu prosesi uğurla gedir. Eyni zamanda, biz milli mənəvi dəyərlərimizə də çox sadiqik, onları qoruyuruq. Azərbaycan dəyərləri bizim üçün müstəsna əhəmiyyət daşıyır. Əsrlər boyu Azərbaycan xalqı milli mənəvi dəyərlərini, ana dilini – Azərbaycan dilini qoruya bilmişdir. Bu gün müasir Azərbaycan dövləti bu möhkəm təməl üzərində yaranır, güclənir və bölgədə, regionda artıq çox mühüm amilə çevrilibdir.

Bizim milli dəyərlərə bağlılığımız Azərbaycan xalqının iradəsinin əlamətidir. Bununla bərabər, dünyada mövcud olan və bizim üçün məqbul sayılan ən mütərəqqi təcrübə Azərbaycanda tətbiq olunur. Azərbaycanda geniş modernləşmə siyasəti aparılır. Həyatımızın bütün istiqamətlərində modernləşmə əlamətlərini görə bilirik. Biz bundan sonrakı dövrdə də bu siyasətə sadiq qalacağıq.

Azərbaycanda, eyni zamanda, güclü iqtisadi potensial yaradılmışdır. Son illər ərzində aparılan iqtisadi islahatlar nəticəsində ölkə tam şəkildə özünü təmin edə bilir və hətta dünya üçün çox böyük problemlər yaratmış maliyyə və iqtisadi böhran Azərbaycana çox az təsir etmişdir. Ən böhranlı illərdə – 2008-ci, 2009-cu, 2010-

cu illərdə Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir, iqtisadiyyatımız artmışdır.

Azərbaycanda siyasi və iqtisadi islahatlar bir-birini tamamlayır. Məqsədimiz ondan ibarətdir ki, bu islahatların dərinləşməsi nəticəsində güclü, müasir dövlət yaradılsın. Biz artıq bu istiqamətdə çox böyük nailiyyətlərə çata bilmişik.

Son 7 il ərzində ölkə iqtisadiyyatı üç dəfə artmışdır. Yəni, ümumi daxili məhsul 300 faiz artmışdır. Bu da dünya praktikasında analoqu olmayan bir təcrübədir. Sənaye istehsalı da təxminən üç dəfə artmışdır. Yoxsulluq şəraitində yaşayanların sayı beş dəfə azalmışdır. Bu, onu göstərir ki, bizim tərəfimizdən aparılan islahatlar sosialyönümlü islahatlardır. Siyasətimizin təməlində insan amili dayanıbdır və bir neçə il əvvəl elan edilmiş "Biz neft kapitalını insan kapitalına çevirməliyik" şüarı bu gün reallaşır. Bunun nəticəsində iqtisadiyyatımızın bütün istiqamətlərində bir canlanma və inkişaf görürük. Maliyyə imkanlarımız genişlənir. Azərbaycanda çox böyük quruculuq işləri aparılır. Azərbaycana xarici və daxili investisiyalar qoyulur. Təkcə keçən il ölkəmizə 16 milyard dollar sərmayə qoyulmuşdur. Ümid edirəm ki, bu il bu rəqəm daha da böyük olacaqdır. Yenə də deyirəm, aparılan islahatlar nəticəsində ən ağır, ən böhranlı aylarda, illərdə biz iqtisadi və makroiqtisadi sabitliyi qoruya bilmişik. Ondan əlavə, atılan addımlar və irəli sürülən təşəbbüslər nəticəsində insanların maddi rifahı artıb, sosial proqramlar icra edilib, sosial ödəmələr, maaşlar, pensiyalar artırılır.

İqtisadi müstəqillik, əlbəttə, imkan verir ki, biz beynəlxalq məsələlərlə də bağlı fikrimizi açıq-aydın ifadə edək. Bölgədə gedən proseslərə Azərbaycanın təsir imkanları artır. Bu da təbiidir. Çünki Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 75 faizini təşkil edir. Onu da qeyd etməliyəm ki, ümumi daxili məhsulun 80 faizi özəl sektorda formalaşır. O da öz növbəsində göstərir ki, Azərbaycanda liberal islahatlar uğurla aparılır. Regional əməkdaşlıq təşəbbüslərinin irəli sürülməsi nəticəsində regionda çox gözəl əməkdaşlıq iqlimi yaranmışdır. Ulu Öndər Heydər Əliyevin neft strategiyası çərçivəsində irəli sürdüyümüz təşəbbüslər gözəl nəticələrini verməkdədir.

Azərbaycan çox uğurlu enerji siyasəti aparır. Enerji təhlükəsizliyi məsələlərinə gəldikdə, son aylar daha çox Azərbaycanın adı çəkilir və bu da təbiidir. Çünki Azərbaycanda görülən işlər və infrastruktura qoyulan vəsait bu gün yeni vəziyyətin yaranmasına gətirib çıxarmışdır. Biz bundan sonra da bu siyasətə sadiq qalacağıq. Azərbaycanın inkişafı təkcə iqtisadi addımlarla məhdudlaşmamalıdır. Yenə də deyirəm, biz istəyirik ki, bütün istiqamətlərdə ən qabaqcıl texnologiyalar, ən qabaqcıl təcrübə Azərbaycanda tətbiq olunsun və insanların yaşayış səviyyəsi ildən-ilə artsın. Buna nail olmaq üçün bütün imkanlar vardır. Bizim düşünülmüş strategiyamız vardır və taktiki addımlarımız da çox uğurludur. Azərbaycan nə xarici, nə daxili siyasətdə, nə də icra etdiyi proqramlarda bir dəfə də olsun səhv etməmişdir. Hesab edirəm ki, bunun nəticəsində bu gün ölkəmizin dünyadakı hörməti böyük dərəcədə artmışdır.

Azərbaycan etibarlı tərəfdaş kimi tanınır, bizim sözümüzə inanırlar. Bizimlə əməkdaşlıq və dostluq etmək istəyən ölkələrin sayı artmaqdadır. Müstəqillik ən böyük sərvətdir, ən böyük uğurumuzdur. Azərbaycan 20 ildir ki, müstəqil yaşayır, Azərbaycan xalqı azad yaşayır. Azərbaycan xalqı öz taleyinin sahibidir, Azərbaycan xalqının iradəsi bizim üçün ən vacib amildir. Ölkə qarşısında duran sosial-iqtisadi məsələlərin həlli əminəm ki, bundan sonra da uğurla icra ediləcəkdir. Çünki bunu deməyə əsas verən bizim təcrübəmiz, artıq əldə edilmiş maliyyə potensialımız və iqtisadi imkanlarımızdır.

Ölkə qarşısında duran ən ağrılı problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Əfsuslar olsun ki, uzun illər danışıqların aparılmasına baxmayaraq, bu məsələ həllini tapmır. Torpaqlarımız işğal altındadır, bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü müdafiə edir, dəstəkləyir. Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, digər təşkilatlar müvafiq qərar və qətnamələr qəbul etmişdir ki, Azərbaycanın ərazi bütövlüyü orada müdafiə edilir və işğalçı qüvvələrin işğal edilmiş torpaqlardan çıxarılması da orada nəzərdə tutulur. Ancaq əfsuslar olsun ki, məsələ həllini tapmır. Bunun yeganə səbəbi Ermənistanın qeyri-konstruktiv

mövqeyi və sülhə hazır olmamasıdır. Ancaq biz yaxşı bilirik ki, gec-tez Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir.

Biz istəyirik ki, bunu sülh yolu ilə və tezliklə həll edək. Ermənistan tərəfi də anlamalıdır ki, artıq Azərbaycanda yaradılmış potensial Ermənistanın potensialı ilə müqayisə edilə bilməz. Bizim iqtisadi imkanlarımız və iqtisadi potensialımız Ermənistandakından 10 dəfə artıqdır. Vaxt keçdikcə bu fərq daha da çoxalacaq, iki ölkə arasındakı uçurum daha da genişlənəcəkdir. Ona görə Ermənistanın marağında olmalıdır ki, bu məsələ tezliklə öz həllini tapsın. Çünki Azərbaycanla rəqabət aparmaq indi onların gücündə deyildir. Bizim təkcə hərbi xərclərimiz Ermənistanın bütün dövlət büdcəsindən 50 faiz artıqdır. Bu, hələ bizim gördüyümüz işlərin birinci nəticələridir. Biz çox yaxşı başa düşürük və görürük ki, bizi nələr gözləyir. Azərbaycan dünya miqyasında zəngin ölkələrin arasında olacaqdır. Artıq beynəlxalq təşkilatların reytinqlərində Azərbaycanın mövqeləri istənilən istiqamətdə çox yüksəkdir. İqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinə görə biz MDB məkanında birinci yerdəyik. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi və hazırlığına görə biz MDB məkanında birinci yerdəyik. İnsan inkişafı indeksinə görə də ən böyük sıçrayışı Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə Azərbaycan etmişdir.

Yəni biz çox yaxşı bilirik ki, 5 il, 10 il sonra Azərbaycanın potensialı nədən ibarət olacaqdır. Çünki bir daha demək istəyirəm ki, bunu proqnozlaşdırmaq üçün əsas verən gördüyümüz işlərdir və icra edilən layihələrdir. Ona görə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunması həm Azərbaycanın, həm də Ermənistanın maraqlarına cavab verir. Beynəlxalq birlik də bunu istəyir, Beynəlxalq birlik də istəyir ki, bu münaqişəyə son qoyulsun. Son aylar ərzində bizi ruhlandıran vacib amillərdən biri də odur ki, bu məsələ ilə bağlı vasitəçilər və onların dövlət başçıları birmənalı şəkildə bildirirlər ki, status-kvo qəbuledilməzdir. Status-kvo dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi təbii ki, torpaqlarımızın işğal altından çıxmasını tələb edir. Biz ümid edirik ki, danışıqların nəticəsi olacaqdır. Hər halda Azərbaycan danışıqlarda bütün dövr ərzində konstruktivlik nümayiş etdirmişdir. Çalışacağıq ki, bütün imkanlardan istifadə edib tezliklə öz ərazi bütöv-

lüyümüzü bərpa edək.

Siz, dünyada yaşayan azərbaycanlılar yaxşı bilirsiniz ki, Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu xalqımız o ərazilərdə yaşamışdır, yaratmışdır. Ermənilər o əraziyə qonaq kimi gəlmişlər. Biz onların Dağlıq Qarabağa gəlməyinin tarixçəsini də yaxşı bilirik. Vaxtilə 1978-ci ildə ermənilər tərəfindən Dağlıq Qarabağda onların Dağlıq Qarabağa köçürülməsini əks etdirən abidə ucaldılmışdır. Müharibənin ilk illərində ermənilər o abidəni dağıtmışlar. Ancaq tarixi dəyişdirmək mümkün deyildir.

Tarix tarixdir. 1978-ci ildə Qarabağda məskunlaşmalarının 150 illiyini qeyd edən ermənilər yaxşı bilirlər ki, onlar bu torpaqlara qonaq kimi gəlmişlər. Nəinki Dağlıq Qarabağ, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni, Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi. Biz indi iddia etmirik ki, bu torpaqlar Azərbaycana birləşsin. Halbuki hər bir azərbaycanlı, hər bir vətəndaş, hər bir uşaq öz tarixini bilməlidir. Bilməlidir ki, bu bölgələr tarixi Azərbaycan torpaqlarıdır. Məsələnin həlli üçün, əlbəttə, bütün amillər nəzərdən keçirilməlidir. Tarix bəllidir. Bu bizim torpağımızdır, nəinki Dağlıq Qarabağ və digər bölgələr. Beynəlxalq hüquq normaları tam şəkildə bizim mövqeyimizi müdafiə edir. Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının verdiyi bəyanatda da Helsinki Yekun Aktına istinad edilir. Helsinki Yekun Aktında açıq-aydın göstərilir ki, ərazi bütövlüyü prinsipləri xalqların öz müqəddəratını müəyyən etmək prinsipləri ilə ziddiyyət təşkil etməməlidir. Beləliklə, hüquqi cəhətdən də mövqeyimiz güclüdür.

İqtisadi cəhətdən indi Ermənistan ilə Azərbaycan müqayisə edilə bilməz. Bu tam başqa, necə deyərlər, çəki dərəcələridir. Siyasi proseslərə təsir imkanları baxımından da Azərbaycan daha əlverişli mövqedədir. Çünki həm coğrafi baxımdan, həm gördüyümüz işlər, infrastruktur, enerji siyasəti, bölgədə təhlükəsizlik tədbirləri-

nin gücləndirilməsi və Azərbaycanın rolu əlbəttə ki, siyasi cəhətdən də çəkimizi daha da artırır. Mən şübhə etmirəm ki, bütün bu amillər, üstəgəl Azərbaycan Ordusunun güclənməsi nəticəsində biz Dağlıq Qarabağ münaqişəsini həll edə biləcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bərpa ediləcəkdir.

Əziz dostlar, əziz həmvətənlər, bir daha sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Mən əminəm ki, Vətənə gəlməyiniz sizin üçün çox xoşdur. Bakının müasir görkəmi də əminəm ki, sizə çox xoş təəssürat bağışlayır. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakı bizim paytaxtımızdır, sevimli şəhərimizdir. Şəhərimizin gələcək inkişaf planları da vardır. Əminəm ki, hər dəfə Bakıya gələndə siz şəhərimizin yeni, gözəl guşələri ilə tanış olacaqsınız. Bu fürsətdən istifadə edərək istərdim ki, Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti ilə bağlı fikirlərimi sizinlə bölüşüm.

Birinci növbədə qeyd etməliyəm və çox şadam ki, dünyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları artıq tam formalaşıb. Birinci qurultaydan keçən dövrdə, yəni 10 il ərzində böyük işlər görülübdür, təşkilatların sayı artıbdır. Beş il əvvəl 336 diaspor təşkilatımız var idisə, hazırda onların sayı 416-ya çatıbdır. Bu, çox vacibdir. Ancaq eyni zamanda, kəmiyyət bu məsələ ilə əlaqədar bəlkə də həlledici rol oynamır. Mən çox şadam ki, diaspor təşkilatlarımız keyfiyyət baxımından da güclənir, onların fəaliyyəti daha da məqsədyönlüdür, daha da təsirlidir. Müxtəlif ölkələrdə bizim diaspor təşkilatları tərəfindən keçirilmiş aksiyalar onu göstərir ki, istənilən yerdə təşkilatlarımız öz fikrini, öz etirazını, yaxud da ki, öz dəstəyini göstərə bilərlər. Bu, çox mühüm amildir. Mən çox şadam ki, bu gün dünyada fəaliyyət göstərən diaspor təşkilatları yeni səviyyəyə qalxıbdır. Bu təşkilatlar arasında koordinasiya işlərinin aparılması əlbəttə ki, onların fəaliyyətini daha da gücləndirir. Mən hesab edirəm ki, diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə bütün Azərbaycan icmasını birləşdirməlidir. İdeal variant ondan ibarət ola bilər ki, hər bir azərbaycanlı diaspor təşkilatlarına üzv olsun, onların tədbirlərində iştirak etsin, öz dəstəyini versin, öz köməyini göstərsin və eyni zamanda, diaspor təşkilatları tərəfindən də lazım olanda kömək görsün. Bunu etmək üçün bu təşkilatlar da-

ha da güclü olmalıdır. Mən hesab edirəm ki, ən vacib amillərdən biri diaspor təşkilatlarının birliyidir. Bəzi hallarda bir ölkədə bir neçə diaspor təşkilatı fəaliyyət göstərir, böyük ölkələrdə əlbəttə ki, onların sayı onlarladır. Əksər hallarda cəmiyyətlər arasında əlaqələr sağlamdır. Ancaq elə hallar var ki, orada müəyyən ziddiyyətlər, müəyyən problemlər, anlaşılmazlıq ortaya çıxır. Mən çox xahiş edirəm ki, əgər belə bir hal varsa, buna son qoyulsun. Çünki biz ölkə daxilində də, xaricdə də bir yerdə olmalıyıq. Birlik bizi gücləndirir. Birlik olmasa, biz güclü ola bilmərik. Bu aksiomadır. Ona görə hesab edirəm ki, diaspor təşkilatlarının fəaliyyətinin inkişafı üçün biz birliyi tam şəkildə təmin etməliyik. Eyni zamanda, hazırda Azərbaycanın dünyadakı daimi və diplomatik nümayəndəliklərinin sayı da artmaqdadır. Keçən qurultay zamanı bizim 46 səfirliyimiz və konsulluğumuz var idi. Hazırda onların sayı 65-ə çatmışdır. Yaxın zamanlarda 8 ölkədə yeni səfirlik və konsulluğun açılışı nəzərdə tutulur. Bu, əlbəttə ki, ilk növbədə Azərbaycan dövlətinin qüdrətini göstərir. Yəni, onu göstərir ki, biz bütün dünya ilə əməkdaşlıq edirik və hazırda 65-dir və 73-ə çatanda əlbəttə ki, dünya miqyasında elə vacib ölkə qalmayacaq ki, orada səfirliyimiz olmasın.

Səfirliklərlə diaspor təşkilatları arasındakı əməkdaşlıq daha da güclü, daha da məqsədyönlü olmalıdır. Mən bu alqışları eşidirəm və görürəm ki, nə demək istədiyimi siz də yaxşı başa düşürsünüz. Mən çox dərinə getmək istəməzdim, amma bəzi hallarda səfirliklərlə diaspor təşkilatları arasında olan ziddiyyətlər məni çox incidir. Biz buna yol verməməliyik. Səfirlik Azərbaycan dövlətinin bir parçasıdır, Azərbaycan dövlətinin rəsmi nümayəndəliyidir, Azərbaycan dövlətinin xarici ölkələrdə simvoludur. Biz elə etməliyik ki, səfirliklərlə diaspor təşkilatları arasında daim mehriban münasibətlər olsun. Əgər hər hansı bir problem, anlaşılmazlıq, yaxud da ki, narazılıq varsa, o, dərhal öz həllini tapmalıdır. Yəni, hərə bir tərəfə, öz küncünə çəkilməməlidir ki, biz sonra müdaxilə edək və vəziyyəti normallaşdırmağa çalışaq. Onlar özləri bir-birinə hörmətlə yanaşmalıdırlar, bir-birinin fəaliyyətini dəstəkləməlidirlər, çünki bizim bir Vətənimiz var – Azərbaycan dövləti. Hər bir Azərbaycan vətən-

daşı çalışmalıdır ki, onun dövləti haqqında müsbət imic formalaşsın, xalqı haqqında reallığı əks etdirən bir təəssürat yaransın. Əgər xarici ölkə vətəndaşları görsə ki, azərbaycanlılar xaricdə bir-biri ilə yola getmirlər, yaxud da ki, bir-birinin əleyhinə iş aparırlar, istər-istəməz onlarda ölkə haqqında, xalqımız haqqında düzgün olmayan təəssürat yarana bilər. Ona görə də mən sizdən xahiş edirəm ki, əgər bu vaxta qədər, indi kimin səhvindən nə olub olub, onu gərək qoyaq kənara, o səhifəni bağlayaq. Bundan sonra diaspor təşkilatları və səfirliklər bir komanda şəklində, bir yumruq kimi işləməlidirlər və Azərbaycanın nə qədər gözəl ölkə olduğunu yaşadıqları ölkənin vətəndaşlarına birgə çatdırmalıdırlar.

Yenə də demək istəyirəm ki, əksər hallarda biz səfirliklərlə diaspor təşkilatları arasında çox gözəl əməkdaşlıq edirik. Ancaq dediyim kimi, elə hallar da var və əminəm ki, bu qurultaydan sonra bu məsələlər də yoluna qoyulacaqdır.

Diaspor təşkilatlarının fəaliyyəti, eyni zamanda, erməni lobbisinin Azərbaycan əleyhinə apardığı çirkin kampaniyaya qarşı tutarlı bir cavabdır. Sirr deyil ki, müstəqilliyimizin ilk illərində bizim nə böyük maliyyə imkanlarımız var idi, xaricdə yaşayan azərbaycanlılar da o vaxt hələ təşkilatlanmamışdılar. Ancaq hazırda bütün ölkələrdə diaspor təşkilatlarımız erməni təbliğatına qarşı Azərbaycan reallıqlarını ortaya qoyurlar. Mən bu hərəkətləri, bu siyasəti alqışlayıram və bizim diaspor təşkilatlarının üzvlərinə bu fədakar və çox gözəl missiyaya görə minnətdarlığımı bildirmək istəyirəm. Biz çalışmalıyıq ki, Azərbaycan haqqında reallıqları bütün dünyaya bildirək. Bizə qarşı dünyada erməni lobbisi fəaliyyət göstərir. Bizə qarşı mübarizə aparır. Onların təsir dairəsində olan bəzi siyasətçilər, bəzi mətbu orqanlar, bəzi ictimai qurumlar Azərbaycana qarşı kampaniya aparırlar – ləkələmə kampaniyası, Azərbaycan reallıqlarını təhrif etmək üçün uydurmalar, düzgün olmayan faktlar yayırlar, yalanlar, böhtanlar yağdırırlar.

Azərbaycan dövləti özünü qoruyur və qoruyacaqdır. Ancaq mən çox şadam ki, diaspor təşkilatlarımız da nəinki erməni lobbi təşkilatlarına tutarlı cavab verir, eyni zamanda, onlar özləri orada Ermənistana qarşı çox ciddi və real faktlar əsasında qurulmuş təbli-

ğat işləri aparırlar. Mən xaricdə çalışan səfirlərimizlə görüşlərdə həmişə demişəm və bu gün də demək istəyirəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır. Bizim diplomatiyamız müdafiə, özünümüdafiə xarakteri daşımamalıdır. Hücum diplomatiyamız nəticə verir. Xüsusilə nəzərə alsaq ki, Ermənistan-Azərbaycan münaqişəsində haqlı tərəf və zərər çəkən tərəf bizik, əlbəttə, arqumentlərimiz daha da ciddidir və daha da tutarlıdır. Hesab edirəm ki, növbəti dövrdə də erməni lobbisinə qarşı bütün dünyada mübarizəmizi davam etdirməliyik, onların yalanlarını ifşa etməliyik, Azərbaycan həqiqətlərini təbliğ etməliyik və Azərbaycan reallıqlarını olduğu kimi təqdim etməliyik. Müxtəlif konfranslar, simpoziumlar, "dəyirmi masa"lar keçirilir. Mən bunu alqışlayıram. Qəzetlər buraxılır. Hesab edirəm ki, qəzetlərin sayı daha da çox olmalıdır və mütəmadi qaydada xaricdə Azərbaycan dilində qəzetlər buraxılmalıdır. O ölkələrin dillərində qəzetlər, jurnallar buraxılmalı, təbliğat xarakterli materiallar nümayiş etdirilməlidir. Biz indi internet dövründə yaşayırıq və Azərbaycanda internet azaddır. Bu da çox vacib bir məsələdir. Heç bir məhdudiyyət yoxdur. Azərbaycanda internet istifadəçilərinin sayı 50 faizə çatmışdır. Bəzi hallarda yenə də erməni təbliğatı nəticəsində, yaxud da ki, erməni lobbisinin təsiri altında olan bəzi riyakar siyasətçilər tərəfindən Azərbaycanda guya mətbuat azadlığının olmaması haqqında fikirlər eşidirik. Necə ola bilər ki, azad internet olan ölkədə, internet istifadəçilərinin sayı 50 faiz olduğu təqdirdə, bütün azad mətbuat mövcud olduğu təqdirdə bizə desinlər ki, burada mətbuat azad deyil. Yəni, internet dövründə biz bu imkanlardan da istifadə etməliyik. İnternet saytları açılmalıdır. Azərbaycan xalqının tarixini, mədəniyyətini, Azərbaycanın bugünkü reallıqlarını, siyasətini əks etdirən çoxsaylı saytlar yaradılmalıdır və Azərbaycanın dövlət qurumları bu işlərdə də öz köməyini göstərməlidirlər. Mən artıq müvafiq göstərişlər vermişəm. Yəni, bir sözlə, biz çalışmalıyıq ki, xaricdə özümüzü olduğu kimi təqdim edək. Bu işdə daha da böyük uğurlar əldə etmək mümkündür. Bununla bərabər, mən hesab edirəm, – bəzi hallarda biz artıq bunu görürük, – xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız o

ölkələrin daxili siyasətinin amilinə çevrilməlidir. Artıq bunun vaxtı gəlib çatıb. Həm ölkəmizin inkişafı, həm diaspor təşkilatlarımızın güclənməsi qarşımızda indi belə imkanlar açır. Soydaşlarımız – azərbaycanlılar yaşadıqları ölkələrdə dövlət, hökumət qurumlarında təmsil olunmalıdırlar. Onların sayı da bəzi hallarda buna imkan verir. Qanunvericilik orqanlarında təmsil olunmalıdırlar. Bunu etmək üçün azərbaycanlılar arasında qarşılıqlı dəstək və birlik daha da güclü olmalıdır. Mən hesab edirəm ki, bu, realdır. Ümid edirəm ki, biz növbəti qurultaya qədər artıq bu barədə də yaxşı xəbərlər eşidəcəyik. Bu həm orada yaşayan azərbaycanlılar üçün bir dəstək olacaq, dayaq olacaq, həm ölkəmiz üçün. Çünki xaricdə azərbaycanlılar nə qədər güclü olsa, dövlətimizin maraqları da o qədər müdafiə olunacaqdır. Nə qədər Azərbaycan güclü olsa, soydaşlarımız özlərini o qədər də əmin, rahat hiss edəcəklər. Ona görə də hesab edirəm ki, diaspor təşkilatlarının bütövlükdə və onların üzvlərinin fərdi qaydada real siyasətə, real işlərə daha da fəal cəlb edilməsi çox arzuolunan bir məsələdir. Əlbəttə, siz daim Azərbaycan dövlətinin dəstəyinə arxalana bilərsiniz.

Bizim xaricdə yaşayan soydaşlarımızın müəyyən hissəsi kommersiya strukturlarında işləyir. Daha çox bizneslə məşğul olurlar. Onların kifayət qədər möhkəm iqtisadi dayaqları vardır. Biz bunu alqışlayırıq. Biz istəyirik ki, hər bir azərbaycanlı yaşadığı yerdən asılı olmayaraq, yaxşı yaşasın, zəngin olsun, imkanları geniş olsun. Mən çox şadam ki, xaricdə yaşayan soydaşlarımızın mütləq əksəriyyəti yaxşı yaşayır. Azərbaycandan xarici ölkələrə işləmək üçün gedən, yaxud da ki, uzun illər orada yaşayan soydaşlarımız aşağı səviyyəli işlərdə işləmirlər. Onlar ya biznes strukturlarında, ya da ali məktəblərdə elmlə məşğul olurlar. Biznes strukturları da kifayət qədər möhkəmdir. Bizim onlardan yeganə arzumuz ondan ibarətdir ki, ətrafda olan soydaşlara da kömək göstərsinlər.

Bununla bərabər, bu gün Azərbaycanın da, bayaq qeyd etdiyim kimi, iqtisadi imkanları genişlənir. Bizim investisiyalarımız indi nəinki Azərbaycanda, eyni zamanda, xarici ölkələrə də qoyulmağa başlamışdır. Bu da bizim strateji iqtisadi və siyasi addımlarımızdan biridir. İndi Azərbaycanın həm dövlət, həm də ki, özəl şirkətlə-

ri xarici ölkələrdə işləyirlər, kontraktları icra edirlər, investisiya qoyurlar. Bu investisiyalar bəzi hallarda yüz milyon, bəzi hallarda milyard dollarla ölçülür.

Azərbaycanın müvafiq dövlət strukturlarına, dövlət şirkətlərinə göstəriş verilmişdir və özəl şirkətlərə tövsiyə edilmişdir ki, çalışdığı ölkələrdə azərbaycanlıları daha da çox işlərə cəlb etsinlər. Bu proses başlanmışdır. Hesab edirəm ki, şirkətlərimiz xaricdə güclənən zaman orada yaşayan azərbaycanlılar bu işlərə daha da çox cəlb ediləcəklər. Burada söhbət təkcə azərbaycanlıları işə götürüb hansısa vəzifə verməkdən getmir. Xaricdə fəaliyyət göstərən şirkətlər Azərbaycan şirkətləri, dövlət şirkətləri tərəfindən icra edilən layihələrdə iştirak etməlidirlər. Podratçı, müqaviləçi kimi iştirak etməlidirlər. Onlar daha da çox pul qazanmalıdırlar.

İstəyirəm, siz biləsiniz ki, dövlət və özəl şirkətlərə bu məsələnin diqqətdən kənarda qalmaması barədə göstəriş və tövsiyələr verilmişdir. Hesab edirəm ki, bu gün və sabah sizin hələ çoxlu görüşləriniz olacaqdır. Dövlət nümayəndələri ilə görüşləriniz olacaqdır. Bu məsələ daha da geniş müzakirə edilə bilər və müzakirə edilməlidir.

Eyni zamanda, biz indi xaricdə Azərbaycan mədəniyyət evlərinin yaradılmasına başlamışıq. Bu yeni təşəbbüsdür. Aparıcı ölkələrin mərkəzi şəhərlərində Azərbaycan dövləti mülkiyyət almaq niyyətindədir. Orada həm Azərbaycan mədəniyyət evlərinin fəaliyyəti təşkil edilməlidir, eyni zamanda, Azərbaycan ticarət evləri də yaradılmalıdır. Göstəriş verilmişdir ki, paytaxt şəhərlərinin mərkəzi yerlərində, mərkəzi küçələrində Azərbaycan mərkəzləri yaradılmalıdır. Orada Azərbaycan məhsulları təqdim edilməlidir, satılmalıdır, digər təbliğat xarakterli materiallar yayılmalıdır. Yəni, bu, bizim planlarımızda var və bu ildən başlayaraq artıq bu proses icra edilməyə başlanmışdır.

Hesab edirəm ki, mütləq Azərbaycan diaspor təşkilatlarının imkanları da bu işlərdə öz rolunu oynamalıdır. Bu məsələ ilə bağlı Xarici İşlər Nazirliyinə, İqtisadi İnkişaf Nazirliyinə göstərişlər verilmişdir. Hesab edirəm ki, Diasporla İş üzrə Dövlət Komitəsi də bu işlərə qoşulmalıdır ki, biz bu işi maksimum səmərə və xaricdə

yaşayan azərbaycanlıların maraqlarını təmin etmək şərti ilə həll edək. Bunun da həm orada yaşayan azərbaycanlılar, həm də bizim üçün böyük faydası olacaqdır.

Əziz dostlar, mənim sizə deyiləsi sözlərim çoxdur. Ancaq vaxt keçir. Mən istəmirəm ki, qurultayın cədvəlinə düzəlişlər edək. İstəyirəm öz çıxışımı yekunlaşdırım. Mən bir daha demək istəyirəm ki, xaricdə yaşayan azərbaycanlıların üçüncü qurultayı çox əlamətdar hadisədir. İlk növbədə, ona görə ki, yenə də biz bir yerə yığışdıq. Yenə də həm Azərbaycan xalqına, həm bütün dünyaya göstərdik ki, biz bir yerdəyik. Biz bir xalqıq, biz böyük xalqıq. Bu gün güclənən Azərbaycan bizim qürur mənbəyimizdir.

Mən əminəm ki, siz də Azərbaycanda gedən proseslərə yaxından bələd olan adamlar kimi, haqlı olaraq qürur hissi keçirirsiniz. Azərbaycan müstəqil ölkə kimi iyirmi il ərzində böyük yol keçmişdir – tam şəkildə azad, müstəqil, gözəl iqtisadi imkanlarla. Azərbaycanda insanlar təhlükəsiz şəraitdə yaşayırlar. Əmniyyət, təhlükəsizlik, ictimai-siyasi asayiş qorunur, bütün azadlıqlar vardır. Siyasi və iqtisadi aləmdə heç bir məhdudiyyət yoxdur. Regionda mövqelərimiz kifayət qədər möhkəmdir və tam əminəm ki, getdikcə bizim təsir imkanlarımız daha da artacaqdır. Bizim xaricdə yaşayan böyük ailəmiz vardır, bu, azərbaycanlılardır. Onlar öz doğma Vətəninə bağlı olan adamlardır. Bizi fərqləndirən əlamət ondan ibarətdir ki, harada yaşamağımızdan asılı olmayaraq, öz Vətənimizə bağlıyıq. Bura bizim vətənimizdir, hamımızın vətənidir. Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var – Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – azərbaycançılıq məfkurəsi! Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər. Çıxışımı Ulu Öndər Heydər Əliyevin unudulmaz sözləri ilə yekunlaşdırmaq istəyirəm: “Biz hamımız fəxr edirik ki, biz azərbaycanlıyıq”.

## Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafina dair dövlət proqramı haqqında

### *AZƏRBAYCAN RESPUBLİKASI REZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan dili xalqımızın mənəvi sərvəti, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməli, dövlətimizin müstəqilliyinin başlıca rəmzlərindən biridir. Bu dildə dünya ədəbiyyatı xəzinəsinə daxil olan misilsiz əsərlər yaradılmışdır.

Hər bir azərbaycanlı tarixin ayrı-ayrı dövrlərində dilimizin dövlət dili kimi fəaliyyət göstərməsindən böyük qürur hissi keçirir. Ölkəmizin zaman-zaman müxtəlif imperiyalar tərkibində yaşamağa məcbur olmasına baxmayaraq, ana dilimiz hətta bu ağır vaxtlarda belə milli məfkurənin, milli şüurun və milli-mədəni dəyərlərin layiqincə yaşamasını və inkişafını təmin etmişdir. Bu gün onun qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətəndaşının müqəddəs borcudur.

Ana dilimiz öz ifadə imkanlarının zənginliyi, səs quruluşunun səlisliyi və qrammatik strukturunun sabitliyi ilə səciyyələnir. Müasir Azərbaycan ədəbi dili siyasi-ictimai, elmi-mədəni sahələrdə geniş işlənmə dairəsinə malik, yüksək yazı mədəniyyəti olan və daim söz ehtiyatını zənginləşdirən bir dildir. O, özünün indiki yüksək səviyyəsinə görkəmli şair və yazıçıların, maarifpərvər ziyalıların zəhməti sayəsində çatmışdır. Bu prosesdə Azərbaycan dilçilik elminin böyük xidməti vardır.

Azərbaycanda müasir mətbuatın, teatrın və təhsil sisteminin təşəkkül tapması, xalqımızın ictimai-siyasi və mədəni həyatında baş verən dəyişikliklər Azərbaycan dilçiliyinin də inkişaf yolunu müəyyən etmişdir. Ana dili ilə bağlı yeni-yeni dərsliklər, lüğətlər və sanballı elmi tədqiqatlar meydana çıxmışdır. Bu sahədə görkəmli ziyalılarımız Mirzə Kazım bəy, Mirzə Fətəli Axundzadə, Rəşid

bəy Əfəndiyev, Sultan Məcid Qənizadə, Məhəmməd ağa Şahtaxtlı, Nəriman Nərimanov, Üzeyir Hacıbəyli və başqalarının mühüm xidmətləri vardır.

Ana dilimizin tədqiqi xüsusilə ötən əsrin ilk onilliklərindən başlayaraq bilavasitə diqqət mərkəzində olmuşdur. Həmin dövrdə Üzeyir Hacıbəyli, Əbdürrəhim bəy Haqverdiyev, Bəkir Çobanzadə, Cavad Axundzadə, Xalid Səid Xocayev və digərlərinin dilimizin qrammatikasına dair bir çox tədqiqatları işıq üzü görmüşdür. 1926-cı ildə Birinci Türkoloji Qurultayın Bakıda keçirilməsi ölkəmizdə dilçilik sahəsində əldə olunan nailiyyətlərin məntiqi davamı kimi yeni-yeni tədqiqatların meydana çıxmasına təkan vermişdir.

1920-ci illərdə respublikada aparılan dilçilik tədqiqatları Azərbaycanı Tədqiq və Təşəbbüs Cəmiyyətində və Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda mərkəzləşmişdi. Sonralar SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsinin və SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının Dil və Ədəbiyyat İnstitutunun yaradılması ilə həmin tədqiqatlar daha sistemli və əhatəli aparılmağa başladı. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası təşkil olunduqdan sonra Azərbaycan dilçiliyi yeni mərhələyə qədəm qoydu. 1969-cu ildə müstəqil Dilçilik İnstitutunun fəaliyyətə başlaması ilə dilşünaslıq elmimizin sürətli inkişaf yolu tutaraq ardıcıl şəkildə müvəffəqiyyətlər qazanması üçün möhkəm zəmin yarandı. Azərbaycan dilçiliyi Məmmədağa Şirəliyev, Əbdüləzəl Dəmirçizadə, Muxtar Hüseynzadə, Əliheydər Orucov, Səlim Cəfərov, Əlövsət Abdullayev, Fərhad Zeynalov və digər alimlərimizin yüksək elmi səviyyəli tədqiqatları yalnız dilşünaslığımızı yox, ümumən Azərbaycan ictimai fikrini zənginləşdirdi.

Xalqımızın böyük oğlu Heydər Əliyev respublikamıza rəhbərlik etməyə başladığı ilk vaxtlardan Azərbaycan ədəbi dilinə ayrıca diqqət yetirmiş, ana dilimizin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdu. Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dövlət quruculuğu strategiyasının tərkib hissəsi olan dil siyasətinin nəticəsidir ki, 1970-ci illərdə Azərbaycan dilinin tarixi intensiv şəkildə öyrənilmiş, müasir Azərbaycan dilinin problemləri ilə bağlı çoxsaylı elmi-

nəzəri əsərlər yaradılmışdır. Ali məktəblər üçün yazılmış dörd cildlik "Müasir Azərbaycan dili" dərsliyi 1974-cü ildə məhz ulu öndərin təşəbbüsü ilə milli dilçilik elminin inkişafına töhfə kimi qiymətləndirilərək respublikanın Dövlət mükafatına layiq görülmüşdür. Azərbaycan dilinə və ümumiyyətlə Azərbaycan dilçilərinin əməyinə verilən qiymət və onlara göstərilən qayğı Azərbaycanın keçmiş sovet məkanında, eyni zamanda beynəlxalq elm aləmində türkologiyanın mərkəzlərindən biri kimi tanınmasına gətirib çıxarmışdır. SSRİ Elmlər Akademiyasının bu istiqamətdə yeganə "Türkologiya" jurnalı məhz Bakıda nəşr edilirdi.

Azərbaycan Respublikası öz müstəqilliyinin bərpasına nail olduqdan sonra Azərbaycan dili xalqımızın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında dövlətin rəsmi dili kimi müstəsna əhəmiyyət kəsb etməyə başlamışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2 yanvar 2003-cü il tarixli fərmanları ilə ədəbi dilimizin fəaliyyət meydanı daha da genişləndirilmiş, onun müxtəlif üslublarının potensialı bir daha üzə çıxarılmış, bütünlükdə dil mədəniyyətimiz qarşısında yeni üfüqlər açılmışdır.

Bununla yanaşı, son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqəti çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir.

Dilin böyük ictimai-siyasi hadisə və mənəvi həyatımızın mühüm amili olduğunu çox zaman nəzərdən qaçıran bəzi mətbuat orqanlarında, radio və televiziya kanallarında ədəbi dil normalarının pozulması adi hal almışdır. Dublyaj edilən filmlərin, xarici dillərdən çevrilən elmi, bədii və publisistik əsərlərin tərcüməsi bir qayda olaraq yüksək estetik tələblərə cavab vermir, onlar sönük və yarıt-

mazdır, dilimizin hüdudsuz ifadə imkanları ilə müqayisə edilməyəcək qədər aşağı səviyyədədir. Küçə və meydanlardakı reklamlarda, afişalarda Azərbaycan dilinin ən adi leksik və qrammatik qaydalarının pozulması təkcə dil mədəniyyətinin deyil, ümumi mədəni səviyyənin də arzuedilməz göstəricisinə çevrilmişdir.

Bəzən dilimizin tarixinə aid səslənən səhv fikirlərə vaxtlı-vaxtında cavab verilmir və bu dilin keçdiyi inkişaf mərhələlərini etibarlı tarixi mənbələr əsasında dolğun əks etdirən fundamental əsərlər yaranmır. Elmi tədqiqatlar üçün bəzi hallarda müasir dünya dilçiliyinin nəzəri səviyyəsindən xeyli geri qalan, heç bir ciddi praktik əhəmiyyət daşımayan bəsit mövzular seçilir.

Azərbaycan dilində internet resurslarının qıtlığı, elektron və interaktiv dərsliklərin yoxluğu, Azərbaycan dilini öyrənən əcnəbi dilli insanlar üçün tədris vəsaitlərinin bir çox hallarda müasir tələblərə cavab verməməsi narahatlıq doğurur. Sovet dövründə Azərbaycan dilçilərinin dünya elmində gedən proseslərdən təcrid olunması ilə ölkəmizdə dilçilik sahəsindəki nəzərəçarpan boşluq hələ də aradan qaldırılmamışdır.

Dilçilik elmimiz təkcə Azərbaycan dili ilə bağlı deyil, həmçinin onun digər türk dilləri ilə münasibətlərini öyrənmək istiqamətində ciddi addımlar atmalı, müasir dillərin nəzəri cəhətdən araşdırılmasına, eyni zamanda qədim dünya dilləri və mədəniyyətlərinin tədqiqinə yönələn yeni layihələr işləyib hazırlamalıdır.

Dövlətçiliyimizin başlıca rəmzlərindən olan ana dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılmasını, ölkəmizdə dilçilik elmi sahəsində vəziyyətin əsaslı surətdə yaxşılaşdırılmasını təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və digər aidiyyəti qurumlarla birlikdə Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət

Proqramının layihəsini hazırlayıb 2012-ci il oktyabr ayının 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan Dövlət Proqramının layihəsini 2012-ci il noyabr ayının 1-dək Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan dilində termin yaradıcılığı sahəsində işlərin tənzimlənməsi və koordinasiya edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası yaradılsın.

4. Azərbaycanda müxtəlif sahələrdə tərcümə işinin mərkəzləşdirilmiş qaydada və məqsədyönlü aparılması üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi yaradılsın.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti,***

*Bakı şəhəri, 23 may 2012-ci il.*

## “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafina dair dövlət dövlət proqramı”nin təsdiq edilməsi haqqında

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, qloballaşma şəraitində Azərbaycan dilinin imkanlarından dövrün tələblərinə uyğun istifadəni və ölkədə dilçiliyin inkişafını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramının həyata keçirilməsinə nəzarət və tədbirlərin icrası zamanı müvafiq təşkilatlarla işlərin əlaqələndirilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə həvalə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramının icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti,***
*Bakı şəhəri, 9 aprel 2013-cü il.*

**Azərbaycan Milli Elmlər Akademiyasının
Nəsimi adina Dilçilik İnstitunun
maddi-texniki bazasının gücləndirilməsi haqqında**

***AZƏRBAYCAN RESPUBLİKASI REZİDENTİNİN
SƏRƏNCAMI***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 23 may 2012-ci il tarixli 2236 nömrəli Sərəncamının icrası ilə əlaqədar, ölkəmizdə dilçilik elmi üzrə araşdırmaların mərkəzi olan Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının möhkəmləndirilməsi, institutda fundamental tədqiqatların, monoqrafik əsərlərin hazırlanması və nəşrinin həyata keçirilməsi, dünyanın mötəbər kitabxanalarında, əlyazma fondlarında saxlanılan ana dilimizə aid qədim mənbələrin öyrənilməsi, həmçinin lüğətçilik sahəsində indiyədək toplanmış materialların elektron bazasının yaradılması və dialektoloji ekspedisiyaların təşkilinin təmin edilməsi məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Milli Elmlər Akademiyasına 2 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti ayrılmış vəsaitin Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu tərəfindən təqdim olunmuş plana əsasən aidiyyəti üzrə istifadəsinə nəzarəti təmin etsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti,***
*Bakı şəhəri, 29 may 2012-ci il.*

*Qeyd: Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi üçün iki milyon manat vəsait ayrılmışdır.*

## "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 417-VQD nömrəli Qanununun tətbiqi haqqında

## *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 417-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun 7.1-1-ci mad-

dəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi həyata keçirir.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti,***
*Bakı şəhəri, 25 yanvar 2017-ci il.*

## Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında

## *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan dili xalqımızın mənəvi sərvəti və dövlətimizin müstəqilliyinin başlıca rəmzlərindən biridir. Ölkədə dil siyasətinin formalaşdırılması, ana dilinin dövlət dili olaraq tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilməklə, həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolunun və nüfuzunun yüksəlməsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır.

Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti, Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanları, "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı", eləcə də "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu və dil siyasəti sahəsində digər normativ hüquqi aktlar, həmçinin tədbirlər Azərbaycanda dilçilik sahəsinin hüquqi əsaslarını və icra mexanizmini müəyyən etmişdir.

Bu gün Azərbaycan dilinin istifadəsi və əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılmışdır. Eyni zamanda, elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrü Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir.

Azərbaycan Respublikasında hər il yüzlərlə əcnəbi təhsil alır. Ölkəmizi əcnəbi tələbələrə daha yaxından tanıtmaq, onların Azərbaycan cəmiyyətinə inteqrasiyasını asanlaşdırmaq və ölkəmizlə mə-

nəvi bağlarını daha da möhkəmlətmək üçün əcnəbilərin, o cümlədən ölkəmizdə təhsil alan xarici ölkə vətəndaşlarının Azərbaycan dilini öyrənməsinə imkan yaradılması əhəmiyyətli məsələlərdən biridir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, müstəqil dövlətçiliyimizin əsas atributlarından biri olan Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin, bu dillə maraqlanan şəxslər üçün əlçatanlığının təmin edilməsi və öyrənilməsinin asanlaşdırılması məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Respublikasında "Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması" layihəsinin tətbiqinə, həyata keçirilməsi mexanizmlərinə və icra müddətinə dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- bu Sərəncamın 1-ci hissəsinə əsasən təqdim olunacaq təklifləri beynəlxalq təcrübə, habelə Azərbaycan Respublikası qanunvericiliyinin və onun tətbiqi təcrübəsinin təhlili əsasında dəyərləndirsin və "Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması" layihəsinin tətbiqinin məqsədəuyğunluğu barədə, habelə həmin layihənin həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaitinə, maliyyələşmə mənbələrinə və icra mexanizmlərinə dair təkliflərini, layihənin tətbiqindən gözlənilən nəticələr barədə proqnozları 2018-ci il dekabrın 1-dən gec olmayaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- zərurət yarandığı təqdirdə, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müraciətinə əsasən, digər dövlət orqanlarının (qurumlarının) da bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş təkliflərin hazırlanması prosesinə cəlb olunmasını təmin etsin;

-bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Bu Sərəncam 2018-ci il avqustun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti,***

*Bakı şəhəri, 17 iyul 2018-ci il.*

## Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında

## *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dili cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində daha geniş istifadə edilməyə başlamış, onun dövlət dili kimi maneəsiz inkişafı üçün münbit zəmin yaranmışdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında işlənib hazırlanmış və 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikası Prezidentinin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 2001-ci il 18 iyun tarixli və “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” 2001-ci il 9 avqust tarixli fərmanları, 2002-ci ildə qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu dilimizin hüquqi statusunu, onun işlənməsi, qorunması və inkişafı üçün zəruri olan tədbirləri müəyyənləşdirmişdir. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” 2012-ci il 23 may tarixli, “Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında” 2012-ci il 29 may tarixli, “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2013-cü il 9 aprel tarixli, “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2018-ci il 17 iyul tarixli sərəncamları, həmçinin “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il

26 noyabr tarixli Qərarı ana dilinə dövlət qayğısının artırılması, dilçilik sahəsində fundamental və tətbiqi araşdırmaların keyfiyyətinin yaxşılaşdırılması üçün əlverişli şərait yaratmışdır.

Müasir Azərbaycan dili mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malikdir. Bununla yanaşı, dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər geniş yayılmışdır. Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi az qala adi hala çevrilmişdir. Bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin olmaması dil pozuntularının azaldılması və aradan qaldırılması istiqamətində təsirli tədbirlər görməyə imkan vermir.

Azərbaycan dilinin saflığının qorunmasını və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsini təmin etmək məqsədilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Azərbaycan Respublikasının dövlət dilinin tətbiqinə nəzarət edən, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edən, dövlət büdcəsindən maliyyələşən "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" publik hüquqi şəxs yaratsın;

2. "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" (bundan sonra – Monitorinq Mərkəzi) publik hüquqi şəxsin təsisçisinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində qeyd edilən səlahiyyətlərini həyata keçirsin;

3. Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı Tədbirlər Planı"nı hazırlayıb bir ay müddətində təsdiq etsin;

4. Monitorinq Mərkəzinin nizamnaməsini Azərbaycan Res-

publikasının Prezidenti ilə razılaşdırmaqla, iki ay müddətində təsdiq etsin;

5. Monitorinq Mərkəzinin strukturunu, işçilərinin say həddini və əməkhaqqı fondunu Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, iki ay müddətində təsdiq etsin;

6. Monitorinq Mərkəzinin fəaliyyətinin təşkili ilə bağlı müvafiq yer ayrılmasını və zəruri maddi-texniki təminat məsələlərini həll etsin;

7. kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının pozulması hallarının qarşısını almaq üçün qanunvericilik aktlarında dəyişikliklər barədə təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti,***

*Bakı şəhəri, 1 noyabr 2018-ci il.*

# ŞUŞA ŞƏHƏRİNDƏ DÜNYA AZƏRBAYCANLILARININ V QURULTAYINDA – ZƏFƏR QURULTAYINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli qurultay iştirakçıları, sizi səmimiyyətlə salamlayıram, Şuşaya, Qarabağa xoş gəlmisiniz! Xahiş edirəm ki, ilk növbədə, Vətən uğrunda canından keçmiş, qəhrəmancasına həlak olmuş əziz şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edək. Allah rəhmət eləsin! Biz şəhidlərimizin qanını döyüş meydanında aldıq, qisasımızı düşməndən döyüş meydanında aldıq. Onların qanı yerdə qalmadı, bu, onların yaxınları üçün, qohumları üçün, bütün Azərbaycan xalqı üçün təsəlli verir. Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir. Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir – hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər. Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa

edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz – Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir. Qarabağ münaqişəsinin həll edilməsi Prezident kimi mənim üçün başlıca vəzifə idi. Vəzifəyə seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir və bütün güclər səfərbər edilmişdir. Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq. Mən deyirdim ki, biz hər birimiz hər gün bu müqəddəs günü yaxınlaşdırmalıyıq, öz əməyimizlə, işimizlə, hərə öz yerində və torpaqlarımızın işğaldan azad olunmasından daha vacib və ali vəzifə yox idi. Məhz buna görə ordu quruculuğu sürətlə aparılmışdır, buna görə Azərbaycan müasir orduya malik olmuşdur, buna görə gənc nəsil vətənpərvərlik, düşmənə nifrət, Vətənə sədaqət ruhunda tərbiyə olunurdu, buna görə iqtisadi islahatlar aparılmışdır. Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq və bu günü görmək amalı dururdu. Biz buna öz gücümüzlə nail olduq. Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi və bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və heç vaxt bu xalq, Azərbaycan xalqı işğalla barışmaq fikrində deyildi. Mən dəfələrlə, o cümlədən birinci Qurultaydan sonra keçirilmiş Dünya Azərbaycanlılarının qurultaylarında çıxış edərkən deyirdim ki, biz heç vaxt bu işğalla barışmayacağıq, nəyin bahasına olursa-olsun öz dədə-baba torpaqlarımızı işğaldan azad edəcəyik. Ancaq həqiqətən mən istəyirdim ki, bu məsələ sülh yolu ilə həll olunsun, müharibə yolu ilə yox. Çünki hesab edirdim ki, sülh yolu ilə bu məsələnin həlli mümkün-

dür. Beynəlxalq hüququn norma və prinsipləri ölkəmizin mövqeyini müdafiə edirdi. Dünyanın aparıcı beynəlxalq təşkilatları Azərbaycanın mövqeyini dəstəkləyən və haqq-ədalətə söykənən qərar və qətnamələr qəbul etmişlər. Ermənistanın işğalçılıq siyasəti dünya miqyasında artıq heç kimə sirr deyildi. Eyni zamanda, Azərbaycanla Ermənistan arasındakı qüvvələr nisbəti bizim xeyrimizə böyük dərəcədə dəyişdiriləndən sonra hesab edirdim ki, Ermənistan rəhbərliyi də nəhayət dərk edəcək ki, bizimlə rəqabət aparmaq üçün onların heç bir resursu yoxdur – nə siyasi resursu, nə iqtisadi, nə də insan resursu yoxdur. Hesab edirdim ki, Ermənistanda nəhayət anlayacaqlar ki, XXI əsrdə qonşu dövlətin torpağının böyük hissəsini işğal altında saxlamaq mümkün deyil. Ancaq əfsuslar olsun ki, həm Ermənistan rəhbərliyi, eyni zamanda, beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar fərqli fikirdə idi və uzun sürən – 30 ilə yaxın davam edən danışıqlar, sadəcə olaraq, bu işğalı əbədiləşdirmək, Ermənistanın işğalçılıq siyasətini pərdələmək və bizi bu acı vəziyyətlə barışdırmaq məqsədi güdürdü. Əlbəttə, biz heç vaxt buna razı ola bilməzdik və Vətən müharibəsindəki göstərdiyimiz iradə, qətiyyət, döyüş meydanındakı qəhrəmanlıq bunu bir daha göstərdi. Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə Qələbə qazanmışıq. Ona görə bu Qələbənin tarixi əhəmiyyəti daha böyükdür. Biz sübut etmişik ki, ölümə getməyə hazırıq, öldü var, döndü yoxdur. Müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedirdilər, bilərəkdən ölümə gedirdilər Vətən uğrunda. İkinci Qarabağ müharibəsində həlak olanların böyük əksəriyyəti gənc nəslin nümayəndələri idi. Onların heç biri Qarabağda olmamışdı, bu diyarı görməmişdilər, amma onların qəlbində yaşayan milli ruh, ədalət və Vətən sevgisi onları ölümə aparırdı. Biz bütün dünyaya sübut etdik ki, XXI əsrdə necə müharibə aparmaq lazımdır, ləyaqətlə müharibə aparmaq lazımdır, müasir üsullarla müharibə aparmaq lazımdır və cəmi 44 gün ərzində Ermənistan ordusu tamamilə məhv edilmişdir. Ermənistanın məhv edilmiş silah-sursatının, texnikasının və qənimət götürülmüş texnikasının qiyməti ən aşağı 4-5 milyard dollar təşkil edir. O başqa məsələdir ki, kasıb ölkə bu pulu haradan əldə

edib. Ancaq demək olar ki, Ermənistan ordusu yoxdur. Ermənistan ordusunda müharibə zamanı kütləvi fərarilik hökm sürürdü, onların özlərinin etirafına görə, 10 min fərari olmuşdur Ermənistan ordusunda. Azərbaycan Ordusunda bir dənə də fərari olmamışdır. Budur, xalqımızın böyüklüyü, xalqımızın qələbəyə inamı, xalq-iqtidar birliyi və bütün dünya azərbaycanlılarının birliyi. Mən bilirəm ki, siz və sizin kimi xaricdə yaşayan milyonlarla azərbaycanlı hərə öz ölkəsində həm müharibənin gedişatını yaxından izləyirdiniz, eyni zamanda, öz çıxışlarınızda, öz şərhlərinizdə, sosial şəbəkələrdə və digər imkanlardan istifadə edərək, Azərbaycanın haqq səsini, haqq işini yaşadığınız ölkələrin ictimaiyyətinə çatdırırdınız. Buna bu gün də ehtiyac var. Bu gün də ehtiyac var, çünki müharibə başa çatsa da, bizə qarşı olan ərazi iddiaları hələ ki, başa çatmayıb. Mən əminəm ki, bu da başa çatacaq. Əminəm ki, biz postmüharibə dövründə göstərdiyimiz səylər nəticəsində və bundan sonra göstərəcəyimiz səylər nəticəsində Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı ərazi iddialarını da aradan götürəcəyik. Ancaq bu gün hələ ki, bu iddialar var və biz buna hazır olmalıyıq. Biz müharibə dövründə – cəmi 44 gün ərzində 300-dən çox şəhər və kəndi döyüş meydanında azad etmişik. Məhz buna görə Ermənistan məcbur olub və noyabrın 10-da – noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Məhz biz Şuşanı noyabrın 8-də azad edəndən sonra Ermənistan rəhbərliyi nəhayət anladı ki, müharibəni davam etdirmək onlara daha baha başa gələcək. Halbuki əgər onlar müharibənin ilk günlərində dediyim sözlərimə əməl etsəydilər və bizə işğal edilmiş torpaqlardan onların çıxarılmasının tarixini, cədvəlini versəydilər, müharibə daha tez dayana bilərdi. Mən müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, nə vaxt torpaqlarımızdan çıxır və həmin an biz müharibəni dayandırmağa hazırıq. Belə də oldu. Ancaq məcburən bunu etdilər. Qırx dörd gün ərzində tamamilə məhv edilmiş Ermənistan ordusu və Ermənistan dövləti faktiki olaraq uçurum kənarında idi. Məcburən noyabrın 10-da kapitulyasiya aktı imzaladı və biz bir güllə atmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarını geri qaytardıq. Beləliklə, biz müharibəni hər-

bi-siyasi yollarla həll etdik. Yenə də deyirəm, təkbaşına, heç bir vasitəçi olmadan. Vasitəçilərə gəldikdə, əfsuslar olsun ki, bu gün də hələ də Minsk qrupu haqqında Ermənistanda yüksək vəzifəli şəxslər sözlər deyirlər. Hesab edirəm ki, bu, əbəsdir, bunun heç bir mənası yoxdur. Minsk qrupu faktiki olaraq 2019-cu ildə iflic olmuşdur. 1992-ci ildə bu məsələni həll etmək üçün mandat almış bu qrup faktiki olaraq heç bir nəticə əldə etməmişdir. İndi bu qrupun tarixçəsinə və hərəkətlərinə, verdiyi təkliflərə nəzər yetirərkən bir daha görmək olar ki, bu qrup məsələni həll etmək üçün yaranmamışdır. Sadəcə olaraq, biz o vaxt bir qədər sadəlövh idik. Bu qrup məsələni həll etmək üçün yox, işğalı əbədiləşdirmək üçün yaradılmışdır. Minsk qrupunun həmsədr ölkələrində erməni lobbi qrupları çox təsirlidir. Məhz buna görə 28 il bu qrupun heç bir nəticəsi olmamışdır. 2019-cu ildə isə qrupun fəaliyyəti demək olar ki, dayanmışdır. Bunun da səbəbi Ermənistanın yeni rəhbərliyinin çox qəribə davranışı olmuşdur. Çünki Ermənistanın yeni rəhbərliyi 2018-ci ildə hakimiyyətə gələndə həm Minsk qrupunda, həm, – onu da açıq demə liyəm, – bizdə də bəzi ümidlər var idi ki, indi kriminal xunta rejim artıq devrildi və hakimiyyətə gələn yeni nəsil siyasətçilər reallığı dərk edəcəklər, anlayacaqlar ki, Azərbaycanla mübarizə aparmaq, müharibə aparmaq onların iqtidarında deyil. Demək olar ki, bir il ərzində aparılan fəal danışıqlar bu fikri daha da gücləndirirdi. Ancaq 2019-cu ildə Ermənistan rəhbərliyi tam fərqli mövqe sərgiləməyə başlamışdır. Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən cəfəng fikirlər faktiki olaraq danışıqlar prosesinə son qoymuşdur. “Qarabağ Ermənistandır və nöqtə” – deməklə danışıqlar prosesinə son qoyuldu və bu açıqlamadan sonra mənimlə görüşə gələn Minsk qrupu demək olar ki, çox qeyri-müəyyən vəziyyətdə idi. Çünki bu bəyanatdan sonra hər hansı bir danışıqların aparılması qeyri-mümkündür. Çünki danışıqların mahiyyəti ondan ibarət idi ki, işğal altında olan torpaqlar azad olunacaq. Faktiki olaraq Minsk qrupu ondan sonra, hətta görüntü naminə hər hansı bir fəaliyyət göstərə bilmədi. Ancaq Ermənistan rəhbərliyi daha uzağa getdi. Ondan sonra bizə qarşı açıq təhdidlər dilə gətirildi. Yeni torpaqlar uğrunda yeni müharibə ilə bizi hədələdilər. Amma yenə də beynəlxalq ictimaiyyət buna susdu. Bu,

açıq təhdiddir. Özü də işğalçı dövlət tərəfindən işğala məruz qalan dövlətə qarşı növbəti təhdiddir. Yəni, bizi növbəti işğalla hədələyirdilər. Ancaq nə BMT, nə ATƏT, nə başqa təşkilatlar, nə Minsk qrupu heç bir açıqlama verməmişdi. Əlbəttə ki, işğalçı bundan ruhlanaraq daha da azğınlaşmışdı və faktiki olaraq Ermənistan tərəfindən onilliklər ərzində uydurduğu mifologiyaya inanmağa başlamışdı. Biz bu mifologiyanı darmadağın etdik, cəmi 44 gün ərzində düşməni torpağımızdan qovduq, Ermənistan bizim qabağımızda diz çökdü, başını əydi, kapitulyasiya aktına imza atmağa məcbur oldu, imdad dilədi və bu gün də həmin vəziyyətdədir. Bu gün də yer qalmayıb qapısını döyməsin ki, amandır Azərbaycan bizi hədələyir, Azərbaycan bizi burada boğmaq istəyir. Biz öz vəzifəmizi icra etmişik. Bizim başqa dövlətlərin torpağında gözümüz yoxdur, heç vaxt olmayıb. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik və İkinci Qarabağ müharibəsi bunu bir daha sübut etdi. Yəni, münaqişəyə son qoyan Azərbaycan əsgəri oldu, qəhrəman Azərbaycan əsgəri. Müharibənin son hadisələri məhz burada – Şuşada baş vermişdir. Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər. Şuşa Zəfərindən sonra faktiki olaraq Ermənistan cəmi bir gün dirəniş, – əgər buna dirəniş demək mümkündürsə, – göstərməyə cəhd etmişdir və noyabrın 9-da artıq kapitulyasiya aktını imzalamağa hazır olduğunu bildirmişdir. Biz müharibəni də ləyaqətlə aparmışıq, postmüharibə dövründə də özümüzü ləyaqətlə aparırıq. Artıq postmünaqişə dövrünün nəticələri haqqında danışmaq olar. Çünki bir daha demək istəyirəm, bizim Qələbəmiz, özü də 44 gün ərzində əldə etdiyimiz Qələbə bir çoxları üçün gözlənilməz idi. Hərbi ekspertlər, siyasətçilər, bu məsələ ilə məşğul olan müxtəlif təşkilatların nümayəndələri bizə həmişə deyirdilər ki, bu müharibəni Azərbaycan uda bilməz. Çünki Ermənistan bu 30 il ərzində işğal edilmiş torpaqlarda istehkamlar qurmuşdur, müdafiə xətləri qurmuşdur. Eyni zamanda, Qarabağın təbii relyefi elədir ki, torpaqları azad etmək çətin olacaq. Çoxlu itkilər olacaq, ancaq nəticədə bütün bu fərziyyələr demək olar ki, etibarsız oldu. Onlar bir məsələni diq-

qətdən kənarda qoymuşdular – Azərbaycan xalqının əzmini, Azərbaycan əsgərinin gücünü, Vətən sevgisini. Bəli, düzdür, bəzi yerlərdə beş, bəzi yerlərdə altı müdafiə xətti qurulmuşdu, istehkamlar qurulmuşdu, tikanlı məftillər, dəmir parçaları və sair. Bölgənin coğrafiyası bizim üçün çox əlverişsiz idi. Bütün bunlara baxmayaraq, az itki verməklə, Ermənistan ordusundan iki-üç dəfə az itki verməklə biz tarixi missiyamızı yerinə yetirdik və son nöqtəni burada – tarixi şəhərimizdə qoyduq. Bu gün Şuşaya gələn hər bir insan, hər bir azərbaycanlı görür ki, Şuşa Azərbaycan şəhəridir. Əgər belə olmasaydı, Şuşa belə ağır vəziyyətdə olmazdı. Siz, indi buraya gələn qonaqlar müharibədən ilyarım keçəndən sonra gəlirsiniz. Əgər müharibədən dərhal sonra gəlsəydiniz, görərdiniz ki, nə vəziyyətdədir. Hələ də dağılmış vəziyyətdədir. Ancaq Şuşa bərpa olunur, Şuşa dirçəlir və Şuşanın dirçəlməsi ilə bağlı gedən işlər çox genişmiqyaslıdır və bu haqda sizə məlumat veriləcək. Əgər bu şəhər ermənilərə mənsub olsaydı, bu günə qoyardılarmı bunu? Burada cəmi 1800 adam yaşayırdı. Özü də onların 90 faizi hərbçilər və onların ailə üzvləri idi. Burada bir dənə də salamat tarixi bina qalmamışdır. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular, məscidlərimizi təhqir etmişdilər, sökmüşdülər, saraylarımızı sökmüşdülər. Yəni, bir dənə də burada yeni bir bina tikilməmişdi. Sadəcə olaraq, bizim təbii sərvətlərimizi istismar ediblər və təkcə Şuşa yox, bütün digər şəhərlər də eyni vəziyyətdədir. Tamamilə dağılmış Ağdamı xarici ekspertlər, jurnalistlər Xirosimaya bənzədirlər. Bəli, Xirosima atom bombası nəticəsində məhv edildi. Ağdam və digər şəhərlər erməni vandallığı nəticəsində məhv edildi. Birinci Qarabağ müharibəsi dayanandan sonra 30 il ərzində binaları daşdaş söküb, daşıyıb satmışdılar və beynəlxalq təşkilatların hesabatlarında bu, var. Qəbirləri qazırdılar, ölülərin qızıl dişlərini çıxarırdılar. Yəni, Ermənistan və erməni xalqı bu vəhşiliyə görə dünya miqyasında rəzil oldu. Ona görə gələn hər qonaq, azad edilmiş torpaqlara gedən hər qonaq erməni vəhşiliyini görür və görməlidir. Görməlidir ki, biz təkcə işğalçını yox, faşistləri məhv etdik. Onların Birinci Qarabağ müharibəsində, İkinci Qarabağ müharibəsində, iki müharibə arasındakı dövr ərzində bütün əməlləri faşist əməlləridir. Bizim dinc şə-

hərlərimizi müharibə dövründə ballistik raketlərlə atəşə tutmaq, insanları məhv etmək faşizm deyil, bəs nədir? "Tocka-U", "SCUD", "İskəndər-M" raketi ilə Şuşa vurulmuşdu. Qar əriyəndən sonra Şuşada, şəhərin mərkəzində "İskəndər-M" raketinin qalıqları aşkarlanmışdır və bir daha biz sübut etdik ki, Ermənistan bu ölümcül silahdan, qadağan edilmiş silahdan və onlarda heç cür olmayan silahdan istifadə edib. Buna inanmayanlar gəlib Hərbi Qənimətlər Parkında "İskəndər-M" raketinin qalıqlarını görə bilərlər. Biz faşizmi məhv etdik. Biz Cənubi Qafqazı faşizmdən xilas etdik. Ancaq hələ də faşizmin təzahürləri baş qaldırır, hələ də Ermənistanda bəzi dairələr və dünya erməniliyi, xarici ölkələrdə yaşayan ermənilər bizi hədələməyə çalışırlar. Amma İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmamalıdır. Biz gücümüzü artırmışıq. İlyarım ərzində ordu quruculuğu sahəsində çox böyük işlər görüldü. Bu işlərin bir hissəsi ictimaiyyətə təqdim edildi, bir hissəsi, əlbəttə ki, təqdim edilə bilməz. Ancaq hər kəs bilməlidir, bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silah-sursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması – bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və biz hər an erməni faşizmini, – əgər bir daha baş qaldırsa, – əzməyə hazır olmalıyıq və hazırıq. Ermənistan bunu yaxşı bilir, yaxşı başa düşür və heç vaxt bunu unutmamalıdır. Biz bundan sonra ancaq və ancaq güclənəcəyik və postmüharibə dövrü bunu bir daha göstərdi. Həm ərazilərin bərpası, həm beynəlxalq müstəvidə addımlarımız bizim gücümüzü göstərdi. Çünki postmüharibə dövrü çox həssas bir dövrdür və artıq ilyarım keçəndən sonra tam əminliklə demək olar ki, biz bu çətin sınaqdan da şərəflə çıxdıq. Aparıcı beynəlxalq təşkilatlar postmüharibə reallıqlarını qəbul etdilər. BMT, hansı ki, Şuşada beynəlxalq tədbir keçirmişdir. Avropa İttifaqı hazırda Azəbaycan-Ermənistan arasında normallaşma prosesində çox fəal iştirak edir. ATƏT, hansı ki, çox yaxşı başa düşür Minsk qrupu artıq yoxdur. Düzdür mən, bir neçə ay bundan əvvəl, hələ Rusiya-Ukrayna müharibəsindən əvvəl demişdim, məndən soruşmuşdular ki, Minsk qrupu nə ilə məşğul olacaq? Dedim ki, 2022-ci ildə onların yaranmasının 30 illik yubileyidir. Yubiley keçirəcəklər,

sonra pensiyaya gedəcəklər. Amma Rusiya-Ukrayna müharibəsi başlayandan sonra heç yubiley keçirməyə bunlarda fürsət olmadı. Digər beynəlxalq təşkilatlar – məsələn, sədrlik etdiyimiz Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləmişlər və postmünaqişə reallıqlarını qəbul etmişlər. İndi qonşu ölkələr 3+3 formatda beş ölkə hazırda əməkdaşlıq formatı yaradıbdır. Qonşu ölkələrin hamısı postmünaqişə reallıqlarını qəbul etmişlər. Böyük dövlətlər – Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Amerika Prezidenti, Böyük Britaniyanın Baş naziri mənə göndərdikləri məktublarda bu, açıq-aydın göstərilir. Yəni, biz artıq bu mərhələni keçdik və bundan sonra Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması məsələsi gündəlikdədir. Yenə də bu gündəliyi biz ortaya qoyduq. Bütün ağrılı məqamlara baxmayaraq, işğala baxmayaraq, edilmiş bu vəhşiliklərə baxmayaraq, bölgənin gələcəyi naminə biz hesab edirik ki, buna ehtiyac var və biz sülh gündəliyi təqdim etdik və Ermənistandan hər hansı bir cavab gəlmədi. Beynəlxalq təşkilatlar da demək olar ki, buna o qədər də maraq göstərmədilər. Ona görə biz konkret olaraq beş prinsipdən ibarət təklif irəli sürdük və Ermənistan bu beş prinsipi qəbul etdi. Beləliklə, Ermənistan rəhbərliyi rəsmən bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycana hər hansı bir ərazi iddiası yoxdur və gələcəkdə də olmayacaq. Hesab edirəm ki, bu, postmünaqişə dövrü üçün vacib məqamdır və biz məhz bu beş prinsip əsasında danışıqları aparmaq fikrindəyik. Hazırda iki ölkənin xarici işlər nazirləri, nazirlikləri işçi qrupları formalaşdırır və hesab edirəm ki, yaxın gələcəkdə konkret danışıqlara başlamaq lazımdır və danışıqları çox uzatmaq lazım deyil. Çünki məhz beş prinsip əsasında sülh müqaviləsi imzalanacaq. Ona görə müqavilənin mətni tezliklə hazırlana bilər, imzalana bilər və beləliklə, Ermənistanla Azərbaycan arasında əlaqələr, o cümlədən diplomatik əlaqələr yaradıla bilər. Bu təklifi irəli sürməklə bir daha biz xoş niyyətimizi göstəririk və yenə də deyirəm, uzaqgörənlik göstəririk.

Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın

ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq. Amma yenə də dediyim bütün bu müsbət məqamlara baxmayaraq, hər birimiz – həm Azərbaycan hökuməti, həm səfirliklər, diaspor təşkilatları, bütün fəallar yeni reallıqları dünya ictimaiyyətinə çatdırmalıdırlar. Sizin – xaricdə yaşayan azərbaycanlıların bu sahədə daha böyük imkanlarınız var. Son illər ərzində bizim diaspor təşkilatlarımız çox fəallaşıb, həm İkinci Qarabağ müharibəsində biz bunu gördük, həm də ondan əvvəlki dövrdə. Hətta erməni radikal qüvvələrinin fiziki hücumlarına baxmayaraq, – onlar yenə də say çoxluğundan istifadə edib bizim fəallara qarşı cinayət törətmişlər, – azərbaycanlılar öz sözünü demişdilər, bu gün də bunu etmək lazımdır. Yəni, yaşadığınız ölkələrin ictimaiyyətini, əgər belə demək mümkündürsə, maarifləndirmək lazımdır – həm Azərbaycan reallıqları haqqında, postmünaqişə dövrü haqqında və Azərbaycan tarixi haqqında. Hesab edirəm ki, bu, çox vacibdir. Çünki tarixi amillər həmişə istənilən münaqişənin siyasi və digər yollarla həll edilməsi üçün çox vacibdir. Tarix də göz qabağındadır. Uzaq tarixə getməyə ehtiyac yoxdur. Sadəcə olaraq, XIX əsrdə imzalanmış müqavilələri beynəlxalq ictimaiyyətə çatdırmaq kifayətdir. Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələri. Orada erməni əhalisindən söhbət getmir. Kürəkçay müqaviləsini İbrahimxəlil xan Şuşalı və Qarabağlı, – titulu belə də gedib, – imzalayıb. XIX əsrin bu tarixi hadisələrindən sonra Qarabağa ermənilərin kütləvi köçü başlamışdır. Bu da heç kimə sirr deyil və artıq dünya ictimaiyyəti, ekspertlər bunu bilir, yaxşı olar ki, geniş ictimaiyyət də bunu bilsin. Azərbaycan xalqına qarşı edilən haqsızlıqlar haqqında biz beynəlxalq ictimaiyyəti mütləq məlumatlandırmalıyıq. XIX əsrdə, XX əsrin əvvəllərində ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi. 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Zəngəzurun Azərbaycandan qoparılıb Ermənistana verilməsi, bu da tarixi faktdır. Ondan iki il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin İrəvanı Ermənistana bağışlaması, bu da sənədlərlə təsdiq olunan faktdır. 1921-ci ildə sovet hakimiyyəti tərəfindən bizə qarşı növbəti təxribat hazırlanırdı. Zəngəzur 1920-ci ilin noyabrında bizdən qoparıldı, bir il sonra

Qafqaz Bürosu Qarabağı da bizdən qoparmaq istəyirdi. Ancaq alınmadı və qərar qəbul olundu ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Amma buna baxmayaraq, ilyarım keçəndən sonra – 1923-cü il iyulun 7-də Azərbaycan ərazisində tamamilə əsassız, süni bir qurum yaradıldı – Dağlıq Qarabağ Muxtar Vilayəti. Bunun yaradılmasının heç bir əsası yox idi. O vaxt indiki Ermənistanda yaşayan azərbaycanlıların sayı Qarabağda yaşayan ermənilərlə müqayisədə bəlkə də iki dəfə çox idi. Ancaq nədənsə, bu muxtar vilayəti orada yox, burada yaradıblar. Bunu yaradıblar və eyni zamanda, qədim Azərbaycan şəhərini – Şuşanı da onun tərkibinə salıblar, bir məqsədlə ki, Şuşa erməniləşsin. Çünki Şuşa tək bir qala kimi qalmışdı və yaxşı bilirsiniz ki, Şuşaya bütün yollar ermənilərin məskunlaşdığı yerlərdən keçirdi, ərazilərdən keçirdi. Yəni, Şuşaya gəlmək üçün mütləq ermənilərin yaşadıqları kəndlərdən keçmək lazım idi. İndi biz Zəfər yolunu çəkmişik. Zəfər yolunu bizim əsgər, zabitlər ayaqla açdılar, o dağın, dərənin, meşənin içi ilə. Yəni, bu da təxribat idi. Yəni, Şuşanı bizdən qoparmaq üçün, erməniləşdirmək üçün Şuşanı da saldılar bu süni qurumun tərkibinə. Amma alınmadı, nə qədər çalışsalar da, alınmadı. Şuşa öz milli ruhunu o vaxt həmişə qoruyurdu və işğal dövründə ermənilər Şuşanı erməniləşdirə bilmədilər. Ondan sonra 1940-1950-ci illərdə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası, – bu da xalqımız üçün böyük faciə və böyük ədalətsizlik idi. Azərbaycanlılar öz tarixi torpaqlarından Azərbaycanın Mil-Muğan zonasına zorla köçürülmüşdür. O Azərbaycana qarşı bu edildi ki, İkinci Dünya müharibəsində 300 min Azərbaycan övladı müharibəyə getdi, qayıtmadı. O Azərbaycan ki, İkinci Dünya müharibəsində Sovet Ordusunun yanacağının 90 faizini verirdi. Əgər Azərbaycan olmasaydı, Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı müharibədə qələbə qazana bilməzdi və 3-4 il bundan sonra xalqımıza qarşı bu ədalətsizlik hansı mənəviyyata sığır? Bu, tarixdir. Bu tarixi biz bilməliyik. Bu tarixi bilmədən 1980-1990-cı illərin tarixi yarımçıq qalacaq. Ondan sonra 1980-ci illərin sonlarında başlamış searatizm meyilləri faktiki olaraq Qarabağın böyük hissəsini Azərbaycandan qopardı. Hələ Sovet İttifaqı dövründə bunu etdilər. Xüsusi idarəetmə komitəsi yaradıldı və Moskvadan bir ermənipərəst adam təyin

olundu. Ondan sonrakı tarix də bəllidir. Bax, bizim xalqımız iki əsr ərzində bütün bu iztirablardan keçib və nəhayət öz sözünü deyib. Nəhayət “dəmir yumruq”la düşmənin başını əzib, tarixi ədaləti və milli ləyaqəti bərpa edibdir. Ona görə, çox vacibdir ki, bu tarixi məqamlar daim diaspor təşkilatlarının gündəliyində olsun. Əlbəttə, mən çox şadam ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız Azərbaycan ilə daim təmasdadırlar, Dövlət Komitəsi ilə təmasdadırlar və müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları arasında koordinasiya da təkmilləşir. Bu da çox vacibdir. Əlbəttə, biz hamımız – Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar. Heç olmasa, ildə bir dəfə hər bir azərbaycanlı öz ailəsi ilə Azərbaycana gəlsə, çox yaxşı olar – xüsusilə azad edilmiş torpaqlara getmək üçün. İndi bu gün biz qurultayı Şuşada keçiririk. Ancaq azad edilmiş ərazilər 10 min kvadratkilometrdən çoxdur və indi marşrutlar da açılır, aeroportlar da tikilir. Ona görə gəliş-gediş çox rahat olacaq. Əlbət tə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu, o qədər də asan məsələ deyil. Burada onlar, ilk növbədə, Azərbaycan dilini bilməlidirlər. Burada, əlbəttə ki, təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq mümkündür, ancaq kifayət deyil. Ona görə Azərbaycan məktəblərinin, bazar günü məktəblərinin açılması istiqamətində də biz hər zaman kömək göstərməyə hazırıq. Əslində, bunu edirik. Bəlkə də bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır. Çünki Ana dili əsas amildir. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir. Bizim xaricdə yaşayan gənc azərbaycanlılarımız həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Yəni, bir sözlə, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir. Onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir. Onların fəallığı və Azərbaycan həqiqətlərinin çatdırılması, Azərbaycan maraqlarının müdafiə edilməsi, əlbəttə ki, bizim dövlətimizi daha da gücləndirir. Biz Azərbaycan dövləti olaraq öz fəaliyyətimizdə həmişə xaricdə yaşayan azərbaycanlıların yaşayışı ilə maraqlanırıq, təmaslar qururuq. Dövlətlərarası münasibətlər müstəvisində bu, önəmli bir amildir. Mən də öz həmkarlarımla, harada ki, azərbaycanlılar yaşayır, o ölkələrin

rəhbərləri ilə daim bu məsələyə diqqət yetirirəm, Şuşada keçirilən qurultayın çox böyük tarixi mənası var. Bu gün Azərbaycan yeni dövrə qədəm qoyub. Biz otuz il torpaqları işğal edilmiş ölkə kimi yaşamışıq. Bu, bizim üçün çox ağır idi. Mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün – xaricdə yaşayan azərbaycanlılar üçün. Biz bilirdik ki, bu məğlubiyyətin heç bir real əsası olmamışdır. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr – hakimiyyət uğrunda gedən müharibə, milli xəyanət, satqınlıq və digər bəd əməllər, bax, bu vəziyyəti yaratmışdır. Biz bilirdik ki, bu Qələbəyə layiqik. Bir daha demək istəyirəm, – çıxışımın əvvəlində mən bunu dedim, – mənim üçün Prezident kimi başlıca vəzifəm ölkəmizi gücləndirmək və ərazi bütövlüyümüzü bərpa etmək idi. Sizin üçün də çox çətin idi. Çünki sizin yaşadığınız ölkələrdə erməni diaspor təşkilatları var. Siz ermənilərlə istər-istəməz hansısa ünsiyyətdə olursunuz, görüşürsünüz, ya da ki, haradasa tədbirlərdə bir yerdə olursunuz. Mən başa düşürəm ki, bu dövr sizin üçün çox ağır idi. Ancaq bu gün vəziyyət tam başqadır. Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmşıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz. Yaşasın Şuşa! Yaşasın Qarabağ! Hamımız birlikdə: Qarabağ Azərbaycandır! Sağ olun.

*22 aprel 2022-ci il.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ 80 İLLİK YUBİLEY YIĞINCAĞINDA ÇIXIŞINDAN

On il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda, Azərbaycan dili haqqında danışmışdım, öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram. Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik – müstəqil Azərbaycan dövləti. Mən azərbaycanlıların yaşadıqları müxtəlif bölgələrdə vəziyyətlə müntəzəm surətdə olaraq tanış oluram, diqqətdə saxlayıram, lazımi tədbirlər görürəm. Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir.

Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Yenə də deyirəm, 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu, məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya

bilək. Amma yenə də oradan-buradan eşidirəm, – həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, – buna heç bir gərək yoxdur. Yəni, biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax, bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm.

*03 noyabr 2025-ci il.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YERLİ TELEVİZİYA KANALLARINA MÜSAHİBƏSİNDƏN

Bilirsiniz, ilk növbədə, dil insanları birləşdirir, əhalini birləşdirir. Dil dövlətçiliyin əsas atributlarından biridir, bəlkə də birincisidir, təbii ki, bayraqla, gerblə, himnlə birlikdə. Xalqımızın taleyini hamımız yaxşı bilirik, ağır taledir. Əsrlər boyu müstəqillik eşqi ilə yaşamış xalqıq, əsrlər boyu müstəmləkəçilik şəraitində yaşamış xalqıq. Bunun adları fərqli ola bilər, amma mahiyyət etibarilə bu, müstəmləkəçilikdir. İstər qədim dövrlərdə, istər Rusiya imperiyası dövründə, fars imperiyası dövründə, Sovet İttifaqı dövründə bu, müstəmləkəçilikdən başqa bir şey deyildi. Müstəqillik tariximiz də zəngin olub. Dövlətçilik əsasları olub. Fəxr edirik o dövlətlərlə. Amma başqa imperiyaların, ölkələrin tərkibində yaşadığımız üçün istəristəməz xalqımızın psixologiyasına da müəyyən təsir buraxıb. Bu psixologiyanın fəsadları bu gün də var. Azalır, amma var. Nə qədər az olsa, o qədər də yaxşıdır. Yəqin ki, nəsillərin dəyişməsi ilə, başqa amillərlə bağlıdır. Ancaq dil o amildir ki, milləti millət edir. Biz bütün dövrlər ərzində dilimizi qorumuşuq və bu gün danışdığımız Azərbaycan dili bizim ulu babalarımızın danışdığı Azərbaycan dilindən fərqlənmir. Bu, böyük nailiyyətdir. Mən hesab edirəm ki, xalqımızın böyüklüyüdür ki, biz başqa dillərin təsirinə düşməmişik. Düzdür, sovet vaxtında bizim leksikonumuza bəzi kəlmələr daxil olmuşdur.

Mən beynəlxalq leksikondan gələn kəlmələri nəzərdə tutmuram. Amma prinsip etibarilə müstəqillik dövründə biz özümüzü onlardan təmizləyə bildik.

İkincisi, biz böyük xalqıq, 10 milyondan çoxu ancaq müstəqil Azərbaycanda yaşayır, amma dünyada 50 milyondan çox azərbaycanlı yaşayır. Yəni bizim dilimiz böyük xalqın dilidir, bunu heç vaxt unutmamalıyıq və bizim dilimiz heç bir dilin kölgəsində ola bilməz. Bizim dilimiz zəngindir, sən istənilən ifadəni deyə bilərsən, istənilən şeiri yaza bilərsən. Çox zəngin, çox melodik və gözəldir, təkcə ona görə yox ki, bu, bizim dilimizdir. Mən bir çox həmkarlarımdan, bir çox insanlardan eşitmişəm ki, doğrudan da çox zəngin və gözəl dildir. Mən düşünürəm və əminəm ki, Azərbaycan xalqı bu fikirləri tamamilə bölüşür. Əgər biz müstəmləkəçilik illərində dilimizi qoruya bilmişiksə və bizim əcdadlarımız onu bizə əmanət veriblərsə, necə ola bilər ki, biz bu gün bu dilimizi qorumayaq? Bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr – onlar dilimizi zənginləşdirmir və o kəlmələri istifadə edənləri daha ağıllı etmir. Çox dil bilmək yaxşıdır, mən də onun tərəfdarıyam. Amma sən xarici dillərdə lazım olan vaxtda danış, biz öz dilimizi qorumalıyıq. Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır. Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm. Nə üçün mübarizə? Çünki bugünkü dünyada sən qapalı məkanda yaşaya bilməzsən. Sən dəmir pərdə ilə özünü bağlaya bilməzsən – istər-istəməz təmaslar, ondan sonra internet resursları, sosial şəbəkələr və sair. İstər-istəməz xarici kəlmələr daxil olur və sonra orada həzm olunur və ondan sonra istifadə edilir. Mən bunun əleyhinəyəm.

Mən heç bir dilin əleyhinə deyiləm, hər bir dilə də hörmət edirəm və mən daha çox dil bilsəydim, ancaq xoşbəxt olardım. Ancaq biz Azərbaycan dilimizi qorumalıyıq və Azərbaycan dilinin qo-

ruyucusu Azərbaycan dövlətidir. Dünyada 50 milyon azərbaycanlı yaşayır, amma əzəli, əbədi, ədəbi dili qoruyan bizik və çox istəyirəm ki, xaricdə yaşayan azərbaycanlılar da Azərbaycan dilini mükəmməl bilsinlər. Məişət səviyyəsində yox, mükəmməl bilsinlər. Buna böyük ehtiyac var. Azərbaycanlıların yaşadıqları bəzi ölkələrdə Azərbaycan məktəbləri yoxdur. Bu, böyük ədalətsizlikdir və bu ədalətsizliyə son qoyulmalıdır. Biz imkan daxilində təsir etməyə çalışırıq, amma imkanlarımız da çox geniş deyil. Bunun üçün də mənim göstərişimlə artıq onlayn məktəblər açılır və onların sayı da çoxalmalıdır, əhatə dairəsi çoxalmalıdır. Azərbaycanlıların yaşadıqları bütün yerlərdə onlayn Azərbaycan dili məktəbləri olmalıdır ki, bizim uşaqlarımız öz ana dillərini bilsinlər. Çünki üçüncü-dördüncü nəsil azərbaycanlıların uşaqlarının artıq bəziləri ana dilini bilmirlər. Burada bir çox amillər birləşir. Əsas amillər əvvəl dediyim məsələdir və böyük xalq olduğumuz üçün mən çox istəyirəm ki, bütün azərbaycanlılar Azərbaycan dilində, bax, bizim kimi danışsınlar. Bu, mənim arzumdur. Bu, əlbəttə ki, çətindir, çünki xaricdə yaşayan azərbaycanlıların, təbii ki, hər birinin imkanı yoxdur. Amma arzum budur və burada jurnalistlərdən çox şey asılıdır. Çünki, necə deyərlər, efir məkanında ən çox danışan jurnalistlərdir və onlardan da xahiş edirəm, xarici kəlmələrdən istifadə etməsinlər. Mən hərdənbir eşidirəm televiziya verilişlərində, sizə aid deyil. Təbii ki, bizim ziyalılarımız, şairlərimiz, yazıçılarımız onların da sözünə böyük ehtiyac var, onlar da biganə qalmasınlar bu işə. Mən akademiyadakı çıxışımda bu məsələyə qısaca toxundum. Bu gün çərçivələri daha da açıram. Bu, ayrıca bir müsahibənin mövzusu ola bilər, çünki doğrudan da çox geniş mövzudur və sadəcə olaraq, biz hamımız vətəndaşları çağırmalıyıq ki, diqqətli olsunlar. Bu, sadəcə olaraq, belə demədim, elə dedim, deyil. Bunun çox dərin, necə deyərlər, layları var və dilimizi nə qədər çox qorusaq, nə qədər saf, təmiz saxlasaq, o qədər də millətimiz, necə deyərlər, saf olacaq və milli kimliyimiz həmişə bərqərar olacaq.

*05 yanvar 2026-cı il.*

*MÜNDƏRİCAT*

*ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DİLİ HAQQINDA..........................................................................4*

*Nizami CƏFƏROV. HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİ (Ön söz əvəzi).......................................................................10*

*DİLİMİZ VARLIĞIMIZDIR...........................................................27*

*ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN DİLİ İLƏ BAĞLI NİTQ VƏ ÇIXIŞLARI, SƏRƏNCAM VƏ QƏRARLARI………………………....................117*

*AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AZƏRBAYCAN DİLİ İLƏ BAĞLI SƏRƏNCAM VƏ QƏRARLARI, NİTQ VƏ ÇIXIŞLARI............... ..................................................215*

“Elm və təhsil” NPM-nin direktoru:
**Ulya Məmmədli**

Korrektor: **Leyla Hacıyeva**

Dizayner: **Zahid Məmmədov**
Texniki redaktor: **Rövşanə Nizamiqızı**

Çapa imzalanmış: 2026
Şərti çap vərəqi 13. Sifariş №399
Kağız formatı 60x84 1/16. Tiraj: 250

Kitab “Elm və təhsil”
nəşriyyat-poliqrafiya müəssisəsində
nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4